

# AZƏRBAYCANIN MEHRİBAN SİMASI

Vaqif Abdullayev

# AZƏRBAYCANIN MEHRİBAN SİMASI

Təhsil

Bakı – 2019



*“Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən”.*

**Mehriban Əliyeva**

# BİOQRAFİYA

- Əliyeva Mehriban Arif qızı 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olub.
- 1982-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.
- 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib.
- 1988-1992-ci illərdə Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.
- 1995-ci ildə onun təşəbbüsü ilə Azərbaycan Mədəniyyət Fondu təsis olunub.
- 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib.
- 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirib. Mehriban xanımın beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il dünya çempionatının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.
- 2004-cü ilin may ayının 10-dan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, həmçinin Ulu Öndərin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədilə yaradılan Heydər Əliyev Fonduna rəhbərlik edir.
- 2004-cü il avqustun 13-də UNESCO-nun xoşməramlı səfiri seçilib.
- 2004-cü il dekabrın 28-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib.
- 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.
- 2005-ci ildə "Evtanaziya və təbabətdə humanizm problemi" mövzusunda dissertasiya işi müdafiə edib və fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb.
- 2005-ci il noyabrın 6-da Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Əzizbəyov ikinci seçki dairəsindən deputat seçilib.
- 2006-cı il noyabrın 23-də ISESCO-nun xoşməramlı səfiri seçilib.
- 2010-cu il noyabrın 7-də Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Xəzər ikinci seçki dairəsindən deputat seçilib.
- 2013-cü il yanvarın 17-də Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədilə yaradılmış Təşkilat Komitəsinin sədri təyin olunub.
- 2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyası sədrinin müavini vəzifəsinə seçilib.
- 2015-ci il oktyabrın 15-də IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ilin may ayında Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin sədri təyin olunub.
- 2015-ci il noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Xəzər seçki dairəsindən deputat seçilib.
- Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.
- Ailəlidir, iki qızı, bir oğlu, beş nəvəsi var.

Elmi redaktoru

***Nizami Cəfərov,*** *akademik.*

**Abdullayev V.**
**A14 AZƏRBAYCANIN MEHRİBAN SİMASI.**
Bakı, "Təhsil", 2019, 416 səh.

*Siyasi elmlər doktoru, professor Vaqif Abdullayevin oxuculara təqdim etdiyi növbəti kitabında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP sədrinin müavini, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çoxşaxəli və zəngin elmi-mədəni, humanitar, ictimai-siyasi fəaliyyəti sosioloji və politoloji rakursdan təhlil olunur. Kitabda Mehriban Əliyevanın görkəmli qadın lider kimi praqmatik liderlik keyfiyyətlərinə geniş şəkildə nəzər salınır, qısa zaman ərzində Azərbaycanın əldə etdiyi uğurlara verdiyi dərin töhfə siyasi formada təhlil edilir.*

*Geniş elmi-siyasi erudisiyaya malik olan Vaqif Abdullayev Azərbaycanın müasir siyasi ədəbiyyatında tanınmış müəlliflərdən biri kimi indiyədək yazdığı maraqlı kitabları ilə oxuculara yaxşı tanışdır. Onun bu kitabdan əvvəl nəşr edilmiş "Millət ideyası: siyasi aspekt" (1998), Prezident İlham Əliyev haqqında yazdığı "O, böyük siyasətə hazırdır" (1999) kitabları ingilis, latış, Ukrayna və gürcü dillərinə tərcümə olunmuş, "Azərbaycan yeni diplomatiya məkanında" (2000), "Müstəqilliyimizin strategiyası" (2003), "Sülh və sabitlik Prezidenti" (2005), "Planetar təfəkkürlü lider" (2007), "Heydər Əliyev – milli-siyasi elitamızın zirvəsi" (2019) kimi əsərlərində Azərbaycanın milli inkişafının təminatçısı olan Ulu Öndərin və onun layiqli siyasi varisi Prezident İlham Əliyevin geniş quruculuq salnaməsinə siyasi analitik aspektdən dərin nəzər salınır.*

*Vaqif Abdullayev "Azərbaycanın Mehriban siması" kitabında ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyasına öz dərin töhfəsini verən ölkəmizin Birinci xanımı Mehriban Əliyevanın ictimai, sosial və siyasi həyatımızda oynadığı mühüm rolu işıqlandırır, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti seçilməsindən sonra ölkəmizin gələcəyə doğru inamla irəliləməsi, dünyada aparıcı dövlətlərdən birinə çevrilməsi sahəsində onun gördüyü misilsiz işləri və digər maraqlı məqamları elmi-analitik təhlil edir.*

**A $\frac{4502020000}{053}$ 2019**

**© Vaqif Abdullayev, 2019**

Vaqif Abdullayev

# AZƏRBAYCANIN MEHRİBAN SİMASI

# KİTABIN İÇİNDƏKİLƏR


Giriş ....................................................................7

## I FƏSİL
### SİYASƏT VƏ QADIN

Azərbaycanda qadın hərəkatının inkişaf mərhələləri ................................................11

Heydər Əliyev və qadın siyasəti.......................23

Mehriban Əliyeva Azərbaycan qadınını müasir obrazıdır......................................................31

## II FƏSİL
### MƏDƏNİYYƏT DİPLOMATİYASI: İCTİMAİ MİSSİYANIN UĞUR SALNAMƏSİ

Mehriban Əliyeva ilə başlayan mədəni intibahımızın yeni səhifəsi................................53

Azərbaycan Mədəniyyətinin Dostları Fondu – dünya mədəniyyət hərəkatında yeni dalğa ..................................................................58

Azərbaycan möcüzəsi: muğam Şərqi və Qərbi birləşdirən milli sərvətimizdir ............67

Azərbaycanın Avropanı fəth edən mədəniyyət xəzinəsi ............................................89

## III FƏSİL
### SÜLH CARÇISI: MİLLİ VƏ BƏŞƏRİ İDEALLARIN HAMİSİ

Xoşməramlı səfir – məram və xoş niyyətin parlaq simvolu....................................101

Xeyirxahlığın və mərhəmətin Azərbaycan nümunəsi..................................... 122

Mehriban Əliyeva nəciblik və xeyriyyəçilik institutunun yaradıcısıdır ....130

## IV FƏSİL
### HEYDƏR ƏLİYEV FONDU AZƏRBAYCANIN ZƏNGİN MİLLİ-MADDİ SƏRVƏTİDİR

Hamının ümid və inam ünvanı ......................151

Uşaqların Mehriban dünyası ..........................164

Heydər Əliyev Fondu dünya sivilizasiyasının şah əsəridir ..........................195

Milli ideologiyanın və azərbaycançılıq fəlsəfəsinin təbliğatçısı ......................................200

Qadınların himayədarı, idmanımızın şöhrət tacı.........................................................................206

“Tolerantlıq Azərbaycanın həyat tərzidir”.....................................................225

## V FƏSİL
### MEHRİBAN ƏLİYEVANIN İCTİMAİ-SİYASİ PORTRETİNİN ƏSAS CİZGİLƏRİ

Mehriban Əliyeva ilə milli diplomatiyamızda başlayan yeni dalğa......247

Millətin vəkili: ləyaqətli və layiqli xidmətin Azərbaycan nümunəsi ..................329

Birinci vitse-prezident: siyasətdə qadın ledi ...............................................................340

Nəticə əvəzi ........................................................412

İstifadə olunmuş ədəbiyyat ............................414

# GİRİŞ

Müasir siyasət dünyasının görkəmli qadın liderləri sırasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva siyasətdə artıq öz layiqli yerini tutmuşdur. Mehriban xanım Əliyevanın şəxsiyyətini dərk etmək üçün qadınlıq ləyaqətinin mücəssəməsi olan bu insanın inkişaf genezisini dərk etmək vacibdir. Hər şeydən əvvəl, mühüm faktor budur ki, Vətənimizin ictimai-siyasi həyatında bu fenomenin öz sözü ilə siyasətə gəlməsi xalqın siyasi taleyi üçün bir uğurdur.

Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti tarixinin nümunələrini planetin ən ucqar guşələrinə belə çatdıra bilmişdir. Onun elm, təhsil, mədəniyyət və idman sahələrinin inkişafına yönəlmiş fəaliyyəti, ölkədəki quruculuq proseslərində yaxından iştirakı ciddi elmi əsaslara söykənir. Mehriban xanım ölkə daxilində və xaricdə keçirdiyi görüşlərdə dərin biliyə, geniş erudisiyaya malik olduğunu hər dəfə yüksək səviyyədə nümayiş etdirir. Azərbaycan qadınları üçün bu, gözəl bir nümunədir. Bütün bunlar Mehriban xanım Əliyevanın yüksək siyasi potensiala malik olduğunu təsdiqləməklə yanaşı, Azərbaycan qadınının modern tələblərə uyğun obrazını dünyaya nümayiş etdirir. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikamızda bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Azərbaycan dövlətinin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayrı-seçkiliyi aradan qaldıraraq, qadınların bərabər hüquqlarını və imkanlarını təmin etməyə yönəlmişdir. Bu siyasət daimi və dönməz səciyyə daşımaqla, bütövlükdə qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa imkan verəcək. Məhz bunun nəticəsidir ki, Azərbaycanda formalaşan qadın hərəkatı ölkəmizin inkişafına böyük töhfələr verir.

Başqalarını halından anlamaq, özünü digərlərinin yerinə qoya bilmək, onların problemlərini duyub hiss etmək nəciblikdir. İstənilən insanda bu keyfiyyət Tanrının gözəl bir lütfü sayıla bilər. Qayğı, mərhəmət, həssaslıq ondan başlanır. Dövlət xadimində isə bu keyfiyyətlər insanların ona olan sevgisinin əsas qaynağıdır. Əgər belə bir keyfiyyət yoxdursa, o sevgi də olmayacaq.

Mehriban xanım Prezidentimizin gördüyü işlərə davamlı dəstəyi ilə, həya-

ta keçirilən siyasətə töhfələri ilə bu inamı daha da qüvvətləndirir, xalq-dövlət münasibətlərinə pozitiv ruh gətirir.

Onun səmimiyyəti, sadə insanlarla arada bürokratik sədlər qoymaması, stereotiplərdən uzaqlığı hər zaman böyük rəğbət doğurur. O, düşüncələrini bölüşərkən belə deyib: "Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər, həqiqətən, baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görür, hər şeyi anlayırlar".

Mehriban Əliyevanın bugünkü ictimai fəaliyyəti Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi ümummilli siyasətin ayrılmaz hissəsidir. Milli missiyanın beynəlxalq siyasi əhəmiyyəti də məhz bundadır.

Üç övlad tərbiyə edib böyüdən bir ananın belə enerji və əzmkarlıqla doğma işinə can yandırması hər bir azərbaycanlı qadın üçün bənzərsiz nümunədir. Onun dərin analitik intellektə söykənən hər bir addımı Azərbaycan cəmiyyətinin sosial reallığını pozitiv surətdə dəyişdirir.

Öz siyasi qabiliyyətinə inam; insanlara fayda gətirmək istəyi, tanımağa can atmaq arzusu, bir şəxsiyyət kimi özünü reallaşdırmaq, karyera qurmaq, əhalinin müəyyən qruplarının maraqlarını müdafiə etmək, insanlara məhəbbət hissi ilə yanaşmaq, ictimai sahəyə maraq göstərmək; öz şəxsiyyətinin əhəmiyyətli olmasına diqqət cəlb etmək, tərəfdaşlar, dostlar qazanmaq, əlaqələr yaratmaq və digər ülvi və nəcib keyfiyyətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya da xasdır.

Mehriban xanım Əliyevanın adı müasir dünyanın lider qadınları sırasında çəkilir. Bu gün demək mümkündür ki, Azərbaycanın siyasi reallıqlarında Mehriban xanım Əliyeva xalqın iradəsinə cavab verən lider, dünyada diplomatiya aləmində artıq iz qoymuş dövlət xadimidir. Beynəlxalq təşkilatlar Mehriban Əliyevanın çoxsahəli və miqyaslı fəaliyyəti ilə müstəqil dövlətin və xalqın rifahının yaxşılaşdırılması işinə verdiyi töhfəni layiqincə qiymətləndirirlər. Bütün bunlar dünya ictimaiyyətinin gözü önündə baş verir.

Birinci xanımın nəcib əməlləri dərin fəlsəfi məna kəsb edir: Azərbaycanın dünyada kompleksli humanitar "brend" kimi daha da irəli getməsi və ölkəmizin sistemli sosiomədəni inkişafının sintez şəklində həyata keçirilməsi. Bu iki sosiomədəni prosesin dialektik vəhdətdə uğurla davam etməsi dünya ictimaiyyətində Mehriban xanım Əliyevanın siyasi nüfuzunu daha da artırmışdır. Sevindirici haldır ki, ölçülüb-biçilmiş fəaliyyətində o, faydalı işlərini bir məmur kimi deyil, mütərəqqi ideyalara söykənən, öz əqidəsini xalqa xidmət kimi nəcib bir işə həvəslə kökləyən vətənpərvər insan olaraq həyata keçirir.

# I FƏSİL

## *Siyasət və qadın*






Mehriban Əliyeva

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri*

*"Qadın dünyanın ən gözəl və ən qiymətli varlığıdır"*

**Konfutsi**

## AZƏRBAYCANDA QADIN HƏRƏKATININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutmuşdur. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşması və inkişafında qadınlarımızın rolu çox böyükdür. Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini vermişdir. Onların adı çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Müqəddəs kitabımız "Qurani-Kərim"-də qadınlara böyük dəyər verilmiş, onların həyatda yeri və rolu, hüquqlarına dair qiymətli fikirlər təlqin edilmişdir. Qadınlar övlad, ana, həyat yoldaşı kimi dəyərləndirilərək, onlara kişilərə verilməyən bir çox hüquq və üstünlüklərin verildiyi burada öz əksini tapmışdır. Əsl İslam əxlaqı hökm sürən cəmiyyətdə qadınlara yüksək hörmət və etimad daim üstün tutulmuşdur. Allah qadını o qədər şərəfli bilib ki, onun adına surə də vəhy etmişdir. "Qurani-Kərim"də "Kişilər" adlı surə olmadığı halda, "Nisa", yəni "Qadınlar" adında surə vardır. Müqəddəs kitabımızın "Bəqərə" surəsinin 228-ci ayəsində buyurulur: "Kişilərin qadınlar üzərində hüquqları olduğu kimi, qadınların da onlar üzərində hüquqları vardır".

Azərbaycan tarixinin şah salnaməsi olan "Kitabi-Dədə Qorqud"da milli iftixarımız olan qadın obrazının tərənnümü bu gün də öz məziyyətləri ilə bəşəri idealların təntənəsinə xidmət edir. Tarixən Azərbaycan qadınının mərdliyi, cəsurluğu və igidliyi dünyaya səs salmışdır, ər qeyrətli qadınlarımız öz şan-şöhrəti ilə məşhur ad çıxarmışlar. Azərbaycanın gerçək ictimai həyatı böyük mütəfəkkirlərimiz olan şair və sənət xadimlərinin qadına olan yüksək münasibətini ifadə etmək, qadınlarımızı tükənməz həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material vermişdir. Dahi Nizami öz əsərlərində Məhinbanu və Nüşabə kimi qadın hökmdar, əfsanəvi Fitnə və yeddi gözəl obrazlarını yaratmışdır. Görkəmli memar Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə xatun türbəsi

əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, xalqımızın qadına göstərdiyi ehtiramın parlaq təcəssümüdür.

Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır. Yaşadığı tarixi dövrdən, onun sosial-iqtisadi vəziyyətindən, coğrafi məkanından, irqindən, dilindən, dinindən asılı olmayaraq, qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində özünəməxsus aparıcı qüvvə olmuşdur. İradə və mərdliyi, saflığı və sədaqəti, zəka və müdrikliyi ilə seçilən Azərbaycan qadını tarix boyu cəmiyyətimizin milli-mənəvi dəyərlər sisteminin formalaşıb inkişaf etməsində, eləcə də ümumi tərəqqisində müstəsna rol oynayıb və oynamaqdadır.

Azərbaycan dövlətçilik tarixinin digər mərhələlərində, dövlətin və dövlətçiliyin inkişafında, ictimai-siyasi mühitin formalaşmasında qadınların xüsusi yeri olmuşdur. Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin inkişafında, xalqımızın milli dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Milli dövlətçilik anlayışının keşiyində duran qadınlarımız dövlətə, dövlətçiliyə, milli məfkurəyə bağlı olmuş, mücadilələr vermişdir. Qəhrəmanlıq və cəsurluq simvolu olan Tomris, orta əsrlər tariximizdən Qızıl Arslanın xanımı Qətibə xanım, qadının həyat yoldaşı seçimində azadlıq hüququnu tərənnüm etmiş Məhsəti Gəncəvi, qəhrəman qadın hökmdarlar Nüşabə, Qoca Şərqin ilk diplomat qadını Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradıcısı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Şuşada ilk ədəbiyyat məclisi yaratmış Xurşudbanu Natəvan, eləcə də Nigar, Həcər kimi qadınlar həm də mərdlik, şücaət, qəhrəmanlıq mücəssəməsi kimi qəbul edilmiş, döyüş meydanlarında həyat yoldaşlarının silahdaşı, arxa-dayağı olmuşlar. Təfəkkürümüzə qürur və fəxr ünvanı kimi hopan mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradıcısı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Sara xatun, Dəspinə xatun və Məhinbanu Sultanım xanım öz igidliyi, uzaqgörənliyi, ictimai-siyasi və çevik diplomatik fəaliyyətləri ilə tariximizə şanlı səhifələr yazmışlar. Azərbaycan qadını haqqında digər gerçək tarixi-ictimai faktor bu rəngarəng palitranı daha da əlvanlaşdırmışdır.

Ölkəmizin yaxın tarixi keçmişi onu təsdiq edir ki, bir çox taleyüklü məqamlarda qadınlar humanizm və insanpərvərlik nümunəsinə çevrilmiş, sülh, barış missiyalarını öz üzərilərinə götürmüş, həmrəyliyə və tərəqqiyə xidmət edən təşəbbüskar simalar olmuşlar. Azərbaycan xalqı bütün zamanlarda özünün yüksək intellektli qadınları ilə də tanınıb və fəxr edib. Müxtəlif zamanların ictimai-siyasi proseslərində qadınlarımız fədakarlıq, mətinlik rəmzi kimi öz adlarını salnamələrə, tarixin qəhrəmanlıq səhifələrinə yazdıra bilmişlər.

Azərbaycan qadını tarixin bütün dövrlərində öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışlar. Azərbaycanın siyasi-ictimai, elmi, ədəbi-bədii, humanitar və digər sahələrində öz sözünü demiş qadınlar qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmiş, onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir. Qadın emansipasiyası, qısa müddətdə qadınlar arasında savadsızlığın ləğvi, qadınların müəllim, həkim, mühəndis və sair peşələrə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarıqlarını gerçəkləşdirə bilməsi həmin dövrün başlıca nailiyyətləridir.

Milli-mənəvi dəyərlərə tapınan Azərbaycan qadını daim yüksək mənəvi idealların, nəcib, xeyirxah təşəbbüslərin tərəfdarı kimi çıxış etmiş, bütün dünyada sülhün, əmin-amanlığın, sabitliyin bərqərar olmasına çalışmışdır.

Yüzilliklər keçsə də, istedadlı və ağıllı, əzəmətli və cəsarətli qadınlarımız bu gün gənc nəslə bir örnəkdir. Müasir nəslin nümayəndələrinin onlardan əxz edə biləcəyi saysız-hesabsız nadir keyfiyyətlər bu gün də öz aktuallığını qoruyur. Tarixi təcrübə göstərir ki, bir çox taleyüklü məqamlarda məhz qadınlar daxildən gələn tələbatla, humanizm və insanpərvərliklə sülh, barış missiyalarını üzərilərinə götürmüş, həmrəyliyə və tərəqqiyə xidmət edən böyük təşəbbüslərin müəllifinə çevrilmişlər. Qadınların parlaq zəkası, müdrikliyi, təmkinli düşüncəsi hətta bəzi hallarda insan tələfatı ilə nəticələnə biləcək böyük münaqişələrin, toqquşmaların qarşısını almışdır. Bu gün də dünyanın hər yerində qadınların bərabərlik, sülh və sabitlik uğrunda hərəkatı genişlənmişdir. Daim inkişafda olan tərəqqipərvər Azərbaycan qadınları bu hərəkatlara fəal şəkildə qoşulmuş, millətimizin haqq səsini beynəlxalq tribunalardan səsləndirmişlər.

Qadınlar sübut etmişlər ki, “zərif məxluq” olsalar da, onlar kişilər üçün üstün sayılan problemlərin və çətinliklərin öhdəsindən daha inamla, cəsarətlə gəlmişlər. Bu gün “qadın və siyasət” probleminin dərk edilməsi məsələsində dünyanın siyasi proseslərində böyük dəyişikliklər baş verir. Dünya siyasi sisteminin qanunauyğunluqlarına əsasən, təsdiq olunmuşdur ki, qadınlar ictimai-siyasi mühitin ayrılmaz tərkib hissəsidir, ictmai və siyasi maraqlar onların birbaşa xarakterində mühüm yer tutur.

Azərbaycanda qadınların ictimai fəallığı XIX əsrin sonu – XX əsrin əvvəllərində də zənginliyi ilə tariximizə həkk olunmuşdur. Hər bir şəxsiyyəti, xüsusilə qadını elitar zirvəyə qaldıran amil, ilk növbədə, savad və maariflənmədir. Azərbaycanda tarixən cəmiyyətin inkişafı və tərəqqisində müstəsna rol oynayan qadın hərəkatını beş mərhələyə bölmək olar:

XIX əsr, Rusiyanın tərkibində olduğumuz vaxt, çarizm dövrü, Azərbaycan Xalq Cümhuriyyəti dövrü, sovet dövrü, postsovet dövrü və müstəqilliyimizin bərpasının təmin edildiyi dövr. Birinci mərhələdə: cəmiyyətdə qadın "görünmür", ictimai həyatda izi yoxdur. İkinci mərhələdə: qız məktəblərinin meydana gəlməsi ilə qadınların ictimai həyata qoşulması. Bu dövrə aydınlıq gətirmək üçün tarixi faktlara, həmin dövrün dünyagörüşünə aydınlıq gətirilməlidir. Qadınların ictimai həyatda fəal iştirakı neft sənayesinin inkişafından sonra onların tikiş sexlərində çalışmaları, xeyriyyə fəaliyyətində iştirak etmələri, qadın mətbuatında, qadın klublarında və siyasi qruplarda fəaliyyətləri ilə mümkün olmuşdur. Bütün bu fəaliyyət formaları qadınların bilik və qabiliyyətlərinin artmasına və inkişafına, ixtisaslara yiyələnməklərinə, öz hüquqlarının və statuslarının dərk olunmasına kömək edirdi.

Dahi söz yadigarımız Hüseyn Cavidin "Qadınla yüksələcək bəşəriyyət" kəlamı azərbaycanlıların qadına olan ülvi niyyətinin bariz təzahürü olmaqla qadının cəmiyyətin tərəqqisinə verə biləcəyi töhfənin aydın və obrazlı təsviridir.

XIX əsrin sonu – XX əsrin əvvəlində müsəlman islahatçı hərəkatlarında, o cümlədən həmin dövrdə geniş yayılmış millətçi və sosial-demokratik hərəkatlarda – həm kişilərin, həm də qadınların iştirak etdiyi təşkilatlarda aparıcı şüarlardan biri qadın azadlığını tələb edən şüarlar idi. O dövrdə ən aktual məsələ qadınların savadsızlığının ləğvi idi. Yaradılmış xeyriyyə cəmiyyətləri də hər kəsi qadını yardımsız qoymamağa çağırırdı.

1905-ci ildə Qafqaz canişini qraf Vorontsov Daşkov "Müsəlman Xeyriyyə Cəmiyyəti" təsis etmişdi. Cəmiyyətin fəxri sədri Bakı qubernatoru M.N.Nakaşidzenin arvadı Adelaida Nakaşidze idi. H.Z.Tağıyevin arvadı Sona xanım isə idarə heyətinin fəxri üzvü seçilmişdi. Cəmiyyətin Nizamnaməsində göstərilirdi ki, milliyyətindən, dinindən asılı olmayaraq cəmiyyətə hər iki cinsdən olan şəxs üzv seçilə bilər. Cəmiyyətin mərhəmətliyi sayəsində Tiflisdəki müsəlman yetimlər evində 70-dən artıq sahibsiz uşaq (31 oğlan, 40 qız) saxlanılırdı. Türkiyənin quberniyalarından (Qars, Ərzurum, Oltu) 6 yaşdan 14 yaşınadək 26 qız uşağı Bakıdakı yetimlər evinə gətirilmişdi.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyəti I Dünya müharibəsi dövründə Türkiyə mətbuatında da işıqlandırılırdı. "Ergenekonun yolu" adlı türk jurnalında "Qardaşlıq yardımı" məqaləsində deyilirdi ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti ilə rus hökuməti arasında keçirilən danışıqlardan sonra qadın həkimlər, müəllimlər, universitetlərin gənc müdavimləri, xalq nümayəndələri Azərbaycan Himayəçilər Cəmiyyəti adı ilə Antalyaya gəliblər. İmkanlı və zadəgan ailələrindən olan qadınlar gecə-gündüz Anadolu hərb-

çiləri üçün hərbi paltarlar və yataq ləvazimatı tikdirmişlər. Kənd qadınları corab toxuyur, apteklərdə dərmanlar hazırlayır, ətraf yerlərdən yorğan-döşək yığırmışlar. Bununla yanaşı, Bakıda H.Z.Tağıyev azərbaycanlıların "Aleksandrinski" kimi tanıdığı ilk müsəlman qız məktəbini tikdirdi. O, hələ 1896-cı ildə M.Şahtaxtinskiyə ünvanladığı məktubda yazırdı: "Müsəlman qadınının mövcud qapalı vəziyyətdən qurtulmasının yeganə yolu məktəbdir və bu məktəbi təşkil etmək lazımdır ki, müsəlmanlar ona ruh yüksəkliyi ilə yanaşsınlar və oxumaq üçün öz qızlarını ürəkdən göndərsinlər".

Belə bir məktəbin təşkil edilməsi maarifçilik idealına sadiq olmaqdan başqa, həm də böyük cəsarət tələb edirdi. Xurafatın təsirindən hələ də oyanmayan insanlar, xüsusilə dini mədrəsə tərəfdarı olan din xadimləri bu nəcib işi şəriətin əleyhinə atılan addım kimi qəbul edirdilər. Bu məktəb, müəyyən mənada, Azərbaycanda qadın maarifçilik hərəkatına güclü təkan vermiş oldu. Doğrudur, həmin dövrdə qadın azadlığı uğrunda mübarizə meyilləri artsa da, hələ ki, konkret "qadın cəmiyyəti" formalaşmamışdı. Cəsarətli qadınlarımızdan Ş.Əfəndiyeva, S.Axundzadə, X.Əlibəyova, Q.Cavanşir "Nicat", "Səfa", "Səadət" və s. cəmiyyətlərdə ictimai işlərdə fəal iştirak edirdilər. Əgər 1914-cü ildə məktəblərdə azərbaycanlı qızların sayı 1862 nəfər idisə, rus ibtidai qadın məktəblərində qız şagirdlərin sayı 16972 nəfər olmuşdu. 1915-ci ildə 11 qadın gimnaziyası, 2 pedaqoji gimnaziya fəaliyyət göstərirdi.

Bakıda və Bakı quberniyasında azərbaycanlı qadınlar böyük işlər görürdülər. Hənifə Məlikova, Rübabə Qasımova, Nabat Aşurbəyli və onlarca fəal qadın xeyriyyəçilik hərəkatının önündə gedirdilər. Həmin dövrdə qadın hərəkatı Şəkidə, Lənkəranda, Zaqatalada və Azərbaycanın digər bölgələrində yeni vüsət alırdı. 1905—1907-ci illər inqilabından sonra Azərbaycanda qadın hərəkatının yeni yüksəliş dövrü başlandı. "Molla Nəsrəddinçilər" qadın hüquqları və təhsili uğrunda mübarizə aparırdılar. İlk qadın jurnalı "İşıq"ın meydana gəlməsi qadın problemlərinin həlli baxımından səfərbəredici rol oynayırdı.

Azərbaycan tarixində maarifçi qadınlarımızın fəaliyyəti, onların xalqımızı ləyaqətlə təmsil etmələri millətimizin tarixində parlaq səhifələrdən biridir. Qadın hərəkatının nəcib ideyaları xalqımızın mərd qızlarının intellektual imkanlarını üzə çıxaran, müstəsna siyasi əhəmiyyət kəsb edən sosial hərəkatdır. Qadın əməyini və ləyaqətini qoruyan ədalətli cəmiyyət quruculuğu ideyası qadın hərəkatının genişlənməsinə güclü təkan vermişdir. 1914-cü ildə Bakının Sabunçu qəsəbəsində 300 nəfər qadının iştirak etdiyi nümayiş o dövrün siyasi həyatında böyük hadisə olmuşdur. 1917-ci ildə bolşevik təşkilatı "Hümmət"in strukturunda qadın

şöbəsinin yaradılması da həmin dövr üçün çox zəruri idi.

Azərbaycanda qadın hərəkatı dövrün ideoloji-mənəvi həyatının ruhuna uyğun olaraq, müsəlman qadınlarının hərəkatı kimi qiymətləndirilirdi. Rusiya ərazisində yaşayan müsəlman qadınlar da bu baxımdan qadın hərəkatının önəmli səhifələrini yazmışlar. Krım ərazisində yaşayan müsəlman qadınların ictimai fəaliyyəti xüsusi bir tarixi hadisə idi. İsmayıl bəy Qaspıralının "Tərcüman" qəzetində qadın hüquqlarına hörmət, qadınların maarifləndirilməsi məsələsi xüsusi yer tuturdu. Onun qızı Şəfiqə xanım Qaspıralının bu nəcib işdə rolu isə əvəzsiz idi.

"Tərcüman" qəzetinə əlavə kimi nəşr edilən "Aləmi-nisvan" ("Qadın aləmi") jurnalı işıq üzü görəndən sonra Şəfiqə xanım taleyini müsəlman qadınların azadlığı idealına bağladı. "Qadın aləmi" jurnalında öz yazıları ilə tez-tez çıxış edən Şəfiqə xanımın apardığı mübarizə Azərbay- canda qadın hərəkatının niyyəti ilə həmahəng səslənirdi. Rusiya, eləcə də Azərbaycanda qadın hərəkatına güclü təkan verən I Ümumrusiya Qadınlar Konqresində Şəfiqə xanım Qaspıralı da iştirak etmişdi. Konqresdə qəbul edilmiş Nizamnamə Rusiyada yaşayan bütün müsəlman qadınların öz hüquqları uğrunda mübarizəsinə yeni impuls verən mənəvi-siyasi stimul, bir növ, fəaliyyət proqramı idi. Şəfiqə xanım Qaspıralı 1917-ci ildə Moskvada keçirilən I Ümumrusiya Müsəlman Qadınları Konqresində müsəlman qadınların sosial-iqtisadi və ictimai vəziyyətinin yaxşılaşdırılması məsələsini qaldırmışdı. O, qadınların ləyaqətini tapdalayan adətləri ifşa etmiş, qızlar üçün məktəbəqədər müəssisələrin açılmasını vacib məsələ kimi qeyd etmişdi. Məhz onun yaxından iştirakı ilə Krım Mərkəzi Müsəlman Qadın Komitəsinin yaradılması haqqında qərar qəbul edilmişdi. Bu komitənin başlıca fəaliyyət prinsipi müsəlman qadınlara bütün insan hüquqlarının verilməsi, qadınların siyasi həyatda iştirakı üçün demokratik ideyaların yayılmasının vacibliyi məsələsi idi.

Müsəlman qadınların parlaq nümayəndəsi olan Şəfiqə xanım Qaspıralı, sözün həqiqi mənasında, bütün qadınlar üçün mübarizlik nümunəsi olmuşdur. İlk azərbaycanlı qadın-müsiqişünas Xurşud Ağayeva (1906–1953), onun anası Xədicə xanım və xalası Zeynəb xanım haqqında, o dövrdə milli musiqi elitamızın parlaq nümayəndələri barədə söylənilənlər bu gün də xalqımızın düşüncəsində yaşayır. Daşkənddə zadəgan azərbaycanlı ailəsində dünyaya göz açmış bu bacılar o dövrdə Rusiyada ən imtiyazlı tədris müəssisəsi olan, əsası 1764-cü ildə qoyulan Nəcib Qızlar İnstitutunu müvəffəqiyyətlə – Xədicə gümüş, Zeynəb isə qızıl medalla bitirmişdilər. Tale elə gətirib ki, Xədicənin gözü təsadüfən bir elana sataşıb: xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev təşkil etdiyi qızlar məktəbində dərs demək

üçün müəllimə axtarırmış. Maarifçilik idealını öz həyat məqsədi seçən Xədicə Əbdürrəhmanova məhz bu elandan sonra Bakıya gəlir və ömrünün sonunadək pedaqoq kimi çalışır. Böyük bacısı Zeynəb də Tağıyevin dəvətilə Bakıda ginekoloq-həkim kimi işləməyə başlayır. Qeyd edək ki, bu, o dövrdə qadınlarımız üçün çox nadir həkimlik peşəsi idi. Xədicə xanım Ağayeva Gəncədə sahibsiz uşaqlar üçün xeyriyyə cəmiyyətinin yaradılmasını təklif edir. Birinci Dünya müharibəsi, daha sonra isə inqilabi çaxnaşmalar həmin dövrdə yüzlərlə uşağı valideynsiz qoymuşdu. Əbdürrəhmanova bacıları, sözün əsl mənasında, həmin illərdə qadın elitamızın layiqli təmsilçiləri olmuşlar.

Azərbaycanın görkəmli qadın maarifçilərindən biri, milliyyətcə balkar olan Hənifə Aslanbəy qızı Abayeva Tiflisdə yerləşən Müqəddəs Nina Məktəbində dünyəvi təhsil alan qızlardan idi. Onun bu addımı əsl qəhrəmanlıq idi. Həmin dövrdə Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin yaradılmasını düşünüb-daşınarkən Hənifə xanımla görüşmüş və onun maarifçilik idealını çox bəyənmişdi. Nəinki gözəlliyi, həm də yüksək intellekti ilə Həsən bəyi heyran etmiş Hənifə xanım sonralar onun həyat yoldaşı olmuş və Azərbaycan qadınlarının maariflənməsi işində bütün enerjisini sərf etmişdir. Hənifə xanım özü və onun yetirmələri Azərbaycanın iki mindən artıq qızına təhsil vermişlər. Hənifə xanım 1904-cü ildə fəaliyyətə başlayan qadın gimnaziyasına çox böyük səriştə ilə rəhbərlik etmiş, xalqımızın gələcək elitasının yetişməsində əvəzsiz xidmətlər göstərmişdir. Rusiya Müsəlman Müəllimlərinin Qurultayında (1906-cı il) çıxış edən Hənifə xanım deyib: "Qadın ailə ocağının ürəyidir. O, savadlı olmalıdır ki, savadlı övladlar böyütsün".

Azərbaycan qadını öz əzmkarlığı, mübarizliyi, cəsurluğu və mətinliyi ilə dünya qadınlarına həmişə örnək olmuşdur. Onlardan biri – Şəfiqə Əfəndizadənin də fəaliyyəti qadınlarımızın maariflənməsində mühüm yer tutur. Şəfiqə xanım 1882-ci ildə Gürcüstanın tarixən türklərin yaşadığı Cavaxetiya bölgəsində, Axalsıx rayonunun Azqur kəndində doğulub. Atası Məmmədəmin Şeyxzadə dövrünün tanınmış ziyalısı və müəllimi olub. Şəfiqə də bacısı Səidə ilə təhsillərini məhz atasından alıb. On dörd yaşında o, Şəki şəhərində atasının çalışdığı məktəbin nəzdində qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlayıb. Daha sonra Bakıya gəlib və qadın savadsızlığına qarşı mübarizə aparan ziyalılarla birlikdə çalışıb.

Şəfiqə Əfəndizadə 1901-ci ildə Tiflisə yollanıb, orada imtahan verərək müəllimlik attestatı alıb. Sonra yenidən Bakıya dönüb və rus-müsəlman qızlar məktəbində ana dilindən dərs deyib. Ş.Əfəndizadə mütərəqqi fikirlərinə görə xeyli təzyiqlərə də məruz qalıb. Ancaq bütün bu təqiblərə baxmayaraq, o, əzmkarlıqla yoluna

davam edib. 1917-ci ilin aprelində Bakıda İsmailiyyə binasında Zaqafqaziya müsəlmanlarının qurultayı keçirilib. Qurultayda müxtəlif təbəqələrdən olan kişilərlə yanaşı, cəmi üç qadın – Tiflisdən Sara Talışinskaya, Bakıdan Şəfiqə Əfəndizadə və Sara Vəzirova iştirak ediblər.

Şəfiqə xanım Azərbaycan Xalq Cümhuriyyətinin ən fəal qadını hesab olunur. Ali təhsil almamasına baxmayaraq, Cümhuriyyət dövrünə işıq salan, parlamentin yeganə qadın əməkdaşı kimi həm publisist, həm də pedaqoq kimi fəaliyyət göstərən Ş.Əfəndizadə həmçinin parlamentdə stenoqramçı olub. O, öz fəaliyyəti ilə bütün Azərbaycan qadınlarını təmsil edib. Məsələn, bir gün yas məclisində kişilərin yığışdığı məkana daxil olub və mollanın səhvini düzəldib. O zaman qadının kişi məclisinə girişi yasaq olsa da, Şəfiqə xanım savadsız molla ilə mübahisə edib və bu da məclisdəkilərin hiddətinə səbəb olub.

Şəfiqə Əfəndizadə sovet dövründə də dinc dayanmayıb. Bu illərdə də müəllimliklə yanaşı, publisistik fəaliyyətini davam etdirib. 1923-cü ildə nəşrə başlayan "Şərq qadını" jurnalının redaksiya heyətinin üzvü seçilib, sonradan məsul katib və bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışıb.

Şəfiqə xanım bütün Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi və bununla yanaşı, ilk Azərbaycan qadın jurnalisti və publisisti olub. 1932-ci ilə qədər pedaqoji fəaliyyətlə məşğul olan Şəfiqə xanım Zaqafqaziyada, Qafqazda, Moskvada keçirilən qadın konfrans və qurultaylarında nümayəndə kimi iştirak edib.

Azərbaycan qadını həm də demokratik və siyasi dünyagörüşünə görə fəallığı ilə seçilmişdir. 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika quran Azərbaycan qadınlara seçmək və seçilmək hüququ vermişdir. Bu hüququ Azərbaycan qadınları bir çox Qərb ölkələrinin qadınlarından xeyli əvvəl qazanmışlar. Həmin vaxt özünü demokratiyanın beşiyi elan edən və sözün həqiqi mənasında, müasir demokratiyanın əsaslarını yaradan cəmiyyətlər qadınların seçmək və seçilmək hüququnu tanımaq istiqamətində addım atmamışdı. Avropada qadınların səsvermə hüququnu tanıyan ölkələrin sırasında Norveç, Finlandiya və İslandiya kimi dövlətlər yer alsa da, əksəriyyətində zərif cinsin nümayəndələri seçkidə iştirak edə bilməmişdi. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatını yaradan 51 ölkənin yalnız 30-da qadınlar kişilərlə eyni hüquqlara malik idi. Bu faktın özü Azərbaycan cəmiyyətində qadının rolunun, demokratik dəyərlərinin qiymətləndirilməsinin bariz göstəricisidir.

Azərbaycan qadını ötən əsrin əvvəllərində mədəni həyatın və intibahın flaqmanı olmuş, mədəni maarifçiliyin yayılmasında fədakar əməyi ilə seçilmişdir. 1919-cu ilin əvvəllərində qadın xeyriyyə cəmiyyətinin nəzdindəki qadın peşə məktəbinin fəaliyyətinin bərpa edilməsi haqqında məsələ qaldırılmışdı. 1919-cu il ap-

relin 25-də hökumət hələ 1917-ci ildə qadın müsəlman xeyriyyə cəmiyyətinin nəzdində açılmış və 1918-ci ilin mart hadisələrindən sonra öz fəaliyyətini dayandırmış qadın məktəbində məşğələlərin bərpa edilməsindən ötrü vəsaitin ayrılması haqqında sərəncam verdi. Tezliklə Bakı Qadın Müsəlman Xeyriyyə Cəmiyyətinin nəzdindəki qadın peşə məktəbi yenidən fəaliyyətə başladı. Bu məktəb yoxsul, cəmiyyətin nəinki ali, hətta orta təhsil almağa imkanı çatmayan təbəqələrindən olan qadınlara real imkanlar yaradır və onlar üçün perspektivlər açırdı. Məryəm xanım Bayraməlibəyova Lənkəranda 50 uşağın təhsil aldığı ilk müsəlman qız məktəbində dərs deməklə yanaşı, 1921-ci ilədək bu məktəbə rəhbərlik etmiş, dram və xor dərnəkləri təşkil etmişdi. O, 1919–1920-ci illərdə Lənkəran Qızlar Gimnaziyasının inspektoru olmuş, 1919-cu ildə Lənkəranda ilk Qadın Xeyriyyə Cəmiyyəti yaratmışdır.

M.Bayraməlibəyovanın təsis etdiyi “Ünas” məktəbində 1920-ci ildə fəaliyyətə başlayan dram dərnəyi də işə başlamışdı. Burada hazırlanmış tamaşaların iştirakçıları yalnız qızlar idi. Qadınlar Sosial Təminat Nazirliyi sistemində işləyirdilər. Şamaxı dairə müfəttişliyində Xanım Orucəliyeva tərbiyəçi, Məsmə Məmmədova isə müəllimə işləyirdi. Qarabağ dairə müfəttişliyində Atabəyova soyadlı xanım işləyirdi, Şuşa müsəlman kimsəsizlər sığınacağının müdiri İşrət Əlibəyova, tərbiyəçisi isə Mənzər Novruzova idi. Zəngəzurdakı Zəngilan sığınacağının müdiri isə Dilarə xanım Cavanşir idi.

Azərbaycanın ilk qadın pedaqoqlarından biri olan Mədinə xanım Qiyasbəyli 1918-ci ilin iyun ayında Qazax qəzasında “xalq məktəbləri” inspektoru təyin edilmişdi. Mədinə xanım həmin qəzada maarif işinin genişləndirilməsi yolunda yerli ziyalılarla birlikdə var qüvvəsini əsirgəmədən çalışırdı. Qadınlar uşaq bağçaları və körpələr evlərinin yaradılmasında da iştirak edirdilər. Lakin həmin təşkilatlarda ciddi kadr çatışmazlığı var idi və bu məsələ mətbuat səhifələrində də geniş müzakirə edilirdi. Görkəmli azərbaycanlı publisist Fərhad Ağazadə “İlk kooperativ uşaq bağçası” məqaləsində qeyd edirdi ki, uşaq bağçaları üçün tərbiyəçilər xüsusi kurslarda hazırlanmalıdır.

1918-ci ilin noyabrında imperiyaları parçalamış, geosiyasi sərhədləri dəyişən, insanlara iztirab, ölüm və aclıq gətirən I Dünya müharibəsi başa çatdı. Müharibə illərində xeyli uşaq valideynini itirmişdi. Bu proseslər Azərbaycana da təsirsiz ötüşməmişdi. Maliyyə çətinliyinə baxmayaraq, AXC hökuməti qadınlara və uşaqlara qayğı göstərməyə çalışırdı. Dilənçilik və sahibsiz uşaqların ağır həyat tərzi ilə mübarizə üçün şəhər duması “Uşaq evi” cəmiyyətinə maddi vəsait ayırdı. Azərbaycan uşaqları üçün çox işlər görmüş doktor Yevsey Yakovleviç Gindesin başçılıq etdiyi “Uşaqları Mühafizə Liqası” bu isti-

qamətdə böyük işlər görürdü. Cəmiyyət sədrinin müavini Nəsib bəy Yusifbəylinin həyat yoldaşı Eynül-Həyat Yusifbəyli idi. Bu cəmiyyət Bakıda 17 yaşınadək uşaqların həyat şəraitinin öyrənilməsi və onlara kömək göstərilməsi ilə məşğul olurdu. Eynül-Həyat xanımın təşəbbüsü ilə 1919-cu ildə Uşaqları Mühafizə Liqası Ədliyyə Nazirliyi qarşısında uşaq məhkəməsinin təsis edilməsi haqqında vəsatət qaldırdı. Məqsəd məhkəmənin köməyi ilə valideyn və qohumlarını itirmiş uşaqları cinayət mühitindən təcrid etmək və onları etibarlı əllərə tapşırmaq idi. E.Usubbəyova 1918–1920-ci illərdə Bakı məktəblərində müəllimə işləmişdi.

Cəlil Məmmədquluzadənin həyat yoldaşı, tanınmış ictimai xadim Həmidə Cavanşir 1918–1920-ci illərdə əvvəlcə Şuşada, sonra isə doğma Kəhrizli kəndində toxuculuq emalatxanası açmışdı. Böyük zəhmət bahasına başa gələn bu emalatxanada o, yoxsul ailələrdən olan, özünə iş və yemək tapa bilməyən qadınları işə cəlb etmişdi. Həmidə xanım azərbaycanlı əhaliyə qarşı erməni təcavüzü zamanı öz doğma ev-eşiyini tərk etməyə məcbur olmuş qadınlara xüsusilə böyük kömək göstərirdi. Sonralar həmin qadınlar onun bu fədakarlığını minnətdarlıqla qeyd edirdilər. Azərbaycanın bütün müəssisələrində qadınlar, özü də müxtəlif millətlərdən olan xanımlar eyni şərtlərlə çalışırdılar. Üstəlik, 1918–1920-ci illər ərzində işləyən qadınların sayı artmış, 1920-ci ilin aprelində işçi qadınların sayı kişilərinki ilə, demək olar ki, bərabərləşmişdi.

Hökumət yaşlı əhalinin savadlanmağa cəlb edilməsi üçün tədbirlər görürdü. 1919-cu il 24 oktyabr tarixində Azərbaycan Milli Gimnaziyasının nəzdində yetkin türk qadınları üçün kursların təntənəli açılışı oldu. Kurslara Eynül-Həyat Yusifbəyli rəhbərlik edirdi. Tədris müəssisələrinin milliləşdirilməsinin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə orta və ibtidai məktəblərin milli sinif müəllimlərinin hazırlanması üçün Xalq Maarifi Nazirliyi 17 iyul 1919-cu il tarixində qəbul edilmiş qanuna əsasən, qısamüddətli pedaqoji kurslar təşkil etmişdi. Bakıda və Gəncədə ikiaylıq qadın pedaqoji kursları açılmışdı. 1919-cu ilin sentyabrında Bakıda, Gəncə və Şəkidə ikiillik qadın pedaqoji kurslarının açılması haqqında qanun layihəsi hazırlanmışdı.

Bütün bu faktlar Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət quruculuğunda qadınların fəal rolunu, ictimai faktor kimi strateji mövqeyini təsdiq edir.

Azərbaycan qadını keçmiş Sovetlər birliyində də ictimai-mədəni həyatda xüsusi fəallığı ilə seçilmişdir. SSRİ ictimai təminat naziri, ilk azərbaycanlı qadın təyyarəçi, II Dünya müharibəsində hərbi təyyarəçi olmuş Züleyxa Seyidməmmədova, ictimai-siyasi xadim, Azərbaycan SSR xalq maarif komissarı, "Şərq qadını" jurnalının redaktoru, Azərbaycan tarixinin ilk qadın naziri, xalq ədliyyə komissarı və Ali Məhkəmə sədri vəzifələrində çalışmış Ay-

na Sultanova, Azərbaycanın ilk qadın kinorejissoru, ssenaristi Qəmər Salamzadə, ilk professional Azərbaycan qadın müğənnisi, SSRİ xalq artisti, opera ifaçısı və müəllimi, Azərbaycan SSR Ali Sovetinin deputatı Şövkət Məmmədova, Şərqdə ilk opera yazan bəstəkar qadın Şəfiqə Axundova, Azərbaycan SSR-in əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə Əliyeva, görkəmli şərqşünas alim, professor Aida İmanquliyeva kimi Azərbaycan tarixində silinməz izlər qoyan qadınlarımız olub.

Dünya şöhrətli alim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü, nəcib və nəcabətli, əməlisaleh və insanpərvər Zərifə xanım Əliyeva Azərbaycan xalqının ən böyük şəxsiyyətlərindəndir. Cəfakeş ana, qayğıkeş insan, görkəmli alim, sadiq dost, vəfalı ömür-gün yoldaşı və böyük vətənpərvər olan Zərifə xanım elm fədaisi, nur çeşməsi, şəfqət qaynağı idi. Zəngin tibb təcrübəsi və həyat müdrikliyi ilə seçilən Zərifə xanım Əliyeva üçün səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq ən ümdə məziyyətlərdən idi.

Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi. O, həmişə xüsusi qayğıya ehtiyacı olan tənha insanlara, kimsəsiz və yetim uşaqlara böyük diqqətlə yanaşırdı. Onun xatirəsini sadə xalqın yaddaşında ehtiramla yaşadan həm də bu mərhəmət və



şəfqətdir. Zərifə xanım mətin və mərd qadın kimi ən çətin və mürəkkəb günlərdə doğma vətəni Azərbaycana sonsuz sevgi və məhəbbətini əsirgəməyib. Zərifə xanım dünya səviyyəli görkəmli şəxsiyyətin – Heydər Əliyevin təkcə ömür-gün yoldaşı deyil, həm də vəfalı dostu, sirdaşı, etibarlı sipəri idi. Müstəqil dövlət quruculuğu və milli-mənəvi dəyərlərin qorunmasında ömrünü şam kimi əridən ulu öndər Heydər Əliyevə vəfalı sirdaş, arxa-dayaq olan Zərifə xanım xalqına, millətinə xidmət etməyi özünün başlıca missiyası hesab edirdi. Onun Vətən qarşısında, millət uğrunda göstərdiyi xidmətlərdən çox da-



nışmaq olar. Ancaq onun ən böyük xidmətlərindən biri ailə qarşısındakı xidmətləridir. Övladlarına olan münasibəti və məhəbbəti ilə analığın zirvəsində qərar tutmuşdu.

Azərbaycan qadınının nurlu, parlaq simalarından olan Aida xanım İmanquliyeva da xeyirxahlığın ünvanı kimi tariximizdə zəngin və şərəfli həyat yolu olan şəxsiyyətlərdəndir. Şərqşünas alim kimi bütün bilik və bacarığını elmimizin inkişafı yolunda yorulmadan sərf edən Aida xanım nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da tanınmış və sevilmiş, hər zaman millətimizə başucalığı gətirmişdir. Dərin nəzəri bilikləri, analitik təfəkkürü, geniş erudisiyası, bir neçə Şərq və Qərb dillərini bilməsi sayəsində apardığı araşdırma və yazdığı əsərlər qısa müddət ərzində ona nəinki keçmiş Sovetlər birliyində, hətta bir çox xarici ölkələrdə də böyük şöhrət gətirmişdir.

İstedadı, ləyaqəti, nəcibliyi və xeyirxahlığı ilə əsl Azərbaycan xanımlarına xas olan ən gözəl keyfiyyətləri özündə birləşdirən Aida İmanquliyeva istedadlı alim, görkəmli şəxsiyyət idi. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa, tamlığa, vəhdətə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olmuşdur. Ancaq heç bir insan əbədi ömür sürmək üçün dünyaya gəlməyib. Hər birimiz bu dünyanın müvəqqəti sakinləriyik. Bununla belə, insan öz əməlləri, yaratdığı əsərləri, insanpərvərliyi ilə bu müvəqqəti həyatda ölməzlik qazana bilər. Aida xanımın nəcib keyfiyyətləri Azərbaycan qadınının həyatında silinməz izlər buraxıb. Bu gün qadınlarımız məhz bu humanizmin işığında cəmiyyətə öz töhfələrini verməyə çalışırlar.

Milli-mənəvi dəyərlərə tapınan Azərbaycan qadını daim yüksək mənəvi idealların, nəcib, xeyirxah təşəbbüslərin tərəfdarı kimi çıxış etmiş, bütün dünyada sülhün, əmin-amanlığın, sabitliyin bərqərar olmasına çalışmışdır. Bu gün qadınlarımız təkcə xeyirxah layihələrin gerçəkləşməsində deyil, həm də sivilizasiyalar arasında mədəni dialoqun qurulmasında, ayrı-ayrı xalqların ortaq mədəni dəyərlərinin aşkara çıxarılmasında, ölkələr arasında elmi-humanitar və mədəni əməkdaşlığın genişlənməsində böyük işlər görürlər.

## Heydər Əliyev və qadın siyasəti

*"Adın şərəflidir sənin, ey qadın,*
*Dahilər anası çağrılır adın".*

**Səməd Vurğun**

Ümummilli liderimiz Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edirdi. Xalqımızın hüquq və azadlığını daim qorumuş, onun milli şüurunun formalaşmasında, maariflənməsində böyük xidmətlər göstərmiş Heydər Əliyev hansı dövrdə işləməsindən asılı olmayaraq, qadın hərəkatını, qadınlarla bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır. O, 1969-cu ildə – respublikamıza ilk dəfə rəhbər təyin olunanda qadın problemləri, qadınların inkişafı, onların irəli çəkilməsi haqqında dünya miqyasında müzakirələr gedirdi. Elə həmin dövrdə Heydər Əliyev qadınlara diqqət və qayğı göstərərək onları bilik və bacarıqlarına, istedad və intellektinə görə irəli çəkməyə, yüksək vəzifələrə təyin etməyə başlamışdı. O dövrdə bir çox rayonlara rəhbərlik qadınlara tapşırılmışdı. Nazir və nazir müavinləri arasında neçə-neçə qadın var idi. Respublikamızın tarixində ilk dəfə olaraq ali məktəblərə qadın rektorlar təyin edilirdi. Ümummilli liderimiz hələ o dövrdə öz işində, ictimai fəaliyyətində fərqlənən qadınlara fəxri adların verilməsində, onların mükafatlandırılmasında, orden-medallarla təltif olunmasında səyini əsirgəməmişdi. Həmin illərdə neçə-neçə qadın "Sosialist Əməyi Qəhrəmanı", "Qəhrəman ana" fəxri adları almışdı. Bütün bunlar ölkə başçısının Azərbaycan qadınına göstərdiyi sonsuz diqqət və qayğının təzahürü idi.

Dünya miqyasında ilk dəfə olaraq qadınlar və onların problemləri haqqında məsələ 1975-ci ildə qaldırıldı və həmin il "Qadın ili" elan olundu. Elə həmin il Meksikada Qadınların Ümumdünya Konfransı çağırıldı. II Ümumdünya Qadın Konfransı 1980-ci ildə Danimarkada, III 1985-ci ildə Nayrobidə, IV isə 1995-ci ildə Pekində keçirildi. Hər dörd konfransın məramı "Bərabərlik, inkişaf və sülh" idi. Bu beynəlxalq tədbirlərdə qadın və kişi hüquqlarının bərabərliyi, gender məsələləri ön plana çəkilirdi. Azərbaycan qadınlarının bu bərabərliyi isə hələ 1918-ci ildə – ölkəmiz ilk dəfə müstəqilliyini əldə etdiyi dövrdə bərqərar olmuşdu. Bu bərabərlik SSRİ dövründə də davam etmişdi. Ancaq dünyada elə dövlətlər var ki, həmin bərabərliyi 1950–60-cı illərdə və daha gec əldə etmişlər.

Ulu öndər Heydər Əliyev qadın azadlığına və onların bütün sahələrdə irəli çəkilməsinə xüsusi diqqət ayırmışdır. Əsrin əvvəllərində Azərbaycan qadınları arasında çox az sayda həkim vardısa, Heydər Əliyevin siyasi hakimiyyəti illərində respublika həkimlərinin 62 faizini qadınlar

təşkil edirdi. Həmin illərdə Ali Sovetin deputatlarının 37 nəfərinin qadın olması da, demək olar ki, Şərq qadınına diqqətin, etimadın bariz nümunəsi idi. Müqayisə üçün bildirək ki, o zamanlar ABŞ-da 12, İngiltərədə 26, Fransada 2, İtaliyada 33, İranda 7 qadın deputat var idi. Bu analogiya onu göstərir ki, Azərbaycanda qadınlarla bağlı siyasət hələ o zamandan başlayıb. Məhz o vaxt ulu öndər Heydər Əliyev ali məktəb və texnikumlarda təhsil alan qadınların sayının artırılmasına və onların elmlə məşğul olmasının stimullaşdırılmasına diqqət etməyi vacib məsələ kimi qarşıya qoyurdu.

Bununla yanaşı, o illərdə qadınlarımız elmin, iqtisadiyyatın müxtəlif sahələrində, həmçinin incəsənət, mədəniyyət aləmində ən böyük uğurlarını qazanmışlar. Məlum olduğu kimi, müasir dövrdə qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, liderlik keyfiyyəti, təhsil alması olduqca vacibdir. Əks təqdirdə, qadının idarəetmədə çalışması mümkün deyil. 1974-cü ildə "Azərbaycan qadını" jurnalının 50 illik yubiley mərasimində Heydər Əliyev demişdir: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq".

1975-ci ilin "Beynəlxalq qadın ili" elan olunması ilə əlaqədar Azərbaycanda da xüsusi komissiya yaradılmışdı. Həmin komissiyada respublikada qadın əməyinə dair görülmüş işlər müzakirə olunurdu. Bu, dünyada qadının nüfuzunun artması demək idi. Böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev həyatın müxtəlif sahələrində çalışan qadınlarımızın elmi fəaliyyətini, əməyini diqqətlə izləmiş, onların hüquqlarının qorunmasında əlindən gələni əsirgəməmişdir. Ulu öndərimiz qadınlar haqqında çox müdrik fikirlər söyləmişdir: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar".

Ulu öndərimiz hər çıxışında Azərbaycan qadınının tarixən keçib gəldiyi böyük, şərəfli yoldan, yaradıcı dühasından qürurla söz açmışdır. Doğrudan da, həyatda elə bir qadın yoxdur ki, onda yaradıcılıq istedadı olmasın. Qadının ən böyük yaradıcılığı isə dünyaya övlad gətirməsidir. Bu övladı tərbiyə edib boya-başa çatdırmaq, onu həm fiziki, həm mənəvi cəhətdən sağlam bir insan kimi yetişdirmək isə əslində, fədakarlıqdır. Hər bir ana öz balasını Vətən üçün ləyaqətli bir insan, kamil bir vətəndaş kimi görmək istəyir. Və bu istək naminə də özünü oda-közə vurub bütün varlığı ilə çalışır, çarpışır. Ailə ocağının, övladlarının çırağı, pərvanəsi olan qadın cəmiyyətdə də əvəzsiz rol oynayır. XX əsri sona çatdırarkən qazandığımız böyük

nailiyyətləri gözdən keçirəndə onların çoxunda qadınlarımızın xidmətini aydın görürük. Cəmiyyətimizin elə sahələri var ki, orada qadınlar daha çox fəaliyyət göstərirlər. Məsələn, təhsil, səhiyyə, mədəniyyət sahələrində qadınlarımızın uğurlarından danışmaqla qurtarmaz.

Ümumiyyətlə, ali məktəblərimizdə, universitetlərimizdə təhsil alan qızların sayı oğlanlara nisbətən çoxluq təşkil edir. Bu o deməkdir ki, ölkəmizdə qadınlar öz hüquqlarından düzgün istifadə edirlər. Bizim görkəmli qadın alimlərimiz, yazıçı və bəstəkarlarımız, müğənni və aktrisalarımız, rəssam və heykəltəraşlarımız, həkimlərimiz, incəsənət və dövlət xadimlərimiz arasında adı Vətənimizin hüdudlarından kənarda da hörmətlə çəkilən həmyerlilərimiz var. Azərbaycan ziyalıları əsrlər boyu belə bir əqidənin tərəfdarı olublar ki, əgər qadının təhsil almasına, onun hərtərəfli inkişafına şərait yaradılarsa, o, özünün yüksək intellektual potensiala malik olduğunu sübut edə bilər. Dahi öndərimiz Heydər Əliyev Azərbaycan qadınlarının ictimai fəaliyyətini həmişə yüksək qiymətləndirirdi. O deyirdi: “Mən Azərbaycan qadınlarının dövlət işində də fəaliyyətini xüsusi qiymətləndirirəm. Bu, bir tərəfdən, Azərbaycan qadınlarının fəallığıdır, ikinci tərəfdən də Azərbaycanda qadınlara öz istedadlarını, bilik və bacarığını həyata keçirmək, realizə etmək üçün yaranan imkanların nəticəsidir. Məhz ona görədir ki, dövlət orqanlarında qadınlar böyük müvəffəqiyyətlə işləyir. Məclisdə 124 deputatdan 12 faizi qadındır. Məlumat üçün bildirirəm ki, dünyanın ən inkişaf etmiş ölkələrində parlament üzvlərinin içərisində qadınların xüsusi çəkisi bu qədər deyildir. Mən buna çox böyük əhəmiyyət verirəm. Keçmişdə də – biz Sovetlər birliyinin tərkibində olarkən parlamentimizdə qadınlar var idi. Ancaq biz Azərbaycanın müstəqilliyini əldə edəndən sonra ilk parlamentimizi seçən zaman qadınların parlamentdə çox sayda təmsil olunduğunun şahidi olduq”. Bütün bunlar Azərbaycan qadınlarının cəmiyyət həyatında fəallığını nümayiş etdirirdi.

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə imzaladığı hər fərman ya birbaşa, ya da dolayısı ilə qadın hüquqlarının müdafiəsinə yönəldilmişdi. Ulu öndər qeyd edirdi ki, Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyət həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır: “Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi Vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər”.

Respublikada qadın hərəkatının genişlənməsi ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Həmişə sülhün, əmin-amanlığın carçısı olmuş Azərbaycan qadınları ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslərin gedişində üzərilərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlmiş, daim milli dövlətcilik mövqeyindən cıxış etmişlər. Qadınlarımız gənc nəsli Vətənə sədaqət, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi uğrunda əzmkarlıq və qətiyyət göstərmək ruhunda tərbiyə etmək, onları xalqa, cəmiyyətə layiqli bir övlad kimi yetişdirmək kimi ağır yükü şərəflə daşımışdır.

Ulu öndər Heydər Əliyevin qətiyyətli addımları nəticəsində 1993-cü ildən qadınların ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilmişdir. "Qadın böyük qüvvədir" deyən Ulu öndər qadın hüquqlarının təminatı, onların üzləşdiyi problemlərin həllində daim prinsipial mövqe nümayiş etdirmiş, bu istiqamətdə qətiyyətli addımlar atmışdır.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı.

Azərbaycan 1995-ci il iyunun 30-da Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya qoşulmaqla Azərbaycanın dünyada qadınların hüquqlarına böyük ehtiramını nümayiş etdirdi. Qeyd edək ki, hələ də dünyada inkişaf etmiş elə dövlətlər vardır ki, hələ də bu Konvensiyaya qoşulmayıblar. Bununla da onlar buna hazır olmadıqlarını etiraf edirlər, çünki bu Konvesiyaya qoşulmaq elə də asan iş deyil: bunun üçün ölkədə əlverişli şərait olmalı və müəyyən vəzifələr yerinə yetirilməlidir. Dövlətimizin keçid dövründə yaşamasına, ərazilərimizdə müharibə getməsinə, torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünümüzün olmasına baxmayaraq, bizim bu Konvensiyaya qoşulmağımız ulu öndərimiz Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur.

Ümummilli liderimiz qadınlarla bağlı bütün məsələlərə böyük diqqət yetirirdi. Qadınların problemlərini dövlət səviyyəsində həll etmək məqsədilə xüsusi fərmanla 1998-ci il yanvarın 14-də Azərbaycanda “Qadın Problemləri üzrə Dövlət Komitəsi”nin yaradılması bu sahədə yeni mərhələnin başlanması hesab edilə bilər. 1998-ci ildə keçirilmiş Azərbaycan Qadınlarının I Qurultayı ilə qadınlarımız cəmiy-



yətin ictimai-siyasi həyatında daha yaxından iştirak etmək, fəallıqlarını artırmaq istədiklərini bir daha nümayiş etdirdilər. Qurultayın qərarlarında diqqəti çəkən məqamlardan biri də qadın siyasətinin yetkinləşməsi və gerçəkləşməsi tələbatı olmuşdur. Məhz bu istək və zərurətin nəticəsi kimi, Ulu Öndər "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 3 mart 2000-ci il tarixli fərman imzalamışdır. Fərmanda qadınların bugünkü inkişaf, tərəqqi dövrünə qədər keçdiyi gərgin, keşməkeşli mübarizə yoluna diqqətlə nəzər yetirilmiş, respublikamızın mötəbər və möhtəşəm qadın hərəkatının fəaliyyətinə yüksək qiymət verilmişdir.

2000-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planının (2000–2005-ci illər) təsdiq edilməsi ölkəmizin də qoşulduğu "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın və IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Fəaliyyət Platformasının həyata keçirilməsi ilə əlaqədar olmuşdur. Milli Fəaliyyət Planında dövlət tərəfindən qadın probleminə daim diqqət yetirilməsi, onların həlli ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarının hazırlanması öz əksini tapmışdır. Qeyd etməliyik ki, bir çox dövlətlərdə, hətta MDB ölkələrində belə, xüsusi qadın

komitələri yoxdur. Komitə yaranandan sonra tərtib olunmuş Milli Fəaliyyət Planında, Pekin konfransının 12 müddəası nəzərə alınaraq, bütün dövlət qurumları və qeyri-hökumət qadın təşkilatlarının nümayəndələri iştirak etmişlər. Milli Fəaliyyət Planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2000-ci il martın 6-da təsdiq edildi. Həmin gün Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman bu sahənin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün əvəzedilməz bir sənəddir.

Qloballaşma şəraitində dünyaya inteqrasiya edən Azərbaycan yeni hüquq məkanına daxil olduqca bəşəriyyətin əldə etdiyi bütün nailiyyətlərdən bəhrələnir. Bu baxımdan, dövlətimiz 27 Konvensiyaya qoşulub. Onların içərisində "Qadınlara münasibətdə ayrı-seçkiliyin hər cür formalarının ləğv edilməsi haqqında" (1979), "Əsirlikdə olan qadınların vətəndaşlığı haqqında" (1952), "Nikaha daxil olmağa razılıq, nikah üçün minimal yaş həddi və nikahların qeydiyyatı haqqında" (1962) konvensiyalara və digər sənədlərə Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə qoşulmaq imkanı əldə etmişdir.

Azərbaycanın qoşulduğu konvensiyaların bəzisinə Avropanın bir sıra ölkələri və hətta ABŞ da qoşulmayıb. "Qadınların siyasi hüquqları haqqında" Konvensiyada qəbul olunmuş qanunların, bütövlükdə



qoşulduğumuz konvensiyaların müsbət təsirini hər birimiz hiss edirik. Son on il ərzində baş vermiş sosial proseslər, sosial-iqtisadi sferadakı islahatlar, mədəni-mənəvi intibah Azərbaycan qadınının psixoloji portretini dəyişmədi. Təşəbbüskarlığın artması dövlət siyasətinin müxtəlif istiqamətlərində – təhsil, səhiyyə, məşğulluq, idarəçiliyə cəlb olunan siyasi fəaliyyətin və s. gerçəkləşməsidir.

Bu gün Azərbaycan qadınları xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün imkanlardan maksimum istifadə edirlər. Bu istiqamətdə Qadın Problemləri üzrə Dövlət Komitəsinin rolunu xüsusi qeyd etmək lazımdır. Komitə BMT-nin Qadınların Statusu üzrə Komissiyasının və Avropa Şurasının Qadınlar və Kişilər arasında Bərabərlik üzrə Rəhbər Komitəsinin işində fəal iştirak edir, həmçinin ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlar ilə əməkdaşlıq edir və qadınlarla bağlı birgə tədbirlər həyata keçirir.

Avropa Şurası ekspertlərinin iştirakı ilə 2002-ci il iyul ayında Bakıda "Demokratikləşmə prosesi: qadınların irəliləyişinə həsr edilmiş konfrans" keçirildi. Bu konfransda gender yanaşma: milli mexanizmin gücləndirilməsi və Milli Fəaliyyət Planının həyata keçirilməsi haqqında təkliflər işlənilib hazırlandı. 28–31 oktyabr 2003-cü il tarixində paytaxtımızda Avropa Şurasının Bərabərlik Bölməsi – İnsan Hüquqları üzrə Baş Direktoratlığı və Azərbaycanın Qadın Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində təşkil olunmuş "Azərbaycanda bərabərlik və demokratiya" mövzusunda iki seminardan ibarət layihə həyata keçirildi. Birinci seminar qadın və kişilər üçün bərabər hüquqlar və bərabər imkanlar haqqında qanun layihəsinin hazırlanmasına həsr edilmişdi.

Ulu Öndərin müəyyən etdiyi strategiyaya uyğun olaraq, Azərbaycanda qadın siyasətinin əsas hədəfləri bu zərif təbəqənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni, humanitar və digər sahələrdə iştirakının tam təmin edilməsindən ibarət olmuşdur. Qadınların dövlət orqanlarının işində, ölkənin ictimai siyasi həyatında iştirakı, sahibkarlıq fəaliyyəti, yeni ixtisaslara yiyələnməsi, yenidən hazırlığı və ixtisaslarının artırılması, qaçqın və məcburi köçkün qadınların sosial müdafiəsinin gücləndirilməsi, əmək hüququnun diqqətdə saxlanılması üçün təşkilati işlərin həyata keçirilməsi, qadın əməyinin, onların həyatının sağlamlığının müdafiəsinin analıq funksiyaları nəzərə alınmaqla təmin edilməsi, beynəlxalq qadın təşkilatları və respublikada fəaliyyət göstərən qeyri-dövlət cəmiyyətləri ilə qadın strukturlarının qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi və digər mühüm prioritetlər bu siyasətin əsas təməl prinsipləri olmuşdur.

Ölkəmizdə uğurlu qadın siyasəti Prezident İlham Əliyev tərəfindən davamlı şəkildə inkişaf etdirilir, qadın hüquqları-

nın etibarlı qorunmasına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Bu gün Azərbaycan qadınının cəmiyyətdə oynadığı rol daha da yüksəlmiş və zərif cinsin nümayəndələri dövlət idarəçiliyində, qanunvericilik aktlarının formalaşmasında, diplomatiya aləmində, iş dünyasında, mədəniyyət sahəsində, elmdə, təhsildə, səhiyyədə və digər mühüm sferalarda öz sözünü deməkdədir. Bunun ən önəmli səbəblərindən biri Azərbaycanın milli-mənəvi dəyərlər sistemi ilə bağlıdırsa, digər vacib məqam kimi dövlət tərəfindən həyata keçirilən qadın, gender siyasətidir.

2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu sənəd dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyi təmin etmişdir. Azərbaycan qadını ötən illər ərzində keçirilmiş parlament və bələdiyyə seçkilərində aktiv iştirak etmiş, onların bu orqanlarda sayı ilbəil artmışdır. Bələdiyyə seçkilərində qadınların iştirakı 4%-dən 28%-ə yüksəlmişdir. Hazırda seçilənlərin 35%-i qadındır. Parlament seçkilərində də 125 deputat yerindən 21-ni qadınlar qazanmışdır. Üstəlik, parlamentdə komitə sədri, nazir müavini olan qadınlar da var. Azərbaycan xanımları həmkarlar ittifaqı təşkilatlarında da xeyli sayda təmsil olunurlar. Hakimlərinsə 24%-i qadındır. Sahibkarlıqda rəhbər qadınların sayı 4%-dən 35%-ə çatmışdır. Azərbaycan qadını bu gün Milli Məclisin sədr müavini, İnsan Hüquqları üzrə Müvəkkil, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, Konstitusiya Məhkəməsinin sədr müavini və digər yüksək postlarda təmsil olunur.

Qadınların kişilərlə hakimiyyət strukturlarında bərabər iştirakını təmin etmək və onları həyatın bütün sahələrində fəal iştiraka cəlb etmək davamlı demokratiyanın və cəmiyyətin inkişafının bir hissəsidir. Prezident İlham Əliyev zərif cinsdən olan vətəndaşlara daim diqqət və ehtiramını nümayiş etdirmiş, respublikamızın qazandığı uğurlarda qadınların rolunu yüksək qiymətləndirmişdir: “Biz hamımız dinamik inkişaf edən ölkəmizin irimiqyaslı iqtisadi layihələrin iştirakçısı kimi əldə etdiyi yüksək göstəricilərlə haqlı olaraq fəxr edirik. Bu tərəqqinin bəhrələri respublikamızın hər bir guşəsində özünü aydın hiss etdirir. Həmin nailiyyətlərdə Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq, bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir”.

## Mehriban Əliyeva Azərbaycan qadınının müasir obrazıdır

*"Ağıllı bir qadın xəzinədir. Gözəl və ağıllı bir qadın gücdür".*

**Georgi Merediz**

Qadın liderliyinin formaları çoxşaxəlidir. O, siyasi, iqtisadi, ictimai funksiyaları üzərinə götürməklə liderlik keyfiyyətlərini çılpaqlığı ilə sərgiləyə bilir. Qadın liderliyi müxtəlif dövlət və ictimai idarəetmə səviyyələrində qərarların hazırlanmasında və qəbul edilməsində onun iştirakıdır. Qərarların qəbul edilməsi sferasında gender bərabərliyinə nail olmaq üçün dövlətdən, siyasi partiyalardan və vətəndaş cəmiyyətlərindən konkret səylər tələb olunur.

Siyasi formaya qadınların dövlət hakimiyyətinin ali və yerli qanunverici və icraedici orqanlarında, o cümlədən siyasi partiyaların, BMT və s. kimi beynəlxalq təşkilatların rəhbərliyində olması aid edilir. İqtisadi formaya qadınların iqtisadi məsələlərlə məşğul olan milli dövlət orqanlarında aparıcı mövqe tutması, o cümlədən idarə, müəssisə və təşkilatlarda rəhbər, yüksək idarəetmə nişanına malik beynəlxalq və regional maliyyə müəssisələrində işçi olması aid edilir.

Qadın liderliyinin ictimai forması qadınların vətəndaş cəmiyyəti sferalarında, özünüidarə orqanlarında, ictimai hərəkatlarda, kütləvi informasiya vasitələrində təmsil olunmasıdır.

XXI əsrin əvvəllərindən Azərbaycanın sosio-mədəni həyatının yeniləşməsində qadın təşkilatlarının rolu getdikcə artmışdır. Ölkəmizdə 50-dən artıq qeyri-hökumət qadın təşkilatının fəaliyyət göstərməsi ictimai həyatın müxtəlif sahələrində qadınların aktivləşməsinin göstəricisidir. Fəal qadınlar müxtəlif qadın təşkilatlarında birləşərək ölkənin ictimai-siyasi həyatında öz nüfuzlarını nümayiş etdirmək iqtidarındadırlar. Qadın təşkilatlarının bu fəaliyyəti ölkə rəhbərliyi tərəfindən dəstəklənir, onların tədbirlərinin həyata keçirilməsində böyük köməklik olunur. Eyni zamanda, qadınların aktivləşməsində beynəlxalq və yerli donor təşkilatlarının da əsaslı rolunun olması danılmaz faktdır. Qadın təşkilatları bu gün ölkədə qadın və uşaqların sosial müdafiəsinin, onların həllində meydana çıxan iqtisadi poblemlərin aradan qaldırılması sahəsində lazımi proqramlar hazırlayır və həyata keçirilməsini təmin edir.

Müasir dünyada qadınların sosial-siyasi sahədə fəaliyyətinə, onların hüquqlarının qorunmasına və ictimai fəallıqlarının yüksəldilməsinə ciddi önəm verilir. Tarixən hər bir cəmiyyətin həyatında qadınların özünəməxsus yeri olub. Azərbaycanda qadınların yeri və rolu həmişə böyük olub. Azərbaycanlı qadınlar tarixən sülhə tapınıb, qan davalarını dayan-

dırıblar, cəmiyyətdə mehribanlığın bərqərar olmasına ciddi töhfələr veriblər. Müasir mərhələdə isə Azərbaycan qadınları dövlətin idarə olunmasında keyfiyyətcə yeni səviyyədə iştirak edir, siyasi, elmi, təhsil, iqtisadi, mədəni və başqa sahələrdə daha aktiv fəaliyyət göstərirlər. Bu mənada, Mehriban xanım Əliyevanı bütün qadınlar üçün örnək hesab etmək ən düzgün seçim olardı.

İctimai münasibətlər sisteminin bütün aspektləri bu qənaəti tam təsdiqləmişdir ki, cəmiyyətdəki çoxsaylı problemlərdə qadının həmrəylik münasibəti zəruridir. Bu faktor kişi və qadınların bərabər siyasi təşkilatlanmasında, bərabər fəaliyyət mexanizmində iştirak etməsini formalaşdırır. Bunun nəticəsidir ki, ictimai təşkilatlarda fəaliyyət göstərən qadınların cəmiyyət üçün gördüyü faydalı işlərin miqyası xeyli böyükdür.

Azərbaycanın dünya demokratik prinsiplərini tam mənimsəməsi, respublikada demokratik təsisatların rolunun artması, ən başlıcası, ölkə Konstitusiyasının və beynəlxalq normaların verdiyi bərabərhüquqlu prinsiplər qadınların siyasi fəallığının aktivləşməsini labüd etmişdir. Modernləşən və inkişaf edən, sivil demokratik cəmiyyətə çevrilmiş Azərbaycanda tərəqqi və yeniləşmə hərəkatı qadınları da geniş əhatə etmişdir və onlar bu inkişaf meyarlarının möhkəmlənməsində fəal rol oynayırlar. Bu kimi amillər yüz minlərlə qadının ictimai-siyasi meydana atılması, onların davranışında baş verən siyasətləşmənin təsirləri özünü açıq göstərmişdir. Müasir həyatımızda qadınların siyasi fəallığının xeyli artması getdikcə aktiv bir hal almışdır. Qadınlar artıq qlobal səviyyədə, BMT-nın, Avropa Birliyinin, ATƏT-in, Avropa Şurasının, İslam Konfransı Təşkilatının, UNESCO-nun işlərində, dünyada baş verən ictimai-siyasi proseslərdə, dövlətin idarə olunmasında, yerli idarə orqanlarında, keçirilən seçkilərdə fəal iştirak edirlər.

Azərbaycanda qadın hərəkatının formalaşmasında, onların hüquqlarının qorunmasında Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Xalq və dövlət üçün, bugünkü və gələcək nəsillərin rifahı üçün hərtərəfli real fəaliyyət proqramına çevirmək missiyasını böyük əzmkarlıqla öz üzərinə götürmüş şəxs – XXI əsrin ən görkəmli Azərbaycan xanımı Mehriban Əliyevadır.

Çoxşaxəli fəaliyyətində daim mərhəmət, xeyirxahlıq, humanizm kimi ümumbəşəri prinsiplərə sadiq qalan Mehriban xanım Əliyevanın şəxsiyyətində nəciblik, qayğıkeşlik, insanpərvərlik kimi yüksək mənəvi keyfiyyətlər öz təcəssümünü tapmışdır.

Mehriban xanım öz fəaliyyəti ilə Azərbaycanda qadın hərəkatını canlandıraraq yeni bir mərhələ açdı. Onun milli maraqlara söykənən çoxşaxəli fəaliyyəti müasir Azərbaycan qadınının cəmiyyətdəki



mövqeyi və rolu barədə aydın təsəvvür yaradır. Mehriban xanımın şəxsiyyətində Azərbaycan qadını üçün səciyyəvi olan yüksək humanizm və qayğıkeşlik kimi keyfiyyətlər parlaq təcəssümünü tapıb.

Mehriban xanım Əliyeva özünün peşəkar fəaliyyəti, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxış bucağı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini başlamışdır. Onun çoxistiqamətli fəaliyyətinin əsasında xalq sevgisi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik, zərif humanizm dayanır. Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda, beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələri də əhatə edir. Mehriban xanım Əliyevanın malik olduğu üstün mənəvi məziyyətlərin nəcib ailə köklərinə dərin bağlılıqdan qaynaqlanması Vətənimizə, dövlətçiliyimizə və xalqımıza sadiqlik əzmini şərtləndirən əsas amildir.

Məşhur Çin filosofu Lao Szı qeyd edir ki, min kilometr uzunluğunda olan yol sadəcə bir addımla başlayır. Addımı atmaq isə böyük cəsarət və fədakarlıq tələb edir. Mehriban Əliyeva atdığı hər addımında cəsarətli və cürətlidir. Mehriban xanım mehribanlıq yarada bilən ecazkar ülvi xüsusiyyətlərə malik qadındır. Onun cəmiyyətin hər bir üzvünə qarşı isti rəftarı yalnız xoş münasibət doğurur.

Mehriban Əliyevanın ictimai lider kimi fəaliyyəti Azərbaycan qadınının parlaq obrazını formalaşdırmışdır. O, sözün əsl mənasında, Azərbaycan qadınının ləyaqət simvoludur və istər humanitar, istər elm və təhsil, istərsə də digər sahələrdə həyata keçirdiyi böyük miqyaslı tədbirlər qadınların cəmiyyətdə rolunun artmasına dəstək olmaqla yanaşı, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir. Özü də bu, elə bir haldır ki, xarizmatik və cazibədar şəxsiyyət yüksək dərəcədə ziyalılıq ilə vəhdət təşkil edir.

Mehriban xanım yüksək əxlaqi, elmi və mədəni dəyərlərə malik bir ailədə doğulub və tərbiyə alıb. Valideynləri Mehriban xanımın milli və mədəni şəxsiyyət olaraq formalaşmasında əvəzsiz rol oynayıblar. Təvazökar, sadə və ziyalı bir ailədə tərbiyə almış, həmin mühitdən bəhrələnmiş, sonra isə dünyəvi siyasi bir ailədə – ulu öndər Heydər Əliyev ailəsində siyasətçi kimi püxtələşmişdir. Bütün bunlar Mehriban xanımda Vətəninə, millətinə olan sevgi ilə yanaşı, sosial, humanitar sahəyə – musiqiyə, incəsənətə və milli adət-ənənələrə böyük maraq yaradıb. Birinci xanım ehtiyacı olan insanların problemlərinin həllində, onlar üçün normal yaşayışın təmin olunmasında öz köməyini əsirgəməyib.

Mehriban Əliyeva istər aldığı tərbiyəyə, istər əsil-nəcabətinə, istərsə də təhsilinə görə Azərbaycanın sovet dövrü ziyalıları mühitindən çıxıb. İndi dünyada bu səviyyəli başqa bir birinci xanım, çətin ki, tapılar. Bu məziyyətlərə malik olan elita nümayəndələri, adətən, soyuqqanlı olur, xalqın problem və qayğılarını ürəklərinə yaxın buraxmamağa çalışırlar. Həqiqətən də çətindir, amma Mehriban Əliyeva başqasının dərdinə ürəkdən şərik olmağı bacarır. Bunu rola girməklə imitasiya etmək mümkün deyil. Onun təbiəti belədir!

İnsanın intellektual təfəkkürlü vətəndaş kimi formalaşmasında, tərbiyəsində ailənin rolu müstəsnadır. İnsan üçün ailənin əhəmiyyəti nə qədər böyükdürsə, ailə üçün də sevgi və hörmət mühitinin əhəmiyyəti o qədər önəmlidir. Sosiologiya elmində həmişə ailə kiçik bir cəmiyyət kimi araşdırılmışdır. Sosiumun intellektual mühitinin formalaşmasında, yetkinləşməsində ailənin rolu əvəzolunmazdır. Elə ailələr var ki, o nəinki yaşadığı cəmiyyət üçün örnəkdir, eyni zamanda millətə, xalqa, dövlətə əsl nümunədir. Belə ailədən tərbiyə vasitəsilə götürülmüş bütün müsbət keyfiyyətlər cəmiyyətin intellektual inkişafı üçün faydalıdır.

Təcrübə göstərir ki, əxlaqi özülü düzgün qoyulan ailə nəsillərə örnəkdir. İlham Əliyevin ideal tərbiyə aldığı Əliyevlər ailəsinin böyük şəxsiyyətlər, mübarizlər yetirən, millətini, xalqını, dövlətini dünyada tanıtdıran ailələrdən olması danılmaz həqiqətdir. Tale bu ailəni sanki millətinin, xalqının inkişafı, yetkinləşməsi, dünyaya tanıdılması üçün yaratmışdır.



Mehriban xanımın formalaşdığı mühit Azərbaycanın tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Mehriban Əliyeva fenomeni başqa amillərlə yanaşı, həm də iki konkret ailənin – Paşayevlər ilə Əliyevlərin qohum olmasının nəticəsidir. Mehriban xanımın babası, görkəmli Azərbaycan yazıçısı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayev əslən Cənubi Azərbaycandan idi. Anası Aida İmanquliyeva tanınmış ərəbşünas olub, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq edib. Mehriban Əliyevanın həyat yoldaşının, indiki Prezident İlham Əliyevin atasının təqdimata ehtiyacı yoxdur: Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur. Bu fakt çox şeyə dəlalət edir.

Böyük əxlaqa söykənən kiçik bir ailənin dövlət, xalq üçün nə qədər əhəmiyyətli olması bu ailənin timsalında daha aydın, daha gözəl görünür. Məhz bu ailənin timsalında demək olar ki, ailə özü düzgün idarə olunan dövlətdir. Təkcə Əliyevlər ailəsinin deyil, bütün Azərbaycan adlı bir ölkənin övladı olan, nadir tarixi şəxsiyyət kimi yetişən Heydər Əliyevin siyasi iradəsi, analitik təfəkkürü, uzaqgörənliyi, cahanşümul əməlləri, tükənmək bilməyən enerjisi nəinki onun özünü, hətta bütün dünya azərbaycanlılarını planet miqyasında tanıtmışdır. Mənalı ömrünü xalqına, Vətəninə həsr etmiş bu nadir tarixi şəxsiyyətin həyat yolu dərin fəlsəfi köklərə bağlı böyük bir siyasi məktəbdir.



Bu ailələr milli elitadır. Azərbaycanda onlarla səmimi-qəlbdən fəxr edirlər. Özü də çox sadə bir səbəbdən – ölkəyə və xalqa görə məsuliyyət yükü real şəkildə onların çiynindədir. Məhz onlar sınaqların və itkilərin ağrı-acısının nə demək olduğunu gözəl bilirlər. Çox vaxt görürsən ki, naz-nemətin çoxluğu elitanı zəiflədir. Bu ailələr isə əksinə, şəxsi enerjiləri ilə islahatları sürətləndirir və stimullaşdırırlar. Heç şübhəsiz, söhbət müasir Azərbaycan tarixinin passionar şəxsiyyətlərindən gedir.

Mehriban Əliyeva özünün həm ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına nümunədir. O, müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. Mehriban xanımı şəxsiyyət kimi xarakterizə edərkən bir məqamı nəzərdən qaçırmaq olmaz ki, onun fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir.

Mehriban Əliyeva öz mənəvi və intellektual enerjisini cəmiyyətin inkişafına yönəltməklə Azərbaycan qadınının ictimai fəaliyyətinin yeni səhifəsini açmışdır. Onun elm, təhsil, mədəniyyət və idman sahələrinin inkişafına yönəlmiş fəaliyyəti, ölkədəki quruculuq proseslərində yaxından iştirakı, şübhəsiz, ciddi elmi əsas-

lara söykənir. O, ölkə daxilində və xaricdə keçirdiyi görüşlərdə dərin biliyə, geniş erudisiyaya malik olduğunu hər dəfə yenidən nümayiş etdirir. Azərbaycan qadınları üçün bu, gözəl bir nümunədir. Bütün bunlar Mehriban Əliyevanın yüksək siyasi potensiala malik olduğunu təsdiqləməklə Azərbaycan qadınının modern tələblərə uyğun obrazını dünyaya nümayiş etdirir.

Mehriban Əliyeva qadının ailədə rolu haqqında belə deyir: "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq, analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Bu yanaşma ilə o, Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində ailə amilinin nə qədər önəmli olduğunu diqqətə çatdırır.

Mehriban Əliyeva xalqımızın haqq səsidir. Onun beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ilə bağlı əzmkar missiyası güclü bir siyasi təşviqat vasitəsinə çevrilibdir. Həmişə sülhün, əmin-amanlığın carçısı olmuş Mehriban xanım dünyada hər kəsin təhlükəsiz və birgə sülh şəraitində yaşaması üçün sülhpərvər siyasətə dərindən töhfə verir. Beynəlxalq səviyyədə keçirilən tədbirlərdə qadın hərəkatının liderlərindən biri kimi mötəbər və möhtəşəm fəaliyyəti ilə seçilir.

Mehriban Əliyeva gender problemlərinin həlli istiqamətində cəsur addımlar





ataraq qadınlara qarşı bütün zorakılıqların və Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına nail olmuşdur. Mehriban xanımın təşəbbüsü ilə qadın hüquqlarının müdafiəsi istiqamətində aparılan işlər xüsusilə qeyd olunmalıdır. Məsələn, "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsi ölkədə böyük əks-səda doğurmuşdur. 2010-cu ildə qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş "Məişət zorakılığı haqqında" Qanun qəbul olunmuşdur. Həmin Qanunun qəbul edilməsində, Ailə Məcəlləsində qızlar üçün nikah yaşının 18-ə qaldırılması ilə bağlı dəyişiklik olunmasında Mehriban xanım Əliyeva böyük təşəbbüs göstərmişdir. Bunun nəticəsi olaraq, erkən nikahlar və məişət zorakılığı ilə bağlı cinayətlərin sayı azalmaqdadır. 2008-ci il yanvarın 16-da Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu (UNFPA) və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə birgə layihəyə dair sənədlərin imzalanması da bunun bariz nümunəsidir. Əsas məqsədi əhalinin maarifləndirilməsi, qadın və uşaqların məişət zorakılığından müdafiə olunması, zərərli vərdişlərin aradan qaldırılması, erkən nikahların qarşısının alınması və ailədə baş verən zorakılığın uşaqlara təsirinə yol ve-

rilməməsi kimi əsl insani münasibətləri əks etdirən bu layihə çərçivəsində, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi, o cümlədən beynəlxalq ekspertlərin cəlb edilməsi, əhali arasında insan hüquqları və gender bərabərliyi ilə bağlı genişmiqyaslı məlumatlandırma kampaniyasının, regional seminarların təşkili planlaşdırılır.

Azərbaycanın Birinci xanımı nəcib, humanist və insanpərvər xarakterlə cəmiyyətdə mənəvi aşınma yaradan, eləcə də saf və ali dəyərləri ucuzlaşdıran mənfi meyillərə qarşı barışmaz mövqe tutur, insanlığın təntənəsinə xidmət edən nəcib təşəbbüsləri ilə həm də sivilizasiyalararası dialoq prosesinə öz töhfəsini verir. Son illərdə məhz Mehriban xanım Əliyevanın təşəbbüsü və iştirakı ilə Bakıda təşkil olunmuş yüksək səviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, qadın hüquqlarının qorunması, savadsızlığın, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Birinci xanımın Azərbaycan qadınlarının III qurultayındakı dərin məzmunlu çıxışı isə ümumilikdə ölkədə qadın hərəkatının dünəni, bugünü və gələcəyi ilə bağlı ən dəyərli fikirləri, tövsiyələri özündə ehtiva edir. Mehriban xanım Əliyeva demişdir ki, biz bu gün həyatımızın bir çox sahələrində qadınların əldə etdiyi uğurlarla haqlı olaraq fəxr edirik. Tarix boyu Azərbaycanda mədəniyyətimizin, ana dilimizin, dinimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin qorunub saxlanmasında qadınların misilsiz xidməti olmuşdur. Azərbaycanda qadın, ana hər zaman uca, müqəddəs sayılmış, qadınlarımız övladlarını vətənpərvərlik, xeyirxahlıq, mərdlik, qonaqpərvərlik, tolerantlıq ruhunda tərbiyə edərək, xalqımıza xas olan bu gözəl xüsusiyyətləri qoruyub saxlamışdır.

Qadınların maariflənməsinin ictimai-siyasi həyatda aktiv olmaları gələcək nəsillərin də inkişafını sigortalamış olur. Mehriban xanımın təşkilatçılığı və dəstəyi ilə qadın məsələləri ilə bağlı ölkədə keçirilən beynəlxalq tədbirlərin çox böyük əhəmiyyəti vardır. Onların sırasında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması", Krans-Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzularında keçirilən konfransları göstərmək olar.

Milli dövlətçilikdə, milli-mənəvi dünyamızın qorunmasında, eləcə də dəyər və layiqli önəm qazanmasında Mehriban xanım Əliyevanın böyük rolu yeni tariximizin yaddaqalan səhifələrindəndir. Mehriban xanımın bu sahədə çoxcəhətli və davamlı fəaliyyəti təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqda da geniş ictimai əks-səda doğurmuşdur. Onun geniş ictimai-siyasi fəaliyyəti təkcə



ölkəmizdə deyil, həm də dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında müstəsna rola malikdir. Mehriban xanım, sözün əsl mənasında, Azərbaycan qadınının ləyaqət simvoludur və istər humanitar, istər elm və təhsil, istərsə də digər sahələrdə həyata keçirdiyi irimiqyaslı tədbirlər qadınların cəmiyyətdə rolunun artmasına dəstək olmaqla yanaşı, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir.

Azərbaycanda "Birinci xanım" institutunun 2003-cü ilin oktyabrından sonra formalaşması, bunun UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın adı ilə bağlı olması faktı da xüsusi vurğulanmalıdır. Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da zənginləşməsinə və möhkəmlənməsinə yönəlmişdir.

Mehriban xanımın timsalında Azərbaycan qadını cəsur və fədakarlıq ünvanına çevrilmişdir. O, ictimai proseslərdə

fəal iştirakı ilə qadın hərəkatına yeni keyfiyyət dəyişiklikləri gətirmiş, qadının siyasi proseslərdəki yerinin və rolunun düzgün və nizamlı tərzini müəyyən etmişdir.

Mehriban Əliyevanın Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artması, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin güclənməsində rolu böyükdür. Birinci xanımın geniş ictimai-siyasi fəaliyyəti dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır. Ona görə də bu gün Azərbaycan qadınlarının siyasi və sosial aktivliyi Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Birinci xanımın fəaliyyəti o qədər geniş və çoxplanlıdır ki, uşaqlardan tutmuş yaşlı insanlara kimi əhalinin bütün təbəqələrini əhatə edir. Aztəminatlı və şəhid ailələri onun qayğısını daim öz üzərilərində hiss edirlər. Mehriban xanımın belə ailələri hər zaman yada salması mərhəmətin, xeyirxahlığın onun həyat amalına çevrildiyinin təsdiqidir. Onun şəxsində Azərbaycan qadını üçün səciyyəvi olan yüksək humanizm və qayğıkeşlik kimi keyfiyyətlər parlaq təcəssümünü tapmışdır.

Mehriban xanım ictimai-siyasi mühitdə qadının əsl ictimai simasını cəmiyyətə təqdim etmişdir. Onun bütün məziyyətləri ictimai xadim və siyasətçi kimi cəmiyyətə təqdim edilməsini bütövlükdə tamamlamışdır. Məlumdur ki, siyasət tamamilə başqa sosial və mədəni mühit olduğundan, burada imic başlıca faktordur. Siyasi imic kütlələrin şüurda təşəkkül tapmış və siyasi liderin emosional bəzənmiş obrazının xarakterik stereotipidir. Bəs imic nədən, daha doğrusu, hansı sosial-psixoloji amillərdən təşəkkül tapır? İmici formalaşdıran informasiya: geyim manerası, özünü layiqli aparmaqla səlis nitq mədəniyyəti, professional savad, erudisiya, işgüzarlıq, təşəbbüskarlıq, siyasi platforma, fəaliyyət proqramı, radio və televiziyada özünü təqdimetmə qabilyyəti və sairədir. Beləliklə, imic sosial-etik komponentlər sayəsində təşəkkül tapır. Siyasətçi qadın əsl imicə malik olmaq istəyirsə, nitq qabiliyyətini durmadan təkmilləşdirməlidir. Hər bir siyasətçini, eləcə də qadın siyasətçini daha çox söylədiyi fikirlərin məzmununa görə qiymətləndiririrlər. Yəqin ki, ağıllı siyasətçilər Sokratın "danış ki, səni tanıyım" kəlamını xatırlamaya bilməzlər. Təsadüfi deyildir ki, müasir politoloqlar siyasəti, hər şeydən əvvəl, nitq fəaliyyəti ilə bağlı xüsusi, mürəkkəb fəaliyyət növü hesab edirlər. Siyasətçini – fərqi yoxdur, kişi, yaxud qadın – öyrənməyin ən yaxşı metodu intervüdür. Bu bilavasitə canlı, qarşılıqlı ünsiyyət formasıdır. Siyasətçi üçün intervünün əhəmiyyəti ondadır ki, o, geniş auditoriya qarşı- sında nüfuzuna fayda gətirən bir amil həyata keçirir. Pozitiv cəhət budur ki, əhali bu prosesdə öz liderinə etimadını bildirməklə yanaşı, özü də siyasi mədəniyyətin dərkinə meyilli olur. İntervü elə bir siyasi po-

tensiala malikdir ki, bu zaman siyasətçi öz obrazını yaratmaqla, professionallığını nümayiş etdirmək üçün siyasi opponentlərinin obrazına hücum edir. Belə bir situasiyada siyasətçi həmçinin öz dəyərlərini və ideallarını aşkarlayır, bir növ, əhaliyə öz siyasi baxışları barədə hesabat verir.

Məhz intervü prosesində siyasətçinin nitq reaksiyasını müşahidə etmək olar. Məhz bu zaman bir qədər inanmaq olar ki, mətn müəyyən müəllifə məxsusdur. Siyasətçinin nitq mədəniyyəti barədə məlumatı onun televiziyada verdiyi intervüdən almaq olar. Təbii ki, müşahidəçini hər şeydən çox siyasətçinin nədən danışdığı deyil, onun necə danışması, auditoriyaya necə təqdim etmək manerası maraqlandırır. Siyasətçinin hər nitqində onun siyasi davranışının tipik cəhətləri üzə çıxır. Seçkilər zamanı siyasətçinin, bir növ, "nitq portreti" yaranır. Ümumiyyətlə, siyasi kommunikativlikdə "nitq davranışı" əsas kateqoriya kimi qəbul edilir. Çünki məhz bu cəhət siyasətçinin nəinki kommunikativ, hətta sosial davranışının mahiyyətini açır. Siyasətçinin intervüsündə nitq davranışının ikinci mühüm parametri "nitq liderliyi"dir. İngilis-Amerika linqvopraqmatik məktəbinin tərəfdarları hesab edirlər ki, sosial liderin söhbətində mühüm nitq cəhətlərindən birincisi, həmişə intervüsünə yeni mövzu ideyası daxil etməsi, ikinci cəhət isə tərəfdaşının dediklərini qiymətləndirməyi sözlə ifadə etmək bacarığıdır. Məhz bu cəhətlər nitq ünsiyyətində liderə xas olan xüsusiyyətlərdir.

Siyasətçinin nitq davranışının üçüncü əsas parametri onun kommunikativ əməkdaşlıq mühiti yaratması, yəni söhbət prosesində lazımi qarşılıqlı anlaşmaya səy göstərmək bacarığıdır. Bununla bağlı qeyd edək ki, vətən politoloji fikrində bu problem siyasi aspektdə, demək olar ki, tədqiq edilməmişdir. Halbuki liderlik və siyasi elita problemi bunsuz real şəkildə araşdırıla bilməz. Bu problemə dair son olaraq qeyd etmək istərdik ki, siyasi nitq mədəniyyəti sözünün mənasını düzgün dərk etməklə, ondan sosial quruculuq sahəsində bir alət kimi yararlanmaq, cəmiyyəti, dövləti və hakimiyyəti yaratmaqda məqsədyönlü və effektiv vasitə kimi dəyərlənmək önəmlidir. Bu, elitar liderin davranışında, onun siyasi təfəkküründə bir vərdiş kimi mühüm hal olmalıdır. Sözün, nitqin düzgün qurulması, onun təmizliyi, dəqiqliyi, hamının başa düşdüyü formada çatdırılması, ifadəliliyi, etik qanunlara əsaslanması siyasi elitanın başlıca peşə dəyərləridir. Əbəs yerə deyilmir ki, siyasət nitq sənətidir.

Qadını siyasətçi edən məhz bu sadalanan sosial-psixoloji xarakterləridir. Siyasətə gələn və dövlətinin mənafeyini həmişə üstün tutan "zərif məxluq"ların məşhur nümayəndələri məhz yuxarıda sadaladığımız keyfiyyətlərə malik olublar. Siyasi təfəkkürü və nitqi güclü olan qadın siyasətçilər nəinki öz ölkəsinin siyasi hə-

yatında, hətta dünya siyasətində müstəsna rol oynamışlar.

Bu məziyyətlər artıq siyasi elitada yüksək yer qazanmış Mehriban Əliyevanın xarakterində cəmləşmişdir. O, ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslərin gedişində üzərinə düşən bütün vəzifələrin öhdəsindən ləyaqətlə gəlir, daim milli dövlətçilik mövqeyindən çıxış edir. Mehriban xanım gənc nəsli Vətənə sədaqət, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi uğrunda əzmkarlıq və qətiyyət göstərmək ruhunda tərbiyə etmək, onları xalqa, cəmiyyətə layiqli bir övlad kimi yetişdirmək kimi ağır yükü şərəflə yerinə yetirir.

Mehriban xanımın fikirləri də özünün sadəliyi kimi aydın və sadədir. O qeyd edir ki, mənim həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bu gününü yaşayır, yenə də həyat dərsi keçir: "Bu dərs onun timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir".

Mehriban xanım Əliyeva özünün peşəkar fəaliyyəti, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxış bucağı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini başlamışdır. Mehriban xanım bu hərəkat tarixində ilk şəxsiyyətdir ki, onun fəaliyyəti təhsildən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir arealı əhatə edir. Onun çoxistiqamətli fəaliyyətinin əsasında xalq sevgisi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik, zərif humanizm dayanır. Məşhur fransız yazıçısı Jül Renarın hikmətli bir kəlamı var: "Bəxtəvər o insandır ki, başqalarının hələ etməyə hazırlaşdığı işi o artıq həyata keçirib". Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələri də əhatə edir. Mehriban xanım Əliyevanın malik olduğu üstün mənəvi məziyyətlərin nəcib ailə köklərinə dərin bağlılıqdan qaynaqlanması onun Vətənimizə, dövlətçiliyimizə və xalqımıza sadiqlik əzmini şərtləndirən əsas amildir.

Cəmiyyətdə gedən demokratikləşmə proseslərindən irəli gələrək ölkədə çoxsaylı qadın təşkilatlarının yaradılması, ümummilli miqyasda fəaliyyət göstərən bu qurumların əsas məqsəd kimi Azərbaycanda qadının sosial statusunun yaxşılaşdırılması, onun sosial-iqtisadi problemlərinin həlli və sair bu kimi vacib məsələlərin önə çəkilməsi də Mehriban xanım Əliyevanın ictimai-siyasi fəallığının bariz təcəssümüdür.

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının V qurultayında Mehriban Əliyevanın şəxsində ümumilikdə Azərbaycan qadınına böyük etimad göstə-

rildi. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası sədrinin müavini seçilməsi ilə Azərbaycan qadınının siyasətdə təmsilçiliyinə böyük dəyər verildi və bu fakt qadınlarımızın Azərbaycanın aparıcı partiyasına axınını daha da stimullaşdırdı.

Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da zənginləşməsinə və möhkəmlənməsinə, elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü çox fəal işlərlə yanaşı, gender problemlərinə, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına yönəldilmişdir.

Görkəmli ictimai xadim, ölkəmizin Birinci xanımı bu gün qadın hərəkatının önündə gedərək beynəlxalq görüş və tədbirlərdə Azərbaycan qadınlarını ləyaqətlə təmsil edir, səsini ən yüksək tribunalardan dünya ictimaiyyətinə çatdırır. Bu gün Mehriban Əliyevanın simasında qadınlarımız dünya səviyyəsində öz sözünü deyir. Şərq və Qərb xüsusiyyətlərini özündə cəmləşdirən, milli dəyərlərimizin və mədəniyyətimizin təbliğatçısı, Azərbaycan adət-ənənələrinin qoruyucusu, ümummilli problemlərimizin dünya müstəvisinə çıxarılmasında əvəzsiz xidmətləri olan Mehriban xanım Əliyevanın obrazı Azərbaycan qadınlarının dünyabaxışında, gələcəyində mühüm rol oynamaqdadır.

Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bir çox ictimai-siyasi xadimlərə nümunə olacaq işlər görür. Onun təşəbbüsü və dəstəyi ilə yalnız Azərbaycanda deyil, Amerikada, Avropanın bir çox ölkələrində, Müstəqil Dövlətlər Birliyində, müsəlman ölkələrində bir sıra sosial, elm və təhsil, İKT, mədəniyyət sahələrində layihələr həyata keçirilir. Azərbaycan mədəniyyətinin, musiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında Mehriban xanım Əliyevanın rolu danılmazdır. Məhz bir çox ölkələrin birinci xanımları onun fəaliyyətindən yararlanır, təcrübəsindən istifadə edirlər.

Mehriban Əliyeva ən xırda təfərrüatları belə, təhlil etmədən qərar vermir. O, iti müşahidəçilik qabiliyyətinə malikdir. Görüşlər, təbdirlər zamanı heç nə diqqətindən kənarda qalmır, illər öncə müşahidə etdiyi hansısa bir hadisəni bütün təfərrüatı ilə xatırlaya bilir. Hər şeyə praqmatik yanaşır, dərindən təhlil edir və düzgün qərar verməyi bacarır.

Mehriban xanım rasional düşüncəyə malik, praqmatik qərarlar qəbul etmək bacarığı, ictimai prosesləri proqnozlaşdırmaq bacarığı, uzaqgörənliyi, özünəməxsus qadın liderlik keyfiyyətləri olan ictimai xadimdir. Onun bu istedadının,

yüksək bacarığının nəticəsidir ki, ictimai fəaliyyəti qlobal səviyyədə və dünya miqyasında qiymətləndirilir, sosioloji tədqiqatlarda mühüm fundamental məzmun kəsb edir.

Mehriban Əliyevanın xeyirxah missiyası, örnəkverici addımları onun övladları tərəfindən də davam etdirilir. Əliyevlər ailəsinin xeyriyyəçilik və insanpərvərlik hərəkatı sanki bu nəslin ənənəsinə, həyat fəlsəfəsinə çevrilmişdir. Mehriban övladlar – Leyla və Arzu Əliyevalar nəcib və mərhəmət ünvanı kimi cəmiyyətin sevimlisinə çevriliblər. Xeyirxah, qayğıkeş insan, gözəl övlad və ana olan Leyla Əliyevanın simasında Azərbaycanda müasir cəsur və fədakar gənc qadın obrazını görmək mümkündür. Leyla Əliyeva özündə Azərbaycan gənclərinin ən yaxşı keyfiyyətlərini birləşdirir. Bu o insanlardır ki, ölkəmizin gələcəyi üçün narahatdırlar və onun çiçəklənməsi naminə daim çalışmağa hazırdırlar.

Leyla xanımın fəaliyyəti müxtəlif sahələri əhatə edir. Heydər Əliyev Fondunun vitse-prezidenti, eyni zamanda “Xocalıya ədalət” kampaniyasının təşəbbüskarı və lideri, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, Rusiyada Azərbaycan Gənclər Birliyinin (AMOR) sədri, eləcə də “Bakı” jurnalının təsisçisi və baş redaktorudur. Leyla Əliyevanın gördüyü bütün işlər keyfiyyət və uğur nümunəsinə çevrilir. Onun təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı və mühüm layihələrdən biri “Xocalıya ədalət” kampaniyası olub. Artıq doqquz ildən çoxdur ki, bu təşəbbüs çərçivəsində bütün dünyada – Avropadan Amerikayadək – yeni tarixin ən dəhşətli hadisələrindən olan Xocalı soyqırımı haqqında həqiqətlərin insanlara çatdırılmasına xidmət edən tədbirlər və aksiyalar keçirilir.

Leyla Əliyeva Heydər Əliyev Fondunun vitse-prezidenti kimi qayğıya, yardıma daha çox ehtiyacı olanlara diqqət yetirir. Onun geniş ictimai fəaliyyəti həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda hər kəsə yaxşı tanışdır. Yaşlı insanlara, valideyn qayğısından məhrum olmuş uşaqlara, qaçqın və məcburi köçkün ailələrinə yardım göstərən Leyla Əliyeva eləcə də təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində bir çox layihələrdə bilavasitə iştirak edir. Onun hər bir layihəsi qayğı və sevgi ilə, xeyirxahlıq arzusu ilə əhatə olunub və bu amillər bir çox insanı Leyla Əliyevanın ideyaları ətrafında birləşdirir.

Leyla xanım Əliyevanın rəhbərlik etdiyi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGT) bu istiqamətdəki fəaliyyəti ilə seçilir. Bu gün RAGT gəncləri təşəkkül və cəmiyyətdə özünütəsdiq yolu ilə savadlı və etibarlı şəkildə irəli aparan bir təşkilatdır. Artıq Rusiyanın 70-dən çox regionunda RAGT-ın bölmələri fəaliyyət göstərir. Özünün belə böyük coğrafi əhatə dairəsi və geniş maraqları sayəsində haqlı olaraq ümumrusiya təşkilatına çev-



rilmiş RAGT Rusiyada yaşayan minlərlə azərbaycanlı gənci ictimai fəaliyyətə cəlb etməyə nail olub və bunu davam etdirir. Leyla xanımın redaktoru olduğu Moskvada nəşr edilən "Baku" jurnalı Azərbaycan həqiqətlərinin təbliğində ən mühüm media silahlarımızdan biridir.

Leyla Əliyeva milli vətənpərvər kimi də Ailədən aldığı gücü nümayiş etdirir. Heydər Əliyevin müəllifi olduğu mili azərvaycançılıq ideologiyasına sadiq qalaraq milli-mənəvi dəyərlərimizin təbliğində səylərini əsirgəmir, ölkəmizin problemləribə çox həssaslıqla yanaşaraq düşmən təbliğatının qarşısını alır. Onun təşəbbüsü ilə 2008-ci il mayın 8-dən start götürmüş "Xocalıya ədalət" kampaniyası erməni vandalizminin iç üzünün aşkar olunmasında hədəfə ünvanlanmış ən düzgün xətdir.

Leyla Əliyeva Azərbaycanda müasir nəslin simasını bir çox cəhətdən formalaşdıran liderdir. 2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş koordinatoru kimi milli-mənəvi və bəşəri dəyərlərin qorunmasında fəallıq nümayiş etdirir.

Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərinə ölkəmizin Qərb və Şərqin qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin in-

kişafını sürətləndirməsi də aiddir. Bu məqsədlə İstanbulda keçirilmiş ikinci "İşgüzarlıq, dəyərlər və inkişaf" adlı sammitdə Leyla Əliyevanın təşəbbüsü yüksək qiymətləndirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələrdə gənclərin işgüzarlığının perspektivlərinə müsbət təsir göstərmək məqsədilə İƏT-in Gənclər Forumunun təşkilatçılığı ilə sammitin tərkib hissəsi olaraq "İnkişaf çağırışlarına yeni nəslin cavabı: İƏT Gənc İş Adamları Şəbəkəsi (ICYEN) – İƏT-in üzvü olan ölkələrdə gənc işgüzarlar üçün yeni platforma" mövzusunda təşkil olunmuş xüsusi paneldə İƏT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Dünyanı dəyişə biləcək 10 gənc müsəlman" adlı beynəlxalq mükafatın təqdimatı keçirilmişdir. Gənc İş Adamları Şəbəkəsi İƏT-in üzvü olan ölkələrdə fəaliyyət göstərən gənc iş adamları üçün birgə platforma rolunu oynamaqla onlar arasında biznes məlumat mübadiləsi aparmağa, iqtisadiyyatın inkişafına töhfə verə biləcək biznes fəaliyyətinin stimullaşdırılmasına, o cümlədən qlobal səviyyədə innovativ ideya və təcrübə mübadiləsinin həyata keçirilməsinə imkan yaradır.

Azərbaycanın müasir inkişafı, ölkədə son illərdə reallaşdırılan iqtisadi, siyasi və ekoloji təşəbbüslər, IDEA kampaniyasının əsas fəaliyyət istiqamətləri və bu təşəbbüsün Cənubi Qafqaz ölkələri üçün aktuallığı Britaniyanın "EcoMuslim" ekoloji qurumunun və Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin təşkilatçılığı ilə IDEA kampaniyasının təqdimat mərasimində öz əksini tapmışdır. Bu kampaniyanın təşəbbüskarı Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən ətraf mühit layihələri haqqında məlumat vermiş, Azərbaycan gənclərini "Rio+20" konfransına səfərbər etmək üçün BMT-nin İnkişaf Proqramı ilə birgə aparılan əməkdaşlıq çərçivəsində kampaniyanın əsas fəaliyyət istiqamətinin insanların ətraf mühitlə birgə yaşayışın düzgün davranış və hərəkətlərini təmin etməkdə erkən təhsilin rolunun önə çəkilməsi olduğunu bildirmişdir. Layihə çərçivəsində Leyla Əliyeva regiondakı mövcud dondurulmuş və fəal münaqişələrin ekosistemə mənfi təsiri, Azərbaycanın işğal olunmuş ərazilərində meşələrin qəsdən yandırılmasının vəhşi flora və faunanı təhlükə altında qoyması, Qafqaz bəbiri kimi nadir heyvanların tükənmə riski ilə üzləşməsi, sənaye istehsalı, nüvə və radioaktiv tullantılardan çirklənmə və eləcə də Ermənistanın Metsamor şəhəri yaxınlığında Atom Elektrik Stansiyasının ərazisində yeni nüvə blokunun tikilməsinin regionun ətraf mühit təhlükəsizliyinə zərbə olması kimi mühüm məsələlərə toxunmuş, beynəlxalq ictimaiyyəti bu istiqamətdə əməli addımlar atmağa çağırmışdır.

Leyla xanımın təşəbbüskarlığı, irəli sürdüyü ideyalar və həyata keçirdiyi layi-

hələr beynəlxalq səviyyədə müsbət qarşılanır. Onun Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən “Puşkin” medalı ilə təltif olunması əməyinə verilən yüksək dəyərin ifadəsidir.

Leyla Əliyeva Azərbaycanda həyata keçirilən sosial layihələrdə də fəal iştirak edir. Onun təşəbbüsü ilə Bakı şəhərinin müxtəlif ərazilərində yaşayış binalarının ətrafında yaşıllıq zolaqlarının və istirahət guşələrinin yaradılması xoş bir ənənəyə çevrilibdir. Bu gün paytaxtda minlərlə vətəndaş Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində istirahətlərini xoş keçirir, rahatlıq tapırlar. Bu layihə həyata keçirilərkən abadlaşdırılan həyətlərdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkətinin nəzərə alınması, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə ərazidə mini futbol mey-





dançası, şahmat meydançası, idman qurğuları, uşaqlar üçün oyun meydançası, söhbətgah və oturacaqların quraşdırılması Bakı sakinlərinə ən layiqli nümunə hesab oluna bilər.

Leyla xanım ölkəsini sonsuz məhəbbətlə sevən və bunu sözdə deyil, konkret işləri ilə sübuta yetirən şəxsiyyət, gözəl övlad və anadır. Əminliklə demək olar ki, Heydər Əliyev Fondunun vitse-prezidenti bundan sonra da Azərbaycanda və onun hüdudlarından kənarda daha yeni təşəbbüslərlə çıxıç edəcək, yeni layihələr həyata keçirəcək.

Əliyevlər ailəsinin fəxri və xalqımızın qürur duyduğu digər övladı Arzu Əliyeva da öz xeyirxahlığı və sadəliyi, səmimiliyi ilə milyonların qəlbində özünə yer tapıb. Müasir mədəni-ictimai proseslərdə fəal rol oynayan və gənclərlə birlikdə Azərbaycanın quruculuq salnaməsinə öz töhfəsini verən Arzu Əliyevanın həyata keçirdiyi bir sıra layihələr cəmiyyətin diqqətini cəlb etməkdədir.

Arzu Əliyeva Azərbaycanın mədəniyyət siyasətinin gerçəkləşməsində yaxından iştirak edir, Avropa ölkələrində təşkil edilən mədəniyyət proqramlarında fəal-

lığı ilə seçilir. Onun rəhbəri olduğu "Azərbaycanın Dostları" Birliyi bir sıra layihələrin müəllifidir. Məhz Arzu Əliyevanın təşəbbüsü ilə diaspor təşkilatları Avropada mühüm aksiyalarda fəallığını artırır. İsveçrənin Bazel şəhərində keçirilən "Azərbaycan mədəniyyəti inciləri" proqramı çərçivəsində "Azərbaycan muğamları gənc muğam ifaçılarının təqdimatında" adlı layihənin təşəbbüskarı olan Arzu Əliyeva bu tədbiri olduqca maraqlı və rəngarəng etməklə Avropada minlərlə musiqisevərin milli mədəniyyətimizə heyranlığına səbəb olub.

Avropa ölkələrində digər mədəni tədbirləri yüksək təşkilatçılıq istedadı ilə gerçəkləşdirən Arzu Əliyeva mədəni diplomatiyamızın zəngin səhifələrinə yeni səhifə əlavə etmişdir. Onun bu qabiliyyəti sayəsində Azərbaycan musiqisi tamamilə fərqli mədəniyyətə, düşüncə tərzinə malik insanların qəlbində dərin iz buraxmışdır. Bern şəhərinin "Ono" Mədəniyyət Mərkəzində təşkil olunmuş digər möhtəşəm tədbir də Azərbaycan musiqisinin çoxsaylı pərəstişkarlarının bir araya gəlməsi baxımından mühüm rol oynamışdır.

Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva incəsənətimizə, xüsusilə də kino sənətimizə son illərdə dərin töhfə verən unikal layihələri ilə diqqəti cəlb etmişdir. Onun müəllifi olduğu filmlər kino sahəsində tamamilə yeni bir cığırın açılmasına, milli kinomuzun müasir tarixində fərqli və kreativ sənət nümunələrinin ərsəyə gəlməsinə səbəb olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə həsr edilmiş “Son iclas” filmi müasir kino tariximizin ən parlaq nümunələrindən biridir. Cümhuriyyətin son günlərində baş verən hadisələrdən bəhs edən bu film müsəlman Şərqində ilk parlamentli respublikanın sonunu gətirən faciəvi hadisələri dolğun şəkildə əks etdirir. Ekran əsərində Cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə – istər işğalçı ordu, istərsə də bu ordunun daxili havadarlarına qarşı son anadək apardıqları qeyri-bərabər və ümidsiz, lakin dönməz və qətiyyətli mübarizə əks etdirilir. Bu mübarizə faciə ilə başa çatsa da, onun Azərbaycanın istiqlal tarixinin şərəfli bir səhifəsi olduğu vurğulanır. Filmdə həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin bu şərəfli tarixinin və faciəli taleyinin ölkəmizin yenidən müstəqilliyə qovuşmasına böyük örnək olduğu ön plana çəkilir. Bənzərsiz həyat hadisələri fonunda çox ustalıqla ərsəyə gələn bu filmdə həmin illərin indiyədək gizli qalan bir sıra məqamları da üzə çıxarılaraq işıqlandırılıb.

# II FƏSİL

*Mədəniyyət diplomatiyası:*
*ictimai missiyanın uğur salnaməsi*





> *"Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür".*
>
> **Ümummilli lider**
> **Heydər Əliyev**

## MEHRİBAN ƏLİYEVA İLƏ BAŞLAYAN MƏDƏNİ İNTİBAHIMIZIN YENİ SƏHİFƏSİ

Dünya sivilizasiyasına minilliklər ərzində öz mədəniyyəti ilə zəngin töhfə vermiş dövlətlərin varlığını və qüdrətini nümayiş etdirən ən mühüm amillərdən biri də məhz onun qədim maddi mədəniyyət nümunələridir. Hər bir xalqın tarixi keçmişini, milli-ideoloji və maddi varlığını, zəngin ənənələrini təsdiq edən onun mədəniyyətidir. Mədəniyyət ölkənin tarixinin, milli ənənə və dəyərlərinin göstəricisi kimi həm də onun milli özünəməxsusluğunu təsdiq edir. Dünya ölkələri və xalqları arasında əlaqələrin daha da genişləndirilməsində, mehriban dostluq münasibətlərinin formalaşmasında da mədəniyyətin müstəsna yeri vardır.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı dünya sivilizasiyasında zəngin maddi-mədəniyyət nümunələri, incəsənəti və musiqi mədəniyyəti ilə öz möhürünü vurmuşdur. Qədim zamanlardan bu ərazilərdə əcdadlarımızın yaratdığı zəngin mədəni irs – Qobustan və Gəmiqaya təsvirləri, Azıx və Tağlar mağaraları kimi tarixi abidələr, şifahi və yazılı ədəbiyyat, memarlıq, rəssamlıq, xalçaçılıq, musiqi sənəti nümunələri Azərbaycan xalqının bəşər sivilizasiyası xəzinəsinə bəxş etdiyi layiqli töhfələrdir.

Azərbaycan ötən minilliklər ərzində və müasir tarixi mərhələdə özünün zəngin sənət əsərləri və mədəniyyət nümunələri ilə dünya mədəniyyət inciləri sırasında layiqli yerini tutmuş, dünya mədəniyyətinin zənginləşməsinə öz töhfəsini vermişdir. Zəngin mədəni irsə malik olan Azərbaycan ecazkar musiqisi ilə dünya musiqi mədəniyyəti xəzinəsini zənginləşdirmiş, Avropa və Asiya xalqlarının həyatına daxil olmuşdur. Azərbaycan milli musiqisinin təməl daşı, bünövrəsi olan muğam sehrkar gücü və qüdrəti ilə yüzillərdən bu günümüzə dünya xalqlarının mədəni ruhunu oxşamışdır.

Azərbaycanın incəsənəti də xalqımızın tarixi qədər qədim və zəngindir. Uzun və mürəkkəb inkişaf yolu keçmiş teatr, kino,

musiqi və xalq sənətinin müxtəlif növlərinin tədqiqi xalqımızın yüksək mədəni irsə malik olmasını sübut edir. Azərbaycanın mədəniyyət və incəsənət xadimləri milli mədəniyyətimizin dünyaya çatdırılması istiqamətində böyük əmək sərf etmiş, incəsənətimizin tanıdılmasında bir sıra uğurlar əldə etmişlər.

Azərbaycan mədəniyyəti sovetlər dövründə də öz zəngin ənənələrini qoruyub saxlamış, mədəni tədbirləri ilə milyonların diqqətini cəlb etmişdir. Mədəniyyət diplomatiyası Azərbaycanın xarici siyasət konsepsiyasının ayrılmaz elementinə çevrilmişdir. Mədəniyyət resursları və ölkəmizin bu istiqamətdə məqsədyönlü fəaliyyəti son illər beynəlxalq aləmdə nəzərəçarpan uğurlar əldə etməyə imkan vermişdir.

Mədəniyyətimizin böyük himayədarı olan ulu öndər Heydər Əliyevin ötən əsrin 70–80-ci illərində misilsiz xidmətləri sayəsində Azərbaycanın milli-mənəvi dəyərləri qorunub saxlanmış, inkişaf etdirilmişdir. Həmin illər çağdaş tariximizə iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olmuş, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə təkan vermişdir.

XX əsrin sonlarında dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikasının mədəniyyət siyasətinin inkişaf etdirilməsi məhz ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Azərbaycan Respublikası milli mədəniyyətin inkişafını dövlət siyasətinin prioritetlərindən biri hesab etmiş, mədəni irsin qorunub saxlanılması və təbliğ edilməsi, onun inkişafı üçün daha münbit şəraitin yaradılması, mədəniyyət və incəsənət nümayəndələrinə azad yaradıcılıq imkanlarının təmin edilməsi yolunda müntəzəm olaraq zəruri tədbirlər həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin mədəniyyət və sənət adamlarına yüksək diqqət və qayğısı sayəsində onlara dövlət dəstəyi artırılmış, mədəniyyət və incəsənət obyektləri yenidən öz əvvəlki şöhrətini bərpa etməyə başlamış, qapıları bağlanmış teatrlar, kitabxanalar, muzeylər yenidən tamaşaçıların üzünə açılmışdır. Milli mədəni irsimizin qorunması, zənginləşdirilməsi və gələcək nəsillərə çatdırılması sahəsində və Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin həyata keçirilməsində yeni strategiya müəyyənləşdirilmişdir. Milli dəyərlərimizin və incəsənətimizin dünyaya tanıtdırılması istiqamətində müəyyən edilən strategiya Azərbaycanın mədəni irsinin təbliğində mühüm rol oynamışdır.

Azərbaycanın mədəni diplomatiya siyasəti müstəqillikdən sonrakı ilk dövrlərdə sadəcə mövcud vəziyyəti qoruyub saxlamaq idi. Xalq, bir tərəfdən, milli müstəqillik və sonrakı mərhələdə bu müstəqilliyin qorunub saxlanılması, digər tərəfdən isə Vətənin müdafiəsi, ərazi bütövlüyünün təmin edilməsi uğrunda müba-

rizə aparırdı. Mədəniyyət və ideologiya sahəsində spontan şəkildə milli özünüdərk, paralel olaraq dinə qayıdış prosesi gedirdi. Millətin adı, yaxın və uzaq tarixi, dili, əlifbası və onun dəyişdirilməsi istiqamətində gərgin müzakirələrin, emosiyalarla müşahidə olunan mübahisələrin ardı-arası kəsilmirdi. 1992-ci ildə milli şüurun formalaşmasına təsir edən iki əhəmiyyətli addım atıldı: ruslara məxsus soyad sonluqlarının milli soyad sonluqları ilə və mövcud kiril əlifbasının latın əlifbası ilə əvəzlənməsinə qərar verildi. Azərbaycan bu sahədə yeni müstəqillik qazanan türk respublikaları arasında öncüllərdən sayılırdı. 1995-ci ildən sonra ölkədə nisbi sabitlik yarandı və dövlət mədəniyyət siyasətinin müəyyənləşdirilməsi haqqında düşünməyə başladı. Karbohidrogen resurslarından gələn gəlirlər artdıqca Azərbaycan mədəniyyəti də bundan faydalanmaq imkanı qazanır, mədəni diplomatiyaya diqqət artırılırdı.

Əminliklə demək olar ki, 2000-ci illərə qədər Azərbaycan sovet mədəniyyətinin orbitindən uzaqlaşa bilmişdi. 1998-ci ildə Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət obyektlərinin qorunub saxlanılmasının və inkişafının, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edən “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Sənəd mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsip və vəzifələrini müəyyən etdi. Bu vəzifələrdən biri də Azərbaycan Respublikasının mədəniyyət potensialının inkişafına, mühafizəsinə və ondan hərtərəfli istifadə olunmasına, mədəniyyət sahəsində genişmiqyaslı beynəlxalq əməkdaşlığa şərait yaradılması idi.

Azərbaycan Regional və Azlıqların Dilləri haqqında Nizamnaməni, UNESCO Dünya Mədəniyyət və Təbii İrsinin Qorunması haqqında Razılaşmanı, UNESCO Mədəniyyət ifadələrinin müxtəlifliyinin qorunması və inkişaf etdirilməsi haqqında Sazişi, UNESCO Qeyri-maddi Mədəniyyət İrsinin Qorunması haqqında Sazişi təsdiqləməklə dünya mədəniyyəti hərəkatına daxil oldu. Respublikamızın Avropa Şurasının MOSAIC, STAGE və "Kiyev təşəbbüsü", Avropa və regional proqramlarda iştirakının təmin edilməsi, Dünya Turizm Təşkilatının İcraiyyə Şurasının üzvlüyünə qəbul edilməsi mədəniyyət sahəsində geniş əməkdaşlıq üçün dərin əsaslar yaratdı.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi mədəniyyət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni mərhələyə qədəm qoydu.

Onun rəhbərliyi ilə dövlətin mədəniyyət siyasətinin həyata keçirilməsi daha çevik xarakter aldı, bu sahədə islahat-



lar sürətləndi, Dövlət proqramlarının reallaşması istiqamətində uğurlu addımlar atıldı. Azərbaycanda mədəniyyətin müxtəlif sahələri – teatr, kino, kitabxana və muzey işinin inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları ölkəmizdə mədəniyyətin tərəqqisinə yeni stimul yaratdı. Mədəniyyət və incəsənətin inkişafına, bu sahədə çalışan insanlara göstərilən diqqət və qayğı artırıldı, ölkəmizin beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi geniş vüsət aldı.

Müasir dünya və cəmiyyətin həyatında sivilizasiyaların ən mühüm komponentlərindən biri kimi mədəniyyətin rolu və yeri daha da artmaqdadır. Qloballaşan dünyada cəmiyyətin mədəni ehtiyaclarının ödənilməsində mühüm faktor kimi mədəni əlaqələrin genişləndirilməsi daha da aktuallıq kəsb etməyə başlamışdır.

Mədəni əməkdaşlığın genişlənməsi və möhkəmlənməsi milli mədəniyyətlərin bütün sahələrində qazanılmış nailiyyətlərlə digər xalqların tam qarşılıqlı tanışlığını təmin etməklə müxtəlif mədəniyyətlərin, onların hər birinin özünəməxsusluğuna, həmçinin başqa xalqların mədəniyyətlərinin bütün bəşəriyyətin maddi irsini təşkil edən dəyərlərinə hörmət əsasında zənginləşməsinə şərait yaradır. Hər bir mədəniyyət təkrarolunmaz və əvəzedilməz dəyərlər məcmusudur və hər bir xalq məhz öz ənənələri və ifadə formaları vasitəsilə bütün dünyaya özünü təsdiq etdirir. Dünya ölkələri ilə hərtərəfli geniş əlaqələr quran Azərbaycanın müxtəlif

beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində də əməkdaşlıq əlaqələrinə mühüm diqqət ayrılmış, ölkəmizin milli-mədəni ənənələrə sadiq qalaraq dünya sivilizasiyasına inteqrasiyası üçün əlverişli şərait yaranmışdır.

Mədəni diplomatiya fikir, bilik, adət-ənənə, incəsənət, eləcə də dini və dünyəvi dəyərlər mübadiləsinə, xalqlar, dövlətlər, sivilizasiyalar arasında əlaqələrin inkişafına, sabitliyin, sülhün bərqərar olmasına yardım edən vasitədir. Mütəxəssislər hesab edirlər ki, mədəni diplomatiya "yumşaq gücün" gerçəkləşməsi üçün ən münasib alətdir və mədəniyyətin, ideyaların, dəyərlərin köməyilə başqa ölkələrə təsir göstərməyə imkan yaradır.

Mənəvi aləmimizi zənginləşdirən, birliyimizi təmin edən, tariximizi və mədəni irsimizi ucaldan milli sərvətlərimizi qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Vətən sevgisi, adət-ənənələrimiz, yurdsevərlik kimi mental keyfiyyətlərimizi özündə təcəssüm etdirən mənəvi dəyərlərimiz, bütün dövrlərdə olduğu kimi, bu gün də gündəlik həyatımızda əxlaqi meyar rolunu oynayır. Onları yaşatmaq, gələcək nəsillərə ötürmək xalqın keçmişini, onun varlığını qorumaq deməkdir. Bu baxımdan, Mehriban xanım Əliyeva millətin gələcəyinə hesablanmış xoşməramlı missiyanı öz zərif çiyinlərinə götürərək, milli intibahımıza yeni və dəyərli töhfələr vermişdir.



## Azərbaycan Mədəniyyətinin Dostları Fondu – dünya mədəniyyət hərəkatında yeni dalğa

*"Yaxşı başlanğıc uğurun yarısıdır".*

**Andre Jid**

Alman etnoqrafı Fridrix Ratselə görə, "xalqın mədəni gücü onun siyasi gücündən qat-qat dərində olur. Hər hansı xalqın mədəni ucalığı onun siyasi əzəmətinin süqutundan sonra da alınmaz olan ikinci qalasıdır".

24 il əvvəl, 1995-ci ildə Azərbaycanın sosio-mədəni həyatında yeni hərəkat başlandı. Əsas qayəsi, fəlsəfəsi ölkəmizin zəngin mədəniyyət irsini, milli-mədəni sərvətlərimizi, dünya sivilizasiyasının bənzərsiz sənət abidələrini, xalqın şanlı keçmişinin canlı əfsanələri olan nadir incəsənət nümunələrini, qiymətli maddi və mənəvi dəyərlərini müasir dünyaya daha dolğun, əhatəli və praktik olaraq tanıtmaqdan ibarət olan bu mədəniyyət hərəkatı olduqca məsuliyyətli və şərəfli missiyanı öz üzərinə götürdü. Milli-mədəni intibahımızda yeni səhifələr açan bu tarixi prosesin təşəbbüskarı, ideya rəhbəri, cəmiyyətin kifayət qədər tanıdığı, ictimai nüfuzu ilə xalq arasında xüsusi hörməti və yeri olan kübar bir xanım idi. Bu, ümummilli lider Heydər Əliyev ailəsinin əziz və doğma üzvü, Əliyevlərin zəngin milli-mənəvi ailə dəyərlərini bütün keyfiyyətləri ilə əxz etmiş Mehriban xanım Əliyeva idi.

1995-ci ildə xalqımızın zəngin mədəniyyətini dünya ictimaiyyətinə tanıtmaq məqsədilə yaradılmış Azərbaycan Mədəniyyətinin Dostları Fondu (AMDF) öz ideyası, üslubu ilə ölkəmizin mədəniyyət və incəsənət sektoruna rəngarənglik gətirdi. Əsas məqsəd Azərbaycan mədəniyyətini dünya miqyasında daha yaxşı tanıtmaq, geniş təbliğ etmək, incəsənət xadimlərinə maddi yardım göstərmək olan Fond ilk gündən missiyasına uyğun olaraq geniş və əhatəli fəaliyyəti ilə mədəniyyət siyasətinə hərtərfəli dəstəyini göstərməyə başladı.

Mehriban xanımın zəngin fəaliyyəti sayəsində Azərbaycanın qədim tarixi və zəngin abidələrinin, mədəniyyət və incəsənət nümunələrinin təşviqi və təbliği geniş vüsət aldı və bununla da yeni mərhələnin başlanğıcı qoyuldu. Azərbaycan Mədəniyyətinin Dostları Fondu xalqımızın mədəni dəyərlərinin dünya mədəniyyətinə inteqrasiya olunması, yeni beynəlxalq əlaqələrin yaradılması və digər layihələrlə ideya-məzmun baxımından mədəniyyət siyasətinin yeni xəritəsini cızdı. Fond faydalı və xeyirxah tədbirlərin əhatəliliyi və dolğunluğu ilə mədəni mühitdə tamamilə fərqli yanaşma sərgilədi, müasir humanitar aksiyaların təşəbbüskarı və sahibinə çevrildi.

Milli incəsənətimizin inkişafı, təbliği, xarici ölkələrdə daha geniş tanıdılması, Azərbaycan xalqının dünya mədəniyyəti-

nə inteqrasiyası, yeni beynəlxalq əlaqələrin formalaşması istiqamətində zəngin töhfə vermişdir. Fond öz fəaliyyətini üç mühüm hədəfə – mədəni tədbirlər, xeyriyyə aksiyaları, naşirlik istiqamətlərinə yönəldərək Azərbaycanın görkəmli incəsənət xadimlərinin yubiley gecələrini təşkil etmiş, müxtəlif milli mədəni layihələr həyata keçirmişdir.

Fondun təşkilatçılığı ilə Azərbaycanda xarici ölkələrin incəsənət xadimlərinin konsertləri, teatr tamaşaları, təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri və s. beynəlxalq miqyaslı tədbirlər müasir mədəniyyət tariximizə ən yaddaqalan hadisələr kimi daxil olmuşdur.

Özünün möhtəşəm layihələri ilə sosial instituta çevrilən Fond ölkə miqyaslı və beynəlxalq səviyyəli tədbirlərlə ictimai həyatın bir çox sahələrinə dərindən nüfuz etməyi bacardı.

Tarix göstərir ki, hər hansı milləti kölə vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq və yaxud da kökündən uzaqlaşdırıb yaxın çağlara gətirmək yetərlidir. Xalqın qərinələr boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal şəxsiyyətlərin üzərinə düşür. İndi – kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir şəraitdə – milli ənənələrin qorunub saxlanılması, onlara qayğı ilə, düşünülmüş münasibət göstərilməsi son dərəcə vacibdir.

Ümummilli liderimiz Heydər Əliyev həmişə deyərdi ki, millətin mədəniyyətini qorumaq təkcə mədəniyyət xadimlərinin və bu sahədə işləyən insanların, ziyalıların işi deyil, eyni zamanda dövlət rəsmilərinin, bütün dövlət strukturlarının, qurumlarının vəzifəsidir. Mədəniyyət millətin vizit kartıdır.

Prezident İlham Əliyevin mədəniyyət sahəsində həyata keçirdiyi dərin və əhatəli islahatların ən böyük icraçısı elə dövlət başçısının xanımıdır. Azərbaycanın Birinci xanımı öz fəaliyyəti ilə Prezidentin kino, teatr, musiqi, tətbiqi sənət, tarixi abidələrin qorunması, bərpası və digər qəbul edilmiş dövlət proqramlarına güclü dəstək verərək mədəniyyət siyasətinin həyata keçirilməsində özünəməxsusluğu, müasirliyi və çevikliyi ilə seçilir. O, bu xüsusiyyətləri ilə təsdiqləyir ki, ölkəmizdə mədəniyyətə, mənəvi dəyərlərin qorunub saxlanılmasına, həqiqətən, böyük qayğı göstərmək, mədəni intibahı gücləndirmək mümkündür.

Mehriban xanım həddindən artıq geniş və zəngin fəaliyyəti ilə mədəniyyətimizin intibahının əfsanəsi hesab edilə biləcək şəxsiyyətdir. Mədəniyyət cəmiyyətin inkişafının əsas göstəricilərindən biri kimi, dövlətin nüfuzunun artmasına təsir edən amillər sırasında xüsusi yer tutur.




Mehriban xanım Əliyevanın mədəniyyətimizin inkişafındakı misilsiz xidmətləri bu baxımdan Azərbaycanın tərəqqi və inkişafının mühüm platformasına çevrilmişdir. Məhz onun başçılıq etdiyi Fond zəngin Azərbaycan mədəniyyətinin bəşəri dəyərlərini dünyaya çatdırmaq, həmçinin dünya mədəniyyət incilərini ölkəmizdə təbliğ etmək, gənc nəslin bədii-estetik zövqünü formalaşdırmaqda şərəfli yol qət etmişdir.

Milli irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində atılan addımlar göz qabağındadır. Mehriban xanım Əliyeva ulu öndər Heydər Əliyevin "Bir milləti dünyada tanıdan onun dili və mədəniyyətidir" fikrini hər zaman önə çəkərək bu yöndə əhəmiyyətli addımlar atmışdır. Onun muğamlarımızın öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti milli-mənəvi dəyərlərimizə bağlılığının, vətənpərvərliyinin bariz göstəricisidir.

Mehriban xanım Əliyevanın ictimai fəaliyyətində humanitar quruculuq parlaq səhifə kimi göz önündə canlanır. Milli mədəniyyət tarixinin araşdırılması, təşək-

külü və təbliği onun fəaliyyətinin ilk mərhələsinin əsas leytmotivi olmuşdur.

Nəzərə alsaq ki, milli mədəniyyətin təbliği beynəlxalq münasibətlərin tənzimlənməsində, diplomatik əlaqələrin güclənməsində mühüm faktorlardan biridir, o zaman Mehriban xanımın həm də ictimai-siyasi xadim kimi dövlətlərarası münasibətlərin irəliləməsinə xüsusi fayda verdiyini qeyd etmək mümkündür.

Mehriban xanım yorulmadan, dayanmaq bilmədən çalışaraq Azərbaycan mədəniyyətinin simasını dünyaya tanıdır. Onun həm ölkə daxilində, həm də xaricdəki fəaliyyəti bir-biri ilə ardıcıllıq, sistemlilik təşkil edir, harmoniya yaradır.

Mehriban Əliyeva dünyanın ən mötəbər tribunalarından zəngin tarix və mədəniyyət beşiyi olan Azərbaycanın mədəni özünüifadə müxtəlifliyi sahəsində gördüyü işləri, uğurlu təcrübəsini çatdırır, müxtəlif mədəniyyətlərin və dinlərin sülh içində birgəyaşayışını və harmoniyanı formalaşdıran Azərbaycan modelindən söz açır. Ölkəmizdə əsrlərlə yaşayan 15-dən çox etnik qrupun nümayəndələrinin mədəni dəyərləri yaratmaq və istifadə etmək hüququnun Konstitusiya ilə təmin olunduğunu vurğulayır. Azərbaycanın mədəni-humanitar həmrəyliyə töhfə verən çoxmədəniyyətlilik ideyasının unikal nümunəsini təqdim edir.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın UNESCO və ISESCO-nun xoşməramlı səfiri seçilməsi təkcə ölkəmizin deyil, dünyanın mədəniyyət sahəsinə yeni rəngarənglik, fəqrlilik, estetika, dizayn gətirdi. Azərbaycan dövlətinin milli mə-



dəniyyətinin inkişafı və təşviqində yeni tarixi mərhələ başlandı. Birinci xanımın fəallığı, işgüzarlığı, səmimi humanizmi beynəlxalq səviyyədə yeni mədəniyyət hadisəsinin başlanmasına səbəb oldu. Azərbaycan Mehriban xanımın timsalında dünyaya öz mədəniyyətinin qapısını taybatay açaraq zəngin dəyərlərini nümayiş etdirmək fürsəti qazandı. Beynəlxalq arenada – UNESCO-nun qərargah-mənzilində Azərbaycan həqiqətlərinin yayılmasına geniş meydan açıldı.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyətində gələcəyimiz olan uşaqların istedadının üzə çıxarılması, onların yaradıcılıq imkanlarının tanıdılması da xüsusi əhəmiyyət kəsb edir. "Azərbaycanın abidələri uşaqların gözü ilə" adlı uşaq incəsənət sərgisinin keçirilməsi bu baxımdan böyük maraq doğurmuşdur. Bu tədbirlərdə saf uşaq məhəbbəti və səmimiyyəti ilə ərsəyə gələn işlərin nümayiş etdirilməsi onların gələcəkdə yaxşı fırça ustası kimi yetişməsinə stimul verməkdədir. Mehriban xanım Əliyeva uşaqların əl işlərinə həssaslıqla yanaşaraq qeyd edir ki, dünyanın ən tanınmış mədəniyyət ocaqlarından biri də bizim doğma Vətənimiz Azərbaycandır. Qədim və müasir incəsənətimizin gözəl nümunələri bir çox ölkələrdə məşhurdur: “Azərbaycan torpağı tarixin hər bir dövründə dünya mədəniyyəti xəzinəsinə görkəmli şəxsiyyətlər bəxş etmişdir. İstedadlı Azərbaycan xalqının yaratdığı mədəniyyət inciləri onları görənləri heyran etmiş, bu əsərlərin sorağı bütün Yer kürəsinə yayılmışdır. Bu inciləri yaratmaq nə qədər çətindirsə, onları qoruyub saxlamaq, nəsildən-nəslə ərməğan etmək də asan iş deyil. Başqa mədəniyyət nümunələri kimi, memarlıq abidələrinin də yaşaması üçün bir çox insanlar böyük zəhmət çəkmiş, ayrı-ayrı zamanlarda daşdan yaradılmış əsərlərin bugünkü nəslə çatdırılması yolunda xeyli işlər görmüşlər. Bu gün siz də bu insanlar sırasındasınız. Mən inanıram ki, sizin istedadınız, çəkdiyiniz rəsmlər, milli memarlıq incilərimizi zərif uşaq əlləriniz ilə təsvir etməyiniz o deməkdir ki, siz doğma Vətəninizi sevir, onun gözəlliklərinin yaşaması üçün çalışırsınız”.

Fond Azərbaycanın görkəmli incəsənət xadimlərinin yubiley gecələrini təşkil etmiş, müxtəlif sənətkarların mahnı albomlarının diskini buraxdırmışdır. Mehriban xanımın Azərbaycan xalçaçılıq sənətinin tarixi şöhrətinin, zəngin ənənələrinin inkişaf etdirilməsi sahəsindəki fəaliyyəti də xüsusi vurğulanmalıdır. Fondun dünya xalçaçılıq sənətinə misilsiz töhfələr verən, Azərbaycan xalçaçılığının zəngin ənənələrini dirçəldib yaşadan, istehsal etdiyi malları dünya bazarına çıxarmaqla bu qədim el sənətinin fəal təbliğatçısına çevrilən "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinə qayğısı bu nadir sənətin inkişafına yeni ruh vermişdir. Xalqımızın tarixini, məişətini, adət-ənənələrini, müxtəlif inanclarını, estetik

görüşlərini, fəlsəfi baxışlarını özündə əks etdirən, bu keyfiyyətləri sirli-sehrli ilmələrdə, naxışlarda yaşadan sənət nümunələri bütün dünyada məşhurlaşmışdır. Yüksək bədii və texnoloji səviyyədə toxunan "Şeyx Səfi" xalçasının hanadan kəsilməsi mərasimində UNESCO-nun baş direktoru Koişiro Matsuura və Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva iştirak etmişlər.

Dünya mədəniyyətinin zəngin incilərinin Azərbaycanda geniş təbliği, tanınmış incəsənət xadimlərinin ölkəmizə dəvət olunması və beynəlxalq miqyaslı layihələrin gerçəkləşdirilməsi Fondun fəaliyyət proqramında xüsusi yer tutmuşdur. Azərbaycanda xarici ölkə incəsənət xadimlərinin konsertləri, teatr tamaşaları, təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri və s. tədbirlər beynəlxalq musiqi ictimaiyyətinin böyük marağına və dərin rəğbətinə səbəb olmuşdur. Dünya şöhrətli incəsənət xadimlərinin Bakıya toplanması, Azərbaycanın paytaxtından dünyaya mədəniyyətin carçısı kimi səs salmaları yenilik olmaqla yanaşı, respublikamızda sosio-mədəni hərəkatın geniş vüsət almasından xəbər verir. Bu istiqamətdə təşkil olunan tədbirlər sırasında "Musiqinin Böyük İpək Yolu" Beynəlxalq Klassik Musiqi Festivalı və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası ilə birgə keçirilən Koreya Mədəniyyəti Günləri dünyaya geniş səs salan layihələr kimi xüsusilə yaddaqalan və əlamətdar olmuşdur.

Azərbaycanın zəngin mədəniyyət xəzinəsinin nadir sənət incilərini, onu qoruyub bu günümüzə çatdıran dəyərli sənət adamlarını və mədəni hərəkatın coğrafi hüdudlarının artmasında bütün həyatını ortaya qoyan şəxsiyyətlərin dəstəyi, arxası olmaq Fondun məram və məqsədləri sırasında öndə dayanmışdır. "Bakı Muğam Mərkəzi"nin yaradılması, nəfis, əhatəli, rəngarəng şəkildə tərtib edilmiş "Qarabağ xanəndələri" musiqili albomunun buraxılması və onun dünyanın bir çox mötəbər incəsənət mərkəzlərində yayılması, "Bakı payızı" Beynəlxalq Festivalı, "IX Şərq-Qərb" Bakı Beynəlxalq Kino Festivalı, "Reklam acgözləri gecəsi" – beynəlxalq reklam filmlərinin nümayişi, 2007-ci ildə artıq üçüncü dəfə keçirilən Beynəlxalq Bakı Caz Festivalı ənənəyə çevrilmiş, dünya mədəniyyət təqvimində qızıl hərflərlə yazılmışdır.

Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin dünyaya tanıdılması istiqamətində uğurlu fəaliyyəti dünya mədəniyyət icması üçün zəngin təsir bağışlamışdır. Fond missiyasını daha da genişləndirərək elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafına köməklik göstərir, eyni zamanda beynəlxalq miqyasda davamlı inkişafa dəstək olaraq sülh quruculuğu istiqamətində xidmətlərini davam etdirir.



Onun ən uğurlu layihələrindən biri 2007-ci ildə Moskvada “Baku” adlı rusdilli jurnalın nəşrə başlamasıdır. Respublikamızın hüdudlarından kənarda buraxılan və xarici oxucuya ünvanlanmış bu layihə Azərbaycan və onun döyünən ürəyi, gözəl Bakı şəhəri, Azərbaycan xalqının zəngin adət və ənənələri, ölkənin dolğun mədəni həyatı, tarixi şəxsiyyətləri və bizim müasirlərimiz – öz əməyi, istedadı və sənəti ilə doğma diyarımızı dünyada şöhrətləndirən ədəbiyyatçılar, şairlər, rəssamlar, musiqiçilər, memarlar haqqında, nadir milli mətbəximiz, xalq sənətləri barədə genişhəcmli informasiya təqdim etdi. Bu nəşr qısa müddət ərzində aktual mövzuları, özünəməxsus tərzi, müasir dizayn xüsusiyyətləri, materialların təqdim olun-

ması, orijinal və kreativ mövzu rəngarəngliyi ilə geniş oxucu auditoriyasının sevimli media layihəsi kimi şöhrət qazanmışdır.

Baş redaktoru Leyla Əliyeva olan bu nəşr geniş oxucu auditoriyasını Azərbaycanın qədim tarixi, mənzərəli guşələri ilə tanış edir, xalqımızın humanizmi, milli mənəvi dəyərləri, ölkədə bərqərar olmuş və artıq Azərbaycanın brendinə çevrilmiş nadir multikultural ab-hava barədə söhbət açır. Jurnalın hər nömrəsi həm əcnəbi, həm də azərbaycanlı oxucu üçün bir növ kəşfdir: burada az öyrənilmiş, yeni məlumatlar çoxdur. Təqdim edilən materialların və qəhrəmanların seçimi, jurnalın maraqlı dizaynı baş redaktorun incə zövqündən, dərin biliyindən, erudisiya və






intellektindən xəbər verir. Jurnalın hər bir sətrində Azərbaycana və Bakıya böyük sevgi duyulur.

Dünya oxucularının bir çoxu Azərbaycanı məhz "Baku" jurnalının sayəsində daha yaxşı tanıyıb, onu obyektiv görə bilib, onunla maraqlanıb və onu sevib. 2011-ci ildə jurnalın ingilisdilli versiyasının nəşrə başlaması sayəsində onun oxucu auditoriyası qat-qat artdı, Azərbaycan tarixi, mədəniyyəti, zəngin həyatı barədə dəyərli informasiyalar dünyada milyonlarla insana təqdim edildi.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşkilatçılığı ilə 1999-cu ilin sentyabrında Bakıda keçirilən "Musiqinin Böyük İpək yolu" Birinci Bakı klassik musiqi festivalı sənət dünyası tərəfindən rəğbətlə qarşılanan layihələrdən birinə çevrildi. ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, İsrail və Rusiyanın görkəmli incəsənət ustaları, mədəniyyət xadimləri, tanınmış musiqiçilərin iştirak etdiyi bu mötəbər musiqi bayramı yaxşı bir ənənənin başlanğıcını qoydu. Dünya musiqi sənətinin parlaq incilərindən ibarət rəngarəng konsert proqramları, gözəl ifaçılar bizə sadəcə bir bayram bəxş etmədi, sənətin ən ecazkar sahəsi olan musiqi həm də bizə sevinci və kədəri, ümid və arzuları ilə qəlbləri birgə döyünən vahid bir dünyanın sakinləri olduğumuzu bir daha



xatırlatdı. Festivalın "Musiqinin Böyük İpək Yolu" devizi altında keçirilməsi təsadüfi deyildi. Əsrlər boyu Azərbaycan Şərq və Qərb dünyası əlaqələrində böyük rol oynayaraq mühüm "nəqliyyat dəhlizi" olmuşdur. Məhz burada müxtəlif milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsi baş vermiş və bu proses indi də davam etməkdədir. Klassik musiqi festivalı Bakı musiqisevərlərinə son illərin gərginliyində çoxdan unutduqları və həsrətlə arzuladıqları əsl, yüksək sənətdən alınan məmnunluq hissi, xoşbəxtlik hərarəti bəxş etdi.

## Azərbaycan möcüzəsi: muğam Şərqi və Qərbi birləşdirən milli sərvətimizdir

*"Muğam təkcə Azərbaycanın yox, bütün dünyanın sərvətidir".*

**Mehriban Əliyeva**

Əsrlər boyu Azərbaycanın ecazkar musiqisi dünyada öz şöhrəti ilə sevilmişdir və bu gün də sevilir və yaşayır. Xalqımızın zəngin musiqisi daim tərəqqi etmiş, nəsildən-nəslə keçərək, bu günümüzə gəlib çatmışdır. Milli musiqimizin ən qədim

və zəngin qollarından olan muğamın incəsənət xəzinəmizdə xüsusi yeri vardır. Azərbaycan xalq musiqisinin şah qolu olan muğamlarımızın qədim tarixi var. Əsrlər boyu muğam sənətinin ilkin təravəti, klassik forması və orijinallığı Yaxın Şərq və Orta Asiya ölkələri arasında, demək olar ki, ən çox Azərbaycanda qorunub saxlanılmışdır. Dəfələrlə nüfuzlu beynəlxalq forumlarda, festivallarda, müsabiqələrdə, simpoziumlarda səslənən Azərbaycan muğamları həmişə böyük məhəbbətlə, alqışlarla qarşılanmış, onu yaradan xalqın qüdrətini bir daha sübut etmişdir. Bu mədəniyyət xəzinəmiz ürəyəyatımlılığı, qəlb oxşayan sehri ilə qədim zamanlardan bəri təkcə Azərbaycanın deyil, bütövlükdə Şərqin və Qərbin unudulmaz sənət abidəsinə çevrilmişdir.

Muğam insan ruhunu oxşayan, onun psixologiyasına müxtəlif istiqamətli təsirlər göstərə bilən unikal bir vasitədir. Dərin fəlsəfi məna daşıyan poeziyaya əsaslanan hər hansı muğamı diqqətlə dinləyərkən, Füzuli, Nəsimi, Seyid Əzim Şirvani, Vahid və başqalarının qəzəllərinin mənası üzərində düşünərkən, insan sehrli bir aləmə qapılır, keçirdiyi hisslər həmin muğamın musiqi obrazlarına həmahəng gəlir. Bu heyrətamiz musiqi bütün hallarda daxili ovqatımıza təsir edir: kədərli və qüssəli anlarımızda da, sevinc və sevgi duyğularımız aşıb-daşanda da bizimlə sirdaş olur. Muğam bizi həyatımızın əvvəlindən sonuna qədər daim müşayiət edir. Muğamın fenomenliyi də məhz ondan ibarətdir ki, o, əsrlər boyu insanı müşayiət etməklə ona ruhi saflıq və ucalıq bəxş etmiş, ən qədim dövrlərdən bu günə və gələcəyə körpü olmuşdur.

XIX əsrdə Sadıqcan, Cabbar Qaryağdıoğlu, Cəmil Əmirov, Keçəçi Məhəmməd və başqaları bu sahədə böyük xidmətlər göstərərək muğama yeniliklər gətirmişlər. Sonrakı yüzillikdə muğam geniş intişar tapmış, inkişafının ən yüksək zirvəsinə çatmışdır. Görkəmli ifaçılar Seyid Şuşinski, Xan Şuşinski, Əlövsət Sadıqov, Mütəllim Mütəllimov, Əbülfət Əliyev, Yaqub Məmmədov, Fatma Mehrəliyeva, Zeynəb Xanlarova, Arif Babayev, Qədir Rüstəmov, Hacıbaba Hüseynov, Canəli Əkbərov, Qulu Əsgərov, Alim Qasımov və adlarını çəkə bilmədiyimiz başqaları muğamı bütün dünya xalqlarına tanıtmış və sevdirmişlər.

Ötən əsrdə, xüsusən 1920-ci ildən sonrakı onilliklərdə, demək olar ki, respublikanın bütün rayonlarında orta ixtisas musiqi məktəbləri, Bakıda isə Konservatoriya və Filarmoniya fəaliyyətə başlamış, muğam şöbələri yaradılmışdır. Qeyd etmək vacibdir ki, o dövrdə bütün dünyada məşhur olan dahi Üzeyir Hacıbəyov musiqi sahəsində cahanşümul xidmətlər göstərmişdir.

Sovet hakimiyyəti illərində xalq ruhunun daşıyıcısı olan muğamımızı unutdurmaq, tarixin qaranlıq arxivinə atmaq kimi qorxulu çağırışlar olub. Bu çağırış im-

periya siyasətinin tərkib hissəsi kimi həyata keçirilməyə başlayıb. Hətta Azərbaycan radiosunda muğama qarşı rəsmi səviyyədə qısma-boğmalar hökm sürür-dü. Bu haqda arxiv sənədlərində və yaddaşlarda həyəcanlı fikirlər, mülahizələr qalmaqdadır. Həmin illərdə hökumətin qərarı ilə "Muğam komisyonu" yaradılır. Qurumun iclaslarında muğamların şöbə və guşələrinin tarixən müəyyənləşdirilən adlarını dəyişdirmək təklifləri irəli sürülür. Sonrakı illərdə də muğama münasibət dəyişmir. Radionun efirindən muğama məhdud saatlar ayrılırdı. Məhz bu səbəbdən, hər bazar günü xalqımız bir saatlıq muğamat konsertini səbirsizliklə gözləyirdi.

1990-cı illərin əvvəllərində də muğam ifaçılarımız nigaran günlər yaşadılar. Toylar, el şənlikləri olmasaydı, onların güzəranı heç də ürəkaçan olmazdı. O zamanlar bir çox muğam ifaçılarımız konsertlər vermək üçün Avropa ölkələrinə dəvət olunurdular. Ancaq bu xalq sənətinə olan biganə münasibət çox çəkmədi, xalqın minillər boyu qəlbində gəzdirdiyi milli ənənələrimizin daşıyıcılarından biri olan muğam sənətinə və muğama dövlət sahib çıxdı. Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı cənab İlham Əliyevin milli musiqimizə, onun ayrılmaz tərkib hissəsi olan muğama olan diqqəti sayəsində bu xalq sənəti hərtərəfli dövlət qayğısı ilə əhatə edildi.

Muğam sənətinin inkişafında Azərbaycan mədəniyyətinin böyük hamisi Mehriban xanım Əliyevanın əvəzolunmaz xidmətləri danılmazdır. Məhz onun təşəbbüsü və səyləri ilə muğamımız, sözün əsl mənasında, intibah dövrünə qədəm qoydu. Dünyanın möhtəşəm səhnələrindən Azərbaycan muğamının sədası gəldi. Milli ruhumuzun, təfəkkürümüzün ən bariz təcəssümü olan möhtəşəm muğam sənətimizin qorunması istiqamətində Mehriban xanımın başlatdığı missiya bu sənətə olan yüksək diqqətin artmasına səbəb olmuşdur.

Azərbaycan muğamını dünya miqyasında təbliğ etmək və yaymaq, həmçinin bu ulu sənəti yaşadan musiqiçi və müğənnilərə qayğı göstərmək Fondun qarşısında duran mühüm işlərdən biri olmuşdur. Muğam ustalarının ürəkləri riqqətə gətirən ifasında Azərbaycan torpağının misilsiz gözəllikləri bir daha göz önündə canlanır, bizi hazırda yağı tapdağında, işğal altında olan doğma torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə səsləyir. Bu gün tam əminliklə demək olar ki, xalqımızın zəngin mədəniyyət xəzinəsinin – muğam sənətimizin gələcəyi etibarlı əllərdədir.

Azərbaycan muğamının dünyada geniş təbliği məqsədilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur.

2005-ci ildə Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində görkəmli muğam ustaları ilə birlikdə dəyirmi masa keçirilmiş və Bakı şəhə-



rində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır. 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalamış, muğam ustaları ilə mütəmadi görüşlərin, məsləhətləşmələrin nəticəsi olaraq Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edilmişdir.

2005-ci il avqustun 24-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın, UNESCO-nun baş direktoru Koişiro Matsuuranın iştirakı ilə Dənizkənarı Milli Parkda Mərkəzin təməlqoyma mərasimi keçirilmişdir.

2008-ci il dekabrın 27-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə açılış mərasimi keçirilən Beynəlxalq Muğam Mərkəzi dünyanın müasir mədəniyyət simvollarından birinə çevrilmişdir. Ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarət olan Muğam Mərkəzinin forması Azərbaycanın qədim musiqi alətlərindən

olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur.

Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var. Bu baxımdan, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Ağdam rayonunda yaradılan Muğam Mərkəzi də böyük rol oynayır. 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzulidə inşa olunan muğam mərkəzləri ölkəmizdə muğamın inkişafına mühüm töhfələr vermişdir.

Azərbaycan muğamına yeni həyat bəxş edən Mehriban xanım Əliyeva bu bənzərsiz sənət incisi ilə bağlı qeyd etmişdir ki, biz azərbaycanlılar hamımız haqlı olaraq öz doğma muğamlarımızla fəxr edirik: "Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlər boyu öz mədəniyyətini formalaşdırmışdır. Bəzi dövrlərdə biz müxtəlif imperiyaların daxilində yaşasaq da, dinimiz, milli dəyərlərimiz, dilimiz, mədəniyyətimiz bizi bir xalq kimi, millət kimi qoruyub saxlamışdır.

Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam, muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik – bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm, muğam gözəlliyin və məhəbbətin rəmzidir – səhv etmərəm".

Mehriban xanım Əliyeva bir neçə il əvvəl "Azərbaycan – İrs" beynəlxalq jurnalında dərc olunmuş "Qarabağ muğamı" adlı məqaləsində bu mədəniyyət xəzinəsinin sirlərini, mətləblərini belə təsvir etmişdi: "Çoxəsrlik tarixə malik olan Azərbaycan muğamı, mütəxəssislərin rəyinə görə, Şərq intibahı çağında özünün çiçəklənmə dövrünü yaşamışdır. Sonrakı dövrlər bu sənətin mahiyyət və məzmununu əsla dəyişdirə bilməmişdir. Bu gün də muğam bir tərəfdən keçmişdən bu günə yaşayan mənəvi sərvət, digər tərəfdən isə son dərəcə çağdaş sənət aləmi kimi bütün varlığı ilə yaşamaqdadır. Burada sənətin ənənə ilə qəti olaraq müəyyən edilmiş normaları və yaradıcılıq prosesindəki improvizasiya imkanları heyrətamiz bir vəhdət, ahəngdarlıq təşkil edir".

Muğam təkcə Azərbaycanın deyil, ümumən bəşəriyyətin mənəvi xəzinəsi-



dir. Təkcə xalqımızın deyil, bəşəriyyətin misilsiz mədəni sərvətlərinin ayrılmaz hissəsidir. Amma bu da bir reallıqdır ki, istənilən dəyəri təbliğ etmədən, mahiyyətini, əhəmiyyətini insanlara çatdırmadan, ictimai düşüncədə onu həmişə canlı saxlamadan bu dəyərin yaşayacağını, mövcudluğunu qoruyacağını düşünmək sadəlövhlük olardı. Məhz Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində xalqımızın canına, qanına hopmuş, daxili dünyasının ayrılmaz hissəsi olan muğam sənəti dünya miqyasında təşviq edildi. Mehriban xanım Əliyevanın “Muğam bizim mədəniyyətimizin, Azərbaycan mədəniyyətinin əsas sütunlarından biridir və əlbəttə, onu qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq hər bir azərbaycanlının mənəvi borcudur”, – sözləri bu qədim xalq sənətinə olan yüksək ehtiramın, diqqətin nümunəsidir.

Mehriban Əliyevanın birbaşa diqqəti sayəsində ölkəmizdə xalqımızın milli sərvəti olan muğam sənəti yaşadılaraq yüzminlərin qəlbində dərin kök salıb, bu xalq sənəti inkişaf edərək təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə geniş təbliğ olunur.

Mehriban xanım muğam ifaçılarının yeni nəslinin yetişdirilməsində əvəzsiz rol oynayır. Bu gün yeni yetişən minlərlə gənc məhz musiqimizin şahı sayılan muğama qayğının bu səviyyəyə çatmasında Mehriban xanım Əliyevaya borcludur. Onun əməyinin məhsulu olan “Muğam-Dəsgah” layihəsi muğam dəsgahlarının konsertlər-

dən birbaşa yazıya alınması və gələcək nəsillər üçün qorunub saxlanması kimi ülvi məqsəd daşıyır. Azərbaycan muğamına həsr olunmuş "Muğam Ensiklopediyası"nın nəşri həm elektron, həm də kitab variantlarında həyata keçirilib. "Muğam-İnternet" layihəsini həyata keçirməkdə məqsəd internetdə muğamla bağlı audio və video materiallar əsasında muğam-portal yaratmaq olub. Hazırda "Muğam dünyası" layihəsi çərçivəsində simpoziumlar, beynəlxalq konfranslar, müxtəlif festival və yarışlar keçirilir. "Muğam-Antologiya" layihəsi də qədim musiqi incilərimizin təbliğində müstəsna rol oynayır. "Azərbaycan muğamı" multimedia toplusu və "Muğam aləmi" Azərbaycan milli muğam sənətinin köklərinin müasir dövrümüzdə yüksək səviyyədə təqdiminə yönəlmişdir.

Bu siyasətin ən mühüm uğurlarından biri muğamın 2003-cü ildə UNESCO-nun



tərtib etdiyi "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilməsidir. Beləliklə, Azərbaycan muğamı artıq beynəlxalq səviyyəli bir sənət növü, janrı olaraq dünya tərəfindən qəbul edilmişdir. Bu, Azərbaycan milli mədəniyyətinin, dəyərlər səviyyəsinin ölçüsü, onun bəşəriliyinin bir göstəricisidir. Məhz belə bir sənət növünün beynəlmiləlləşməsi əlamətdar bir hadisədir. Avqustun 26-sının Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir.

Muğamları yaşadan və inkişaf etdirən onun ifaçılarıdır. Bu sənəti yaşadan, inkişaf etdirən, təbliğ edən sənətkarlara olan yüksək qayğının davamlı olaraq artması da məhz Mehriban xanıma məxsusdur. Bu missiyanın tərkib hissəsi kimi muğam müsabiqələrinin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" albomunun buraxılışı mədəniyyət siyasətinin ən möhtəşəm çalarlarından biri kimi yadda qalmışdır. 2005-ci ildə işıq üzü görən bu zəngin vəsait "Muğam-irs" layihəsinin ilk albomu olmaqla Qarabağ torpağının acısının, Azərbaycanın haqq səsinin muğam vasitəsilə bütün dünyaya çat-





dırılmasında ən yaxşı təşəbbüskarlıq nümunəsi olmuşdur. Bu albomun buraxılması təsadüfi deyil, çünki Mehriban Əliyevanın muğama olan qayğısı göz önündədir, muğam layihələrinə dəstəyinin bir nümunəsi olan "Qarabağ xanəndələri" albomu bu qayğının ən bariz nümunələrindəndir.

Albom Qarabağ xanəndələrinin səsi və onlar haqqında toplanmış məlumatları, Qarabağ xanəndəlik məktəbinin zənginliyini və Azərbaycan muğamlarının inkişafındakı xidmətləri geniş şəkildə əhatə edir. Bu layihə dünyaya təqdim olunmaqla Qarabağ xanəndəlik məktəbinin sorağını dünyaya yayır. Böyük tarixi yol keçən Qarabağ xanəndəlik məktəbi özünəməxsus ənənələrini yalnız Qarabağın deyil, bütünlüklə Azərbaycan mədəniyyətinə qızıl hərflərlə yazdıran xanəndələrin,



Yaxın və Orta Şərqin birgə sənəti olan muğam ifaçılığının möhtəşəm simasını əks etdirir. Azərbaycan xanəndəlik sənətinə qızıl hərflərlə həkk edilmiş Cabbarın, Seyidin, Xanın xələfləri olan Yaqub Məmmədov, Bakir Haşımov, Mütəllim Mütəllimov, İslam Rzayev, Sara Qədimova, İldırım Həsənov, Səxavət Məmmədov, Arif Babayev, Mənsum İbrahimov və digər muğam ustadlarının ecazkar səslərini Vətənimizdən kənara, dünyanın ucsuz-bucaqsız guşələrinə yayır.

Azərbaycan muğamının qəlbləri riqqətə gətirən sehri dünyanın müxtəlif ünvanlarından gəlir, müxtəlif xalqlar və millətlər mədəniyyətin şah əsərlərindən olan Azərbaycan muğamının zövqoxşayan təsiri altında bir daha xalqımızın mədəniyyətinə valeh olurlar. Eləcə də ölkəmizin zəngin musiqi xəzinəsinin əvəzolunmaz nümunələri dünyanın ən ucqar bölgələrində təşkil olunan musiqi festivallarında təqdim edilir. Niaqarada keçirilən muğam günləri, Vivaldi və Gerşvinin musiqi kompozisiyaları Azərbaycan mədəniyyəti haqqında geniş təsəvvür yaradır.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun ən yaddaqalan layihələrindən biri də Heydər Əliyev Fondunun dəstəyi ilə “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən keçirilən “Muğam televiziya müsabiqəsi”dir. Milyonlarla tamaşaçının ən çox izlədiyi, insanların zövqünü oxşayan ən baxımlı layihə kimi xüsusi əhəmiyyət kəsb edən bu ənənəvi müsabiqələr xalqımızın sərvəti olan muğamın incəliklərini respublikamızda və xaricdə yaşayan azər-

baycanlılara aşılamaq, eləcə də bu sənəti qorumaq, inkişaf etdirmək məqsədilə 2005-ci ildən davamlı olaraq keçirilməkdədir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə zənginliyinə görə analoqu olmayan "Azərbaycan" portalı mədəniyyət və xalq diplomatiyasına dərin töhfə verən ən mühüm layihələrdən biri kimi xüsusi yer tutur. Bu ideyani həyata keçirmək üçün yüksək ixtisaslı mütəxəssislərdən təşkil edilmiş işçi qrup ilkin mərhələdə müvafiq təşkilatların dəstəyi ilə geniş məlumat bazası yaradıb. Qısa müddət ərzində əldə edilən zəruri məlumatlar portalın müvafiq bölmələrində yerləşdirilib.

Dünyanın 100-dən artıq ölkəsində 1 milyarddan çox istifadəçinin qoşula bildiyi internet məkanında yer alan portalda məlumatlar üç dildə təqdim olunur. Portalın ünvanına müxtəlif ölkələrdən gələn minnətdarlıq məktubları sübut edir ki, portalın işinin yaxşı təşkil olunması istifadəçilərin coğrafiyasının genişliyinə imkan yaradır. Portal 12 bölmədən ibarətdir: "Xəbərlər", "Ümumi məlumat", "Tə-



biət", "Tarix", "İqtisadiyyat", "Mədəniyyət", "Cəmiyyət", "Dövlət hakimiyyəti", "Azərbaycan beynəlxalq aləmdə", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", "İnzibati ərazi vahidləri" və "Xəritələr". Hər bölmə bir neçə hissədən ibarətdir və burada toplanmış konkret məlumatlar bütövlükdə Azərbaycanla bağlı istənilən mövzuda informasiyanın əldə olunmasına imkan verir. Respublikamızın hər bir rayonu haqqında verilən ətraflı məlumatlar xarici iş adamlarının bölgələrimizə marağının artması və ölkəmizdə turizmin inkişafı baxımından faydalı informasiya yükü daşıyır.

Mehriban Əliyevanın müəllifi olduğu mühüm layihələrdən biri olan "Qarabağ həqiqətləri" bukletlər toplusunun təqdimatı da Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynamışdır.

Ermənilərin xarici mətbuat vasitəsilə yaydığı yalanları ifşa etmək, əsl Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün "Azərbaycan" portalında yaradılan xüsusi bölmədə Qarabağın tarixi, Dağlıq Qarabağ problemi və erməni məsələsi, Azərbaycana qarşı erməni təcavüzü, Xocalı soyqırımı, humanitar fəlakət, erməni terrorizmi, Azərbaycan əra-






zilərinin işğalının ağır nəticələri haqqında məlumatlar toplanmış, tarixi sənədlər təqdim edilmişdir. “Xəbərlər” bölməsinin təqvim arxivinin köməyi ilə günün istənilən məlumatı ilə tanış olmaq mümkündür. İstifadəçilərin işçi qrupa göndərdiyi irad və təkliflər diqqətlə araşdırılır. Portalın müxtəlif brauzerlərə adaptasiyası həyata keçirilmişdir. Portal haqqında istifadəçilərin fikirləri “Rəylər” bölməsində yerləşdirilmişdir. Təqdimat mərasimi 2005-ci ildə keçirilən “Azərbaycan” internet portalı “Azərbaycan elektron kontent—-2005 mükafatı” milli müsabiqəsində e-cəlbetmə nominasiyası üzrə qalib gəlmişdir.

2010-cu il “Azərbaycan” nəşrinin təqdimatı da Mehriban xanımın fəaliyyətinin nəticəsidir.

Heydər Əliyev Fondunun mədəniyyət və humanitar proqramları dünyanın müxtəlif guşələrini əhatə edir. Avropa İttifaqının ən mühüm qurumlarından biri olan Avropa Parlamentinin mənzil-iqamətgahında 2009-cu il noyabrın 10-da təşkil edilmiş “Azərbaycan mədəniyyəti günləri” xalqımızın qədim tarixini, zəngin mədəniyyətini, incəsənətini və mətbəxini xarici ölkə vətəndaşlarına təqdim etmək baxımından əlamətdar hadisə kimi yadda qaldı. Tədbir çərçivəsində Azərbaycan incəsənət ustalarının konserti keçirilmiş, rəsm əsərləri, bədii miniatürlər, Azərbaycanın qədim tətbiqi və xalçaçılıq sənətlərini əks etdirən eksponatlar, mis və əntiq əşyalar, eləcə də Heydər Əliyev Fondunun beşillik fəaliyyəti dövründə müxtəlif sa-

hələr üzrə gördüyü işləri əks etdirən albom və kitabçalar nümayiş etdirilmişdir. Azərbaycan mədəniyyətinin müxtəlif nümunələri, musiqi, təsviri incəsənət, xalq sənətkarlığı, folklor, milli rəqs, Azərbaycan xalq mahnıları və muğamları, caz musiqisi və mətbəximiz iştirakçılara xüsusi təsir bağışladı, xoş ovqat yaratdı. Avropa Azərbaycanın mədəni xəzinəsinin zənginliklərinə heyran qaldı.

Azərbaycanın Birinci xanımının, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Azərbaycanın qeyri-maddi mədəni irsinin, xüsusilə muğam və aşıq sənətinin, milli adət-ənənələrimizin dünyada tanıdılması və təbliği istiqamətində gördüyü işlər bu uğurların qazanılmasında mühüm rol oynamışdır. UNESCO-nun Azərbaycan mədəniyyətinə böyük əhəmiyyət verməsi, muğamlarımızın qiymətli irs kimi qorunub saxlanılması və yayılması istiqamətində təşəbbüsləri, “Muğam Evi”nin yaradılması kimi tədbirləri bəyənməsi bilavasitə Mehriban xanımın adı ilə bağlıdır. “Qafqaz Xalq Ənənələri Evi”nin məhz Bakıda yaradılması ideyası da Mehriban xanım Əliyevaya məxsusdur.

Azərbaycan xalq ədəbiyyatının, ümumiyyətlə, mədəniyyətimizin qədim tarixə və zəngin ənənələrə malik qollarından biri olan aşıq sənətinin inkişafı Azərbayca-



nın Birinci xanımı Mehriban Əliyevanın səyləri sayəsində yeni mərhələyə qədəm qoymuşdur. O, aşıq sənətinə diqqət və qayğısını əsirgəmir, onun qorunub saxlanılması və inkişafı üçün davamlı olaraq öz dəstəyini göstərir, bu misilsiz xalq sənətinin yeni şəraitdə dirçəlməsi, insanların estetik tərbiyəsində aşıq yaradıcılığının imkanlarından istifadə olunması, nadir milli sərvət olaraq dünyada tanıdılması üçün yeni layihələr və tədbirlər həyata keçirir. Son illərdə aşıqların iştirakı ilə xarici ölkələrdə konsert proqramlarının təşkili və onlara fəxri adların verilməsi, yubileylərinin keçirilməsi, kitabların çap edilməsi, orta və ali musiqi məktəblərində aşıq sənətinin tədris olunması bu sənətə yüksək münasibətin bariz nümunəsidir.

2010-cu ilin oktyabr ayında Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda "Birinci beynəlxalq aşıq festivalı"nın keçirilməsi şifahi xalq ədəbiyyatımızın misilsiz xəzinəsi olan bu sahənin daha geniş şəkildə təşviqində yeni yol açmışdır.

Festival milli aşıq sənətimizin beynəlxalq aləmdə tanıdılması və təbliği, mədəniyyətimizin inkişafında rolunun artırılması, Azərbaycan aşıqlarının və aşıq-ozan sənətinin yayıldığı ölkələrin sənətkarlarının bir araya gətirilməsi üçün böyük imkanlar yaratmışdır. Sonrakı illərdə beynəlxalq aşıq festivallarının keçirilməsi və bu tədbirlərə qatılan xarici ölkələrin sənət adamlarının sayının artması Azərbaycanın mədəniyyət siyasətinin təntənəsini daha da gücləndirdi. Bu cür festivallar Azərbaycan aşıq sənətinin beynəlxalq aləmdə daha geniş şəkildə tanıdılması və təbliğ edilməsində müstəsna rol oynamaqdadır.

Bu gün Azərbaycan aşıqlarının səsi-sorağı Avropa ölkələrinin ən mötəbər arenalarından gəlir. Fransada aşıqlarımız dövlət səviyyəsində zəngin repertuarlı konsert proqramları ilə çıxışlar edirlər.

Aşıq sənətinin UNESCO-nun "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilməsi bu sənətə olan diqqətin əyani ifadəsidir. Xalqımızın bu ölməz sənətinin dünya mədəniyyət inciləri sırasında özünə layiq yer tutması qarşımızda yeni üfüqlər açmaqla yanaşı, məsuliyyət hissimizi də artırmışdır.

Azərbaycanın milli simvollarından biri də kəlağayıdır. O, qədim Azərbaycan xalqının geyim etnologiyasının bir hissəsidir. Kəlağayının istehsalı Azərbaycanda qədimdən məlumdur. Təbriz, Gəncə, Şamaxı, Şəki və Basqalda yüksək keyfiyyətli kəlağayılar hazırlanırdı. Mənbələrin məlumatına görə, hələ orta əsrlərdən bəzi ölkələrə ixrac olunan bu qədim milli mədəniyyət nümunəsinin beynəlxalq səviyyədə tandılması və təşviqi də Mehriban xanımın adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə kəlağayıya aid ilk sərgi ölkəmizdə 2005-ci ildə keçirilib. Sonralar Azərbaycan kəlağayısı Türkiyə, Gürcüstan, Macarıstan, Avstriya, İtaliya, ABŞ, Belçika,




Malayziya və digər ölkələrdə müxtəlif sərgilərdə nümayiş olunmuşdur. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 24—28-də Parisdə keçirilən 9-cu sessiyasında Azərbaycan kəlağayı sənəti "Qadın ipək baş örtüyü kəlağayının ənənəvi hazırlanma və daşınma mədəniyyəti və onun simvolikası" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Kəlağayıdan başqa, Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalçası, tar ifaçılıq sənəti də UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

2004-cü il sentyabrın 9-da Parisdə, UNESCO-nun iqamətgahında bu qurumun xoşməramlı səfiri adı verilməsinə həsr olunmuş mərasimdə çıxış edən Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva bildirmişdir ki, Azərbaycanı çox vaxt Qərblə Şərq arasında körpü adlandırırlar. Bu, hələ tarixi Böyük İpək Yolu dövründən ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyə malik olması ilə bağlıdır. Azərbaycan özünün çoxəsrlik tarixi boyunca təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də mədəniyyətlə-

rin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır.

Xalq tətbiqi sənətimizin qollarından biri olan xalçaçılığa olan xüsusi qayğısı da Fondun diqqətindən kənarda qalmamışdır. Azərbaycan milli mədəniyyət tarixində özünəməxsus yer tutan Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının təkraredilməzliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir. Azərbaycan mədəniyyətinin qədim sahələrindən biri olan xalçaçılıq sənətinin təbliği üçün 2010-cu ilin noyabr ayında Heydər Əliyev Fondu Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyi və "Baku" jurnalının birgə təşkilatçılığı ilə Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgi keçirilmişdir.

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Böyük Britaniyadakı Səfirliyi və "Baku" jurnalının birgə təşkilatçılığı ilə keçirilən sərgidə coğrafi mövqeyinə, naxış kompozisiyasına, rəng həlli və texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri təmsil olunub. Sərgi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Azərbaycan" nəşrinin ingilis dilində təqdimatı keçirilib.

Dünya mədəniyyətinin şah əsərləri sırasında yer alan xalçalarımızın nümayiş



etdirildiyi bu sərgidə rəng həlli və texniki xüsusiyyətlərinə görə Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri təmsil olunmuşdur.

"Azərbaycan-İrs" jurnalının nəşrə başlamasını da mədəniyyətimizin təbliğinə verilən növbəti töhfə kimi dəyərləndirmək mümkündür. Qədim ənənələrə malik Azərbaycan xalqının maddi və mənəvi mədəniyyət nümunələrinin, incəsənətinin, folklorunun, musiqisinin qorunması və dünya miqyasında təbliğ olunması məqsədilə 1996-cı ildən nəşrə başlamış "Azərbaycan-İrs" jurnalının fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan, rus və ingilis dillərində işıq üzü görən jurnalda milli mədəniyyətimizin, tarixi-milli irsimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi vacibliyi ilə bağlı çoxsaylı məqalələr işıq üzü görmüşdür. Azərbaycanın mədəniyyəti və incəsənəti ilə bağlı böyük məzmun yükünə malik materialların dərc edildiyi "Azərbaycan-İrs" jurnalı ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və təbliği işinə də ciddi dəstək verir.

Mehriban Əliyevanın rəhbərliyi ilə "Qarabağ" kitabının çapa hazırlanması da Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsinə və təbliğinə diqqətin dəyərli təzahürlərindən biridir.

Azərbaycan Mədəniyyəti Dostları Fondunun ən uğurlu layihələrindən biri olan Bakı Beynəlxalq Caz Festivalı müasir müsiqi mədəniyyətinin təşviqində xüsusi rol oynamaqdadır. Azərbaycan cazın böyük tarixə malik olduğu ölkələrdəndir və hələ Tofiq Quliyev, Niyazi, Tofiq Əhmədovun rəhbərliyi altında ölkəmizdə çoxlu caz kollektivləri fəaliyyət göstərib. Azərbaycanın adı caz musiqi aləmində Vaqif Mustafazadə və Rafiq Babayevin adları ilə daha çox məşhurlaşmışdır. Bakı SSRİ məkanında ən qabaqcıl caz məkanlarından sayılırdı. Müstəqilliyimizin bərpa edilməsi bu musiqiyə daha da yaxınlaşmağa imkan verdi. Gənc nəsil bu musiqi janrında istedadlarını sınamaq üçün müxtəlif müsabiqələrdə iştirak etmişdir.

2005-ci ildən keçirilən Bakı Beynəlxalq Caz Festivalı caz ifaçılarımızın dünya miqyasında tanınmasına geniş imkanlar yaratmışdır. Festivalda 10-dan artıq ölkənin nümayəndəsinin iştirak etməsi dövlətlər arasında mədəni töhfəni gücləndirmək və genişləndirmək, eləcə də dünya ölkələrinin mədəni irsini tədqiq etmək baxımından böyük imkandır. Festival Azərbaycan cazının təbliği, qorunması və davam etdirilməsi üçün mühüm rol oynayır. Beynəlxalq Muğam Mərkəzində, Bakı Filarmoniyasında, Heydər Əliyev Sarayında, eləcə də Caz Mərkəzində konsert proqramları ilə çıxış edən musiqiçilər Azərbaycan mədəniyyətinin rəngarəngliyini xarici ölkələrin incəsənət xadimlərinə təqdim edirlər.

Bakı Beynəlxalq Caz Festivalı artıq dünya musiqiçilərini Azərbaycana toplayan ənənəvi beynəlxalq layihə statusunu almışdır. Onlarla məşhur caz ifaçısı ölkə-

mizdə olur, Azərbaycanı caz ölkəsi kimi qəbul edirlər. Bu, olduqca sevindirici haldır. Məhz bu mədəniyyət siyasətinin uğurlarının nəticəsidir ki, 2016-cı ildə Bakı Caz Festivalı Avropa Caz Birliyinə daxil olmuşdur.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun paytaxtımızda keçirdiyi xarici ölkə incəsənət xadimlərinin konsertləri, teatr tamaşaları, təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri və s. tədbirlər beynəlxalq nüfuzlu hadisələr kimi yadda qalmışdır. Dünya şöhrətli incəsənət xadimlərinin – həmyerlilərimiz maestro Mstislav Rostropoviçin, ABŞ-ın Culyard Musiqi Akademiyasının profes-



soru, pianoçu Bella Davidoviçin, Belfast simfonik orkestrinin baş dirijoru, violinoçu Dmitri Sitkovetskinin, "Most-Vivaldi" kamera orkestrinin, Nadejda Pavlova və Vyaçeslav Qordeyev kimi balet ulduzlarının, İqor Moiseyevin rəhbərlik etdiyi Rus Dövlət Rəqs Ansamblının Bakıdakı çıxışları bu qəbildəndir.

Fondun keçirdiyi mədəni tədbirlər, təşkil etdiyi xeyriyyə aksiyaları miqyasına, yüksək səviyyəsinə görə təkcə Vətənimizdə deyil, dünyanın bir çox ölkəsində böyük diqqətə və qiymətə layiq görülmüş, beynəlxalq aləmdə nüfuz qazanmışdır.

Nəsirəddin Tusinin "Əxlaqi-Nasir" kitabının dərc edilməsi, türk dünyası üçün xüsusi önəmi olan "Qabusnamə"nin Azərbaycan və rus dillərində nəşr etdirilməsi də mədəniyyətə verilən dərin töhfənin nümunələrindəndir. Azərbaycan tarixinin canlı abidəsi, memarlığımızın möhtəşəm salnaməsi olan İçərişəhərin Dünya Mədəni İrs siyahısına daxil edilməsi, xanəndə Alim Qasımovun ifasında Azərbaycan muğamlarının bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilməsi də mədəniyyət tariximizə qızıl hərflərlə həkk olunmuşdur.

Azərbaycan xalq tətbiqi sənətinin qollarından biri olan xalçaçılıq milli mədəniyyəti tariximizdə özünəməxsus yer tutur. Xalça xalqımızın məişətində təkcə qiymətli əşya deyil, sənət əsəri, istilik, gözəllik, hədiyyə, müalicə vasitəsi sayılır. Xalçaçılıq həm də Azərbaycan xalqının az qala rəmzinə çevirilmiş bir sənətdir. Bu sənətlə məşğul olma həm də insanlara gəlir gətirib. Xalçalarımıza verdiyimiz qiymət barədə danışarkən yazıçı Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" əsəri yada düşür. Həmin əsərdə Sona xalanın dili ilə deyilən "İtə ataram, yada satmaram" məsəli xalçanın və xalçaçılığın azərbaycanlılar üçün necə qiymətli olduğunu ifadə edir.

Xalçaçılıq ənənəsinin yaşadılması və qorunması, inkişaf etdirilməszi, qədim milli ənənələrimizin bərpası Mehriban xanımın diqqəti və qayğısı sayəsində son illərdə yenidən mümkün olmuş, öz şöhrətini özünə qaytarmağa başlamışdır. Onun birbaşa qayğısı sayəsində xalça sənətinin qorunması və inkişafı geniş vüsət almışdır.

Mehriban Əliyevanın mədəniyyət sahəsindəki fəaliyyəti yalnız qeyri-maddi mədəni irsin qorunması və təbliği ilə məhdudlaşmır. O, qədim tarixi abidələrin bərpasına və qorunmasına da xüsusi diqqət ayırır. Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizin qorunub saxlanmasında, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsində əhəmiyyətli rol oynayır.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən yeni layihə Azərbay-




canın tarixi keçmişinin qorunub saxlanması ilə yanaşı, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilməsinə də xidmət edəcəkdir. Burada hələ 1988-ci ildə Qala Dövlət Tarix Etnoqrafiya qoruğu yaradılmışdır. Qoruğun 156 hektar sahəni əhatə edən ərazisində eramızdan əvvəl III minillikdən XX əsrə qədər dövrə aid kurqanlar, sərdabələr, yaşayış evləri, 4 ovdan, qədim qəsrin qalıqları, 5 məscid, 3 hamam və s. var. Bu abidələrin qorunması, eləcə də Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun daha da zənginləşdirilməsi məqsədi ilə 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk arxeoloji-etnoqrafik muzey kompleksi yaradılmışdır. İki hektar ərazisi olan muzey kompleksində Abşeron yarımadasında tapılmış və eramızdan əvvəl III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, Qavaldaş, keramika, məişət və bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları və sair yerləşdirilmişdir.

2014-cü il avqustun 26-da Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin açılışı isə bu qədim incəsənət növünə yüksək dəyərin bir nümunəsi kimi yadda qaldı.

Müəllifi tanınmış avstriyalı memar Frans Yants olan muzey binasında Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təqdim edilir. Bakı şəhərinin ən görkəmli yer-



lərindən birində – Dənizkənarı Milli Parkın ərazisində yerləşən binanın yaradılması işində Heydər Əliyev Fondunun və UNESCO-nun müvafiq dəstəyi və köməyi xüsusi yer tutur. Orijinal üslubda inşa olunan bina bükülmüş xalçanı xatırladır. Muzeyin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır. Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur. Bu kolleksiyanın ziyarətçilərə təqdimatı üçün binada ideal şərait yaradılıb. Muzeyin fondunda mövcud olan xalça və xalça məmulatlarının saxlanılması və konservasiyası 2013-cü ildə Bakıya dəvət edilmiş və bu sahədə zəngin təcrübəsi ilə dünyada məşhur olan Viktoriya və Albert Muzeyinin parçalarının konservasiyası üzrə mütəxəssis Luis Squirerin tövsiyələri və tərtib etdiyi təlimatlar əsasında təmin olunur.

## Azərbaycanın Avropanı fəth edən mədəniyyət xəzinəsi

*"Bəxtəvər insan o insandır ki, başqalarının həll etməyə hazırlaşdığı işi o, artıq həyata keçirmişdir".*

**Jül Renar**

Hazırda dünyada yüksək texnologiyalar, qloballaşma və informasiya inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasına böyük diqqət göstərir. Bu baxımdan UNESCO-nun fəaliyyəti mühüm əhəmiyyət daşıyır. Bu təşkilatın əsas prinsiplərindən biri olan dünya mədəniyyətinin nadirliyini gələcək nəsillər üçün qoruyub saxlamaq siyasətində ən fəal iştirak edən, töhfələr verən ölkələrdən biri də məhz Azərbaycandır.

Mehriban xanım Əliyeva milli mədəni irsimizin qorunması, zənginləşdirilməsi və gələcək nəsillərə çatdırılması sahəsində və Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin həyata keçirilməsində əvəzolunmaz rol oynayır. Onun təşəbbüskarlığı və təşkilatçılığı sayəsində Azərbaycan mədəniyyətinin təbliği məqsədilə xarici ölkələrdə sərgi və festivalların keçirilməsi, mədəniyyət günlərinin təşkili ənənə halını almışdır. Azərbaycan mədəniyyətinin təbliği istiqamətində onun gördüyü işlər nəticəsində dünyanın əksər dövlətlərində xalqımızın mədəniyyəti, incəsənəti geniş təbliğ olunur, görkəmli elm xadimlərimiz, mədəniyyət nümayəndələrimiz haqqında dolğun və ətraflı fikir formalaşır.

Mehriban xanım Əliyevanın səyi nəticəsində uzun illərdir ki, Azərbaycan mədəniyyəti xarici ölkələrdə təbliğ olunur və bu təbliğat ölkəmizin səsini dünyaya yayır. Azərbaycan musiqiçilərinin, xalq musiqisi ustalarının konsertləri, rəssamların sərgiləri, xalçalarımızın nümayişi və s. xarici ölkələrdə təqdim edilməsi bu istiqamətdə uğurlu siyasətin nəticəsidir.

Mehriban Əliyeva Azərbaycanın incəsənət xadimlərinin, istedadlı sənət ustalarının əsərlərinin ölkəmizdən kənarda təbliği üçün müxtəlif layihələr həyata keçirir. Moskvada "Abşeron ulduzları. 1960–1980-ci illərin Azərbaycan rəssamları" sərgisinin təşkili də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Mehriban xanımın sərginin açılış mərasimində iştirak etməsi tədbirin əhəmiyyətini və sərgiyə olan marağı daha da artırıb. Rusiya Dövlət Tretyakov Qalereyasında Heydər Əliyev Fondunun, Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən "Abşeron ulduzları. 1960–1980-ci illərin Azərbaycan rəssamları" adlı sərgidə 12 Azərbaycan rəssamının – Nadir Əbdürrəhmanov, Kəmalə Əhmədova, Rasim Babayev, Səttar Bəhlulzadə, Tofiq Cavadov, Cavad Mircavadov, Mir Nadir Zeynalov, Əşrəf Murad, Toğrul Nərimanbəyov, Tahir Salahov, Fərhad Xəlilov və Qəyyur Yunusun 50-dən çox əsəri, Fazil Nəcəfovun




11 heykəltəraşlıq əsəri nümayiş etdirilib. Sərgidə vurğulanıb ki, bu, Moskvanın mədəni həyatında çox əlamətdar hadisədir. Bildirildi ki, bu əsərlərin hər biri Abşeronun gözəlliyini, Odlar Yurdunun füsunkarlığını nümayiş etdirir. Qalereyanın baş direktoru, həmçinin vurğuladı ki, Bakı həm də maraqlı mədəniyyət mərkəzidir. Burada gözəl muzeylər və müasir incəsənət mərkəzləri var. Bakıda çevik incəsənət mühiti hökm sürür. Azərbaycan məktəbinin bənzərsizliyini nümayiş etdirən sərgi həm də ümumdünya bədii prosesin bir hissəsi olan Azərbaycan incəsənətinin əhəmiyyətinə dəlalət edir.

Sərgidə çıxış edən Mehriban Əliyeva bildirib ki, bu tədbir Azərbaycanın mədəni həyatında parlaq hadisədir. Sərginin təşkilatçılarının məhz XX əsrin 60–80-ci illəri dövrünə təsadüf etməsi də səbəbsiz deyil. Çünki bu dövr Azərbaycan incəsənətinin inkişafının parlaq işıq saçdığı bir dövrdür. “Bu dövrdə Azərbaycanda böyük musiqiçilər, bəstəkarlar, rəssamlar, hey-

kəltəraşlar yaşayıb-yaradıb. Onların adları respublikanın hüdudlarından çox-çox uzaqlarda tanınır. Onlar bütün Sovet İttifaqında məşhur idilər. Tahir Salahov, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Əşrəf Murad, Tofiq Cavadov, Cavad Mircavadov, Rasim Babayev və bir çox başqaları kimi böyük ustadların yaradıcılığının çiçəklənmə illəri məhz həmin dövrə təsadüf edir. Bu ekspozisiyada o dövrün, həmin nəslin çox parlaq, böyük rəssamlarının əsərləri toplanıb. Bu, təkcə Azərbaycan təsviri sənət məktəbinin tarixi irsi deyildir. Bu, sonralar öz ardıcıllarını yetişdirən bütöv bir məktəb, bütöv bir istiqamətdir. Bu gün Azərbaycanda məhz həmin dövrün bədii estetikasını yaradıcılığında təcəssüm etdirən gənc və istedadlı rəssamlar çoxdur".

Azərbaycanın Birinci xanımı vurğulayıb ki, burada təmsil olunan hər bir rəssam təkrarsız fərdiyyət, nadir taledir. Onların hamısı novatorlar, Azərbaycan rəngkarlığında, Azərbaycan heykəltəraşlığında bütöv istiqamətlərin yaradıcıları olub və indi də belədir. Onların hər birinin öz dəst-xətti, öz xarakteri var.

Sərginin Rusiyanın paytaxtında təşkil olunması da təsadüfi deyil. Bu, Azərbaycan ilə Rusiya arasında münasibətlərin möhkəm tarixi təməl üzərində qurulmasının mühüm göstəricisidir. "Bu dostluq münasibətlərinin səciyyəvi cəhəti qarşılıqlı anlaşma, sıx əməkdaşlıqdır. Bizim ölkələrimizi, xalqlarımızı, ümumi tarixi keçmişlə yanaşı, bu gün çoxlu ümumi meyillər, istiqamətlər birləşdirir. Biz bunu mədəni məkanda xüsusilə müşahidə edə bilərik. Əlbəttə, bu, hər şeydən əvvəl, böyük rus dili, böyük rus ədəbiyyatıdır. Yəqin, siz də bilirsiniz ki, Azərbaycan keçmiş Sovet İttifaqı məkanında rus dilində təhsilin tam həcmdə qorunub saxlandığı az sayda ölkələrdən biridir. Bütün bunlar onu göstərir ki, biz ümumi elmi, mədəni məkanı qoruyub saxlaya bilmişik. Şübhəsiz, bu da öz növbəsində ona təsir göstərir ki, həm dövlətlərarası səviyyədə, həm də ölkələrimizin sadə insanları, vətəndaşları arasında daha səmimi əlaqələr yaranır".

Son illər Azərbaycan mədəniyyətinin, dilinin beynəlxalq səviyyədə təbliğatı böyük vüsət alıb. Artıq Rusiya, Çin, Serbiya, Türkiyə və digər ölkələrdə Azərbaycan dili və mədəniyyəti mərkəzləri fəaliyyət göstərir. Onlardan Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasını xüsusi qeyd etmək olar. Klassik musiqinin beşiyi olan bu şəhərdə Azərbaycan mədəniyyətinin geniş təbliği Mehriban xanımın xidmətlərinin göstəricisidir.

Əsas diqqətçəkən məqamlardan biri odur ki, bu mərkəzlər sözügedən ölkələrin ali məktəblərində, elm-tədris qurumlarında da yaradılıb. Azərbaycan dilinin incəlikləri, mədəniyyətimizin unikallığı, bənzərsizliyi öyrənilir, tədqiq edilir. Fransanın paytaxtında "Azərbaycan tolerantlıq ölkəsi" fotosərgisinin açılışı mədəniy-



yət sahəsində geniş təşviqedici rol oynamışdır.

Sərgini izləyənlər Azərbaycanda yaşayan müxtəlif millətlər və dinlərə mənsub xalqların həyat tərzi, adət-ənənələri ilə tanış olmuş, tablolarda əks etdirilən Azərbaycanda müxtəlif dini icmaların bir-birinə hörmət və ehtiram şəraitində yaşadığının tərənnümünə çevrilmiş həyat tərzi barədə dərin məlumatlar əldə etmişlər. Fotolarda Azərbaycanın təbiətini, qədim adət-ənənələrini, sadə insanların gündəlik həyatını görmək mümkündür. Bu fotolar həm tarixi məkanlarımızı, Azərbaycanın müxtəlif bölgələrindəki həyat tərzini, həm də bu qədim tarixə sahib ölkəmizin müasirliyini izləyicilərin diqqətinə çatdırır.

Bu silsilə tədbirlərə Parisin “Pale Royal” meydanında Heydər Əliyev Fondunun təşkil etdiyi "Azərbaycan şəhərciyi"-nin rəsmi açılışını, digər ölkələrdə mədəniyyət tədbirlərinin keçirilməsini də qeyd etmək mümkündür. Həmin tədbirlər əyani şəkildə xalqımızın mədəni dəyərləri haqqında dünya ölkələrinin sənətsevərləri və ictimai dairələrində zəngin təsəvvürün formalaşmasına səbəb olmuşdur.

İyirmi ildən artıqdır ki, davamlı olaraq xarici ölkələrdə Azərbaycan mədəniyyət



mərkəzləri, mədəni əlaqələr dərnəkləri açılır. Onların sırasında Parisdə Heydər Əliyev Fondunun və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə yaradılan Mədəniyyət Mərkəzinin fəaliyyətini xüsusi qeyd etmək gərəkdir.

Parisin mərkəzində – Eyfel qülləsinin yaxınlığında yaradılan bu Mərkəz ölkəmizin dünya mədəniyyətinin paytaxtında təbliğ olunması istiqamətində atılan ən mühüm addımlardan biridir. Xüsusi əhəmiyyəti ilə seçilən bu mədəniyyət hadisəsi dünya gündəminə mədəniyyətlərarası və sivilizasiyalararası dialoq platformasının aparıcı qüvvəsi kimi daxil olan Azərbaycanın ən yüksək səviyyədə tanıdılmasına xidmət edir. Ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatların bir məkanda təqdim edildiyi Mərkəz Parisin mədəni həyatında fəallığı ilə seçilən Azərbaycanın bu sahədə həyata keçirdiyi fəaliyyətin rəsmiləşdirilməsinə də böyük imkanlar açır. Azərbaycan Mədəniyyət Mərkəzi həm də ölkəmizə sonsuz marağı təcəssüm etdirir. Azərbaycanın Birinci xanımının ölkəmizin xaricdə tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlərin mühüm hissəsi Parisin mədəni həyatı ilə bağlıdır. Yeni mədəniyyət ocağı isə bu sahədə işlərin daha da güclən-




dirilməsinə, vahid mərkəzdən idarə olunmasına və daha səmərəli fəaliyyətin qurulmasına geniş imkanlar açır. Bu, həm də Azərbaycanın dünyada tanıdılması, ölkəmizdə tolerant, dostluq mühitinin əbədi olmasını şərtləndirən mesajlardır. Azərbaycanın sülhün, tolerantlığın, xeyirsevərliyin, humanizmin ünvanına çevrildiyini təsdiqləyən meyarlardır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2012-ci ildə İtaliyada Azərbaycan Mədəniyyəti Günlərinin təşkil edilməsindəki fəaliyyəti də xüsusi əhəmiyyət daşımışdır.

Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü, ölkəmizin İtaliyadakı səfirliyinin və Roma şəhər meriyasının dəstəyi ilə keçirilən mərasimdə Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva iştirak etmişlər. Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi iki ölkə arasında mədəni əlaqələrin inkişafının yüksək səviyyədə olduğunu təsdiq etmiş, ölkəmizin tarixi, mədəniyyəti barədə dünya ictimaiyyətinə ətraflı məlumat verilməsi baxımından əhəmiyyət kəsb et-

mişdir. Bu cür tədbirlər bir daha sübut etmişdir ki, mədəniyyətlərarası dialoq platformasının yaradılmasında strateji məkan funksiyasını həyata keçirən ölkəmiz artıq mədəni dəyərləri, zəngin musiqisi ilə dünyanın diqqətini çəkir.

Mehriban xanımın Azərbaycanın zəngin musiqi mədəniyyətinə verdiyi ən böyük töhfələrdən biri ermənilərin ölkəmizin tarixi mədəniyyət nümunələrini öz adlarına çıxartmaq cəhdlərini darmadağın etməsidir. Tarixən Azərbaycanın milli-mədəniyyət abidələrini mənimsəyərək öz adlarına yazmaq istiqamətində beynəlxalq səviyyədə saxta təbliğat aparan ermənilərin bu siyasətinin ifşa edilməsi sahəsində Azərbaycanın Birinci xanımının atdığı addımlar xüsusi təqdiredilәsi hadisədir. Bu, həm də Azərbaycan dövlətinin siyasətinə uğur gətirən möhtəşəm fəaliyyətdir. Məlum olduğu kimi, ermənilər qədim Azərbaycanın xalq mahnısı olan "Sarı gəlin"i öz adlarına çıxmaq üçün uzun illər cəhdlər göstərib, musiqi tariximizin simvollarından olan bu mahnının onlara məxsus olduğunu iddia ediblər. Məhz Mehriban Əliyevanın fədakar əməyi sayəsində UNESCO "Sarı gəlin"i Azərbaycan musiqisi kimi tanıyıb və bu addım ermənilərə növbəti sarsıdıcı zərbə olub. Mehriban xanım dərin elmi-mədəni, diplomatik fəaliyyəti və qətiyyəti ilə hazırda



Azərbaycanın qədim tarixi maddi mədəniyyət abidələrinin, milli sərvətlərinin də UNESCO-nun Dünya İrs siyahısına namizəd kimi irəli sürülməsi işlərini uğurla davam etdirir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanın müstəqilliyinin 20-ci ildönümü ilə əlaqədar 2011-ci ildə Fransanın paytaxtı Parisdə, Rusiya Federasiyasının paytaxtı Moskvada, Vatikan dövlətində, İtaliyanın paytaxtı Romada Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının həmin ölkələrdəki səfirliklərinin dəstəyi ilə keçirilən "Azərbaycan gecəsi" adlı tədbirlər mədəniyyət və incəsənətimizin dünyada təbliğində mühüm rol oynamışdır.

Mehriban Əliyeva Moskvada Azərbaycanın müstəqilliyinin yenidən bərpa etməsinin 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

2011-ci il mayın 17-də Moskvada Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsinin 20-ci ildönümünə həsr olunan "Azərbaycan gecəsi" adlı təntənəli mərasim də mühüm ictimai-siyasi hadisəyə çevrilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü, ölkəmizin Rusiyadakı səfirliyinin dəstəyi ilə baş tutan və Dövlət Kreml Sarayında keçirilən mərasimdə Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Rusiyanın tanınmış ictimai xadimləri ilə görüşləri keçirilmişdir. Mərasimdə çıxış edn Mehriban Əliyeva Azərbaycan dövlətçiliyinin qədim tarixindən danışaraq ölkəmizin həmişə Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirdiyini vurğulamış, bütün xaqlar sülh şəraitində yaşadığını diqqətə çatdırmışdır.

Mehriban xanım Əliyeva Azərbaycanın müsəlman Şərqində ilk parlament respublikası olduğunu, burada ilk opera və baletin yarandığını bildirmiş, ölkəmizin müstəqillik dövründə əldə etdiyi nailiyyətlər barədə geniş məlumat vermişdir.

"Azərbaycan gecəsi" çərçivəsində Heydər Əliyev Fondunun ən uğurlu layihələrindən olan "Azərbaycan" nəşrinin rus dilindəki versiyasının təqdimatı olmuşdur. Oxuculara odlar yurdu Azərbaycan haqqında müfəssəl məlumat vermək məqsədilə ərsəyə gətirilən nəşrdə toplanan 1000-dən çox şəkil xalqımızın qədim tarixini, ənənələrini, mədəniyyətini, etnoqrafik xüsusiyyətlərini əks etdirməklə yanaşı, ölkəmizin keçmişini və bu gününü, müasir simasını da təcəssüm etdirir. Ölkəmizin qədim tarixinin, memarlığının, mədəniyyətinin bütün tərəfləri ilə əks olunduğu "Azərbaycan" nəşri ilə tanışlıq respublikamız və paytaxt Bakı haqqında dolğun təəssürat yaratmaqla, onun mədəniyyətlər və sivilizasiyaların qovuşuğunda yerləşməsindən xəbər verir.

Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyəti, elmi və incəsənətinin bütün sahələrinə qayğı göstərir. Onun təşkilat-



çılığı ilə ölkənin tanınmış alimləri və incəsənət xadimlərinin təbliği istiqamətində əvəzedilməz proqramlar reallaşdırılmışdır. Bu sırada "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunmasını, UNESCO-nun "Dünya İrs Siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsini ayrıca qeyd etmək gərəkdir. Bundan başqa, Nəsirəddin Tusinin anadan olmasının 800 illik yubileyinin keçirilməsi də təqdirəlayiqdir. Mehriban xanım məşhur şərqşünas alim Mirzə Kazımbəyin də 200 illik yubileyinin keçirilməsinin də təşəbbüskarı olub. Bunlardan başqa, tanınmış rəssam Səttar Bəhlulzadənin, məşhur yazıçı və pedaqoq Mir Cəlal Paşayevin, akademiklər Yusif Məmmədəliyev və Musa Əliyevin 100 illik yubileylərinin keçirilməsinin də müəllifi məhz Mehriban xanım Əliyevadır.

Bütün bunlar həm də Azərbaycan mədəniyyətinin təbliğinə əvəzsiz töhfələr verir. Eyni zamanda, dünya mədəniyyətinin

bir hissəsi olan milli mədəniyyətimizin digər mədəniyyətlərlə qarşılıqlı əlaqəsinə daha geniş imkanlar açır və Azərbaycan mədəniyyətinə qəsd etmək istəyənlərin əl-qolunu bağlayır. Mehriban xanım milli mədəniyyətin təbliğatçısı olmaqla yanaşı, həm də onun fəal qoruyucusudur.

O, dünya mədəniyyətinin inkişafında, sivilizasiyalararası dialoqun möhkəmlənməsində əvəzsiz rol oynayır. Milli mədəniyyətin inkişafına, başqa xalqların mədəniyyətinin qorunmasına və mədəniyyətlərarası əlaqələrin inkişafına böyük töhfələr verən Mehriban xanım həm də yüksək səviyyədə sivilizasiyalar və dinlərarası dialoqun reallaşması üçün böyük əmək sərf edir.

Mehriban Əliyeva bu gün də mədəniyyətimizin hamisidir. 2019-cu il martın 1-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü mədəniyyət sahəsində olan növbəti yüksək diqqətin nümunəsi kimi qiymətləndirmək olar. Olduqca əlamətdar hesab edilə biləcək bu görüşdə mədəniyyət icmasının görkəmli nümayəndələrinin, istedadlı sənət adamlarının Mehriban xanımla səmimi söhbətləri ona olan dərin hörmətin bariz ifadəsi idi. Mədəniyyət sahəsində çalışanlar Mehriban xanımın onlara olan münasibətinin təzahürlərini həyatlarında həmişə hiss etdiklərindən, onun mədəniyyətimizin inkişafı üçün fədakar əməyinə bələd olduqlarından məhz doğru və düzgün ünvandan pənah umduqlarına yanılmamışdılar. Birinci xanıma bu qədər həssas və istiqanlı münasibət isə əbəs deyil. Çünki Mehriban Əliyeva hər zaman insanlarla açıq ünsiyyətdə olub, köməyini və diqqətini əsirgəməyib. Məhz bu görüşdə də sənət adamlarını təmkinlə, səbrlə və yüksək mədəni qabiliyyətlə sonadək dinləyərək bütün fikir və təkliflərinə anlaşıqla yanaşdı, onları qayğılandıran məsələlərin həllinə biganə qalmadığını və əlindən gələn köməyi edəcəyini sərgilədi.



# III FƏSİL

*Sülh carçısı:*
*milli və bəşəri ideallarin hamisi*





*"Nə qədər кi güclü ideyaya söykənir, insan güclüdür".*

**Ziqmund Freyd**

## XOŞMƏRAMLI SƏFİR – MƏRAM VƏ XOŞ NİYYƏTİN PARLAQ SİMVOLU

Azərbaycanın xarici siyasətində UNESCO ilə əməkdaşlıq rəsmi olaraq prioritet istiqamətlərdən biri kimi qəbul olunmuşdur. Ölkənin bu qurumla aktiv əlaqələri 1993-cü ilin ikinci yarısında, ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra real məzmun kəsb edib. Bu sırada Heydər Əliyevin 1993-cü il dekabrın 19–21-də Parisə səfəri zamanı UNESCO-nun baş direktoru Federiko Mayorla görüşü xüsusi rol oynayıb. O zaman ikitərəfli əməkdaşlığın genişləndirilməsi məsələləri və inkişaf perspektivləri əhatəli müzakirə edilmiş və bunun yekunu olaraq memorandum imzalanmışdı. Artıq 25 ildir ki, Azərbaycan–UNESCO əlaqələri bu sənəddə ifadə olunan müddəalara və beynəlxalq hüquq normalarına uyğun yüksələn xətlə inkişaf edir.

Ulu öndər Heydər Əliyev deyirdi ki, xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları arasında seçilir. Onlardan ən dəyərlisi, ən əhəmiyyətlisi mədəniyyətdir. Ona görə də Azərbaycan öz müstəqil mədəniyyət siyasətini formalaşdırarkən UNESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir.

Heydər Əliyevin əsasını qoyduğu bu əməkdaşlıq kursunda 1994-cü il fevralın 21-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin yanında Milli Komissiyanın yaradılması da ciddi rol oynayıb. Bu komissiya 2005-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında fəaliyyət göstərir ki, bu da Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursuna sədaqətini və məsələlərə yaradıcı yanaşmasını nümayiş etdirir. Həmin komissiyanın Parisdə UNESCO yanında da Daimi Nümayəndəliyi fəaliyyət göstərir.

Ötən əsrin sonlarından Azərbaycan–UNESCO əlaqələri keyfiyyət və mədəni-ictimai əlaqələr baxımından yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycanın UNESCO ilə əməkdaşlığından danışarkən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsu-



si vurğulamaq lazımdır. Dünyanın ən nüfuzlu təşkilatlarından olan UNESCO-nu Azərbaycan üçün ən yaxın tərəfdaşlardan birinə çevirməyi bacaran qabiliyyətli xanım kimi Mehriban Əliyevanın xidmətləri əvəzsizdir. Onun bacarığı və istedadı sayəsində bu mötəbər təşkilatla respublikamız arasında sıx əlaqələr qurulmuş, UNESCO–Azərbaycan münasibətləri məhz Mehriban xanımın əzmkar və fədakar əməyi sayəsində tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Mehriban xanım

olduqca böyük fəallıqla Azərbaycanla BMT-nin bu ixtisaslaşmış komissiyası arasında əlaqələrin sürətli inkişafında müstəsna rol oynamışdır. Bunun nəticəsidir ki, Mehriban xanım mədəniyyət sahəsində çoxşaxəli fəaliyyəti ilə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda dərin rəğbət və hörmət qazanmışdır.

Mehriban xanım Əliyeva Azərbaycan–UNESCO əlaqələrini düşünülmüş kurs üzrə, ardıcıl və davamlı olaraq inkişaf etdirib. Bu proses indi də uğurla davam edir və ölkəmiz bundan böyük faydalar götürür. Mütəmadi olaraq Azərbaycanda və xarici ölkələrdə tarixi, dini, mədəni abidələrin bərpası ilə bağlı layihələr reallaşdıran Fond dövlətçiliyin möhkəmlənməsi və mədəniyyətin təbliği sahəsində olduqca əhəmiyyətli missiya yerinə yetirir.

Azərbaycanla UNESCO arasındakı əməkdaşlığın yeni səviyyədə inkişafı Mehriban xanım Əliyevanın bu qurumun tədbirlərində aktiv iştirakı ilə daha dolğun məzmun kəsb edib. 2004–2012-ci illərdə Mehriban xanım Əliyeva mütəmadi olaraq Parisdə, UNESCO-nun baş qərargahında xoşməramlı səfirlərin illik yığıncağında iştirak edib. Azərbaycanın Birinci xanımı həmin toplantılar çərçivəsində müxtəlif görüşlər keçirib, görüşlərdə aparılan müzakirələr nəticəsində əməkdaşlığın inkişafı istiqamətində mühüm qərarlar qəbul edilib. Bunun fonunda UNESCO-nun baş qərargahında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycana həsr olunmuş müxtəlif tədbirlərin təşkil edilməsi ənənə halı alıb.

Bu kimi addımları ilə Mehriban xanım Əliyeva Azərbaycan–UNESCO əlaqələrinə həm yeni stimul verib, həm də onu məzmunca daha da zənginləşdirib. Həmin aspektdə Mehriban xanımın Azərbaycanın mədəniyyət, elm, təhsil, incəsənət xadimləri ilə bağlı müxtəlif layihələri UNESCO-nun himayəsi ilə keçirməsi və sivilizasiyalar, mədəniyyətlər, dinlərarası dialoqa həsr edilmiş tədbirlərdə fəal iştirak etməsi ayrıca yer tutur.

Mehriban xanım Əliyevanın UNESCO-nun mənzil-qərargahında xoşməramlı səfirlərin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, UNESCO-nun dünya mədəniyyətinin inkişafında rolu, təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları da böyük maraqla qarşılanır. Fondun prezidenti həmin tədbirlərdə diqqəti həm də Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəldir, işğal altında olan ərazilərimizdə tarixi, mədəni abidələrimizin məhv edilməsindən narahatlığını bildirir, bir sözlə, UNESCO-nun mötəbər tribunasından Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün bacarıqla istifadə edir.

UNESCO-nun mənzil-qərargahında Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə gerçəkləşən mədəni tədbirlər, Azərbaycanın inkişafı, tarixi, mədəniyyəti ilə bağlı təqdimatlar, ölkəmizin mədəni

abidələri, təbiəti, səfalı yerləri, xalçaçılıq sənəti, mətbəxi barədə bir-birindən maraqlı nəşrlər, kataloqlar da ölkəmizin tanıdılması baxımından böyük önəm daşıyır. Azərbaycanın tanınmış incəsənət ustalarının, eləcə də gənc istedadların UNESCO-nun iqamətgahında möhtəşəm çıxışları isə Azərbaycan mədəniyyətinin zənginliyini, möhtəşəmliyini bir daha nümayiş etdirir.

Böyük söz ustadı, klassik şairimiz Məhəmməd Füzulinin 500 illik, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik, “Leyli və Məcnun” operasının ilk tamaşasının, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı, alim Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu sıradan olan digər tədbirlər UNESCO çərçivəsində böyük təntənə ilə qeyd edilmişdir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin UNESCO çərçivəsində qeyd edilməsi bu qurumla əlaqələrin yüksək səviyyəsinin bariz göstəricisidir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu (Şirvanşahlar saray kompleksi və Qız qalası da daxil olmaqla) Dünya Mədəni İrs Siyahısına salınıb. İçərişəhər tarix-memarlıq nümunəsi kimi Azərbaycan milli mədəniyyəti ilə dövlətçiliyin qovuşmasının rəmzlərindən biridir. Orada inşa edilən tikililər gözəl və özünəməxsus mədəniyyət nümunələri olmaqla yanaşı, eyni zamanda Şirvanşahlar sarayının timsalında Azərbaycan dövlətçiliyinin vacib mərhələlərindən birinin sübutudur. Bu kompleksin beynəlxalq miqyasda qəbul edilməsi həm də Azərbaycan dövlətçiliyinin qəbul olunmasıdır ki, bu da bizə dost olmayan dairələr üçün tutarlı cavabdır. Göründüyü kimi, Mehriban xanım Əliyeva bir addımla müxtəlif istiqamətlərdə əhəmiyyət daşıyan hədəflərə nail ola bilib. Azərbaycanın mədəniyyət siyasətinin gözəl nümunələrindən birini ortaya qoyub. Eyni məntiqlə “Qobustan” Dövlət Tarixi-Bədii Qoruğunun 2007-ci ildə Dünya Mədəni İrs Siyahısına daxil edilməsinin əhəmiyyətindən bəhs edə bilərik. Bu istiqamətdə atılan addımlarla bağlı siyahını davam etdirmək mümkündür: Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalçası, tar ifaçılıq sənəti, çövkən-Qarabağ atüstü oyun ənənəsi, Azərbaycan kəlağayısı, Lahıc misgərlik sənəti, lavaş artıq UNESCO-nun Azərbaycanın milli dəyərləri kimi tanıdığı nümunələrdir. 2018-ci ilin dekabr ayında isə Azərbaycan dolması və kamança UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb.

Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfirləri arasında çox böyük nüfuzu vardır. Onun zəngin fəaliyyəti bu təşkilatın nüfuzlu nümayəndələri ilə keçirdiyi görüşlər, bir çox ölkələrə səfərləri zamanı yüksək qiymətləndirilmiş, dünya sivilizasiyasına verdiyi töhfə minnətdarlıqla qarşılanmışdır. 2004-cü ilin yanvarında Prezident İlham Əliyevin Fransya

səfəri zamanı Mehriban xanım Əliyevanın Parisdə, UNESCO-nun iqamətgahında bu beynəlxalq qurumun baş direktoru Koiçiro Matsuura ilə görüşü əlamətdar hadisə kimi yadda qalmışdır. Həmin görüşdə xalqımızın ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə bağlı UNESCO-da keçirilmiş tarixi tədbirin əhəmiyyəti vurğulanmış, Azərbaycanla bu beynəlxalq qurum arasında sıx əməkdaşlığın mövcud vəziyyəti yüksək qiymətləndirilmişdir. Mehriban xanımın nəcib təşəbbüsləri yüksək qiymətləndirilir, onun gördüyü işləri xoşməramlı səfirlər üçün örnək hesab edirlər.

Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfiri kimi fəxri missiyası elə beynəlxalq ictimaiyyət tərəfindən göstərilən nadir etimaddır. Bu hadisə sadəcə böyük xidmətləri olan bir şəxsiyyətin layiq olduğu qiyməti alması deyildi, həm də Azərbaycan–UNESCO əlaqələrində inkişafın yeni mərhələsinin təsdiqi idi. Çünki Mehriban xanım Əliyeva sistemli, konseptual və düşünülmüş fəaliyyəti ilə Azərbaycanla UNESCO-nun əməkdaşlığını keyfiyyətcə yeni səviyyəyə yüksəldə bildi. Burada iki istiqaməti vurğulamaq istərdik: birincisi, Azərbaycanın mədəni sərvətlərinin dünyanın qeyri-maddi mədəni irsi siyahısına salınması üçün silsilə tədbirlər, layihələr və proqramlar reallaşdırılır, ikincisi, başqa xalqların mədəniyyət nümunələrinin qorunması, saxlanması, bərpası və funksional imkanlarının artırılması istiqamətində konkret addımlar atılmaqla milli və beynəlmiləl faktorların vəhdətinin Azərbaycan dövləti üçün prinsipial əhəmiyyət daşıdığı dünyaya nümayiş etdirilir. Bu iki istiqamət azərbaycançılıq ideologiyasında mövcud olan bir vacib tezisdən qaynaqlanır. Daha dəqiq desək, Mehriban xanım Əliyevanın həyata keçirdiyi proqramlar, reallaşdırdığı layihələr azərbaycançılıq ideologiyasında mühüm yer tutan milli ilə beynəlmiləl prinsiplərin harmoniyasını ifadə edən müddəanın mədəniyyət siyasəti sahəsinə ustalıqla tətbiqi kimi dərk edilə bilər. Ulu öndər Heydər Əliyevin yeni məzmun verdiyi azərbaycançılıqda azərbaycanlılar milli mədəniyyəti qoruyub saxlamağa, ona dərindən yiyələnməyə və sahiblənməyə borclu olmaqla yanaşı, fərqli mədəniyyətə, dünya xalqlarının mədəni-mənəvi dəyərlərinə də açıq olmalıdırlar. Bu müasir və səmərəli ideyanı isə ancaq konkret üsullar, təsir, təbliğ, təşviq və kommunikasiya kanalları vasitəsilə həyata keçirmək mümkündür. Mehriban xanım Əliyeva məhz bütün bu incə məqamları özündə ehtiva edən və konseptual xarakter daşıyan fəaliyyət göstərib və hazırda da bu fəaliyyət davam etdirilir. Bütün bunlar çoxlu sayda faktlarda öz təsdiqini tapır.

Göründüyü kimi, Mehriban xanım Əliyeva bir addımla müxtəlif istiqamətlərdə əhəmiyyət daşıyan məqsədlərə nail ola bilib. Azərbaycanın mədəniyyət siyasəti-



nin gözəl nümunələrindən birini ortaya qoyub.

Mehriban xanım Əliyeva 2004-cü ilin sentyabrında UNESCO-nun xoşməramlı səfiri kimi çıxışında Azərbaycanı Üzeyir Hacıbəyov, Qara Qarayev, Səttar Bəhlulzadə, Mstislav Rostropoviç kimi dünya şöhrətli mədəniyyət xadimlərinin vətəni olaraq tərənnüm etmiş, bu cür şəxsiyyətləri yetişdirdiyi üçün Azərbaycan xalqının həqiqətən də böyük xalq olduğunu dünya ictimaiyyətinə çatdırmışdır: "Öz milli mənliyimizi, mədəniyyətimizi qoruyub saxlamaqla yanaşı, biz dünya mədəniyyəti xəzinəsinə 1300 illiyi UNESCO çərçivəsində qeyd olunmuş "Kitabi-Dədə Qorqud" eposu, şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilmiş Azərbaycan muğamı kimi töhfələr verə bilmişik. Bu gün yüksək texnologiyalar, qloballaş-

ma və informasiya inteqrasiyası dövründə qeyri-maddi irsin qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Bütün bəşəriyyət qeyri-maddi irsin qorunmasında çox maraqlıdır. Bu məsələdə UNESCO-nun rolu, şübhəsiz ki, çox böyükdür. Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da Azərbaycan xalqının bugünə qədər qoruyub saxladığı və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Xoşməramlı səfir kimi, mənim bütün gələcək fəaliyyətim də bu məqsədə xidmət edəcəkdir".

2005-ci il sentyabrın 13-də Parisdə UNESCO-nun baş qərargahında görkəmli Azərbaycan alimi akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edən Mehriban xanım Azərbaycan elm və mədəniyyətinin zənginlikləri barədə ətraflı məlumat vermişdir. 2006-cı il oktyabrın 21-də isə Mehriban Əliyevanın UNESCO-nun 60 illiyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq həftəsi" çərçivəsində Azərbaycan günü ilə bağlı "Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda" adı altında keçirilən tədbirdə iştirak etmiş, UNESCO ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlığın inkişaf etdiyini xüsusi vurğulamış, təhsil sisteminin yenidən qurulmasında təşki-



latın ölkəmizə köməyindən, Azərbaycanda milli azlıqların mədəniyyətinin inkişafına dövlət qayğısından, mədəni və qeyri-maddi irsin qorunub saxlanılmasında, abidələrimizin Dünya Mədəni İrs Siyahısına daxil edilməsində UNESCO-nun rolundan danışmışdır.

2008-ci il mayın 20-də Heydər Əliyev Fondunun dəstəyi ilə UNESCO-nun baş qərargahında xoşməramlı səfirlərin illik yığıncağı çərçivəsində ölkəmizin gənc istedadlarının "Azərbaycanın xoşməramlı mələkləri" adlı konsert proqramı təşkil etməsi zəngin mədəniyyət hadisəsinin növbəti nümunəsi kimi dəyərləndirilə bilər. Mərasimdə çıxış edən Mehriban xanım Əliyeva Azərbaycanın mədəni-ictimai həyatında baş verən mühüm yeniliklər haqqında danışmışdır.

Mehriban Əliyeva bildirmişdir ki, Azərbaycan elm, mədəniyyət, təhsil sistemini inkişaf etdirir, ən müasir standartlar tətbiq edir. “Hər il biz gənclərimizin dünyanın nüfuzlu təhsil ocaqlarında təhsil almaları üçün təqaüdlər proqramını həyata keçiririk. Eyni zamanda, inanırıq ki, informasiya texnologiyalarına çıxışın təmin edilməsi vacibdir. Ona görə də bizim məqsədimiz hər bir məktəbdə uşaqlarımız üçün kompüterlərdən istifadəni və internetə çıxışı təmin etməkdir. Hesab edirəm ki, ən yaxşı sərmayə gələcək nə-





sillərimizin təhsilinə yönəldilən sərmayədir".

Azərbaycanın Birinci xanımı ölkəmizin zəngin mədəni irsi haqqında da geniş məluamt verərək bildirib ki, əsrlər boyu Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynamışdır. "Hazırda tarixi abidələr, bütün teatrlar və muzeylər bərpa olunur və digər işlərin də həyata keçirilməsi nəzərdə tutulur. Biz tarixi abidələrimizin qorunmasına diqqət yetiririk. Azərbaycan çoxmillətli ölkədir və burada bir çox millətlərə və dinlərə mənsub olan insanlar yaxşı, dinc şəraitdə yaşayırlar. Biz dini dözümlülüyü və digər mədəniyyətlərə dözümlü yanaşmanı təmin edirik. Bir çox sahələrdə biz tərəqqiyə nail olmuşuq və əminəm ki, Azərbaycan düzgün yoldadır".

Azərbaycan–UNESCO əlaqələrinin inkişafını yuxarıda vurğulanan faktlarla yanaşı, gənc istedadlı azərbaycanlıların dünyada tanıdılması ilə də xarakterizə etmək mümkündür. Belə ki, 2011-ci il aprelin 19-da UNESCO-nun baş qərargahında Azərbaycanın müstəqilliyinin 20-ci ildönümü münasibətilə "Azərbaycanın gənc istedadları" adlı möhtəşəm konsert proqramının təşkili izləycilərdə dərin rəğbətlə qarşılanmışdır.

UNESCO-nun baş direktoru İrina Bokova Mehriban xanım Əliyevanın təşəbbüsü ilə baş tutan konsertin geniş auditoriyanın xüsusi marağına səbəb olduğunu və belə tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etmişdir. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə keçi-



rilən konsert təkcə simvolik məna daşımırdı, həm də bütün dünyaya göstərilirdi ki, Azərbaycan gənc istedadlar diyarıdır və Azərbaycan xalqı qədimdən kreativ keyfiyyətlərə malikdir. Bu baxımdan, 2011-ci il aprelin 19-dan 29-dək UNESCO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisinin keçirilməsi də çox əlamətdar hadisədir. Çünki Azərbaycan xalçaları dünyada nadir sənət əsərlərindən biridir və şübhəsiz ki, onların nümayişi bizim ölkədə yüksək səviyyədə ustaların yetişdirildiyinin birbaşa təsdiqidir. Məhz bu kimi fəaliyyətlərinə görə, Mehriban xanım Əliyeva 2008-ci ildə keçmiş baş direktor Koiçira Matsuura tərəfindən gümüş xatirə medalı, 2010-cu ildə isə baş direktor İrina Bokova tərəfindən "Qızıl Motsart" medalı ilə təltif edilib.

UNESCO-nun xoşməramlı səfirlərinin 11-ci illik toplantısı çərçivəsində Heydər Əliyev Fondunun Azərbaycanla bağlı nəşrlərinin təqdimatının əlaqələrin inkişafında xüsusi yeri vardır. Çünki həmin nəşrlərdə Azərbaycanın mədəni həyatı dolğun şəkildə ifadə olunub. Onlara nəzər salan hər bir şəxsin milli mədəniyyətimiz haqqında obyektiv təsəvvürü formalaşır.

2013-cü il iyulun 18-də Azərbaycanın UNESCO-ya üzvlüyünün 20 illik yubileyi ilə əlaqədar olaraq, Mehriban xanım Əliyevanın iştirakı ilə Parisdə təntənəli tədbirlər keçirilmişdir. UNESCO-nun həyə-

tində yerləşdirilmiş daş at və daş qoç abidələrinin, eləcə də Azərbaycanda daş sənətinə həsr edilmiş sərginin açılış mərasimi təşkil edildi. 2013-cü il oktyabrın 22-də UNESCO-nun baş qərargahında Heydər Əliyev Fondunun təşəbbüsü və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq simpoziumun keçirilməsini də qeyd etmək gərəkdir. "Seyid Yəhya Bakuvi: Tolerantlığın ifadəsi" mövzusuna həsr olunmuş simpoziumda İngiltərə, Fransa, Türkiyə, Əlcəzair, Azərbaycan və başqa ölkələrdən dəvət edilmiş tədqiqatçı alimlər, UNESCO-da akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Azərbaycanın Fransadakı səfirliyinin əməkdaşları, diaspora təmsilçiləri, mədəniyyət xadimləri iştirak ediblər. Simpozium Azərbaycanda multikulturalizm və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi istiqamətində Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüslərindən bəhs edən "Tolerantlığın məkanı" adlı sənədli filmin nümayişi ilə başlayıb.

Tədbirdə qeyd edilib ki, Azərbaycan mədəniyyətlərarası dialoq və dini tolerantlıq sahəsində dərin ənənələrə malikdir, bu ənənələrin qorunması istiqamətində dövlətin davamlı fəaliyyəti digər ölkələr üçün örnək hesab oluna bilər. UNESCO-nun Mədəniyyətlərarası Dialoq Platformasının başçısı Katerina Stenou






bildirib ki, Azərbaycan xalqı tarix boyu mədəniyyətlər və dinlər arasındakı qarşılıqlı rəğbətin ən gözəl nümunəsini yarada bilib.

Azərbaycanla UNESCO arasında əlaqələrin yeni mərhələsində tərəflər arasında imzalanan rəsmi sənədlər də xüsusi rol oynayır. Bu sırada 2013-cü ildə "UNESCO ilə Azərbaycan hökuməti arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi"nin imzalanması ayrıca vurğulanmalıdır. Sazişdə Azərbaycanın təşkilat üçün 5 milyon ABŞ dolları məbləğində maliyyə töhfəsi ayırması qeyd olunub. Bu vəsait qeyri-maddi mədəni irs, qızların təhsili, elm və innovasiya texnologiyalarının inkişafı sahəsində UNESCO-nun işini möhkəmləndirməyə və azərbaycanlı mütəxəssislərin təşkilatda daimi işlə təmin olunmasına sərf edilir. Mühüm hadisələrdən biri bu saziş əsasında "Etimad Fondu"nun yaradılmasıdır.

2015-ci ilin noyabrın 17-də UNESCO-nun Nizamnaməsinin qəbulunun 70 illiyi münasibətilə Parisdə keçirilən UNESCO-nun Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda Mehriban xanım Əliyeva da iştirak edib.

Azərbaycanın Birinci xanımı çıxışında dünyada yaşanan dərin maliyyə böhranından və on milyonlarla insanın irqinə, etnik köklərinə və dininə görə ayrı-seçkilik və təcrid olunmanın ağır nəticələri ilə

üzləşməsindən bəhs edib. Tədbir iştirakçıları Mehriban xanımın qloballaşmanın humanitar aspektlər ilə bağlı irəli sürdüyü fikirləri böyük maraqla qarşılayıblar. Çıxışı zamanı Mehriban xanım səmimi dialoq və xoş məramın çətinliklərin uğurla aradan qaldırılmasında əsas vasitələr olduğunu xüsusi vurğulayıb.

Azərbaycan–UNESCO əlaqələri hazırda sürətlə inkişaf edir. 2018-ci ildə "Bakı prosesi"nin 10 illiyi ilə bağlı UNESCO ilə birgə tədbirlər təşkil edilib. Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin 100 illik yubileyi UNESCO-nun baş qərargahında və Almaniyada qeyd olundu. İtaliyada, Türkiyədə və Almaniyada Azərbaycan muğamının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə silsilə tədbirlər keçirildi.

Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri kimi dünya miqyasında fəal və işgüzar qadın lider olaraq xüsusi hörmət və ehtirama malikdir. Bu mötəbər təşkilatın hər tədbirində onun iştirakı və çıxışı maraqla qarşılanır. Dünyanın elm və mədəniyyət xadimləri, ictimai mərkəzlərin nüfuzlu şəxsləri Mehriban Əliyevanın səsləndirdiyi fikirlərin, irəli sürdüyü təkliflərin əhəmiyyətini xüsusi qeyd edirlər. UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuuranın anadan olmasının 80 illiyi münasibətilə keçirilən



konfransda Birinci vitse-prezident, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın iştirakı bu baxımdan xüsusi diqqət mərkəzində olmuşdur.

2015-ci ildə paytaxt Bakının növbəti möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi etməsi Azərbaycanın sülhpərvər siyasətini bir daha dünyaya nümayiş etdirdi. 2015-ci il mayın 17-də Bakıda Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Azərbaycanın Birinci xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva dünyaya sülh və dostluğun möhkəmlənməsində mesajlarını çatdıraraq qlobal təhditlərin artdığı bir şəraitdə bəşəriyyəti birliyə, dostluğa dəvət etdi.

Forum çərçivəsində "Sülh ağacı"nın açılış mərasiminin keçirilməsi isə Azərbaycanın növbəti möhtəşəm sülh missiyasını nümayiş etdirdi. Bürüncdən hazırlanmış "Sülh ağacı" abidəsi Dövlət Bayrağı Meydanının yaxınlığında, yeni bulvarın ərazisində yerləşir. "Sülh ağacı" UNESCO-nun tolerantlıq, sülh rəmzi hesab olunur. Bu abidə ictimai yerlərdə insanları sülh haqqında düşünməyə çağırır. "Sülh ağacı" xalqlar arasında anlaşma rəmzi kimi qəbul olunur, münaqişələri həll etməyi, dünyada sülhü yaymağı təbliğ edir.

Bunlardan başqa, 2018-ci ildə ölkəmiz UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komi-



təsinə üzv seçildi. Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində keçirilən Hökumətlərarası Komitənin 13-cü sessiyasında "Çövkən-ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı milli hesabat qəbul olundu. "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiyanın Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması da əlamətdar hadisədir. Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə səyləri sayəsində "Dədə Qorqud irsi: dastan mədəniyyəti, xalq nağılları və musiqisi" türk mədəni abidəsi kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edildi.

Mədəniyyət və incəsənət sahəsində qazanılmış bütün bu uğurlar Azərbaycanla UNESCO arasında əməkdaşlığın yeni mərhələsinin bir sıra özəlliklərini müəyyənləşdirməyə imkan verir. Hər şeydən öncə, bu proses Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti ilə sıx bağlıdır. Digər məqam ondan ibarətdir ki, əməkdaşlıq daha sistemli olmaqla yanaşı, əhatə dairəsi də genişlənir. Artıq Azərbaycan dünyanın istənilən regionunda təşkil edilə biləcək tədbirlərin təşəbbüskarı ola bilir. Üçüncü özəllik Azərbaycanın indi müxtəlif mədəni tədbirlərin keçirilməsində donor ola bilməsi ilə bağlıdır. Növbəti məqam isə Azərbaycanın mədəniyyət siyasətini xarici siyasətin digər aspektləri ilə getdikcə daha sıx əlaqələndirməsindən qaynaqlanır. Bu cəhət bütövlükdə Azərbaycanın siyasi kursunun sürətlə dəyişən geosiyasi-mədəni situasiyaya çevik reaksiya verən, adaptasiya oluna bilməsinin sübutudur. Bu prosesdə UNESCO ilə əlaqələrin ciddi rol oynaması çox əlamətdardır. Çünki XXI əsr mədəniyyət əsridir.

Mehriban xanımın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsindən sonra da UNESCO ilə əlaqələr diqqət mərkəzində olmuş, təşkilatla ölkəmiz arasında münasibətlərin daha da dərinləşdirlməsi istiqamətində fəal müzakirələr aparılmışdır. UNESCO -nun keçmiş rəhbərləri, fəxri və xoşməramlı səfirləri Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsinin ictimai sahədə əlaqələrin genişlənməsində xüsusi rol oynayacağını vurğulamışlar. UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuuranın anadan olmasının 80 illiyi münasibətilə keçirilən konfransda Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın iştirakı bu baxımdan xüsusi diqqət mərkəzində olmuşdur. Mehriban xanımın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi UNESCO-nun keçmiş rəhbərləri, fəxri və xoşməramlı səfirləri tərəfindən yüksək qiymətləndirilmiş, onun bu mühüm dövlət vəzifəsinə ən layiqli namizəd olduğu vurğulanmışdır.

Konfransda çıxış edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliye-




va UNESCO və ölkəmiz arasında münasibətlərin daha da möhkəmlənməsindən qürur duyduğunu, elm, təhsil, mədəniyyət, insan potensialının inkişafı sahəsində icra olunan birgə layihələrin əhəmiyyətinə toxunmuşdur. Qeyd etmişdir ki, keyfiyyətli təhsil və mədəniyyət insan inkişafı üçün əsas elementlərdir və bu əhəmiyyəti nəzərə alaraq, Azərbaycan "Ekspo 2025" Ümumdünya Sərgisini Bakıda keçirmək üçün namizədliyini irəli sürərək, "İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması" mövzusunu seçib. Bu gün Azərbaycan dünya mədəni irsinin qorunmasına və proaktiv humanitar siyasətə dərin töhfəsini verməkdədir.

2019-cu ilin iyul ayında Azərbaycan digər möhtəşəm bir uğura nail oldu. Şəki Xan sarayının UNESCO-nun irs siyahısına daxil edilməsi Mehriban Əliyevanın xoşməramlı səfir kimi yorulmaz fəaliyyətinin növbəti bir uğurunu təsdiqlədi. Bu hadisəni qürur hissi ilə qarşılayan Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban Əliyeva Şəki xan sarayının və şəhərin tarixi mərkəzinin Ümumdünya İrs Siyahısına salınmasını Azərbaycanın yüksək mədəni nailiyyəti adlandırıb. Onun bu hadisə ilə bağlı xalqımıza ünvanladığı təbrikdə qeyd olunur ki, Azərbaycan xalqı milli mə-

dəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünyada tanıdılması istiqamətində böyük nailiyyətlər əldə edib: "Bu gün isə biz xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmasını qeyd edirik. Bu tarixi hadisə münasibətilə bütün xalqımızı səmimi-qəlbdən təbrik edirəm!".

2019-cu il iyulun 1-də Bakıda keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bir daha ölkəmizin bəşəriyyətin inkişafına, sülhə və təhlküəsizliyin möhkəmlənməsi yönündə yürütdüyü siyasətə diqqət çəkib: "Mədəni irs bizi bəşəriyyətin şanlı tarixinə aid olduğumuzu birlikdə düşünməyə vadar edir. Biz qəti şəkildə inanırıq ki, sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər".

Azərbaycanın UNESCO-ya üzv olduğu ötən 27 il ərzində mədəniyyət, təhsil, elm, kommunikasiya, gənclər və idman kimi bir çox sahələrdə uğurlu əməkdaşlın qurulmasına toxunan Mehriban Əliyeva saysız-hesabsız uğurlara imza atıldığı-



nı diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Azərbaycanın UNESCO-nun dəyərlərinə və ideallarına bağlılığı onun milli hüdudlarından kənarda da öz təzahürünü tapır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın konfransda verdiyi mühüm mesajlar isə ictimai-siyasi əhəmiyyətinə görə diqqəti daha çox cəlb etmişdir. O, tədbir iştirakçılarının diqqətini daha ciddi qlobal hadisələrə – müharibələrə və hərbi münaqişələrə çəkərək, bu problemin bəşəriyyətin mədəni irsinə hər zaman ciddi təhdid olduğunu bildirmiş, bu baxımdan erməni vandalizminin Azərbaycanın və dünyanın zəngin mədəni sərvətlərinə ağır zərərlər vurduğunu bəyan etmişdir: "Hərbi təcavüz nəticəsində, eləcə də beynəlxalq hüququ və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini kobud şəkildə pozan Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizini, o cümlədən Dağlıq Qarabağı və yeddi ətraf regionu bu gün də işğal altında saxlamaqda davam edir. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasından didrgin düşüb. Yüzlərlə tarixi və memarlıq abidəsi, muzeylər, məscidlər və digər dini məbədlər dağıdılıb, yaxud ciddi dağıntıya məruz qalıb. Bu səbəbdən, Azərbaycan mədəniyyət mülkiyyətinin qorunmasına aid müvafiq beynəlxalq konvensiyaların səmərəli icrasında çox maraqlıdır. Düşünürəm ki, bu sahədə görüləcək işlər hələ də çoxdur və UNESCO bu baxımdan mühüm rol oynamalıdır".

Azərbaycanın Birinci vitse-prezidenti beynəlxalq birliyi qəti şəkildə münaqişələrin ağır fəsadlarının və vandalizm akt-larının qarşısını almağa dəvət edib. Bildirib ki, sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər.

Azərbaycan Respublikasının beynəlxalq aləmdə mədəni-humanitar münasibətlərinin möhkəmlənməsində daha bir mötəbər beynəlxalq qurumun – İslam ölkələrinin elm, təhsil və mədəniyyət təşkilatının (ISESCO) əlaqələrini xüsusi qeyd etmək olar. 1991-ci ildən ISESCO-nun üzvü olan Azərbaycan bu təşkilatla əlaqələri Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə uğurlu inkişaf mərhələsinə qədəm qoymuşdur.

Mehriban Əliyevanın sivilizasiyaların yaxınlaşmasında xidmətlərinə görə, ISESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi dünya mədəniyyət tarixində ən mühüm hadisə idi. Təşkilatın xoşməramlı səfiri adlarına indiyədək İslam dünyasının üç görkəmli dövlət və ictimai xadimi layiq görülüb. Mehriban xanım təşkilatın bu yüksək adına layiq görülmüş ilk qadındır. Mehriban Əliyeva təhsil və mədəniyyətin inkişafına xüsusi diqqəti və qayğıya ehtiyacı olan insanların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş

proqramların dərin və əhatəli müsbət faydalarına görə bu titula layiq görülmüşdür.

Azərbaycanın Birinci xanımının mədəniyyət siyasətindəki xidmətləri ISESCO ilə proqram və layihələrində səmərəli fəaliyyətin qurulmasına səbəb olmuşdur. Bu təşkilata 50-dən çox islam dövləti daxildir. Xalqlar arasında dialoqun qurulması sahəsində fəaliyyət göstərən ISESCO həm də sülh və təhlükəsizliyin qarantıdır. Təşkilat fəaliyyət göstərdiyi illər ərzində xeyli işlər görüb, böyük uğurlar əldə edib. Müsəlman ölkələrində elmin, təhsilin və mədəniyyətin inkişafı üçün irimiqyaslı layihələr, proqramlar həyata keçirən ISESCO öz fəaliyyətini sırf müsəlman ölkələri ilə məhdudlaşdırmır. Dünyada elə ölkələr, elə dövlətlər var ki, onların əhalisinin tərkibində müsəlmanların ümumi sayı 30, 20 və hətta 10 faizdir. Lakin ISESCO bu ölkələrlə də sıx əməkdaşlıq edir, elmin, mədəniyyətin və təhsilin inkişafı üçün proqramlar hazırlayır, kreditlər, qrantlar ayırır. ISESCO-nun fəaliyyətinin digər çox mühüm istiqaməti islam dünyasının zəngin tarixi irsinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsidir.

Mehriban Əliyevanın səmərəli fəaliyyəti sayəsində ISESCO respublikamızda bir sıra beynəlxalq əhəmiyyətli tədbirlər və proqramlar keçirmişdir. "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans, "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum, İslam ölkələri elm və təhsil nazirlərinin VI Konfransı, "Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" Mədəniyyət ilinin açılış açılış mərasimi, İslam ölkələri Mədəniyyət nazirlərinin VI Konfransı, Dünya dini liderlərinin Bakı sammiti, Ümumdünya mədəniyyətlərarası dialoq forumu xüsusilə qeyd edilməlidir.

Bu tədbirlər sırasında "Bakı – İslam mədəniyyətinin paytaxtı – 2009" Mədəniyyət ilinin açılış mərasimi mühüm yer tutur. Azərbaycan Avropa ilə Asiyanın qovuşacağında yerləşdiyi üçün onun mədəniyyəti də həm Qərbin, həm də Şərqin elementlərini özünə ehtiva edir. Müxtəlif dövrlərdəki qadağalara baxmayaraq ölkəmizdə İslam mədəniyyəti ənənələri uzun illər qorunub saxlanmış və bu gün də həmin dəyərlər inkişaf etdirilir, yeni nəsillərə çatdırılır. Qloballaşma dövründə Azərbaycan mədəniyyəti dünya mədəniyyətinə uğurla inteqrasiya olunur, ancaq müstəqil Azərbaycan dövləti öz mədəniyyət siyasətində milli mənəvi dəyərləri qoruyub saxlamaq üçün əhəmiyyətli tədbirlər həyata keçirir. Bakının 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan olunması məhz Azərbaycanın islam mədəniyyəti ənənələrinə sadiqliyi ilə izah olunmalıdır. "Bakı İslam mədəniyyətinin paytaxtı–2009" çərçivəsində keçirilən bu konfrans ilin ən əhəmiyyətli tədbiri oldu və bir neçə problemin çözülməsinə stimul verdi. Azərbaycan mədəniyyətinin İslam mədəni dəyərlərinə sadiqliyini bir daha təsdiq etdi.



ISESCO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim A.İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilmişdir.

ISESCO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılması, 2008-ci ildə Mərakeşdə Azərbaycan mədəniyyət günlərinin keçirilməsində ISESCO rəhbərliyinin göstərdiyi hərtərəfli dəstək diqqətə layıqdir. ISESCO çərçivəsində qəbul edilmiş qərarlarda Dağlıq Qarabağ problemi ilə bağlı maddələr öz əksini tapmışdır.

2013-cü il tarixində ISESCO-nun mənzil qərargahında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimin keçirilməsi, ISESCO-nun Baş direktoru Ə.O.əl-Tuveycri Bakıda keçirilən "Terrorizmin qarşısının alınması üçün əməkdaşlığa dair Beynəlxalq Konfrans"da, "İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda və "Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu"nda iştirak etməsi əlaqələrin möhkəm olmasına dəlalət edir. 2013-cü ildə Bakıda "ISESCO-nun Asiya regionu ölkələri üzrə Milli komissiyaları baş katiblərinin regional iclası" keçirilməsi, həmin il "ISESCO-ya üzv ölkələrin Uşaq Məsələləri üzrə nazirlərinin IV Konfransı"na ev sahibliyi etməsi, 2014-cü ildə ISESCO-nun baş qərargahında Xocalı soyqırımına həsr edilmiş anma mərasimi keçirilməsi, Bakı şəhərində keçirilmiş İslam Dünyasının

Gənc klassik musiqi ifaçılarının 3-cü Beynəlxalq festival-müsabiqəsinin təşkili, "İƏT üzv dövlətlərin inkişafında qadınların rolu" mövzusunda V beynəlxalq konfransın keçirilməsi, III Qlobal Açıq Cəmiyyətlər Forumu, III Ümumdünya Mədəniyyətlərarası dialoq Forumu əlaqələrin strateji zirvəyə çatdığını göstərir.

2017-ci ildə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən ISESCO baş direktoru Ə.O.əl-Tuveycri ilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva arasında keçirilən görüş tərəflər arasında əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynamışdır.

ISESCO dəfələrlə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar vermişdir. 2019-cu il yanvarın 31-də ISESCO tərəfindən Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng su anbarından yeni su kanalı çəkilməsi cəhdlərini beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirən bəyanat verilməsi də strateji münasibətlərin dərin olmasını təsdiqləyir.



## Xeyirxahlığın və mərhəmətin Azərbaycan nümunəsi

*"Min mil ölçüsündə olan yol sadəcə bir addımla başlayır".*

**Lao Szı**

Hər kəs bu həyata, Yer kürəsinə bir missiya üçün gəlir. Xeyirxah, işıqlı əməllərin daşıyıcıları, missiyaçıları da Böyük Yaradanın Yer üzünə bir ərməğanı, öz bəndələrinə bir lütfüdür. Onlar ancaq və ancaq bu əməllər üçün doğulmuşlar, yaranmışlar, yaradılmışlar – bir sözlə, seçilmişlərdir. Onlar xeyirxah, işıqlı, nurlu əməl sahibləri kimi insanlara yardım etmək missiyasını yerinə yetirmək üçün seçilmiş şəxslərdir.

Xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə, insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, halına yanmaq, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Xeyriyyəçiliyin, əl tutmağın sosial-fəlsəfi anlamı haqqında dərin fikir yürütmək, hər halda, uzun araşdırmalar tələb edir. Bu sosial akt özlüyündə dərin məzmun əks etdirməklə yanaşı, gələcək nəsilləri tərbiyələndirmək və istiqamətləndirmək baxımından çox vacib bir məktəb sayılır. Azərbaycan coğrafi və təbiəti etibarilə cəlbedici olduğundan hər zaman düşmən ölkələrin diqqətini çəkib, müxtəlif dövrlərdə dövlətimiz hücumlara məruz qalıb. Bu baxımdan, dövlətimizin sabit əsaslarda inkişaf edərək insanların maddi imkanlarının artmasına və maddi vəziyyəti aşağı olan cəmiyyət üzvlərinə əl tutmasına total təkanverici şərait olmayıb.

Xeyriyyəçilik aktları yalnız müəyyən dövrlərdə barmaqla sayıla biləcək şəxslər tərəfindən aparılıb və kütləvi xarakter almayıb. Bu fəaliyyətin totallaşmaması isə xeyriyyəçilik institutunun zəif inkişafına səbəb olub. Xeyirxah iş, xeyirxah əməl insanı ucaldır, onu yaşadığı cəmiyyətin ən ləyaqətli üzvünə çevirir.

Azərbaycanda xeyriyyəçiliyin böyük ənənələri və tarixi vardır. Xalqını, Vətənini ürəkdən sevən insanlar: Xurşidbanu Natəvan, Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov və digərləri xeyriyyəçilik əməlləri ilə tariximizin ləyaqətli və sevimli övladları kimi heç vaxt unudulmurlar. X.Natəvan Şuşaya su kəməri çəkdirmiş, su anbarları, məktəblər tikdirmiş və s. xeyriyyə işləri ilə məşğul olmuşdur. Bakı Gimnaziyasının ilk müsəlman müəllimi olmuş H.Zərdabi təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində islam xeyriyyəçilik hərəkatının banisi ("Cəmiyyəti-Xeyriyyə"), 1873-cü ildə öz şagirdləri ilə birlikdə Bakıda Azərbaycan dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimi, ilk turkdilli qəzetin – "Əkinçi"nin naşiri, milli mətbuatımızın banisi (1875-ci il ), Azərbaycanda ilk qızlar gimnaziyası-

nın açılmasının təşəbbüskarı, təşkilatçısı kimi tarixə düşmüş, Azərbaycan müəllimlərinin birinci qurultayının təşkilatçısı və qurultayın sədri vəziəsində çalışmışdır.

H.Z.Tağıyev Bakıya "Şollar" suyu şəkdirmiş, müsəlman qızlar üçün gimnaziya açmış, təhsilini davam etdirmək üçün tələbələri xarici ölkələrə göndərmiş, Bakıda Dram Teatrını açdırmışdı. Azərbaycan milyonçuları arasında öz vətənpərvərliyi, xeyirxahlığı ilə seçilən Musa Nağıyev xeyriyyəçilik hərəkatında xüsusi yeri olan insanlardan olmuşdur. Onun Bakı şəhərinin memarlığına verdiyi töhfə milli-memarlıq mədəniyyətimizdə silinməz zəngin tarix kimi qalmaqdadır.

Xalqımızın əsrlərdən süzülüb gələn zəngin deyimi vardır: "Ot kökü üstə bitər". Paşayevlər ailəsində başqasına yardım etmək, əl tutmaq, qayğı və nəvaziş göstərmək gendən-qandan gələn əməlisaleh bir xüsusiyyət olub. Mehriban xanım hələ uşaqlıq yaşlarından xeyirxahlığın nə olduğunu ailəsindən görübgötürüb. Həyatının bütün dövrlərində amalını, məqsədini, məramını xeyirxahlıq üstə kökləmiş nəcib insan, böyük alim Aida İmanquliyevanın kamilliyi və zənginliyi yaxşı ənənə kimi övladlarının həyatında kök salıb. Aida xanımla eyni dövrdə yaşayan müasirləri deyirlər ki, o, Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətləri təcəssüm etdirirdi. Zərif, kövrək qəlbli alim əhatəsində olan hər bir insanın problemləri ilə maraqlanır, nəvaziş və qayğısını əsirgəmirdi. Aidə İmanquliyevanın xeyirxahlığı bu ailədə hər kəsə sirayət etmişdir.

Daşıyıcısı olduqları nəcib missiya ilə xalqın mənəvi-intellektual potensialına çevrilən insanlar yaşadıqları zamanın fövqünə qalxır, milli özünüdərk prosesinə sanballı töhfələr verirlər. Həyat amalı, məqsədləri ilə çoxlarından seçilən bu şəxsiyyətlərin yaradıcılıq ruhu həm də onların özünütəsdiq əzmini ifadə edir. Yaradıcı insanın istedadı, intellekti, tədqiqatçılıq əzmi daha ülvi bir məqsədlə – millətə, xalqa layiqli xidmət məramı ilə birləşəndə isə o, əsl ziyalıya çevrilir.

Azərbaycan şərqşünaslıq elminə sanballı töhfələr vermiş, ömür yolu və elmi yaradıcılığı hər bir azərbaycanlı üçün mənəviyyat, kamillik, müdriklik örnəyi olan Aida Nəsir qızı İmanquliyeva da məhz belə nurlu insanlardan biri kimi milyonların qəlbində yaşayır, dərin ehtiramla, rəğbətlə anılır. Aida xanım unudulmaz bir şəxsiyyət olub. Sağlığında sahib olduğu yüksək vəzifələri, elmi titulları, ictimai həyatdakı fəallığı onu həmişə ucaltmış, ümdə insani keyfiyyətləri ilə vəhdət təşkil etmiş, böyük alimi çoxlarının sevimlisinə çevirmişdir. Filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın həyat və tale kitabını vərəqlədikcə onun həm nəcib insan, fədakar alim, həm də xalqını, elini, yurdunu məhəbbətlə sevən vətəndaş olduğunu aydın görmək mümkündür. Xalqımıza məxsus xeyirxahlıq,

mərhəmətlilik kimi ali keyfiyyətləri, saf mənəvi dəyərləri, əməksevərliyi şəxsiyyətində cəmləyən bu Azərbaycan qadınının, elm və ictimai xadimin, ananın nurlu çöhrəsi bütöv bir dövrün, zamanın obrazı kimi qarşımızda durur. Aida İmanquliyeva Şərq filologiyasının müxtəlif aspektləri üzrə apardığı tədqiqatlarla, yaratdığı fundamental əsərlərlə müasir elm tariximizə sanballı möhürünü vurmuş, müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə, uğurlu cığır açmışdır.

Aida İmanquliyeva Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətləri təcəssüm etdirirdi. Zərif, kövrək qəlbli alim əhatəsində olan hər bir insanın problemləri ilə maraqlanır, nəvaziş və qayğısını əsirgəmirdi. Çoxşaxəli yaradıcılığa malik, ictimai həyatda da geniş fəaliyyət dairəsinə sahib olan Aida xanım bütün bunların fövqündə ailə ocağının müqəddəsliyini, Şərq qadınına məxsus ailə ocağını qoruyan gözəl həyat yoldaşı, övlad sevgisi ilə yaşayan mehriban ana, qayğıkeş nənə, əsl xanım, zərif qadın idi. Yüksək vəzifələr, elmi titullar, ictimai həyatda fəallıq onu bu ümdə insani keyfiyyətlərdən əsla məhrum edə bilməmişdi. Şahanə gözəllik, qədd-qamət, zəriflik, yüksək zəka, zəhmətkeşlik, qayğıkeşlik, həssaslıq, dostcanlılıq, səmimiyyət, yüksək əxlaq – bütün bunlar Aida xanıma xas olan keyfiyyətlərdir.

Aida İmanquliyeva həmişə yaxşılıq etməyə çalışar, adamlarda müsbət, işıqlı cəhətlər axtarardı. O incə ruhlu qadında polad mətinliyi də vardı. Aida xanım elm adamları üçün ən çətin, keşməkeşli bir dövrdə AMEA-nın Şərqşünaslıq İnstitutuna rəhbərlik etmişdi.

Qısa, lakin mənalı ömür yolu ilə örnəyə çevrilən, əcəl şərbətini Şərqin qüdrətli sənət-söz adamları, fikir və düşüncə sahibləri kimi eşq badəsindən içərək ölümsüzlüyə qovuşan, “Məhəbbət və gözəllik, ağıl və kamal elə mənəvi işıqdır ki, qəlbi nurlandırır”, deyən elmi əsərləri, daxili və zahiri gözəlliyi ilə nümunəyə çevrilən, ömrünün yarısından çoxunu həsr etdiyi əsərləri ilə dəyərlərin əyarına çevrilən Aida xanım Şərqlə Qərbin ortaq dəyərlərinin aynası olan əsərlərində yaşayır.

Aida İmanquliyeva çoxsaylı elmi əsərlərinə əbədi ömür bəxş etmiş, bütün varlığı milli kökə, xalqa bağlı şəxsiyyət olmuşdur. Onun əsərlərində xalqın maariflənməsi, milli yaddaşın qorunması, tərəqqiyə doğru irəliləməsi kimi nəcib niyyətlər daim özünü qabarıq şəkildə göstərmişdir. Elmi tədqiqatlarını əsl alim təəssübkeşliyi ilə aparan, ərəb filologiyası sahəsində özünəməxsus məktəb yaradan Aida İmanquliyeva ərəb ədəbiyyatının bir sıra korifeylərinin yaradıcılığını tamamilə yeni rakursdan araşdıraraq onları Azərbaycan ədəbi ictimaiyyətinə tanıtmışdır. Bununla da Aida xanım ərəb və Azərbaycan ədəbiyyatları arasında sağlam körpü yaratmağa, ədəbi xəzinəmizi

daha da zənginləşdirməyə müvəffəq olmuşdur.

Hər bir insanın tale yolu, yaradıcılıq qabiliyyəti onu əhatə edən mühitə, məkana və zamana bağlıdır. Aida xanım İmanquliyevanın xeyirxah, nəcib, savab əməlləri onun övladlarının da layiqli vətəndaş, nəcib ziyalı kimi yetişməsində öz töhfəsini vermişdir. Təbii ki, Aida xanım kimi nüfuzlu alimin, görkəmli şəxsiyyətin ailəsində böyüyüb başa çatması Mehriban xanımın formalaşmasında, elmdə yüksək peşəkarlıq zirvəsinə ucalmasında, istedad, bilik və yaradıcı proseslə yanaşı, yetişdiyi mühit, ailə tərbiyəsi də öz sözünü demişdir.

Aida xanım İmanquliyeva kimi görkəmli ziyalının ailəsində yetkinləşən və həyata sağlam baxışı formalaşan Mehriban xanım Əliyevanın təhsilə, elmə, yaradıcılığa böyük maraq göstərməsi, xeyirxahlıq missiyasını üzərinə götürməsi kökdən, milli tərbiyədən qaynaqlanır.

Mehriban xanımın insani keyfiyyətləri, ailə dəyərlərinə sadiqliyi onun görkəmli alim, dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Paşayevin və Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk qadın-professor Aida İmanquliyevanın övladı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın gəlini olmasından da qaynaqlanır. Gözəl alim, nəcib insan kimi yaddaşımızda qalmış Zərifə xanım Əliyeva ülvilik təcəssümü olub. Zərifə xanımın ictimai xadim, görkəmli tibb işçisi kimi ömür yolu xalqımız tərəfindən yüksək qiymətləndirilib, indi də xatirəsi ehtiramla yad edilir.

Mehriban xanım öz ölkəsinin mənafeyini, ədaləti və dürüstlüyü hər şeydən üstün tutan ulu öndər Heydr Əliyevin, xeyriyyəçilik fəaliyyəti, fədakarlıq missiyası ilə seçilən anası və qayınanası – Aida İmanquliyeva və Zərifə Əliyevanın məktəbini keçmişdir. Bu görkəmli şəxsiyyətlərin, nəciblik və fədakarlıq nümunəsi olan insanların həyat yolu Mehriban xanım üçün parlaq mayak kimi şəfəq saçır.

Mehriban Əliyevanın zəngin insani keyfiyyətləri, nəcibliyi, xeyirxahlığı, kübarlığı, vətənpərvərliyi, fədakarlığı böyabaşa çatdığı ailənin möhtəşəm genetikasından qaynaqlanır. Onun işıqlı gələcəyinin şəfəqli yollarında Aida xanımın misilsiz xidmətləri vardır. Aida xanım ona həyatda şəxsiyyət kimi yetişməkdə bütün xarakterik keyfiyyətlərini sirayət etdirmişdir.

Mehriban xanımın zəngin və şərəfli ömür yolu keçməsində digər mühüm bir amil Azərbaycan ictimai həyatına güclü şəxsiyyətlər kimi daxil olmuş Əliyevlər ailəsinin gəlini olmasıdır. Onun ömür yolunun mühüm bir hissəsi ulu öndər Heydər Əliyevin ailəsi ilə bağlıdır, bu isə Mehriban Əliyevanın ictimai xadim kimi yetişməsində həlledici rol oynamışdır. Xüsusilə də Zərifə Əliyeva kimi xeyirxahlıq və mərhəmət nümunəsi olan qadının



əhatəsində olmaq Mehriban xanımın həyatında dərin izlər buraxmış, Azərbaycan qadınının müasir insanlıq obrazının formalaşmasında mühüm rol oynamışdır.

Ülvi insani keyfiyyətləri ilə mənəvi ucalığın zirvəsinə qalxmaqla əbədiyyətə qovuşmuş unudulmaz Zərifə xanım Əliyeva məhz nurdan yaranan, bütün varlığı ilə nur olan təkrarsız bir insan idi. Onun ömür yolu olduqca zəngin və yalnız parlaq səhifələrlə dolu olmuşdur. O, Yaradanın xoş saatında, xoş anında doğulan bir insan idi. Tərəddüd etmədən ona Tanrının seçilmiş bəndəsi demək olar. Zərifə xanım Əliyevanın həyatının mənasını təşkil edən nə varsa – gözəl ailəsi, elmi, davranışı, bütövlükdə əxlaqı hamısı onun nuruna qərq olmuşdu.

Zərifə xanım Əziz Əliyev kimi görkəmli bir alimin, elm adamının, vətənpərvər bir ziyalının, SSRİ-də böyük nüfuz qazanmış bir dövlət xadiminin ailəsində dünyaya göz açdı, zəngin mənəvi mühitdə tərbiyə aldı. Və bu tərbiyə onu bütün ömrü boyu izlədi. Zərifə xanım nəsil şəcərəsinə, ulularına, soy-kökünə, ailəsinə, valideynləri-

nə layiq övlad oldu. Türk dünyasının bənzərsiz lideri, dünya siyasətində ən uca zirvələrdən birində dayanan Heydər Əliyev kimi bir dahinin həyat yoldaşı olması, əsl məhəbbət, sevgi adlı imtahanda da sınanaraq qəlbən, ruhən bağlı olduğu ömürgün yoldaşına bu uca zirvəyə çatmaqda yorulmaz silahdaşa, mənəvi dayağa çevrilməsi Zərifə xanımın ikinci xoşbəxtliyi idi. Akademik Zərifə Əliyevanın alim kimi tibb elmində qazandığı böyük uğurlar da heç kimə sirr deyil və bu uğurlar onun Azərbaycan elmində, ümumilikdə tibb aləmində təsdiqlənmiş, qəbul olunmuş minnətsiz, sabit yerinin qarantıdır.

Tanrı ona insanın arzulaya biləcəyi hər şeyi bəxş etmişdi: gözəllik, ağıl, zəka, talant, mərhəmət və şəfqət dolu ürək, incə zövq, yüksək savad, zəngin mənəviyyat. O, yalnız insanın ağlına deyil, həm də qəlbinə, ürəyinə sirayət edən keyfiyyətlərə malik idi. Ən yüksək keyfiyyətlər – səmimilik, alicənablıq, qayğıkeşlik, ilk növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına tükənməz məhəbbət Zərifə xanım Əliyevaya xas cəhətlər idi. Onda yüksək peşəkarlıq və biliklərin vüsəti rəftar, insanpərvərlik və xeyirxahlıq mədəniyyəti ilə üzvi şəkildə birləşmişdi. Bütün çətinliklərə rəğmən, həkimlik onun üçün sadəcə iş deyil, həm də fasiləsiz ilham mənbəyi idi. O, təkcə öz varlığıyla belə həmkarları və pasiyentləri arasında xüsusi inam və xeyirxahlıq atmosferi yaradırdı. Bununla belə, heç vaxt seçilməyə çalışmırdı, özünü camaata göstərməyə can atmırdı, çətin və şərəfli ömür yolunun hər bir məqamında ciddiyyətini, səmimiyyətini, təvazökarlığını ən qiymətli zinət kimi qoruyub saxlayırdı. O, əsl insan ömrü yaşadı, qadınlıq simvoluna döndü, ana adını ucaltdı, alim adını doğrultdu, ziyalılıq etalonuna çevrildi. Elə buna görə də təsadüfi deyil ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək amalına xidmət edirdi. Tarix bizə bir şəxsin simasında rəhbərlik və elmi tədqiqatçılıq istedadının, tükənməz əməksevərlik və ramedici nəzakətliliyin xoşbəxt vəhdətini birləşdirən çox az nümunələr vermişdir. Akademik Zərifə xanım Əliyeva məhz belə keyfiyyətlərə malik olmuşdur.

Zərifə xanım Əliyeva xəstə qarşısında şəfası, şəfqəti ilə nur saçan həkim, həmkarları arasında mehriban, kömək əli uzatmağa hər an hazır olan dost, cəmiyyətdə Azərbaycan qadını adının dəyərini, qadın fəallığı ənənələrinin ən gözəl xüsiyyətlərini təmsil edən ziyalı Azərbaycan xanımı, evdə, ailədə isə doğmalarından sevgisini bir an belə əsirgəməyən qayğıkeş ana idi. Ulu öndər Heydər Əliyevə ləyaqətli oğul, Azərbaycana Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu olan, ölkəmizi dönmədən möhtəşəm uğurlara aparan İlham Əliyev kimi lider bəxş etmişdir.



Sosioloji tədqiqatlar təsdiq edir ki, insanın intellektual təfəkkürlü vətəndaş kimi formalaşmasında, tərbiyəsində ailənin rolu müstəsnadır. İnsan üçün ailənin əhəmiyyəti nə qədər böyükdürsə, ailə üçün də sevgi və hörmət mühitinin əhəmiyyəti o qədər önəmlidir. İntellektual mühitin formalaşmasında, yetkinləşməsində ailənin rolu əvəzolunmazdır. Elə ailələr var ki, o, nəinki yaşadığı cəmiyyət üçün örnəkdir, eyni zamanda millətə, xalqa, dövlətə əsl nümunədir. Belə ailədən tərbiyə vasitəsilə götürülmüş bütün müsbət keyfiyyətlər cəmiyyətin intellektual inkişafı üçün faydalıdır. Təcrübə göstərir ki, əxlaqi özülü düzgün qoyulan ailə nəsillərə örnəkdir. Bu ailəni Ulu Tanrı sanki millətinin, xalqının inkişafı, yetkinləşməsi, dünyaya tanıdılması üçün yaratmışdır. Böyük əxlaqa söykənən kiçik bir ailənin dövlət, xalq üçün nə qədər əhəmiyyətli olması bu ailənin timsalında daha aydın, daha gözəl görünür.

Mehriban Əliyevanın Zərifə Əliyeva kimi nəcib və ülvi, xeyirxah bir insandan nümunə götürməsi onun insanpərvərli-

yində, ictimai həyatda öz layiqli yerini tapmasında və şəxsiyyət kimi yetişməsində mühüm rol oynamışdır.

Mehriban Əliyeva əhatəsində olduğu bu görkəmli şəxsiyyətlərdən insani dəyərlərə hörmətlə yanaşmağı, poeziya, mədəniyyət və musiqini sevməyi öyrənib. İnsanlara qarşı qayğıkeşlik, mədəniyyətə, incəsənətə, ədəbiyyata məhəbbət Mehriban xanımda erkən yaşlarından formalaşmış keyfiyyətlərdir. Humanizmi, mədəniyyətsevərliyi onu ictimai fəaliyyətə qoşulmağa sövq edən əsas məziyyətləridir.

Beləliklə Mehriban xanım yüksək əxlaqi, elmi və mədəni dəyərlərə malik ailənin əhatəsində zəngin və şərəfli ömür yolu yaşayıb. Bu şəxsiyyətlərin onun milli və mədəni ruhlu şəxsiyyət olaraq formalaşmasında əvəzsiz xidmətləri olmuşdur. Təvazökar, sadə və ziyalı bir ailədə tərbiyə almaqla həmin mühitdən bəhrələnməsi, sonra isə dünyəvi siyasi bir ailədə – ulu öndər Heydər Əliyev ailəsinin zəngin mühitini mənimsəməsi Mehriban xanımın ictimai xadim və siyasətçi kimi püxtələşməsində mühüm rol oynamışdır. Bütün bu amillər onda Vətəninə, millətinə olan sevgi ilə yanaşı, sosial, humanitar sahəyə – musiqiyə, incəsənətə və milli adət-ənənələrə böyük maraq yaratmışdır.



Müasir dövrümüzdə xeyriyyəçilik anlayışı, özlüyündə daha geniş məna daşımaqla, cəmiyyətin sosial rifahı naminə bütün təmənnasız könüllü fəaliyyət növlərini əhatə etməkdədir. Xeyriyyəçilik məktəbinin ölkəmizdə yenidən dirçəldilməsi və yaşadılmasında Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir.

## Mehriban Əliyeva nəciblik və xeyriyyəçilik institutunun yaradıcısıdır

*"O, həmişə insanlara xoş münasibəti, xoş niyyəti ilə seçilib. Bu onun xasiyyətinin fərqləndirici cəhətidir".*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

Mehriban Əliyeva xeyirxah fəaliyyəti və əməlləri ilə Azərbaycan qadınının müasir xeyriyyəçi obrazına çevrilib. Onun işıqlı və nikbin simasında mərhəmətlilik, nəciblik, insanpərvərlilik, xeyirxahlıq cizgiləri cəmləşibdir. Dünyada ən işgüzar Birinci xanım kimi tanınan Mehriban Əliyeva böyük və çoxşaxəli fəaliyyəti dövründə bir-birindən fərqli layihələrin müəllifi kimi saysız-hesabsız insanların mənəvi dostuna çevrilmişdir. Çoxşaxəli fəaliyyətində yorulmaq bilməyən Mehriban Əliyeva hər gördüyü işdən ilhamlanır və dərhal yeni bir layihənin icrası qarşıya qoyulur: "İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir, fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir".

Mehriban Əliyeva cəmiyyətdə mənəvi aşınma yaradan, eləcə də saf və ali dəyərləri ucuzlaşdıran mənfi meyillərə qarşı barışmaz mövqe tutur, insanlığın təntənəsinə xidmət edən nəcib təşəbbüsləri ilə ədalətli cəmiyyət quruculuğuna öz töhfəsini verir. Xeyirxahlıq və humanizm onun bütün fəaliyyətinin ana xəttini təşkil edir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu maddi durumu ağır olan minlərlə xəstənin əməliyyat və müalicə olunaraq yenidən həyata qayıtmasına yardım edib. O, həmin insanların müalicə olunaraq sağlamlıqlarına qovuşmasına dəstək göstərməsindən mənəvi rahatlıq tapır və öz timsalında bu önəmli ənənələrin cəmiyyətdə daha da möhkəmlənməsində böyük rol oynayr. "Sizə ehtiyacı olanların yanında olacaqsınız! Yardımınıza ehtiyacı olanlara əl uzadacaqsınız!" Bu, bir insanlıq vəzifəsidir! Budur onun həyat fəlsəfəsi və topluma aşıladığı müsbət dəyərlər!

İmkanlı insan ehtiyacı olana kömək etməlidir. Bu xoş məram xeyriyyəçi üçün rahatlıq, ehtiyacı ödənilən üçün isə əvəzolunmaz dəyərdir. Xeyriyyə, xeyriyyəçilik özündə yaxşılıq, xeyirxahlıq mənasını təcəssüm etdirir. Bu nəcib və ali meyarlar Mehriban Əliyevanın həyat devizlərindən biridir.

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində məcburi köçkün düşmüş ailələrdən birinci sinfə gedən övladlar artıq neçə ildir ki, Fond tərəfindən lazımi məktəb ləvazimatları ilə təmin olunurlar. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda əlil olmuş insanlar arasında mənzilə ehtiyacı olanların təminatına yardım edilir. Şəhid ailələri, veteranlar, qaçqın və məcburi köçkünlər, onların problemləri daim Mehriban xanımın diqqətindədir. Son illərdə məhz Onun timsalında Azərbaycanda xeyriyyəçilik institutu dirçəlməyə, fəal inkişaf etməyə başlamışdır. Mehriban xanımın şəxsi təşəbbüskarlığı, çoxcəhətli və yorulmaz fəaliyyəti nəticəsində respublikamızda imkansızlara və ehtiyaca olanlara yüksək qayğı, dəstək ənənəsi müasir mərhələdə yeni impuls qazanmış, ehtiyacı olanlara könüllü və təmənnasız kömək etmək kimi keyfiyyətlər cəmiyyətin həyatında mühüm yer tutmağa başlamışdır.

Məşhur və hər kəsə yaxşı tanış olan bir kəlam var: "Dünyanı gözəllik xilas edəcək". Bu kəlam uzun illər öncə söylənilmiş olsa da, fikrimizcə, bu gün ona kiçik bir dəyişiklik etməyə ehtiyac yaranıb. Əgər bu məşhur kəlam "Dünyanı qadınlar və gözəllik xilas edəcək" şəklində redaktə edilərsə, bütün qadınların timsalında tam anlamıyla məhz Mehriban xanımı xarakterizə etmiş olarıq. Çünki bu xanım Mərhəmət, Şəfqət, Xeyirxahlıq, Xilaskarlıq təcəssümüdür. Uzun illərdən bəri yerinə yetirdiyi, şərəflə daşıdığı missiya bunu qətiyyətlə və birmənalı şəkildə söyləmək üçün tam əsas verir. Elə bir xoş, işıqlı, nurlu, xeyirxah əməl yoxdur ki, orada Mehriban xanımın adı, imzası olmasın. Harada xeyirxah, işıqlı əməllər, fəaliyyətlər varsa, orada Mehriban Əliyeva adı və soyadı, imzası da var.

Xeyirxahlıq və humanizm həm də ziyalılığın əlamətidir. Humanizm insanların bir-birlərinə, özlərinə, ətraf aləmə və təbiətə, cəmiyyətə, dövlətə olan mərhəmət hisslərinin konsepsiyasıdır. Humanizmin xarakterik xüsusiyyətlərinə insanların əliaçıqlıq, qəlb yumşaqlığı kimi keyfiyyətlər də aiddir.

Mehriban Əliyevanın xeyriyyəçiliyi ümumdünya xarakterlidir. O, təkcə, Azərbaycanda deyil, dünyanın müxtəlif bölgələrində ehtiyacı olan sosial təbəqələrə şəfqət və mərhəmətini, yardımını göstərir.

Mehriban xanım Azərbaycanda müasir xeyriyyəçilik məktəbinin banisidir. Onun simasında xeyriyyəçilik daha geniş məna daşıyır, cəmiyyətin rifahı naminə hər cür təmənnasız könüllü fəaliyyəti əhatə edir. Bu fəaliyyət həm konkret fərdlərə və zəif müdafiə olunan qruplara, həm də ictimai həyatın müxtəlif sahələrinin – təhsilin, elmin, mədəniyyətin, incəsənətin inkişafının dəstəklənməsinə yönəldilir.

Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyəti onun insani keyfiyyətlərinin təzahürüdür. O, bu işlə özünü göstərmək və

ya təşəkkür qazanmaq üçün deyil, qəlbinin çağırışı ilə məşğul olur. Xeyriyyəçilik Heydər Əliyev Fondunun fəaliyyətinin fəlsəfəsi və ən əsas prioritetlərindən biridir. Artıq insanlar Heydər Əliyev Fondunu, onun prezidenti Mehriban Əliyevanı, həmçinin bu təşkilatın vitse-prezidenti Leyla Əliyevanı son ümid yeri hesab edirlər. Onların ümidləri doğrulur, çünki Fond həmişə, hətta ilk baxışda ən çıxılmaz vəziyyətlərdə də kömək əli uzadır.

Azərbaycanın Birinci xanımı bu həssas məqama xüsusi diqqət ayırır və cəmiyyətdə xeyriyyəçiliyin gerçək rolunun aydın dərkinə ehtiyac olduğunu bildirir. Söhbət indiki mərhələdə iri biznes strukturlarının, yüksək imkanlı iş adamlarının müəyyən sosial layihələrin gerçəkləşdirilməsində iştirakından gedir. "Xeyriyyəçilik – insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitini, qüvvəsini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir. Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə, insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, ehtiyacı olanlara kömək əli uzat-



maq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividendlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır".

Xeyriyyəçilik bütün cəmiyyət tərəfindən bəyənilir, müxtəlif sosial, siyasi və iqtisadi qruplar tərəfindən mənəvi dəstək obyektinə çevrilir. Bu baxımdan Mehriban Əliyevanın qlobal miqyasda geniş vüsət alan xeyirxahlığı diqqətdən kənarda qalmır. Beynəlxalq təşkilatlar da ictimai, sosial, elmi-mədəni, humanitar, idman və digər sahələrində misilsiz uğurlara imza atan Azərbaycanın xeyirxah və Mehriban xanımının xidmətlərini yüksək qiymətləndirmişdir. Bir çox ölkələrin təsis etdiyi ali mükafat və adların təqdimində Azərbaycanın Birinci xanımının ismi xüsusi olaraq qeyd edilir. Onun fəaliyyəti təkcə ölkəmizdə deyil, bütün dünyada qiymətləndirilir. Mehriban xanım Əliyeva sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə verdiyi böyük dəstəyə, xeyriyyəçilik fəaliyyətinə, nəcib və tərəqqipərvər təşəbbüslərinə görə 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə isə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. O, həm də ISESCO-nun xoşməramlı səfiri kimi ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda apardığı xeyriyyəçilik işlərinə görə “Əsrlərin xeyriyyəçiləri” Beynəlxalq Fondunun “Yaqut Xaç” ordenini almış ilk qadındır. Bu, onun xeyirxahlıq, humanizm, vətənsevərlik hisslərinə, milli düşüncəyə söykənən fəaliyyətinin, dünyanın tanınmış bir çox ictimai və mədəniyyət xadimləri tərəfindən də yüksək dəyərləndirilən xoş niyyət, təşkilatçılıq və idarəetmə bacarığının bəhrəsidir.

Mehriban xanım 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları", Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdür. Dünya Səhiyyə Təşkilatının İcraiyyə Komitəsi 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə Mehriban Əliyevanı bu beynəlxalq təşkilatın mükafatı ilə təltif etmişdir. Bütün bunlar Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban Əliyevanın öz üzərinə götürdüyü şərəfli missiyanı layiqincə yerinə yetirdiyini dünyaya sübut etmiş, ölkəmizin adını şərəfləndirmişdir.



Mehriban xanımın fəaliyyəti dünyada geniş ictimai status almışdır. ABŞ–Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə Vaşinqtonda keçirilmiş toplantıda Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri kimi Birləşmiş Ştatlar ilə Azərbaycan arasında əlaqələrin tərəqqisinə, ölkəmizdə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına şəxsi dəstəyinə görə "2006-cı ilin xoşməramlı səfiri" adına layiq görülməsi verilməsi Mehriban xanımın ictimai xadim obrazının dünyaya təqdim edilməsi demək idi.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Mehriban Əliyeva "Qızıl ürək" beynəlxalq mükafatına, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının isə "Qızıl medal"ina layiq görülmüşdür. 2011-ci ildə isə Mehriban Əliyeva Fransanın "Şərəf Legionunun Zabiti" dövlət ordeni, "Yaqut Xaç" ordeni ilə təltif olunmuşdur.

"Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninə, "Türk dünyasına xidmət" mükafatına, "2014-cü ilin ən nüfuzlu qadını" adına layiq görülməsi, MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası və Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən "Birlik ul-



duzları" dövlətlərarası mükafatı alması və onlarla digər mükafatlar və adlara layiq görülməsi onun əməyinin qiymətidir.

Beynəlxalq idman hərəkatına verdiyi töhfəyə görə Avropa Olimpiya Komitəsinin Ali Ordeni, nəciblik, milli humanitar əlaqələrin genişlənməsindəki misilsiz xidmətlərinə görə Polşanın ali fərqlənmə ordeni, mədəni əlaqələrin inkişafındakı geniş fəaliyyətinə görə UNESCO-nun



"Qızıl Motsart" medalı, elm, təhsil, humanitar xidmətlərinə görə Küveytin fəxri diplomu, xeyirxahlıq və insanpərvərlik xüsusiyyətlərinə görə Pakistanın "Hilal-e Pakistan" ali ordeni, mədəniyyətə və humanitarizmə diqqət və qayğının yüksək dəyəri hesab edilən Serbiya və Macarıstanın dövlət mükafatları Mehriban Əliyevanın dünya şöhrətli ictimai xadim kimi statusunun və güclü nüfuzunun simvollarıdır.

Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı – 2013" mükafatına və Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan–Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülməsi, Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə 2014-cü ilin iyununda Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif

olunması, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Qızıl medalına layiq görülməsi də mühüm əhəmiyyətə malikdir.

Bundan başqa, digər mötəbət təşkilatlar tərəfindən verilən yüksək adlar, onun şərəfinə və fəaliyyətinə söylənilən dəyərli fikirlər, təqdimatlar Azərbaycanın Birinci xanımının beynəlxalq aləmdə nüfuz və şöhrətə malik olduğunun göstəricisidir.

Beynəlxalq ictimaiyyət onu Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirir. Bu təltiflərin hər birinin arxasında prinsipiallıq, xeyirxahlıq, ən əsası, xalqına, dövlətinə, bəşəriyyətə sevgi dayanır.

Mehriban xanım Əliyevanın gördüyü işlərin sədası dünyanın ən nüfuzlu mətbu orqanlarının səhifələrində yer almışdır. Ölkəmizdən kənarda apardığı xeyriyyəçilik işləri Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu, dövlət strukturlarında, siyasi arenada və digər sahələrdə Azərbaycan qadınının istedadlı mütəxəssis kimi fəallıq göstərdiyini nümayiş etdirir.

Azərbaycan qadınının mehriban siması olan Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əli-



yeva dünya miqyasında Azərbaycan qadınının simvoluna çevrilib.

Bu gün Mehriban Əliyevanın gördüyü işlərin sədası dünyanın hər yerindən eşidilir. Dünya dövlətlərinin yüksək tribunalarındakı çıxışı və qaldırdığı məsələlər bu fikri təsdiqləyir ki, Mehriban Əliyeva gördüyü işlərlə Azərbaycan qadınının xeyriyyəçi, mərhəmətli, ictimai-siyasi fəaliyyətdə olan bir varlıq olduğunu dünya ictimaiyyətinə bir daha sübut etdi. O, həm gözəl ana, həm gözəl ictimai-siyasi xadim, həm də ləyaqətli bir Azərbaycan qadınıdır.

Onun xeyirxahlığı, insanpərvərliyi, humanizmi haqqında dünyanın nüfuzlu şəxsləri, aparıcı tədqiqat institutları, sosioloji mərkəzləri yazır, tanınmış media orqanları Azərbaycanın Birinci xanımının mərhəmət və səxavətini xüsusi vurğulayır. Pakistanın nüfuzlu ingilisdilli "Pakis-





tan Observer" qəzeti, "DNA News" informasiya agentliyi və "Centreline" jurnalı Mehriban Əliyevanın xeyirxah missiyasının insanlara sevinc və xoş həyat bəxş etməsinə diqqət çəkir. Həmin yazılarda qeyd olunur ki, Azərbaycanın Birinci xanımı, millət vəkili, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva həyatını insanların firavan yaşamasına həsr edir. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti göstərən, bəşəriyyətin ali ideallarına xidmət edən Mehriban xanım Əliyeva bütün dünyada müasir Azərbaycan qadınının obrazını təcəssüm etdirir. O, nəinki ölkə qadınları üçün, eləcə də dünya qadınları üçün örnəkdir.

Mehriban xanımın uğur hekayəsi həddindən artıq geniş və əsrarəngizdir. Ona fəaliyyətinin müxtəlif sahələri üzrə diplom və mükafatlar verilir, zəngin və çoxşaxəli fəaliyyəti davamlı olaraq dünyanın ən nüfuzlu təşkilatları, ictimai qurumları, institutları tərəfindən ali təltiflərlə qiymətləndirliri. Mehriban Əliyevaya Veliko




Tırnovo şəhərində fəxri vətəndaş və fəxri doktor diplomları təqdim edilməsi də bunun nümunələrindən biridir. 2016-cı il sentyabrın 22-də Bolqarıstanda Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı və Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomlarının təqdim olunması mərasimlərində dünya ictimaiyyəti növbəti dəfə Azərbaycanın Birinci xanımının beynəlxalq nüfuzuna şahidlik etdi.

Mehriban Əliyevanın fəxri vətəndaş seçilməsi barədə onun təklifi meriyanın 2016-cı il avqustun 25-də keçirilən təntənəli iclasında yekdilliklə qəbul edilib.

Veliko Tırnovo şəhərinin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə, təltif edilən Mehriban Əliyeva Avropanın qədim və zəngin ölkələrindən biri olan Bolqarıstanın mədəni intibahına dərin töhfə verməklə, dünyada hüdudsuz olan xeyirxahlıq missiyasını uğurla davam etdirdiyini nümayiş etdirmiş oldu.

Bu ad həmin şəhərin ən ali mükafatıdır. Bolqarıstanın Baş naziri Boyko Borisovun qeyd etdiyi kimi, müsəlman ölkəsi olan Azərbaycanın xristian ölkəsi Bolqarıstanda dini-mədəni abidəni bərpa etməsi bu ölkədə çox böyük rəğbətlə qarşılanıb. Heydər Əliyev Fondu bu abidəni bərpa etməklə bolqar xalqının 132 illik arzusunu reallaşdırıb.

Həmin mərasimdə, həmçinin, Mehriban Əliyevaya Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin

fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi olub. Mehriban xanım fəxri doktor adına Bolqarıstanın mədəni irsinin qorunmasına və təşviqinə böyük töhfəsinə, bu işdə fəal iştirakına görə layiq görülüb. Universitetin rektoru Xristo Bondjolov qeyd etdiyi kimi, UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatların xoşməramlı səfiri olan Mehriban Əliyeva dünyanın, o cümlədən Avropanın mədəni irsinin qorunmasına, mədəniyyətlər və dinlərarası dialoqun inkişafına böyük töhfələr verib.

Azərbaycanın Birinci xanımı onun xidmətlərini yüksək qiymətləndirilməsinin və verilən bu yüksək mükafatların Avropada və dünyada humanitar və ictimai layihələrin daha da genişləndirilməsi üçün güclü stimul yaratdığını vurğulamışdır. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünyada sərhəd tanımayan elm və təhsil, mədəniyyət proqramlarının gerçəkləşməsinə dəyərli töhfə verməklə öz humanitar mənəvi borcunu yerinə yetirir. Fond dünyada insanların savadlı və yüksək elmi biliklərə yiyələnməsini əsas məqsəd və məramlarından hesab edərək bu sahəyə davamlı dəstəyini göstərir. “Bu gün heç kəs üçün sirr deyil ki, hər hansı dövlətin uğuru onun gənc nəslinin nə dərəcə-





də savadlı, bilikli olması ilə müəyyən edilir. Məhz insan potensialı, elmi potensial, məhz inkişaf etmiş, savadlı gənc nəsil ölkənin gələcəkdə öz layiqli yerini tutmasına zəmanət verir. Bu biliyi, bu nuru siz müəllimlər, professorlar verirsiniz. Gənc nəslə biliklər verən, ona həyat vəsiqəsi verən sizsiniz. Mənə bu yüksək adı verməyi qərara almağınız məni dərindən təsirləndirib və bu adı müəyyən dərəcədə avans kimi qəbul edirəm".

Mehriban xanımın Bolqarıstanda həyata keçirdiyi layihələr sırasında "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunu da qeyd etmək olar. Qoruq Avropa mədəniyyətinin nadir incilərindən hesab oluna bilər. Qoruq bolqar xalqının zəngin mədəni dəyərlərini əks etdirir. Veliko Tırnovo və "Trapezitsa" bolqar xalqının maddi-mənəvi varlığı hesab edilir. Burada aparılan arxeoloji tədqiqatlar təsdiqləyir ki, Tırnov şəhəri İkinci Bolqar dövlətinin məşhur paytaxtı, XII əsrin sonundan XIV əsrin sonunadək Avropanın dövlətçilik, mənəvi və mədəni mərkəzi olub. Burada XIII və XIV əsrlərə aid kilsələr nəinki qoruğun, eləcə də Bolqarıstanın tarixi dini abidələrindən hesab edilir. Bolqarıstan və Şərqi Avropada tarixi turizm mərkəzlərindən biri olan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunda konservasiya və bərpa işləri 10 ay davam edib.



Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunan inşa qoruq  dünya mədəniyyətinin canlı nümunəsi kimi öz keçmiş şöhrətini  bərpa edib. 2016-cı il sentyabrın 22-də Bolqarıstanın Veliko Tırnovo şəhərində açılışı olan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğu dünya dini icması tərəfindən də yüksək qiymətləndirilibdir. Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirak etdiyi mərasimdə bəyan edilib ki, bu qədim abidənin bərpa edilməsi bolqar xalqı tərəfinfdən heç vaxt unudulmayacaq. Bu nəcib missiyanın həyata keçirilməsinə görə, Avropa xalqı, xüsusilə də bolqarlar Azərbaycan Prezidenti İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdardırlar.

Mehriban Əliyeva bolqar xalqının bu sevincinə şərik olduğunu vurğulayaraq Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin uzun illərdir dostluq şəraitində inkişaf etdiyini bildirib. Bu hadisə ölkələrimiz arasında möhkəm dostluq körpüsünün yaxşı bir nümunəsidir.

Ümumiyyətlə, Mehriban Əliyevanın Bolqarıstanın dövlət və hökumət başçıları, nüfuzlu ictimai xadimləri ilə keçirdiyi görüşlər iki ölkə arasında əlaqələrinin daha da inkişafına təkan vermişdir. Azərbaycan–Bolqarıstan əlaqələrində elmi-



mədəni, iqtisadi əməkdaşlıq son illərdə daha geniş xarakter alaraq siyasi xətt üzrə irəliləmişdir. 2016-cı il martın 9-da Bolqarıstanın ölkəmizdəki səfiri xanım Maya Xristova ilə görüşən Azərbaycanın Birinci xanımı Azərbaycan–Bolqarıstan əməkdaşlığının hazırkı səviyyəsindən məmnunluğunu ifadə etmiş, bu əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələrin miqyasının artdığını vurğulamışdır.

Görüşdə ölkələrimizin və xalqlarımızın tarixən bir-birinə yaxın olduğu qeyd edilmiş, münasibətlərimizin həm dövlət başçıları, həm hökumətlər, həm də xalqlar arasında yüksək səviyyədə olduğu vurğulanmışdır. Bu əməkdaşlıqda Heydər Əliyev Fondunun rəhbərinin əməyi xüsusi qeyd edilmişdir. Azərbaycan və Bolqarıstan arasında əlaqələr davamlı xarakter daşımış, mədəniyyət, turizm və təhsil sahələrində ikitərəfli əməkdaşlıq hər il daha da inkişaf etmişdir.

2016-cı il sentyabrın 29-da Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizdə səfərdə olan Bolqarıstanın

vitse-prezidenti Marqarita Popova ilə görüşündə iki ölkə arasında ənənəvi dostluq əlaqələrinin vəziyyəti müsbət dəyərləndirilmiş, gələcəkdə nəzərdə tutulan mühüm proqramlar barədə geniş fikir mübadiləsi aparılmışdır.

Mehriban Əliyeva rəhbərlik etdiyi Fond tərəfindən həyata keçirilən layihələrdən danışıb, bu layihələrin ölkələrarası əlaqələrin möhkəmləndirilməsi üçün ən gözəl vasitə olduğunu bildirmişdir. Təhsil, mədəniyyət və digər sahələrdə ikitərəfli əlaqələrin önəmini qeyd edərək Heydər Əliyev Fondunun prezidenti kimi bu istiqamətdə layihələrin reallaşdırılmasına dəstək verməyə hazır olduğunu vurğulamışdır.

Mehriban xanım Əliyevanın düşüncəsində həyatın, vətənpərvər yaşamın mənası, mahiyyəti, insanın çağdaş dünyada rolu və məramı barədə qənaətlər böyük səmimiyyət və humanizm anlamındadır. Mehriban xanım Əliyeva müsahibələrinin birində qeyd edib ki, müasir Azərbaycanda xeyriyyəçilik institutunun inkişaf perspektivləri, ilk növbədə, ölkəmizin gələcək iqtisadi inkişafı, sosiomədəni modernləşməsi, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır: “Çünki bu amillər bir-birilə



sıx bağlıdır və bütövlükdə xeyriyyəçilik sahəsində dəyişikliklər tələb edən, eyni zamanda bunun üçün zəruri imkanlar yaradan prinsipcə yeni mühit formalaşdırır. Şübhəsiz, iqtisadiyyat inkişaf etdikcə, vətəndaşlarımızın maddi rifahı yüksəldikcə, əhalinin sosial müdafiəsi və dəstəklənməsi tədbirləri gücləndikcə xeyriyyəçiliyin strukturunda əhalinin imkansız təbəqəsinə birbaşa maddi yardımın xüsusi çəkisinin azalması labüddür". Onun məqsədyönlü fəaliyyətinə söykənən bu ömür amalının gerçəyində əməli iş, xalqa məhəbbət dayanıb. İnsanlıq məsuliyyəti, Azərbaycanın, ümumən çağdaş dünyanın rifahına hesablanmış xeyirxah əməlləri ilə bu gün o, həqiqətən xeyirxahlıq nümunəsi, rəmzidir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva respublikada xeyriyyəçilik fəaliyyətinin genişlənməsi üçün ardıcıl və sistemli iş aparır, iş adamlarını bu yöndə fəallıq göstərməyə çağırır. Mehriban xanım Əliyeva haqlı olaraq vurğulayır ki, ölkəmizdə xeyriyyəçilik üçün fəaliyyət meydanı qeyri-məhduddur. Ən mühüm istiqamət yenə də sosial imkanları məhdud olan əhali qruplarına, yəni aztəminatlı vətəndaşlara, əlillərə, kimsəsizlərə, qaçqınlara və məcburi köçkünlərə, təbii fəlakətlərdən və texnogen qəzalardan zərər çəkmiş insanlara müxtəlif şəkildə kömək etməkdir.

Mehriban xanım Əliyeva, eyni zamanda zəngin mədəni ənənələrimizin qorunub saxlanması, nadir tarixi və memarlıq abidələrinin mühafizəsi, təbii mühitin qorunması, istedadlı gənclərə dəstək, bədən tərbiyəsi və idmanın inkişafına kömək məsələlərini də xeyriyyəçilik fəaliyyətinin üstün istiqamətlərinə aid edir. Onun qənaətincə, xeyriyyəçi öz fəaliyyət istiqamətini seçərkən bunu ictimai tələbata uyğunlaşdırmalı və öz qüvvəsini ən kəskin, ümdə problemlərin həlli üzərində cəmləşdirməyi bacarmalıdır.

Nəcib və mərhəmətli addımları ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş Azərbaycanın Birinci xanımı cəmiyyətdə mənəvi harmoniyanın qorunmasına xidmət edən xeyriyyəçiliyi yüksək mənəviyyatdan irəli gələn könüllü fəaliyyət kimi səciyyələndirir: "Xeyriyyəçilik – insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə vəsaitini, qüvvəsini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir. Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə, insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, halına yanmaq, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividendlər və ya səmərə gözləmək deyil, məhz in-

sanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır".

Mehriban xanımın geniş, Azərbaycan naminə fədakar və yorulmaz fəaliyyəti təkcə bununla və bunlarla məhdudlaşmır, kifayətlənmir. O, daim Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması axtarışındadır, bu işində də əsl fədakarlıq, vətəndaşlıq nümunəsi sərgiləyir. O, heç kimi ümidsiz qoymur. Məhz bu ülvi keyfiyyətlərinə görə, o, insanların sevgisini qazanıb.

Mehriban xanım qeyd edir ki, öhdəsinə götürdüyü hər bir işə böyük məsuliyyətlə yanaşır: "Çalışmışam ki, hər zaman öz fəaliyyətimdə bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətlilikdir". Onun bu müdrik və səmimiyyətlə dolu fikirləri hər bir azərbaycanlı xanımı üçün fəaliyyət devizinə çevrilməlidir. Onlar Azərbaycanın Birinci xanımından zərifliyin, insansevərliyin, vətənpərvərliyin və mərhəmətin cizgilərini əxz edib, öz həyatlarında yaşatmağa çalışmalıdırlar.

Mehriban xanım Azərbaycanın bütün bölgələrində yaşayan insanların taleyini düşünür, onların həyatını yerindəcə öyrənməyə çalışır. Məhz bunun ən əyani nümunəsidir ki, dövlət başçısı ilə regionlara səfər edərkən Mehriban Əliyeva onunla birgədir. Birinci xanımın hər rayona səfəri zamanı dövlət başçısı və onunla görüşə toplaşan insanlarla çox mehriban davranmağı, müraciət edən hər kəsə diqqət göstərməsi, bəzən hətta kənarda dayanmış yaşlı bir insana yaxınlaşaraq hal-əhval tutması bunun əyani sübutudur.

Mehriban xanımın ona üz tutan insanlara biganə yanaşmır, ondan kömək uman hər bir kəsin problemlərini dinləyərək həllinə çalışır. Getdiyi hər bir ünvanda onu səbirsizliklə gözləyən insanlar, uşaqdan tutmuş ağsaqqallara kimi, hər kəsin hüdudsuz sevinci hiss olunur. Səmimiyyət, təmkinlə qarşısındakını dinləmək və şəfqət əlini uzatmaq Mehriban xanımın xarakterindəki xüsusiyyətlərdəndir. O qeyd edir ki, bütün insanlara kömək göstərmək istəyirəm. Onların qayğılarını çəkməkdən yorulmuram, mənəvi təskinlik tapıram: "Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".

Mehriban xanımın fikirləri də özü kimi aydın və sadədir. O qeyd edir ki, mənim həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bu gününü yaşayır, yenə də həyat dərsi keçir: "Bu dərs onun timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir".

Mehriban Əliyevanın dünya mədəniyyətini zənginləşdirən təşəbbüsləri də qlobal missiya kimi müasir ictimai həyatımızın mühüm hadisəsinə çevrilmişdir. Onun fəal iştirak etdiyi müxtəlif mədəniyyətlərin və qitələrin qovşağında yerləşən Azərbaycanın həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxarıb, daha qlobal səviyyəyə yüksəltməyə imkan verir. Bu mənada "Mədəniyyətlərarası dialoqa dair Bakı prosesi"nin davamı olaraq, Bakıda "Ümumdünya mədəniyyətlərarası dialoq Forumu"nun keçirilməsi İslam və Avropa mədəniyyətini özündə ehtiva edən Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə təbliğ olunması, ölkəmizin nüfuzunun yüksəldilməsi və beynəlxalq proseslərdə əhəmiyyətinin artırılmasına, eləcə də Azərbaycanın qitələrarası və sivilizasiyalararası əməkdaşlıq məsələlərində çox mühüm dövlət kimi qəbul olunmasına, ölkəmizin dünya mədəniyyətinə inteqrasiyasına xidmət edir.



# IV FƏSİL

*Heydər Əliyev Fondu*
*Azərbaycanın zəngin milli-maddi sərvətidir*





*"Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu yalnız ağıl sahibləri düşünüb dərk edərlər!"*

***"Qurani-Kərim", əl-Bəqərə surəsi***

## HAMININ ÜMİD VƏ İNAM ÜNVANI

Mehriban xanım Əliyevanın titanik fəaliyyəti Azərbaycanın beynəlxalq imicinin artmasına dərin töhfə verən ictimai institutun yaranmasına səbəb olmuşdur. Azərbaycanın Birinci xanımı yeni əsrin ilk illərində həddindən artıq böyük ictimai funksiyaları üzərinə götürərək hədəf seçdiyi hər bir sahənin layiqli və keyfiyyətli icracısı kimi nüfuzlu şəxsiyyətə çevrilmişdir. Onun ictimai nüfuzu və statusu artıq daha geniş proqramların həyata keçirilməsinə dərin zəmin yaratmışdır.

Mehriban xanımın mədəniyyət diplomatiyamıza 10 ilə yaxın müddətdə verdiyi əvəzsiz töhfələr, yenilikçi ideyalar ictimai-siyasi həyatımızda çoxşaxəli və ictimai hüdudları həddindən artıq geniş olan prosesin əsasının qoyulmasını zəruri edirdi. Onun zəngin və yaddaqalan fəaliyyət proqramı və müəyyənləşdirdiyi strateji hədəflər yeni ictimai hərəkatın başlanmasının anonsunu verirdi. Mehriban Əliyevanın artıq ölkə və dünyamiqyaslı ictimai xadim kimi fəaliyyətə başlaması tarixi bir zərurət, ictimai sifariş idi. Müasir tarixi gerçəklik onun ən şərəfli və məsuliyyətli yola çıxmasını labüd etmişdi.

2004-cü ildə Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş ümummilli lider Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə onun adını daşıyan Fondun yaradılması və bu təşkilatın idarə edilməsi Mehriban xanımın ictimai statusuna tam uyğun idi. Mehriban Əliyevanın xalqımızın öz dahi oğluna böyük tarixi xidmətləri qarşısında qədirbilənlik və minnətdarlığının təcəs-

sümü olan Fondun rəhbəri təyin edilməsi təsadüfi deyildi. Bu funksiyanı yalnız o yerinə yetirə bilərdi. O nəhəng şəxsiyyəti yaxından tanıyan, onun əqidəsini duyaraq gerçəyə çevirən və həm də qəlbində xalq, insan sevgisi, mərhəmət duyğusu olan, heç bir acıya biganə qalmayacaq qədər böyük ürəyə malik bir insan bu vəzifəni yerinə yetirə bilərdi. Məhz Heydər Əliyev ocağının nümayəndəsi – Mehriban xanım Əliyeva belə böyük bir məsuliyyəti öz üzərinə götürdü...

Tam əminliklə demək olar ki, Heydər Əliyev Fondu öz fəaliyyəti ilə dövlət siyasətinin mühüm problemlərinin həyata keçirilməsində müstəsna rol oynamaqdadır. Mehriban xanım Əliyevanın əzmkar fəaliyyətində bunun canlı şahidiyik. Mehriban Əliyevanın bugünkü ictimai fəaliyyəti İlham Əliyevin uğurla həyata keçirdiyi ümummilli siyasətin ayrılmaz hissəsidir. Milli missiyanın beynəlxalq siyasi əhəmiyyəti də məhz bundadır. Mübaliğəsiz demək olar ki, Heydər Əliyev Fondunun fəaliyyəti xalq diplomatiyasının bariz nümunəsidir.

Fondun tərəfdaşları arasında 32 səfirlik, Dünya İşləri üzrə Amerika Şurası, UNICEF və başqaları var. Fond dini və mədəni tolerantlığın təşviq edilməsi istiqamətində fəaliyyət göstərir, Azərbaycanda və onun hüdudlarından kənarda yaşayan insanlar üçün ümid və mərhəmət məbədinə çevrilmişdir.

Fəaliyyətini humanizm prinsipləri əsasında quran Fond yarandığı gündən



ictimai-siyasi həyatın bütün sahələrinə dərindən nüfuz etdi, çoxşaxəli layihələri ilə dövlət və vətəndaş həmrəyliyinin bariz nümunəsinə, əsl mərhəmət ünvanına çevrildi, xeyriyyəçilik hərəkatına canlanma gətirdi. Məqsədlər o qədər aydın və ali idi ki, Fond qısa vaxtda hər bir kəsin ümid və inam yerinə çevrildi. Fond təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak etmiş, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini vermişdir.

Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyətinə Ümummilli Liderin zəngin dövlətçilik və idarəçilik fəlsəfəsinə əsaslanaraq milli-mənəvi və intellektual yüksəlişə xidmət edən ideaların cəmiyyətdə daha da möhkəmlənməsinə çalışmaqla başladı. Azərbaycanın Birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təminatı yönümündə həyata keçirdiyi strateji layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Mehriban xanım Əliyevanın fəaliyyəti humanizm meyarına söykənir. Şərqlə Qərbi özündə birləşdirən Azərbaycan milli-mənəvi dəyərləri ilə sivilləşir, dünyaya inteqrasiya prosesi sürətlənir. Azərbaycan mədəniyyətinin geniş təbliği,



sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər əsas xətt olaraq davam etdirilir. Azərbaycanın imicinin yüksəldilməsində, onun dünyaya təqdimində görülən bu və ya digər işlər dövlətin maraqlarını ifadə edir.

Heydər Əliyev Fondunun loqosundakı göy və qızılı rənglər bu qurumun fəlsəfəsini, qayəsini, məram və fəaliyyətindəki bütün məqamları zəngin şəkildə əks etdirir. Səmanı, demokratiyanı, düzlüyü, təmizliyi, günahsızlığı, dincliyi, etibarlılığı, səmimiliyi, əminliyi ifadə edən göy rəng həm də milliliyin göstəricisidir. Qızılı rəng isə Günəş, sülh, inkişaf, işıqlı gələcək simvolu deməkdir. Hər iki rəng ümummilli lider Heydər Əliyevin istək və arzularını, ideyalarını əks etdirir ki, Fond da fəaliyyətə başladığı zamandan bu ali dəyərləri, məfhumları gerçəkləşdirmək yolundadır.

Heydər Əliyev Fondu ilk gündən Azərbaycanın mədəniyyət diplomatiyasında qazandığı nailiyyətlərə yeni uğur hekayəsi yazmaqla diqqəti cəlb etdi. Qeyri-maddi mədəni irsimizi tanıtmağa yönələn tədbirlər uğurla həyata keçirildi. Fondun dəstəyi ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı bu istiqamətdə dünya musiqi mədəniyyətində yeni bir layihə kimi şöhrət qazanmağa başladı. Şərq və Qərb musiqisini, eləcə də məşhur ifaçıları, bəstəkarları bir araya gətirən festivala gələn çoxsaylı xarici qonaqlar dünya musiqisinin ən möhtəşəm nümunələrini dinləməklə yanaşı, Azərbaycan musiqisinin gözəl inciləri ilə də tanış oldular, xalqımızın musiqi mədəniyyəti barədə aydın təsəvvür əldə etdilər. Bu, dünya mədəniyyəti sivilizasiyasında fərqli və möhtəşəm bir Azərbaycan layihəsi kimi tarixə yazıldı.

Mehriban xanım həddindən artıq bacarıqlı və zövqlü təşkilatçıdır. Onun təşkil etdiyi bütün tədbirlər öz bənzərsizliyi ilə diqqəti cəlb edir. Mehriban xanım Əliyevanın valehedici zövqü, memarlıq sənətinin incəliklərinə professionallıqla nüfuz etməsi qədim Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişdir. Şəhərimizin memarlıq simasının gündən-günə yaxşılaşması bu vətənpərvər xanımın siyasi mahiyyət kəsb edən misilsiz ictimai fəaliyyətinin uğurla həyata keçirilməsinin bariz göstəricisidir.

Onun özünəməxsus fərqli və zövqlü yanaşması, təkrarolunmaz mədəni keyfiyyətləri məhz elm, təhsil, mədəniyyət, sosial proqramların təşkili və icrasında estetikanı, səliqəli nizam-intizamı ecazkar bir harmoniya yaradır.

Mehriban Əliyeva dünyamiqyaslı fəaliyyəti, milli təəssübkeşliyi ilə Azərbaycan xalqının çox qədimlərə bağlı olan sənət xəzinəsinə, milli irsimizə, muğamlarımıza böyük vətəndaş məsuliyyəti ilə sahib çıxaraq, beynəlxalq səviyyədə tanıtdı və sevdirdi. O, dünyanın möhtəşəm tribunalarında çıxışı zamanı cəsarəti, haqsevərliyi ilə dünya ictimaiyyətinin böyük sayğısını qazanıb.

Mehriban xanım Əliyevanın milli-mənəvi, mədəni dəyərlərimizin himayədarı kimi ali görəvi Vətən, xalq və vətəndaş ehtiyacına bağlıdır. O, dini dəyərlərimizə, insanların inanclarına dərin ehtiram nümayiş etdirir, ölkəmizdə və ondan kənarda dini abidələrin qorunması və bərpasına yardım göstərir. Fondun dəstəyi ilə paytaxtımızdakı pravoslav kilsələrinin və digər dini məbədlərin təmir-bərpası, Bakıda və regionlarda dini ziyarətgahların, ibadət yerlərinin tikintisi və mövcud olanların yenidən qurulması prosesi uğurla davam etdirilmişdir.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Həm ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın dini-mənəvi dəyərlərinin qorunması və inkişafı diqqət mərkəzində saxlanılıb.

Heydər Əliyev Fondu ulularımızdan bizlərə yadigar qalmış mədəniyyət incilərimizin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün məqsədyönlü və konkret fəaliyyət planına malikdir. Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Fond ölkəmizdə bir neçə dini ocağın təmiri və yenidən qurulmasına dəstək göstərib. Mərdəkanda 16-cı əsrə aid "Pir Həsən" ziyarətgahı, Binədə "Möhsün Səlim" məscidi, Buzovnada "Cümə" məscidi, Bakıda "Müqəddəs Məryəmin miladı" kilsəsi əsaslı təmir olunmuşdur.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO VƏ ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müxtəlif ölkələrin din xadimləri ilə görüşü də beynəlxalq dini ictimaiyyətin diqqət mərkəzində olmuş, bu cür tədbirlərin dinlərarası dialoqa geniş töhfə verdiyi xüsusi olaraq vurğulanmışdır. 2009-cu il iyulun 6-da Azərbaycanda səfərdə olan müxtəlif ölkələrin din xadimlərinin Heydər Əliyev Fondunda olması milli-mənəvi, dini dəyərlərə olan yüksək hörmətin ifadəsi kimi dəyərləndirilə bilər.

Milli-mənəvi dəyərlər həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. Hər bir xalqın mənəvi-əxlaqi dəyərlərini qoruyaraq gələcək nəsillərə ötürməsi fenomen şəxsiyyətlərin üzərinə düşür. Yalnız böyük şəxsiyyətlər yetişdirən xalqlar minilliklər boyu möhkəm mənəvi təməl üzərində inamla irəliləyirlər. Azərbaycanda bu ağır və taleyüklü missiyanı



ulu öndərimiz Heydər Əliyev öz üzərinə götürmüşdür. Heydər Əliyevin müəyyənləşdirdiyi azərbaycançılıq məfkurəsinin özündə multikulturalizm və tolerantlıq ideyası mühüm yer tutmuşdur. Ulu öndər tolerantlığı və multikulturalizmi cəmiyyətin monolitliyini, möhkəmliyini şərtləndirən ən vacib amil kimi görürdü. Onun müəyyən etdiyi siyasətə uyğun olaraq, müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin ölkəmizdə dinc və qarşılıqlı anlaşma şəraitində yaşamış, Azərbaycanda xristian, yəhudi və digər icmaları üçün əlverişli şərait yaradılmışdır. Azərbaycanda dövlət siyasətinə çevrilən multikulturalizm Prezident İlham Əliyev tərəfindən də uğurla davam və inkişaf etdirilir. Məhz Azərbaycanda multikulturalizm tarixən həyat tərzi olub və bu ənənələr bu gün də yaşamaqdadır. Multikulturalizm, eyni zamanda Azərbaycan cəmiyyətinin dünyaya özünü tanıtdırmaq rəmzidir.

Mehriban xanım Əliyeva Azərbaycanda həmişə dini dözümlüyün olduğunu qeyd edərək qonaqların diqqətinə şatdırmışdır ki, Heydər Əliyev Fondu yarandığı gündən tolerantlığın qorunmasına istiqamətlənən layihələrə böyük önəm verir. Fondun təşəbbüsü ilə ölkədə məscidlər tikilir. Fond pravoslav və katolik kilsələrə də lazımi yardımı göstərir.

2017-ci il iyunun 21-də Heydər Əliyev Fondu tərəfindən UNESCO-da iftar mərasiminin təşkil edilməsi bir daha dini

dəyərlərə olan dərin ehtiramın, tolerantlığa verilən yüksək qiymətin nümunəsidir. Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyi tərəfindən təşkil edilən bu tədbirdə müqəddəs Ramazan ayının məziyyətlərindən danışılıb, onun sülh, tolerantlıq, həmrəylik ayı olduğu diqqətə çatdırılıb. Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünyanın bir çox ölkələrində dini və tarixi abidələrin restavrasiyası sahəsində həyata keçirdiyi layihələrdən söhbət açılıb.

İftar mərasimində bildirilib ki, Ramazan ayı dialoq və həmrəylik ayıdır, iftar süfrəsi isə Ramazan ayının mühüm dəyərlərindəndir. O, bütün dinlərin tolerantlığa və dialoqa xidmət etdiyini, Azərbaycanın müxtəlif dinlərin, etnik qrupların və mədəniyyətlərin nümayəndələrinin mehriban, bir ailə kimi yaşadığı ölkədir.

İftar mərasimində vurğulanıb ki, ölkəmizdə multikulturalizm tarixi ənənə və dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Səfir vurğulayıb ki, Şərq və Qərb arasında körpü rolunu oynayan Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkandır. Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq sahəsindəki zəngin təcrübəsini müxtəlif təşəbbüsləri ilə beynəlxalq ictimaiyyətlə bölüşür. Bu gün dünyamızın hərbi münaqişələr, ekstremizm, terrorizm və separatizm ilə, sülh və tərəqqiyə nail olmaq üçün böyük problemlərlə üzləşdiyi bir zamanda dialoq və yüksək səviyyəli təhsil vacib şərtdir. Təhsil, elm, mədəniyyətlərarası dialoq və mədəni irsin qorunması



sahəsində UNESCO-nun əvəzolunmaz rolu var. UNESCO sülh və tərəqqini təşviq etmək üçün bütün vasitələrə və zəngin təcrübəyə yiyələnib. Bu nəcib təşkilata dəstək vermək lazımdır.

Heydər Əliyev Fondunun həyata keçirdiyi hər bir layihə yüksək təşkilatçılığı, kütləviliyi, zəngin mədəniyyətimizə istinad olunub seçilməklə maariflənməni, sülhü, bəşəri dəyərlərə hörməti təbliğ edir. Tiflisdə Azərbaycan aydınları Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən düzəldilməsi, Paris və Strasburqda Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı konsert və sərgilərin keçirilməsi, dahi mütəfəkkirin Romada abidəsinin ucaldılması mədəniyyətimizin zənginləşməsinə daha bir çalar qatdı. Fond tərəfindən 2018-ci ildə Azərbaycanda ilk dəfə təşkil olunan Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalı da özündə məhz bu dəyərləri ehtiva edirdi. Fond tərəfindən təşkil edilən çoxsaylı mədəni layihələr, keçirilən tədbirlər, o cümlədən simpoziumlar, sərgilər, konsertlər, tamaşalar cəmiyyətimiz tərəfindən böyük rəğbət və məhəbbətlə qarşılanır, özünə böyük auditoriya toplayır.



Heydər Əliyev Fondu Azərbaycan vətəndaşları üçün çox dəyərli və zəngin mill- maddi sərvətdir. Fond, həmçinin, bir çox dövlətlər üçün bəşəri ideyaları gerçəyə çevirən humanizm məbədidir. Mehriban Əliyevanın təşkilatçılığı ilə Azərbaycan ədəbiyyatının, incəsənətinin görkəmli xadimlərinin Avropa ölkələrində dərindən tanıdılmasına xidmət edən layihələr çərçivəsində bir çox dövlətlərdə korifeylərimizin yubileyləri keçirilir, onların şərəfinə abidələr ucaldılır. Fransanın Yuxarı Alzas Universitetində Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş konfransın keçirilməsi, elə həmin ölkədə Məhsəti Gəncəvinin, Xurşidbanu Natəvanın heykəllərinin açılış mərasimləri, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin büstünün qoyulması, Moskvada Mirzə Fətəli Axundzadənin abidəsinin açılışı, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin istifadəyə verilməsi bu siyasətin ən mühüm uğurlarından biri kimi qeyd olunmalıdır. Mehriban xanımın bilavasitə əməyinin məhsulu olan bu tədbirlər Azərbaycan elm və incəsənəti, ədəbiyyatı haqqında Avropa ölkələrində yeni bir sosiomədəni prosesin başlanmasını təsdiqləyir.

Heydər Əliyev Fondunun ən möhtəşəm və dünya miqyaslı layihələrindən biri Parisdə “Azərbaycan şəhərciyi”nin yaradılmasıdır.

Mehriban Əliyevanın müəllifi olduğu bu unikal layihə Azərbaycanın Avropadakı simvollarından birinə çevrilmişdir. Eyfel qülləsinin yanındakı Jofr meydanında fəaliyyət göstərən “Azərbaycan şəhərciyi”ndə nümayiş etdirilən xalq sənətkarlığı nümunələri, xalçaçılıq, misgərlik və şəbəkə, taxta üzərində oyma, dulusçuluq, kəlağayı və digər sənət nümunələri avropalılarda ölkəmizin zəngin mədəniyyəti, incəsənəti və nadir maddi-mənəvi sənət abidələri haqqında dərin təsəvvür yaratmaqda mühüm rol oynamış, Qafqazın mirvarisi Azərbaycanın mədəni dəyərlərini Fransa ictimaiyyətinin kəşf etməsinə səbəb olmuşdur.

Məhz bu görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan cəmiyyəti Mehriban xanım Əliyevanı həm də mədəniyyətimizin hamisi kimi qəbul edir. Azərbaycanın bənzərsiz mədəniyyətinin dünyada təbliği missiyasını Heydər Əliyev Fondu müvəffəqiyyətlə icra edir. Fondun təşkilatçılığı ilə mötəbər beynəlxalq qurumlarda, dünyanın möhtəşəm şəhərlərində ölkəmizlə bağlı sərgilər, mədəniyyət gecələri və digər tədbirlər keçirilir. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda, dünyanın bir sıra digər ölkələrində Azərbaycan mədəniyyəti günlərinin keçirilməsini, Qərbin mədəniyyət beşiyi hesab olunan Fransanın paytaxtında Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasını, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin




abidələrinin ucaldılmasını göstərmək olar. Londonda, Parisdə, Berlində təşkil olunan “Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti” sərgiləri, həmçinin dünyanın müxtəlif şəhərlərində təşkil olunan “Azərbaycan – tolerantlıq məkanı” adlı fotosərgilər, Venesiya Biennalesində təşkil olunan Azərbaycan pavilyonlarındakı sərgilər ölkəmizin dünyada daha yaxından tanıdılması istiqamətindəki xüsusi əhəmiyyəti ilə yanaşı, beynəlxalq ictimaiyyətin də respublikamıza marağının daha da artmasına xidmət etmişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva milli ideya daşıyıcısıdır, milli ənənələrimizin, dəyərlərimizin qorunması və yaşadılması, geniş təbliği üçün gücünü və əməyini dayanmadan sərf edən milli iftixarımızdır. Onun təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genefondumuzun qorunması, milli dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır. Azərbaycanın Birinci xanımı informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi müasir dövrdə insani və mənəvi-əxlaqi dəyərlərin yad təsirlərdən qorunmasına daha çox ehtiyac olduğunu bildirir. Onun rəhbərliyi ilə həyata keçirilən tədbirlər sırasında milli-mənəvi irsə qayğının xüsusi yer tutması təsadüfi deyildir, bütün bunlar xalqımızın milli kimliyinin qorunmasına xidmət edir.

Ulularımızdan bizlərə yadigar qalmış mədəniyyət incilərimizin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi, onların başqa ölkələrdə tanıdılması kimi layi-

hələrin həyata keçirilməsi Mehriban xanım Əliyeva üçün hər zaman prioritet olmuşdur. O, Azərbaycanın adət-ənənələrinin qoruyucusu kimi ölkə daxilində və xaricdə həyata keçirdiyi böyük layihələrlə dərin biliyə, geniş intellektə malik olduğunu hər dəfə nümayiş etdirməklə böyük nüfuz qazanmışdır.

Bu, bütün bəşəriyyət üçün təsdiq edilmiş bir həqiqətdir ki, Azərbaycan ərazisində zəngin tarixi keçmişimizi əks etdirən maddi-mədəniyyət abidələri günümüzə qədər gəlib çatmış və dünya sivilizasiyasının zəngin dəyərləri sırasındadır. Onların öyrənilməsi nəticəsində Azərbaycanın yüksək mədəni irsə malik qədim mərkəzlərdən biri olması sübuta yetirilmişdir. Mehriban Əliyevanın vurğuladığı kimi, Azərbaycanın mədəni-tarixi irsinin inkişafı və qorunması bizim birinci dərəcəli məsələlərimizdəndir: “Biz ölkənin bu maraq dairəsində baş verən hadisələri diqqətlə izləyirik və yaranan problemlərin həlli üçün bütün səyləri göstəririk. Mən Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda gənc nəsli milli vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, Heydər Əliyevin azərbaycançılıq ideologiyasının inkişafı kimi qiymətləndirirəm”.

Ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, mədəniyyətin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması, yeni mədəniyyət ocaqlarının yaradılması istiqamətində aparılan genişmiqyaslı işlər məhz bu baxımdan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr sırasında xüsusi yer tutmuşdur. Qədim Gəncəmizin tarixinə dair iki abidənin, Çar Rusiyasına qarşı Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olmuş Cavad xanın məzarının, Gəncə qapılarının, VII əsrə aid Comərd Qəssabın türbəsinin, “Qu quşları” fəvvarə kompleksinin və digər tarixi abidələrimizin bərpası, Müasir İncəsənət, “Tullantıdan sənətə”, “XX–XXI əsr Azərbaycan rəngkarlığı”, xalça, daş salnamə, dəmirçi arxeologiya və muzeylərinin açılması, yeni-yeni mədəniyyət saraylarının, muğam mərkəzlərinin, musiqi məktəblərinin istifadəyə verilməsi Heydər Əliyev Fondunun bu sahədə gördüyü irimiqyaslı işlərin mühüm tərkib hissəsidir. Fondun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizi qoruyub saxlamaqla yanaşı, ölkəmizi regionun turizm mərkəzlərindən birinə çevirmək istiqamətində atılan addımdır.

Mehriban Əliyevanın tariximizə bu cür həssas münasibətini milli keçmişimizə dərin bələd olan vətənpərvər və milli yaddaş sahibi olması ilə də əlaqələndirmək mümkündür. Bütün bu sadalananlar Heydər Əliyevin yaratdığı milli ideologi-

yanı dərindən mənimsəyən, əxz edən və yaşadan Mehriban xanım Əliyevanın dəyərlərimizin geniş təşviqatçısı olduğunun bariz təsdiqidir.

Mehriban Əliyevanın rəhbərliyi ilə gerçəkləşdirilən bu cür layihələr milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasına, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun genişləndirilməsi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına istiqamətlənmişdir. Fondun Bakıda "Qafqaz xalq ənənələri evi"nin yaradılması ilə bağlı UNESCO qarşısında irəli sürdüyü təşəbbüs bu planın tərkib hissəsi kimi nəzərdən keçirilə bilər. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması, təbliği baxımından böyük faydalar vəd edir. Bu təşəbbüs, eyni zamanda böyük siyasi əhəmiyyətə malikdir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq Siyasə-



ti"nin icrasına müəyyən töhfə verməklə bərabər, həm də zaman-zaman Azərbaycanın mədəniyyət incilərini oğurlayıb öz adlarına çıxaran ermənilərin bu hərəkətlərinin qarşısını almaqda mühüm platformadır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılıq bacarığı sayəsində nüfuzlu "Eurovision-2012" mahnı müsabiqəsi paytaxtımızda ən yüksək səviyyədə təşkil edilmişdir. Bakıda keçirilən bu tədbir müasir musiqi mədəniyyətimizin və müsabiqənin tarixinə parlaq səhifə kimi daxil olmuşdur.

Elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, respublikamızın və xarici ölkələrin fondları, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə köməklik gösərmək Heydər Əliyev Fondunun fəaliyyətində başlıca prioritetlər olmuşdur. Eyni zamanda uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, respublikamızın və xarici ölkələrin təhsil müəssisələri ilə səmərəli əməkdaşlıq, elmi tədqiqatların aparılmasına yardım göstərmək, xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına yardım etmək, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək Fond tərəfindən əsas prinsiplər kimi müəyyənləşdirilmişdir.

Demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından özünün yüksək inkişaf mərhələsinə çatmış ölkələrin nailiyyətləri məhz elmə, təhsilə yüksək diqqət və qayğı sayəsində əldə edilir. Xüsusilə də rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğunun əsas fəlsəfəsi yüksəl elmi nailiyyətlərə malik kadr bazasının olmasıdır. Elmtutumlu iqtisadiyyat inkişafın əsas formullarından biridir. Elmi-intellektual potensial hər bir xalqın mütərəqqi inkişafının mühüm amilinə çevrilməklə rolunu ildən-ilə artırır.

Azərbaycanda elm və təhsili daim diqqət mərkəzində saxlayan Ulu Öndərin müəyyənləşdirdiyi strategiyaya əsasən, təhsil sektorunun inkişafı üçün son illərdə sistemli və davamlı islahatlar həyata

keçirilir. Təhsillə bağlı müəyyən olunmuş prioritetlərin varisliyi təmin edilir, Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində elm və təhsilin davamlı inkişafına xüsusi diqqət göstərilir. Təhsilə dəstək layihələrində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi olaraq nəzərə çarpmaqdadır. Fondun milli maarifçilik xəttinin həyata keçirilməsi sahəsində gördüyü işlər konkret çərçivə ilə məhdudlaşmır – məktəb tikintisindən tutmuş UNESCO ilə konkret təhsil proqramlarının həyata keçirilməsinədək – geniş spektri əhatə edir.

## Uşaqların Mehriban dünyası

*"Vətəni qorumaq uşaqları qorumaqla başlayar".*

***Mustafa Kamal Atatürk***

İşıqlı gələcəyimiz, xoş sabahlarımız olan uşaqlara yüksək qayğı və diqqət dövlətimizin həyata keçirdiyi siyasətin ana hədəflərindəndir. Əsas məqsəd uşaqların sağlam, firavan böyüməsi, gələcəklərinin tam təmin olunmasına xüsusi diqqət və qayğı göstərilməsidir. Son illər həyata keçirilən tədbirlər içərisində böyüməkdə olan nəslə – körpə və kimsəsiz uşaqlara göstərilən yüksək səviyyəli qayğı böyük rəğbətlə qarşılanır. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-cu ilin respublikamızda "Uşaq ili" elan edilməsi bu baxımdan təqdirəlayiq bir addım idi. Həmin sərəncama əsasən, ölkəmizdə bu istiqamətdə dövlət səviyyəsində proqramlar, layihələr hazırlanaraq həyata keçirilmişdir.

Həyata keçirilən bu tədbirlər ölkəmizdə ana və uşaqların sağlamlığının qorunmasına, uşaq müəssisələrinin fəaliyyətinin, eləcə də səhiyyə sisteminin maddi-texniki bazasının yaxşılaşdırılmasına, bilikli, savadlı, geniş dünyagörüşə malik peşəkar kadrların hazırlanmasına yönəldilib. Dövlət səviyyəsində həyata keçirilən belə tədbirlərin nəticəsidir ki, son dövrdə uşaq müəssisələri əsaslı şəkildə yenidən qurulmuş, regionlarda müasir tələblərə cavab verən uşaq bağçaları, məktəblər, səhiyyə müəssisələri tikilmiş, nəticədə ana və yeni doğulmuş uşaqlar arasında ölüm halları xeyli azalmışdır.

Azərbaycanın fidan balalarına qayğı və onların sağlam böyüməsi Heydər Əliyev Fondunun da fəaliyyətində ən başlıca prinsiplərdən biridir. Uşaqlara, xüsusilə xəstə və kimsəsizlərə diqqət və qayğıdan söhbət açanda Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın bu sahədəki yorulmaz fəaliyyəti xüsusi vurğulanmalıdır. Xəstə uşaqlarla bağlı Heydər Əliyev Fondu tərəfindən təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində həyata keçirilən layihələr əsl mərhəmət və humanistlik nümunəsidir. Təhsil ocaqlarının və uşaq müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, uşaq evlərində böyüyən



körpələrin gələcəyi, sağlamlıq imkanları məhdud və köməksiz uşaqların sağlamlıqlarının qorunması ilə bağlı Fond tərəfindən həyata keçirilən tədbirlərin müstəsna əhəmiyyəti vardır. Bu, ilk növbədə, Azərbaycanın sürətli iqtisadi inkişafı, sosial problemlərin həlli və ölkəmizin dünya birliyindəki mövqelərinin möhkəmləndirilməsi baxımından etibarlı zəmin yaradır.

Mehriban Əliyevanın Azərbaycan təhsilinin inkişafı, yeni nəslin təlim-tərbiyəsinin düzgün qurulması, layiqli peşəkar kadrların hazırlanması yönündə təşəbbüsləri onun əsl vətəndaş mövqeyinin, nümunəvi vətənpərvərliyinin ifadəsidir. Mehriban xanımın uşaqlara olan sonsuz məhəbbət, diqqət və qayğısı tükənməzdir. Onun xoş gələcəyimizin əmanəti olan uşaqlara dərin məhəbbətlə qayğısı və hər zaman onlarla bir yerdə olması ənənə halını alıb. Azərbaycanın Birinci xanımının bu istiqamətdə həyata keçirdiyi nəcib missiya onu fidan balalarımızın ən yaxın dostuna və böyük himayədarına çevirib. Onun gündəlik fəaliyyətini bu prinsiplər təşkil edir: Vətənə bağlılıq, millətinə, xalqına sonsuz məhəbbət, xəstə və kimsəsiz uşaqlara qayğı, zəngin mədəniyyətimizə dərin hörmət, bir sözlə, insanlıq və bəşəri duyğular naminə fədakarlıq.

Heydər Əliyev Fondunun prezidenti “Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə

azdır" devizini rəhbər tutaraq, çox sadə bir mərama söykənib: Azərbaycan uşaqlarını bəxtəvər görmək! Təsadüfi deyil ki, Fond yarandıqdan sonra ilk ən böyük tədbir uşaqlarla bağlı oldu. 2004-cü ilin sentyabrında 30-a yaxın uşaq evi və internat məktəbində tərbiyə alan kimsəsiz və istedadlı uşaqlar Fond tərəfindən sevindirildi, Səttar Bəhlulzadə adına sərgi salonunda onların "Mən Azərbaycanı sevirəm" adlı sərgisi təşkil edildi. Elə həmin tədbirlə də uşaq evi və internat məktəblərinə qayğının təməli qoyuldu. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində aparılan əsaslı təmir və yenidənqurma işləri cəmiyyətdə böyük rezonans doğurdu. Uşaq müəssisələri əsaslı təmir edildi, əlavə yardımçı binalar inşa olundu, paytaxtın bütün rayonlarındakı uşaq evləri və internatların hər birində yaşayış üçün rahat şərait yarandı. "Ən gözəl təmir olunan uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz", – deyən Mehriban Əliyevanın təşəbbüsü ilə uşaq evləri və internat məktəblərində yaşayan uşaqların dövlət müəssisələrindən kənarda onlara alternativ qayğı proqramı hazırlandı, 2005-ci il iyunun 1-də həmin layihənin – "Azərbaycanda dövlət uşaq müəssisələrindən uşaqların kənar edilməsi və alternativ qayğı" layihəsinin müzakirəsi keçirildi.

Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana – yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Kor və zəif görən insanların İKT-yə çıxışının təmin edilməsi", Bakıda Talassemiya Diaqnostika Mərkəzinin, tələbatı ödəyəcək qədər ehtiyata malik Qan Bankının yaradılması xeyirxahlıq, vətənpərvərlik hisslərini birləşdirən humanist addımlardır.

Mehriban xanımın uşaqlara göstərdiyi əhatəli qayğı Azərbaycanda bu sahə ilə bağlı dövlət siyasətinə də keyfiyyət dəyişiklikləri gətirmiş, uşaq hüquqlarının qorunması istiqamətində mühüm addımlar atılmışdır. Birinci xanımın başlatdığı zəngin siyasət uşaqlarla bağlı müxtəlif dövlət tədbirlərinin, layihələrin həyata keçirilməsinə səbəb olmuşdur. Uşaqlarla bağlı konfrans və forumlar təşkil edilmiş, bu tədbirlər cəmiyyətə uşaq hüquqlarının qorunmasına ictimai marağın və konkret əməli tədbirlərin həyata keçirilməsinə güclü zəmin yaratmışdır. Azərbaycan Uşaqlarının IV Ümumrespublika Forumu təkcə Azərbaycan deyil, region üçün mühüm ictimai əhəmiyyət kəsb edən hadisəyə çevrilmişdir. 2017-ci il noyabrın 20-də keçirilən bu tədbirə BMT-nin Uşaq Fondunun dəstək verməsi bir daha Mehriban xanımın nüfuzu və uşaqların hüquqlarının etibarlı müdafəsi sahəsində göstərdiyi qətiyyətə beynəlxalq birliyin etimadının göstəricisi idi. Həmin Forumda BMT-nin nüfuzlu ictimai xadimləri tərəfindən bəyan olunmuşdur ki, Azər-

baycan dövlətinin və onun Birinci xanımının uşaq hüquqlarının qorunması, uşaqların sağlam böyüməsi üçün nümayiş etdirdiyi iradə, həyata keçirdiyi uğurlu siyasət və konkret nəticələr verən səmərəli fəaliyyət bir çox region ölkələri üçün nümunə hesab edilməlidir. Qeyd olunmuşdur ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu uşaqlara və onların hüquqlarının təmin olunması məsələlərinə çox həssaslıqla yanaşır. UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Əfşan Xan uşaqlara, xüsusilə ən həssas vəziyyətdə olan, xüsusi qayğıya ehtiyacı olan körpələrə dünyanın hər yerində həssaslıqla yanaşmanın vacib amil olduğunu diqqətə çatdırmış, bir çox ölkələri Mehriban xanımın gördüyü işlərdən yaxşı bir nümunə kimi yararlanmağa dəvət etmişdir.

Mehriban xanımın fidan balalarımız olan uşaqlara sonsuz sevgisinin daha bir nümunəsi Xətai rayonunda akademik Zərifə Əliyeva adına uşaq bağçası üçün tikilmiş yeni binanın açılışıdır. 2013-cü il oktyabrın 1-də istifadəyə verilən bu uşaq müəssisəsi Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və təşkilatçılığı sayəsində ərsəyə gəlibdir. Yüksək standartlara uyğun inşa olunmuş bağçanın həyətində uşaqların istirahəti üçün yüksək şərait yaradılıb, köşklər, yay amfiteatrı, yelləncəklər, batut və digər



əyləncə vasitələri qurulub. Bağça mərkəzləşdirilmiş nəzarət kameraları ilə təchiz olunub. Binanın foyesində akademik Zərifə Əliyevanın həyat və fəaliyyətini, həmçinin Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri əks etdirən xüsusi guşə yaradılıb.

Müxtəlif yaşlı 8 qrup üçün nəzərdə tutulan bağçada yataq, yemək, dərs, musiqi, rəsm, əl işləri, kompüter, tibb və müəllimlər otaqları mövcuddur. Otaqlardakı ekoloji cəhətdən təmiz materiallardan hazırlanan yataq dəstləri, oyuncaqlar və dərs ləvazimatları bütün sanitar-gigiyenik norma və standartlara cavab verir. Bağçada uşaqların asudə vaxtlarının təşkili, eyni zamanda əylənmələri üçün hovuz, idman, oyun və müxtəlif tədbirlərin keçirilməsi üçün zallar da var.

Mehriban Əliyevanın uşaqlara olan məhəbbəti o qədər hüdudsuzdur ki, O, həyatının ən əziz günlərində də uşaqların yanında olur. Öz doğum gününü uşaqlarla birlikdə qeyd etməsi Onun üçün ən böyük sevinc, ən dəyərli hədiyyədir. 2019-cu il avqustun 26-da "Jumeirah Bilgah Beach Hotel"də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə uşaqlar üçün şənliyin keçirilməsi hər iki tərəf üçün ikiqat bayram olmuşdur. Uşaq evləri və internat məktəblərindən, Daun Sindromlu Şəxslərin Assosiasiyasından gəlmiş 400-ə





yaxın uşağın iştirak etdiyi bu mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva Azərbaycanın Birinci xanımı ilə birgə uşaqların sevincini bölüşüb, onlarla səmimi söhbət ediblər.

Balacalar üçün qurulan, əsl bayram ab-havası yaradan dekorasiyalar uşaqların əhvali-ruhiyyəsini daha da yüksəldib. Uşaqlar müxtəlif rəqslərə qatılıb, mahnılar ifa edib, məharətlərini göstəriblər. Balacaların sevimli cizgi filmlərinin qəhrəmanlarını canlandıran personajlar, səhnəciklər, oynaq, şux mahnılar, rəqslər tədbiri daha da rəngarəng edib.

Birinci vitse-prezident Mehriban Əliyeva bu xoş ənənəni davam etdirərək 55 yaşını da körpələr evi-uşaq bağçalarının açılışlarında və balacaların şənliyində iştirak etməklə qeyd etməsi cəmiyyətin dərin rəğbət və məhəbbətini qazanıb. 2019-cu il avqustun 26-da paytaxtın Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, həmçinin valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun "Dalğa Beach" istirahət mərkəzində təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak edən Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyevanın bu tədbirlərə qatılması uşaqların əsl bayramına çevrilib.



Qeyd edək ki, Sabunçu rayonunda 260 saylı körpələr evi-uşaq bağçası 1937-ci ildən fəaliyyət göstərir. Bağçanın köhnə binası ötən ilin noyabrında sökülüb, yerində Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub. Yeni bina 140 yerlik olmaqla, 7 qrupdan, musiqi-idman zalından, mətbəx, tibb otağı, camaşırxana və digər köməkçi otaqlardan ibarətdir. Bağça zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib. Ümumi sahəsi 2000 kvadratmetrdən çox olan bina havalandırma və yanğından mühafizə sistemləri ilə təchiz edilib.

Gələcəyimiz olan uşaqların xoşbəxt böyümələri, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam olmaları işinə Azərbaycan dövləti xüsusi diqqət göstərir. Dövlət səviyyəsində bu istiqamətdə icra olunan layihələrə Heydər Əliyev Fondunun töhfələri də böyük əhəmiyyətə malikdir. Fondun təşəbbüsü və dəstəyi ilə indiyədək paytaxtla yanaşı, bölgələrimizdə də çoxsaylı körpələr evi-uşaq bağçası inşa edilib, təmirə ehtiyacı olanlar isə müasir səviyyədə yenidən qurulub.

260 saylı körpələr evi-uşaq bağçasının ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, uşaqların asudə vaxtının səmərəli təşkili üçün müvafiq şərait yaradılıb.

Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva paytaxtın Binəqədi rayonundakı 141 saylı körpələr evi-uşaq

bağçasının açılışında iştirakı da xüsusi sevinc və məhəbbətlə, uşaqlarımızın coşqusu ilə qarşılanıbdır.

Körpələr evi-uşaq bağçası üçün bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilib. Bina bağça kimi 1980-ci ildə ilk dəfə fəaliyyətə başlayıb və indiyədək təmir edilməmişdi. Beş min kvadratmetrdən çox ərazisi olan 3 korpusdan ibarət körpələr evi-uşaq bağçası təmirdən əvvəl 8 qrupda 150 uşağa xidmət göstərirdi. Körpələr evi-uşaq bağçasının yeni binası isə 210 yerlikdir. Burada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları və digər otaqlar var. İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Məktəbəqədər təhsil müəssisəsində yeddisi Azərbaycan, dördü isə rusdilli bölmə olmaqla, ümumilikdə, 11 qrup fəaliyyət göstərəcək. Körpələr evi-uşaq bağçasında 2 yaşdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə 42 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Bağçanın ərazisində abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlıqları da var. Bir sözlə, bu müəssisədə uşaqların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin etmək, həm-



çinin onların bacarıq və istedadlarını aşkara çıxarmaq üçün hərtərəfli lazımi şərait yaradılıb.

Mehriban xanımın “Dalğa Beach” istirahət mərkəzinə baş çəkməsi və uşaqlarla səmimi söhbəti də olduqca maraqlı səhnələrlə yadda qalıbdır. Mərkəzdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunan tədbirə xüsusi avtobuslarla gətirilən uşaqları nağıl qəhrəmanları qarşılayıblar. Nizami, Suraxanı, Xətai rayonlarının uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və 11 saylı inteqrasiya təlimli internat məktəbinin sakinləri bu məkanda unudulmaz anlar yaşayıblar.

Şənliyə Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyevanın qoşulması uşaqların ikiqat bayramına çevrilib, şənliyə xoş ovqat, əhvali-ruhiyyə gətirib. Balacalara xas olan hədsiz səmimiyyət və sevinclə əylənən uşaq evlərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar müxtəlif oyunlarda, attraksionlarda iştirak etdilər, isti yay günündə hovuzda üzdülər, onlar üçün hazırlanmış müxtəlif əyləncəli proqramlarla maraqlı vaxt keçirdilər, ətrafdakılarla sevinclərini bölüşdülər.

Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi



müəyyən edən Heydər Əliyev Fondu növbəti dəfə balacalara unudulmaz anlar yaşadır. Bu tədbirdə də həmin unudulmaz səhələri görmək mümkün idi. Hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələrinin təqdim olunması şənlikdə iştirak edən 200-dən çox uşağın sevincinə xüsusi pay qatıbdır.

Heydər Əliyev Fondu uşaqların sağlamlığının qorunması sahəsində yeni səhiyyə hərəkatını başlatmışdır. Fondun həyata keçirdiyi "Talassemiyasız həyat naminə" layihəsi həmin xəstəlikdən əziyyət çəkənlər və onların doğmaları üçün böyük mənəvi dəstək oldu. Proqram çərçivəsində Bakıda tikilən Talassemiya Mərkəzi isə hemofiliyalı insanların ümid yerinə çevrildi.

Heydər Əliyev Fondunun uşaqlarımızın sağlamlığı üçün atdığı mühüm addımlardan biri də "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir. Bu layihə, ilk növbədə, xalqımızın genefondunun qorunması kimi mühüm və son dərəcə ali məqsədə xidmət edir. 2004-cü ildən davamlı olaraq həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" proqramı çərçivəsində bu xəstəliyə tutulan 14 yaşınadək uşaqların insulinlə təminatında mövcud problemlər aradan qaldırıldı. Dünyada yüksək keyfiyyətli insulin istehsalçısı kimi tanınan Danimarkanın "Novo-Nordisk" şirkəti 2004-cü ildən Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsində tərəfdaş kimi çıxış edir. Bu fəal tərəfdaşlıq ölkəmizdə qeydiyyatda olan xəstə uşaq və yeniyetmələrin insulin probleminin həllinə kömək edir.

Heydər Əliyev Fondu BMT-nin təşəbbüsü ilə 2007-ci ildən başlayaraq "Dünya diabet kampaniyası"na qoşulub. Ümumdünya Diabet Günündə Heydər Əliyev Fondunun binası BMT-nin rəmzi olan mavi rənglə işıqlandırılır. Mavi rəng bütün millətləri birləşdirən səmanı əks etdirir. Məqsəd dünya ictimaiyyətinin diqqətini insanların sağlamlığına ciddi təhlükə mənbəyi olan diabetə yönəltmək və onun qarşısını almaq səylərini artırmaqdır. 2010-cu ilin sentyabrından Heydər Əliyev Fondunun dəstəyi ilə diabetli uşaqlarla bağlı növbəti layihə həyata keçirilmişdir. Fondun "Sanofi-Avensis" şirkəti ilə birgə həyata keçirdiyi bu layihədən məqsəd aztəminatlı ailələrdən olan 1-ci tip şəkərli diabeti olan 18 yaşa qədər pasiyentlərin "Apidra" insulin pereparatı ilə təmin edilməsidir. Heydər Əliyev Fondu ölkəmizdə şəkərli diabetdən əziyyət çəkənlərə dövlət qayğısına əsaslı dəstək verməklə, həm də saglamlığımızın və genofondumuzun qorunmasında yaxından iştirak edir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə gerçəkləşən xeyriyyəçilik tədbirləri, cərrahiyyə əməliyyatları, peyvəndləşdirmə aksiyaları əsl şəfqət və mərhəmət, xeyirxahlıq nümunəsinə çevrilib. "Hər bir uşağın ailəyə ehtiyacı var" – kampaniya-



sını irəli sürməklə uşaqların ailələrə verilməsi kimi önəmli layihənin həlli istiqamətində milli-mənəvi dəyərlərimizi əks etdirən tədbirlərin keçirilməsinə nail olan Mehriban xanımın təşkilatçılığı ilə reallaşdırılan təşəbbüslərin əsasında bir vəzifə dayanır: Vətən üçün sağlam düşüncəli, layiqli, bacarıqlı övladlar yetişdirmək!

Mehriban Əliyeva gələcəyimiz olan balacaların ən ülvi arzularını gerçəkləşdirir, sevinclərinə sevinc payı qatır, ana nəvazişi göstərir. Fond hər il Yeni il və Novruz bayramlarında uşaq evləri və internat məktəbləri, şəhid, məcburi köçkün ailələrindən olan uşaqlar üçün möhtəşəm bayram şənlikləri, xüsusi tədbirlər təşkil edir.

Mehriban xanım nəcib və xeyirxah əməllərin sahibi, böyük ürək sahibi, insanpərvər və qayğıkeş xanım kimi sosial baxımdan ən həssas uşaqlara bu cür ehtiram və ehtişamı ilə bütün uşaq və yeniyetmələrin qəlbində sonsuz məhəbbət ocağı yaradıb. Uşaqların bu mehriban qadına olan məhəbbəti də sonsuzdur.

Heydər Əliyev Fondunun qayğısı ilə əhatə olunmuş Azəbaycan uşaqları öz istedadları ilə artıq Avropaya, dünyaya səs

salıblar. "Azərbaycanın xoşməramlı mələkləri" Avropanın mədəniyyət mərkəzlərində hamını heyran qoyur.

Ölkəmizin gələcəyini sağlam ruhlu, təhsilli, savadlı uşaqlarda görən Mehriban xanım Əliyeva uşaqlarla görüşündə bildirmişdir ki, bizim ən böyük arzumuz, əlbəttə, uşaqlarımızı, gənclərimizi savadlı, təhsilli və sağlam görməkdir. Əlbəttə, bunun üçün bizim uşaqlar bu gün gərək çox yaxşı oxusunlar. Çünki hər bir gəncin, hər bir uşağın gələcəyi onun təhsilindən, savadından, biliyindən asılıdır: "Ölkəmizin gələcəyini, sabahını siz – bugünkü gənclər, bugünkü uşaqlar təmin edəcəksiniz. Ona görə də bu gün sizin ən vacib borcunuz yaxşı təhsil almaqdır. Müasir dünyanın çağırışlarına cavab vermək üçün siz gərək hərtərəfli savada və biliyə malik olasınız.

Siz gərək öz Vətəninizi sevəsiniz, vətənpərvərlik ruhunda tərbiyə olunasınız, eyni zamanda bütün dünyaya açıq olasınız".

2004-cü ildə Azərbaycanda və Türkiyədə keçirilmiş rəy sorğularına görə, Mehriban Əliyevanın "İlin xanımı" adına layiq görülməsində onun uşaq dünyasına göstərdiyi diqqət və qayğının əsas götürülməsi də əbəs deyil. O, bütün uşaqların şirin və xoş dünyasıdır.

Bütün ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək", ümumiyyətlə, dövlət maraqları baxımından





müstəsna əhəmiyyətə malik bir sıra layihələr Fondun fəaliyyətində mühüm tədbirlər kimi dəyərləndirilməlidir. Qısa müddət ərzində uğurla gerçəkləşdirilən bu layihələr cəmiyyətdə geniş rezonansa səbəb olmuş, böyük rəğbət və etimadla qarşılanmışdır.

Azərbaycanın zəruri ehtiyaclarını nəzərə alan Heydər Əliyev Fondunun yeni məktəb tikintisi, mövcud orta ümumtəhsil müəssisələrinin əsaslı təmiri və bərpası istiqamətində həyata keçirdiyi tədbirlər son dərəcə təqdirəlayiqdir. Bu nüfuzlu qurumun ümummilli mənafelərə hesablanmış tədbirlərin həyata keçirilməsində cəmiyyətdən ciddi mənəvi-maddi dəstək alması görülən işlərin miqyasını, dinamikliyini və səmərəliliyini daha da artırmışdır.

“Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək” layihələri hətta ən ucqar dağ kəndlərində, çadır şəhərciklərində də gerçəkləşdirilib. Qax, Zaqatala və Balakən bölgələrində yaşayan gürcü dilli inqiloylar üçün “Təhsilə dəstək” proqramı çərçivəsində tikilən yeni məktəblər tədris ləvazimatları və dərsliklərlə təmin olunub. Bakıda yəhudi uşaqları üçün Xabad-Or-Avner təhsil mərkəzinin təməli qoyulub. Təhsil mərkəzi “Tolerantlığın ünvanı – Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən inşa edilib. Təhsil Mərkəzinin tikintisi 2010-cu ildə başa

çatıb. 2010-cu il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Avner" Beynəlxalq Fondunun prezidenti Lev Levayev Təhsil Mərkəzinin açılışında iştirak ediblər.

Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli mərkəzin istifadəyə verilməsi bir daha təsdiqlədi ki, Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqlar tarixən mehriban ailə kimi yaşamışlar. "Xabad-Or-Avner" təhsil mərkəzi ölkəmizdə çox böyük tarixə, ənənələrə malik olan yəhudi icmasının da özünün bənzərsiz mədəniyyətini, milli adət-ənənələrini qoruyub saxlaması üçün inşa edilmişdir. Mərkəzin digər təhsil müəssislərindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır. Belə ki, mərkəz etno-mədəni komponentlidir. Təhsil ocağında şagirdlərə ivrit dili də öyrədilir.

Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu strateji məqsəd Azərbaycanda bu sahəni qloballaşan dünyanın tələbləri səviyyəsində qurmaq, milli təhsil modelinin gerçəkləşdirilməsinə maddi-texniki və intellektual zəmin formalaşdırmaqdır. Şübhəsiz, təhsil infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan bu məqsədlərə



nail olmaq qeyri-mümkündür. Məlumdur ki, qloballaşan dünya siyasi və iqtisadi sektorlarla yanaşı, elm və təhsilə dərin nüfuz edir, təhsil dövlətlərin inkişafında öz rolunu daha da artırır. Bu baxımdan, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi təhsil sahəsində yeni bir yanaşmanın, yeni baxışın bir nümunəsinə çevrilmişdir. Bu layihənin ana hədəfi təhsildə müasirliyi, kreativliyi geniş tətbiq etməklə, kejfiyyətli təhsilin qurulmasına nail olmaqdır. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi həyata keçiriləndən sonra hətta respublikamızın ən ucqar regionlarında da hər cür ləvazimatla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verildi. Müasir tipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılmasının zəruriliyi və digər sahələrdə çoxlu sayda uğurlar əldə olundu. Yeni tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan bu məktəblər ən müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüterlərlə təchiz edildi.

Azərbaycanın Birinci xanımı çıxışlarının birində bu layihənin geniş əks-səda doğurmasına münasibət bildirərkən qeyd etmişdir ki, ölkəmizdə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çox böyük əks-səda doğurmuşdur: "Biz ilk dəfə bu proqramı təqdim edəndə "dəyirmi masa" keçirmişdik. Çox adam inanmırdı, şübhə ilə yanaşırdı ki, bu necə ola bilər, üç-dörd ay ərzində 132 məktəb tikiləcək, özü də əksəriyyəti ucqar rayonlarda, ölkəmizin dağlıq rayonlarında inşa olunacaqdır. Amma biz sübut etdik ki, əgər inam varsa, iradə varsa, əgər işləri düzgün qurmaq bacarığı varsa, hər bir problem çox qısa bir zamanda öz həllini tapa bilər".

Proqramın icrası təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlığın qurulması baxımından mühüm rol oynamışdır.

Azərbaycanda təhsilin inkişafını beynəlxalq səviyyəyə yüksəltmək üçün bütün imkanlardan yetərincə istifadə edən Heydər Əliyev Fondu nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində bütün vasitələrdən səmərəli istifadə etmişdir. Təhsildə müasir informasiya texnologiyalarının tətbiqi sahəsində BMT-nin İnkişaf Proqramı ilə Fond arasında imzalanmış saziş də təhsilin inkişafına böyük töhfə vermişdir.

Bu sazişin nəticəsi olaraq, Azərbaycanda kor və görmə qabiliyyəti zəif olanların informasiya və kommunikasiya texnologiyalarına çıxışını təmin edən layihənin həyata keçirilməsinə başlanılmışdır. Azərbaycanda yaşayan 320 min əlilin 40 mini kor və görmə qabiliyyəti




zəif olan şəxslərdir. Bu həssas insanların cəmiyyətə qovuşması, onların informasiya kommunikasiyaları vasitəsilə bilik və məlumat almaları üçün imkanlar xeyli genişləndirilmişdir. Heydər Əliyev Fondunun təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan söz düşəndə, internat məktəblərinin və uşaq evlərinin maddi-texniki bazasının gücləndirilməsini, kimsəsiz uşaqlara mənəvi dayaq olmasını qeyd etməmək mümkün deyil. “Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramı çərçivəsində həyata keçirilən tədbirlər uşaq evi və internat məktəblərində mövcud olan problemləri aradan qaldırmış, uşaq müəssisələri əsaslı şəkildə təmir edilmiş, texniki vasitələrlə təmin olunmuşdur.

2006-cı ildə “Yeniləşən Azərbaycana yeni məktəb” proqramının 2-ci mərhələsinə start verildikdən sonra bu mərhələyə Bakıətrafı qəsəbələrdə yerləşən məktəblər də daxil edildi. Təhsilin inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev Fondu bir daha müasir dünyada hər bir ölkənin inkişafının, onun dünya birliyinə inteqrasiyasının əsasında yalnız mükəmməl təhsilin dayandığını bildirirdi. Məhz bunun nəticəsi olaraq, 2008–2009-cu tədris ilində Fondun təşəbbüsü və dəstəyi ilə ölkədə tikilən yeni məktəb binalarının sayı 237-yə çatdırıldı. Bir sıra məktəblərin

açılışında Mehriban xanımın özü şəxsən iştirak etmişdir. Zövq oxşayan, müasir avadanlıqlarla təchiz olunmuş məktəblər həm təhsilin keyfiyyətinin artmasında, həm də şagirdlərin dərsə marağının yüksəlməsində mühüm rol oynamışdır. Təhsilə belə yüksək qayğı müəllimlərin də böyük həvəslə işləməsinə stimul vermiş, gənc nəslin təlim-tərbiyəsi işində onların fəallığını artırmışdır.

Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələr sırasında "Təhsilə dəstək" layihəsi də mühüm yer tutur. Birbaşa tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş bu proqram məktəblərin əyani vəsaitlə və şagirdlərin dərs ləvazimatı ilə təmin olunmasına yönəldilib. Hər il keçirilən silsilə aksiyalar təhsil sahəsində qarşıya çıxan bəzi problemlərin aradan qaldırılmasında öz müsbət təsirini göstərib. 2004-cü ildən başlayaraq hər il qaçqın və məcburi köçkün ailələrinin ilk dəfə məktəbə qədəm qoyan uşaqlarına məktəbli çantaları və dərs ləvazimatı Fondun dəstəyi ilə hədiyyə olunub. 2008-2009-cu tədris ilində isə Heydər Əliyev Fondu tərəfindən ölkədə 130 min birinci sinif şagirdinə 16 adda məktəbli ləvazimatı ilə təmin olunmuş çanta paylanılmışdır. Bu uşaqlar ilk dəfə sinif otaqlarına daxil olanda partaların üzərində təzə çanta və dərs ləvazimatları görmüşlər. Bu, fondun körpə balalara – birinci sinif şagirdlərinə hədiyyəsi idi.

"Təhsilə dəstək" layihəsində milli azlıqların təhsilinin inkişafına da diqqət nəzərdə tutulub. Bu layihə çərçivəsində Qax rayonunun Qax-İngiloy kənd orta məktəbinin birinci və ikinci sinif şagirdlərinə gürcü dilində nəşr olunmuş yeni dərsliklər və məktəb ləvazimatı təqdim edilib. Uşaq tərbiyə müəssisələrinin müasir tələblər səviyyəsində yenidən qurulması da "Təhsilə dəstək" layihəsində öz əksini tapıb.

Heydər Əliyev Fondunun təhsilin inkişafına qayğısının coğrafiyası daha da genişlənərək ölkə hüdudlarını da aşmış, bir çox dövlətləri əhatə etmişdir. Gürcüstanda yaşayan azərbaycanlıların təhsillə bağlı problemlərinin aradan qaldırılması üçün hər il Fond tərəfindən böyük yardım edilməsi, Moskvada fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən davamlı qayğı tərəqqipərvər bir missiya kimi milyonlarla insanın rəğbət hissi ilə qarşılanmışdır. Fondun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın fəaliyyəti qonşu ölkə ilə humanitar və təhsil siyasətinin yeni mərhələyə qədəm qoymasında xüsusi rol oynamışdır. Fondun dəstəyi ilə 2007-ci ildə Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi Avropada geniş əks-səda doğurmuş, dünya azərbaycanlılarının sevincinə səbəb olmuşdur. 2008-ci ilin fevralında Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb Heydər Əliyev



Fondunun köməkliyi ilə yenidən tikilərək şagirdlərin ixtiyarına verilmişdir.

Belə genişmiqyaslı fəaliyyətin nəticəsidir ki, Heydər Əliyev Fondu milli mənafelərə əsaslanan maarifçilik xəttini uğurla davam etdirən təşkilat kimi özünü təsdiqləmiş, çoxşaxəli fəaliyyəti ilə cəmiyyətdə böyük nüfuz və etimad qazanmışdır. Fond əsrin əvvəllərində yaşamış vətənpərvər ziyalılarımızın yeritdiyi fəal maarifçilik təmayülünü inamla reallaşdırır. Bu xoşməramlı missiya isə Azərbaycana gələcək üçün yüksək səviyyəli, intellektual kadrların yetişdirilməsinə, millətin nurlu sabahına təminat verən ocağa çevrilmişdir. Mehriban xanımın təşəbbüsü ilə dünya miqyasında yaxşı bir humanizm platformasına çevrilən təhsil strategiyası Azərbaycan təhsilinin inkişafının beynəlxalq səviyyəyə çatdırılmasına yönəlmişdir.

Fondun təhsillə bağlı həyata keçirdiyi bü müdrik missiya Prezident İlham Əliyevin təhsil sahəsində görülən işlərin məntiqi nəticəsi kimi ümumi təhsil siyasətinin zənginləşməsinə dərin töhfə verməkdədir. Mehriban Əliyevanın diqqətində həmişə öndə dayanan və uğurla həyata keçirilən təhsil islahatları ölkəmizdə demokratik proseslərin inkişafına xüsusi önəm göstərilməsindən, elmin, təhsilin dəyərlərinin dünya səviyyəsinə qaldırılması istiqamətində görülən işlərin uğur-

larını təsdiqləyir. Onun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələr və nəzərdə tutulan proqramların zaman-zaman reallaşması böyük müəllimlər ordusu olan Azərbaycanı qloballaşan dünyanın dəyərlərinə təhsil və elm sayəsinə qovuşdurur.

Heydər Əliyev Fondu qayğıya ehtiyacı olanlara kömək göstərmək, milli-əxlaqi dəyərləri qorumaq, həmçinin dünya ictimaiyyətinin diqqətini Azərbaycan həqiqətlərinə cəlb etmək istiqamətində çox qətiyyətli və israrlı siyasət yürüdür. Müsahibələrinin birində Azərbaycanın Birinci xanımı belə deyir: "İstər UNESCO-nun xoşməramlı səfiri kimi, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi mənə ehtiyac olduğunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Birinci xanım daha sonra deyir: "Mən siyasətlə məşğul olmuram, sadəcə insanlara kömək edirəm. Əgər bunu siyasət adlandırmaq olarsa, buyurun, elə də hesab edin".

Onun gördüyü bu işlər Azərbaycanı yaşatmaq, tanıtmaq, ölkəmizi olduğu kimi dünya panoramasına təqdim etmək siyasətidir. Bu elə bir vətənpərvərlik siyasətidir ki, sivil yolla, mədəni körpülər vasitəsilə həyata keçirilir.

Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində Daun sindromlu şəxslərin reabilitasiya Mərkəzi, Xüsusi qayğıya eh-



tiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, "Neftçilər" xəstəxanasında Cərrahiyyə və orqan transplantologiya Mərkəzi, Psixo-nevroloji uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Heydər Əliyev Fondu uşaqlarla yanaşı, gənclərin problemlərinə də həssas yanaşır, gənclər siyasətinə güclü dəstək verir, onların elmi-intellektual inkişafı və karyera irəliləyişləri istiqamətində geniş layihələr həyata keçirir. Mehriban xanım Əliyeva həm özünün ictimai-siyasi fəaliyyətində, həm də rəhbərlik etdiyi qurumun həyata keçirdiyi bütün tədbirlərdə yetişməkdə olan nəslin sağlamlığını, intellektual və fiziki inkişafını daim diqqət mərkəzində saxlayır. "Gənc nəslə qayğı göstərmək, onların problemlərini həll etmək, istedad və qabiliyyətlərini üzə çıxararaq inkişaf etdirmək tək dövlətin və ya hansısa qurumun vəzifəsi deyildir. Bu, bizim hər birimizi hər gün narahat etməli olan məsələyə, gündəlik fəaliyyətimizin bir hissəsinə çevrilməlidir" – deyən xanım Əliyeva adı çəkilən istiqamətdə həyata keçirdiyi tədbirlərlə sadəcə bütün insanlara nümunə göstərir. Davamlı olaraq gənclərlə bağlı forum və konfranslar təşkil edən Fond bu siyasəti ilə Azərbaycan gəncliyinin hamisinə çevrilmişdir.

Gənclər onun himayəsi ilə saysız-hesabsız naliyyətlər əldə etmişdir. Azərbaycanın inkişafının təkanverici qüvvəsi olan gənclər Mehriban Əliyevanın dəstəyi ilə





beynəlxalq səviyyədə layihələrə qoşulur, uğurlar qazanırlar. Ölkəmizin təkanverici qüvvəsi olan gənclər çətin məqamlarda onun köməyi ilə ən mühüm proqramları uğurla gerçəkləşdirirlər. Dini və irqi ayrıseçkiliyin qarşısının alınması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsinə Azərbaycan gənclərinin də töhfə verməsində Mehriban xanımın xidmətləri böyükdür. O, ISESCO-nun xoşməramlı səfiri kimi, Azərbaycan gənclərinin sivilizasiyalararası dialoqun möhkəmləndirilməsi işində fəal iştirakına geniş imkanlar yaratmışdır. Avropa Şurasının gənclərlə bağlı xüsusi qurumu Azərbaycan gənclərinin ictimai fəallığına mühüm önəm verir, əməkdaşlıq üçün imkanlar yaradır, "Gənclər sivilizasiyaların alyansı naminə" təşəbbüsündə ölkəmizin gənclərinin oynadığı rolu hər zaman dəstəkləyir. 2007-ci ilin noyabr ayının 1-2-də Bakıda keçirilən "Gənclər sivilizasiyaların alyansı naminə" beynəlxalq konfrans da məhz bu uğurlu və məqsədyönlü siyasətin nəticəsi idi.

Bu gün Azərbaycan gənclər hərəkatının bütün üzvləri Mehriban Əliyevanı özünə yaxın dost, arxa-dayaq hesab edir. Mehriban xanım Azərbaycan gəncliyinin, istedadlı gənc nəslin elmi axtarışlarına, nailiyyətlərinə xüsusi diqqətlə yanaşır, onlara elmi yaradıcılıq işlərində, ixtiralarında qayğısını əsirgəmir. Azərbaycan elminin gələcəyi olan bu nəslə hərətərəfli dəstək göstərilməsi üçün lazım olan bütün tədbirləri görür. 2018-ci il aprelin 13-də Azərbaycanın Birinci vitse-prezi-

denti Mehriban Əliyeva gənc azərbaycanlı ixtiraçılar – dünyada şöhrət qazanmış Reynerci (Rainergy) startapının təsisçiləri Reyhan Camalova və Zəhra Qasımzadə ilə görüşü də məhz Azərbaycan elminə verilən yüksək dəyər, elmimizin dünyada təbliğində əvəzciz xidmətlər göstərən fəxrlərimizə olan dərin ehtiramın nümunəsi sayıla bilər.

Qeyd edək ki, onlar tərəfindən birgə ixtira edilmiş Reynerci qurğusu "Qlobal Sahibkarlıq Sammiti 2017"də geniş marağa səbəb olub, ABŞ Prezidentinin müşaviri İvanka Tramp tərəfindən xüsusi olaraq qiymətləndirilib. Gənc ixtiraçılarla görüşdə Mehriban Əliyeva Azərbaycanın adını dünyada ucaldan, şöhrətini artıran "İstək" Liseyinin 9-cu sinif şagirdləri Reyhan və Zəhranın uğurlarından qürur duyduğunu bildirib. Birinci vitse-prezident Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda bu cür gənc istedadların olması onu hədsiz dərəcədə ruhlandırır və sevindirir. O, ölkəmizdə bu cür gənc nəslin formalaşması ilə fəxr etdiyini vurğulayaraq, dövlət tərəfindən onların layihəsinə lazımi dəstəyin göstəriləcəyini, ümumiyyətlə, gənc istedadlara və kiçik startaplara daim diqqət yetiriləcəyini qeyd edib.

2019-cu il fevralın 2-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Gənclər Gününə həsr olunmuş



respublika toplantısında iştirak etməsi elmimizin qan damarı olan gənc nəslə olan yüksək diqqətin nəticəsidir. Həmin tədbirdə ölkəmizdə gənclərlə bağlı dövlət proqramlarının qəbul olunduğu, bölgələrdə gənclər mərkəzlərinin, olimpiya idman komplekslərinin açıldığı qeyd edilmiş, ölkəmizdə gənclərlə bağlı müxtəlif mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bildirilmişdir. Prezident İlham Əliyev ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxunaraq onların cəmiyyətin fəal üzvləri olduğunu diqqətə çatdırıb.

Mehriban Əliyeva gənclərin elm və təhsillə yanaşı, ictimai proseslərdə fəal rolunu hər zaman təqdir edir, onlara dəstək olur. 2019-cu il avqustun 5-də Bakıda keçirilən XXXI Beynəlxalq informatika olimpiadasının iştirakçılarına ünvanladığı məktubda dünyanın müxtəlif guşələrindən Bakıya toplaşmış olimpiada iştirakçılarının elm dünyasına verə biləcək xidmətlərini xüsusi vurğulamışdır. Qeyd etmişdir ki, biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya-kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilmişdir. İnformatika iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin



yaradılması isə kompüter biliklərinin rolunu xeyli artırmışdır. Beynəlxalq informatika olimpiadası bu baxımdan qarşınızda yeni üfüqlər açır. Kompüter elmləri üzrə ən mötəbər müsabiqələr arasında özünəməxsus yer tutan bu bilik yarışı arzularınızın gerçəkləşməsi və həyat yolunuzun müəyyənləşməsinə, əlbəttə, ciddi təsir göstərəcəkdir.

Mehriban xanım Əliyeva xüsusilə qeyd etmişdir ki, hazırkı olimpiadanın Azərbaycanda təşkili təsadüfi deyildir. "İnformasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atan ölkəmizdə məktəblilər arasında olimpiada hərəkatı ildən-ilə geniş vüsət almaqdadır. Məktəblilərimiz beynəlxalq olimpiadalarda öz müvəffəqiyyətlərinin davamlı inkişafına nail olaraq, son illər ərzində ümumilikdə yüz altmış medal qazanmışlar. Bu olimpiada günlərində siz, eyni zamanda Azərbaycanın keçmişi, bu günü və zəngin tarixi-mədəni dəyərləri ilə yaxından tanış olmaq, eləcə də yeni-yeni dostlar tapmaq imkanı əldə edəcəksiniz".

Birinci vitse-prezident bildirmişdir ki, olimpiada informatika sahəsində yeni istedadların üzə çıxarılması, gənclərin informatikaya marağının daha da güclənməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcəkdir.

Mehriban xanım üçün doğma və həyatında xüsusi yeri olan təhsil müəssisələrindən biri də İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetidir. Rusiyanın ən nüfuzlu bu təhsil ocağı Mehriban xanım Əliyevanın həyat yolunda işıq saçıb, onun elmi biliklərinin artmasında, tibb elminin incəliklərinə yiyələnməsində aydın yola çevrilib. Həmin Tibb İnstitutunda yüksək səviyyədə ali tibbi təhsil alan Mehriban xanım belə bir təhsil ocağının ənənələrinin Azərbaycanda yaşadılması üçün təşəbbüskarlıq göstərib, böyük əmək sərf edib. Onun bu fədakar əməyi əvəzssiz qalmayıb, Rusiya hökuməti M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakıda filialının açılması təklifinə müsbət yanaşıb. 2015-ci il sentyabrın 15-də İ. M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının açılış mərasiminin keçirilməsi Rusiya–Azərbaycan dostluğu və əməkdaşlığının sarsılmaz nümunəsi olmaqla yanaşı, ölkəmizin elm, təhsil və tibb sahəsində mühüm hadisə kimi yadda qalmışdır.

Seçenov adına BMDTU öz tarixi və ənənələri, məsuliyyət və həssaslıq ab-havası, sağlam mühafizəkarlığı yenilik axtarışları ilə əlaqələndirmək bacarığı ilə məşhurdur. Rusiyanın ictimai, mənəvi və elmi həyatında Seçenov Universitetinin rolu sırf təbabətin hüdudlarını aşıb. Bu universitetin məzunları görkəmli alim-həkimlər, istedadlı həkim-praktiklər, çox məşhur ədəbiyyatçılar, jurnalistlər, ictimai xadimlərdir. Bu gün Azərbaycanda neçə-neçə gənc oğlanlar və qızlar bu təhsil müəssisəsinin kandarından keçir,



öz gələcək peşəsinə doğru ilk addımlar atırlar.

Bu təhsil müəssisəsinin Azərbaycanda filialının yaradılmasında məqsəd Azərbaycanda tibb təhsilinin təkmilləşdirilməsi və bu sahədə dünyanın nüfuzlu ali təhsil mərkəzləri ilə əlaqələrin genişləndirilməsindən, həmçinin ölkə vətəndaşlarının Rusiyanın tibb təhsili müəssisələrində oxumaq arzusunun təmin olunmasından ibarətdir.

Mərasimdə iştirak edən Azərbaycanın Birinci xanımı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyeva bildirib ki, bu hadisə – Seçenov Universitetinin filialının açılması xüsusi məna kəsb edir. "Mən bu universitetdə oxumuşam, bu universitetin fəxri professoruyam və məhz bu ali məktəbin divarları arasında yüksək mədəniyyət, mənəviyyat, mükəmməl peşəkarlıq ruhunda keçirdiyim tələbəlik illərinə, tələbə gəncliyimə görə taleyimdən razıyam. Mən bizə həm fundamental biliklər və peşə vərdişləri, həm də etika, mənəviyyat, humanizm ideyaları aşılamış müəllimlərimə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Deyirlər, universitetlər elm məbədidir. Lakin mənə belə gəlir ki, tibb universiteti həm də şəfqət məbədidir. Təbabət xüsusi peşədir və öz həyatını təbabətə həsr edən

insan fundamental biliklər, praktiki vərdişlərlə yanaşı, həssas qəlbə malik olmalı, başqasının halına acımağı, onun dərdinə şərik olmağı, ağrısını eşitməyi bacarmalıdır".

Ölkəmizin Birinci xanımı qeyd edib ki, Azərbaycan paytaxtında nəinki Rusiyanın, hətta dünyanın ən qocaman və ən nüfuzlu tibb universitetlərindən birinin – Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialının açılmasını genişmiqyaslı və əlamətdar hadisədir: "Seçenov adına BMDTU öz tarixi və ənənələri, məsuliyyət və həssaslıq abhavası, sağlam mühafizəkarlığı yenilik axtarışları ilə əlaqələndirmək bacarığı ilə məşhurdur. Rusiyanın ictimai, mənəvi və elmi həyatında Seçenov Universitetinin rolu sırf təbabətin hüdudlarını aşıb. Bu universitetin məzunları görkəmli alim-həkimlər, istedadlı həkim-praktiklər, çox məşhur ədəbiyyatçılar, jurnalistlər, ictimai xadimlərdir. Bu gün Azərbaycanda neçə-neçə gənc oğlanlar və qızlar bu təhsil müəssisəsinin kandarından keçir, öz gələcək peşəsinə doğru ilk addımlar atırlar. Onlar yüksək səviyyəli müəllimlərdən dərs alacaq, alimlərin mühazirələrini dinləyəcəklər. Onlara dünya şöhrətli alimlər mühazirə oxuyacaqlar. Əminəm ki, burada yüksək səviyyəli təhsil, savadlı həkim-praktiklər və alim-təbiblər pleyadasının formalaşması üçün hər cür şərait yaradılıb".

Mehriban Əliyeva bildirib ki, paytaxtımızda yeni ali məktəbin, xüsusən dünya şöhrətli ali məktəbin filialının açılması



dövlətimizin təhsil və elm sahələrində siyasətini yaxşı əks etdirir. "Tamamilə mübahisəsiz faktdır ki, hər bir dövlətin gələcəyi onun intellektual, elmi, təhsil potensialından asılıdır. Biz gənclərimizi savadlı, bilikli, ölkəmizin uzunmüddətli inkişafını təmin edə bilən gənclər kimi görmək istəyirik. Buna görə də təhsil və elm sahələrinə investisiyalar bizim dövlətimizin siyasətində prioritet istiqamətlərdən biridir. Müstəqillik illərində bu sahədə çox iş görülüb. Təhsil və elm sahələrinin dəstəklənməsi, bu sahələrdə islahatlar üçün müxtəlif dövlət proqramları həyata keçirilir. Əlbəttə, bütün bunlar təbabət kimi mühüm sahəyə də aiddir. Son bir ildə ölkəmizdə, özü də təkcə paytaxtda deyil, regionlarda da klinikaların, tibb mərkəzlərinin, diaqnostika mərkəzlərinin, demək olar ki, hamısı yenidən qurulub və ya yenidən tikilib. Onlar bugünkü bütün tələblərə cavab verən müasir avadanlıqla təchiz edilib. Lakin bunlarla bərabər, biz çox yaxşı başa düşürük ki, tibb xidmətinin keyfiyyəti, ilk növbədə, həkimdən asılıdır. Buna görə də bu gün burada, bizim iştirakımızla baş verən hadisə – bu filialın, ən müasir təhsil proqramlarının, praktiki təbabətdə zəruri innovasiyaların tətbiq edildiyi universitetin filialının açılması, mən əminəm ki, ölkəmizdə təbabətin səviyyəsinə çox yaxşı təsir göstərəcək".

Azərbaycan ilə Rusiya arasında tarixən formalaşmış səmimi və mehriban əlaqələrdən danışan Mehriban Əliyeva bu gün bu təməl üzərində qurulan dövlətlərarası münasibətlərdən, mədəniyyət, elm, təhsil sahələrində əlaqələrdən söz açıb. "Bakıda artıq bir neçə ildir Lomonosov adına Moskva Dövlət Universitetinin filialının fəaliyyət göstərdiyini xatırladan, onun qısa müddətdə çox prestijli ali məktəbə çevrildiyini deyən natiq ümidvar olduğunu bildirib ki, yaxın gələcəkdə Seçenov Universitetinin filialı da öz məzunlarının parlaq pleyadası ilə fəxr edəcək".

Mehriban Əliyeva Azərbaycanın gələcəyi olan, elmimizin qürur və fəxri hesab edilən tələbələrin sevincini də onlarla bölüşür, onların təşkil etdiyi tədbir və mərasimlərə qatılır, gənclərin elmə olan marağının artmasına səbəb olur. Azərbaycanın Birinci xanımının ali məktəbi bitirən məzunlarla görüşləri də ənənə halını alıb, bu cür mərasimlərdə iştirak etməklə həyata yeni addımlarını atan gənclərə xüsusi diqqət göstərdiyini nümayiş etdirir. 2018-ci il mayın 26-da ADA Universitetində keçirilən məzun günündə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı bu ali təhsil ocağını başa vuran məzunların ikiqat sevincinə səbəb olub.

ADA Universitetində tələbə, müəllim və işçi heyətini 46 müxtəlif ölkədən olan insanların təşkil etməsi burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfə verir. Tələbələr bu təhsil ocağında müa-



sir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın 60 aparıcı universiteti ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar. Burada 41 ölkədən 2200 tələbə təhsil alır ki, onlardan da 85 faizi bakalavr, 15 faizi isə magistr pilləsindədir. Təhsil müəssisəsində ictimai və beynəlxalq münasibətlər, biznes, informasiya texnologiyaları və mühəndislik fakültələri fəaliyyət göstərir. ADA-da tələbələr bakalavr pilləsi üzrə beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, hüquqşünaslıq, biznesin idarə edilməsi, iqtisadiyyat, kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları, magistr pilləsi üzrə isə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə olunması, MBA, təhsil menecmenti ixtisasları üzrə təhsil alırlar.

Azərbaycanda yeni texnologiyaların tətbiqi müasir iqtisadi inkişafın, dövlət quruculuğunun əsas istiqamətlərindəndir. Bu gün ölkəmizfə innovativ layihələrin tətbiqi genişlənir, müasir İKT vasitələri bütün sahələrdə tətbiq olunur. Birinci vitse-prezident Mehriban Əliyeva dövlət sektoruna ən müasir qabaqcıl texnologiyaların gətirilməsi üçün fəal təşəbbüskarlığını davam etdirir.




Bakıda keçirilən "Müasir texnologiyaların qlobal biznes mühitinə təsiri" mövzusunda tədbirdə bu məsələlərə geniş yer verilmişdir. Qeyd olunmuşdur ki, bu gün Azərbaycanda dünyanın ən güclü IT şirkətləri fəaliyyət göstərir. "Uber", "Airbnb" kimi nəhəng qlobal şirkətlərə çevrilən "startup" təşəbbüsləri artır, bu cür layihələr uğurlu biznes ideyalarının tapılmasında öz müsbət təsirlərini göstərir.

Azərbaycanda vaxtilə kitaba böyük maraq göstərilib, mütaliə sevənlərin sayı isə digər ölkələrlə müqayisədə dəfələrlə çox olub. Mehriban Əliyevanın elmə və təhsilə olan diqqətinin daha bir nümunəsi müasir tipli kitabxanaların yaradılmasıdır. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan yeni və müasir kitab evləri intellektual səviyyəni yüksəltmək, bilik və savad almaq üçün ən mühüm şərt olan mütaliə etmək kimi ənənəni yaşatmaq və gələcək nəsillərə ötürmək kimi vacib məsələyə böyük töhfə verir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan bu cür kitab mərkəzləri həm müasir dizayn elementləri, həm də maddi-texniki bazası ilə fərqlənir. Onların sırasında 2018-ci il avqustun 28-də istifadəyə verilən Bakı Kitab Mərkəzini xüsusi qeyd etmək olar. Prezident İlham Əliyevin və Birinci

xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı keçirilən 2500 kvadratmetrlik Kitab Mərkəzində Azərbaycan və digər dillərdə dünya ədəbiyyatı bestsellerləri, incəsənətə dair nadir albomlar, turistlər üçün bələdçi kitablar, musiqi kitabları və notlar da satılacaq. Burada müxtəlif dillərdə və janrlarda 10 mindən çox adda kitab təqdim olunmaqdadır. Mərkəzdə ümumilikdə, oxucular Azərbaycan dili ilə yanaşı, rus, ingilis, alman, fransız, ispan və ərəb dillərində nəşrlər də əldə edə bilirlər.

Mərkəzin layihəsi üzərində işlənilərkən kitabsevərlərin müxtəlif nəşrlər əldə etməsi ilə yanaşı, burada asudə vaxtlarını xoş keçirmələri üçün hər bir məqama xüsusi diqqət yetirilib. Kitab satışı ilə bərabər, burada "Coffeemood" adlı kafe də fəaliyyət göstərir. Qonaqlar kafedə istirahət edərkən Mərkəzdə təqdim olunan kitab və jurnallarla tanış ola biləcəklər. Beləliklə, şəhər mənzərəsinə açılan pəncərələrin önündə çay süfrəsi arxasında mütaliə kitabsevərlərə xüsusi zövq verir.

Kitab Mərkəzinin qonaqları burada müxtəlif nəşrlərlə yanaşı, "I love Baku" milli brendinin Azərbaycana dair suvenirləri və "Azərmarka"nın məhsullarını da əldə edə bilirlər. Mərkəzdə quraşdırılan monitorlarda yeni kitablar haqqında məlumatlar veriləcək. Eyni zamanda kitabsevərlər sensor ekranlarda mərkəzdə satılan kitablar haqqında da məlumat



almaq mümkündür. Burada ən mühüm yeniliklərdən biri görmə qabiliyyəti məhdud şəxslər, uşaqlar üçün guşələr, müxtəlif ədəbi və mədəni xarakterli təqdimat tədbirlərinin keçirilməsi üçün xüsusi yerlərin təşkilidir.

Bakı Kitab Mərkəzində mütəmadi olaraq müxtəlif kitab təqdimatları, məşhur yazıçılar, şairlər, həmçinin sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri üçün də şərait yaradılıb. Həmçinin, mərkəzdə uşaq və yeniyetmələrdə mütaliəyə marağı artırmaq üçün tanınmış şəxslərin iştirakı ilə oxu günləri, dil kursları və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bakı Kitab Mərkəzinin 3 dildə fəaliyyət göstərən saytı isə oxucuların internet resurslarının köməyilə kitabları sifariş etməsinə imkan yaradır.

Azərbaycanın səhiyyə sisteminin müasir dünya standartları səviyyəsində yenidən qurulmasında, dövlət proqramlarının uğurla həyata keçirilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri danılmazdır. Mehriban xanımın bütün sahələridə olduğu kimi, səhiyyə sektoruna da xüsusi diqqət və qayğısı bu sahədə mühüm keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb olmuşdur. Onun xüsusi diqqət və qayğısı nəticəsində tibb



müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, onlarla tibb müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən müxtəlif proqramlar çərçivəsində xəstəliyə dücar olmuş insanların tamamilə pulsuz müalicəsinə kömək göstərməsi minlərlə insanın şəfa tapmasına səbəb olmuşdur. Bu gün ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı, qaraciyərin köçürülməsi və digər bu kimi mühüm nailiyyətlərə imza atmışdır. Həmin tibb ocaqlarında yüzlərlə xəstə məhz Birinci xanımın yardımı nəticəsində öz sağlamlığına qovuşmuşdur.

Mehriban Əliyevanın səhiyyə sahəsində ən uğurlu addımlarından biri hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə hərtərəfli qayğısıdır. Onun birbaşa təşəbbüsü ilə bu xəstəliyin müalicəsi üçün səhiyyə müəssisələrinə lazım olan ən vacib tibb avadanlıqları, o cümlədən VIII/IX faktor preparatları ölkəmizə gətirilmiş, xəstələrin müalicəsində geniş istifadə olunmuşdur. Bu gün dünyada hemofiliyalı xəstələrin lazımi dərman preparatları ilə təmin edilməsi səviyyəsi 20%-ə bərabərdir. Azərbaycan da bu göstəriciyə çatıb və inkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də tibbi göstərişlər əsasında hemofiliyalı xəstələr müxtəlif növ müalicə alırlar.

## Heydər Əliyev Fondu dünya sivilizasiyasının şah əsəridir

*"Həyatda uğur və məsuliyyət yanaşıdır".*

***Mehriban Əliyeva***

Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə həyata keçirdiyi sosial və humanitar layihələr onun fəaliyyətində mühüm yer tutur. Bu layihələrin iki əsas hədəfi var. Birinci hədəf məktəb və xəstəxanaların tikintisi, dərmanların və zəruri yardımların çatdırılması vasitəsilə köməyə ehtiyacı olan insanlara yardımdırsa, ikinci hədəf Azərbaycanla tərəfdaş münasibətlərdə olan ölkələrə dost əli uzatmaq və bu yolla ikitərəfli əlaqələri daha da üst səviyyəyə qaldırmaqdır.

Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi layihələr Azərbaycanın bütün regionları ilə yanaşı, ölkəmizin hüdudlarından kənarda da uğurla həyata keçirilib. Cibutidə, Bosniya və Herseqovinada, Rusiyada, Gürcüstanda icra edilən layihələr bütün dünyaya Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın simasında Azərbaycan xalqının insanpərvərliyini, nəcibliyini nümayiş etdirir.

Mehriban xanım öz sosial qayğısını, himayəçiliyini, humanizmini Azərbaycandan kənarda, dünyanın hüdudsuz bölgələrində gerçəkləşdirir, bəşər sivilizа-



siyasının tərəqqisinə köməyini əsirgəmir. Onun bir amalı var: bəşər övladı arasında ayrı-seçkilik qoyulmadan birgə humanizmə nail olmaq, multikultural dəyərlərə hörmət etmək. Azərbaycandan kənarda yaşayan soydaşlarımız daim onun diqqət mərkəzindədir. Gürcüstanda, öz tarixi ata-baba torpaqlarında yaşayan 500 min Azərbaycan türkünün təhsili, öz mədəniyyətini qoruyub saxlaması istiqamətində çoxsaylı layihələr həyata keçirilir. Neçə illərdir, Gürcüstan azərbaycanlılarının birinci sinfə gedən uşaqları davamlı olaraq məktəb ləvazimatları ilə təmin edilirlər. Azərbaycan türklərinin gürcü dilini, kompüter texnologiyalarını yaxşı bilməsi üçün çoxlu kurslar açılıb, Fondun dəstəyi ilə bu ölkədə azərbaycanlıların bir sıra musiqi, rəqs qrupları yaradılıb ki, indi onlar millətimizi təkcə Gürcüstan səviyyəsində deyil, beynəlxalq səviyyəli müsabiqələrdə də təmsil edirlər. Soydaşlarımızın yaşadığı bir sıra kəndlərdə məktəblərin, məscidlərin bərpa olunmasına, su xətlərinin çəkilməsinə kömək göstərilir.

Mehriban Əliyeva eyni zamanda Heydər Əliyev Fondunun prezidenti kimi böyük və xeyirxah əməllər sahibi kimi sevilir. Fondun bir çox ölkələrdə (ABŞ, Rusiya, Türkiyə, Rumıniya, Gürcüstan və s.) nümayəndəlikləri fəaliyyət göstərir və

qurum çoxsaylı layihələri ilə artıq təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da böyük işlər görür. Fond Azərbaycanın strateji tərəfdaşı, dostu və qardaşı Pakistanda uşaqların təhsili üçün himayəsini əsirgəmir. Pakistanda icra edilmiş layihələr qardaş ölkənin vətəndaşlarının həyatında silinməz izlər buraxmışdır. Pakistan xalqı neçə illərdir ki, Azərbaycanın Birinci xanımının qayğısı ilə əhatə olunmuşdur. 2007-ci ildə Pakistanda baş vermiş zəlzələ nəticəsində Müzəffərabad şəhərində məktəb tamamilə dağılmışdı. Uşaqlar çadırlarda ağır şəraitdə təhsil alırdılar. Məhz Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu Pakistan qızlarının yüksək səviyyədə təhsil alması üçün dünya standartlarına cavab verən, ən çağdaş texnologiyalarla təmin olunmuş böyük məktəb tikərək istifadəyə verdi. Yüzlərlə gənc müsəlman qızın yaxşı təhsil almasına səbəb olan bu layihənin gerçəkləşdirilməsi humanizmin bariz təntənəsi idi. Pakistanlılar bu yaxşılığı heç vaxt unutmayacaqlarını bildirmişlər, bunu bu gün də həmin məktəbdə təhsil alanların minnətdarlıq duyğularından görmək olar. Məktəbdə 2012-ci ildə əsaslı yenidənqurma və təmir işləri aparıldıqdan sonra bu təhsil müəssisəsinə Mehriban Əliyevanın adının verilməsi də təsadüfi deyil. Çünki pakistanlılar üçün Mehriban xanım nəcib əməllər sahibi olan xeyirxah bir simadır.



2012–2013-cü illərdə Azərbaycanın Birinci xanımının təşəbbüsü ilə Pakistanda səhiyyə, təhsil və humanitar sahələrdə bir sıra layihələrin icra edilməsi, "Edhi Home" kimsəsizlər evləri, "Akbar Care" İnstitutu, "Serebral" iflic klinikası və "Lakki Marvat" uşaq və qadın xəstəxanasında hepatit B virusuna qarşı peyvəndləşdirmə və müayinələrin aparılması, "Saif" Fonduna maddi yardımların göstərilməsi bu ölkəyə qayğının bariz ifadəsidir. Mehriban Əliyevanın Peşəvər şəhərində Dünya Donarlar Gününə həsr edilmiş mərasimdə qan xəstəliklərinin müayinəsi ilə məşğul olan "Həmzə" Xeyriyyə Fonduna xüsusi qanköçürmə laboratoriyası ilə təchiz olunmuş "Suzuki" markalı təcili tibbi yardım avtomobili və minlərlə qanköçürmə paketi hədiyyə etməklə yerli əhalinin qəlbində ən doğma insana çevrildi. Onun bu nəcib keyfiyyətlərini digər layihələrdə də görmək olar. Heydər Əliyev Fondunun Xayber Paxtunxva əyalətində həyata keçirdiyi humanitar layihələr proqramı çərçivəsində Xayber Göz Fondunun nəzdində fəaliyyət göstərən Göz klinikasının yeni blokunun və gözləmə otaqlarının inşası üçün maddi yardım göstərməsi dünyada xeyirxahlığın və mərhəmətin Azərbaycan modelini nümayiş etdirdi. Pakistanda onun dəstəyi ilə həyata keçirilən işlər bununla bitməyib, çoxlu sayda humanitar layihələr, dəstəklər bu gün də davam edir.

Azərbaycanın Birinci xanımının humanistliyinə digər xarici ölkələrə göstərdiyi yardımlar da dəlalət edir. ABŞ, Türkiyə, Rumıniya, Rusiya və başqa ölkələrdə Heydər Əliyev Fondu öz filialları vasitəsilə təbii fəlakətlərdən (zəlzələdən, torpaq sürüşmələrindən, yanğınlardan) ziyan çəkən insanlara yardımlar etməkdədir. Təbii fəlakətlərdən əziyyət çəkmiş Rumıniyaya və Haitiyə Mehriban xanımın təşəbbüsü ilə yardımlar göstərilib. Azərbaycanın terrordan əziyyət çəkdiyini nəzərə alaraq, Heydər Əliyev Fondu 2011-ci ilin sentyabr ayında Fransa Terror Qurbanları Assosiasiyasına maliyyə yardımı etmişdir.

Heydər Əliyev Fondunun möhtəşəm fəaliyyəti dünya ölkələrinin müxtəlif elmi-mədəni, ictimai dairələri ilə yanaşı, mühüm dövlət strukturları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin diqqət mərkəzindədir. Fondun yaradıldığı gündən başlayaraq dünyanın ictimai-humanitar sektorlarında həyata keçirdiyi xoşməramlı layihələr beynəlxalq ictimaiyyətin xüsusi hörmətini və etimadını qazanmışdır. Həmin təşkilatlar Heydər Əliyev Fondunun fəlsəfəsi, sosial iqtisadi sahələrə verdiyi töhfənin əhəmiyyətini nəzərə alaraq faydalı əməkdaşlığa üstünlük verir. Dövlətlərarası Aviasiya Komitəsinin Fonda olan marağı da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Komitə Fondun gördüyü işləri izləyərək qarşılıqlı əməkdaşlıqda maraqlı olduğunu ifadə etmişdir.

Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina 2006-cı ilin iyunun 2-də Heydər Əliyev Fondunda olarkən bildirmişdir ki, belə nüfuzlu təşkilatla yaxından əməkdaşlıq onlar üçün xüsusi maraq kəsb edir.

Heydər Əliyev Fondunun sərgi və ekspozisiyası ilə tanış olan T.Anodina Azərbaycanda gedən nəhəng quruculuq işlərinin miqyasına heyran qaldığını, Heydər Əliyev Fondunun onda zəngin təəssürat doğurduğunu söyləyən qonaq hələ 1991-ci ildə Dövlətlərarası Aviasiya Komitəsinin yaradılmasında Heydər Əliyevin xüsusi rolunu vurğulayıbdır. Fondun prezidenti, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın gördüyü işlərə heyranlığını ifadə edib, Azərbaycanın Birinci xanımının bu fədakar fəaliyyətinin bir çox ictimai təşkilatların rəhbərləri üçün örnək olduğunu nəzərə çatdırıb. Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina Heydər Əliyev Fondunun müxtəlif yöniimlü proqramlarını təqdir edərək qayğıya və köməyə ehtiyacı olanların problemlərinin həlli, uşaq evləri və internat məktəblərində tərbiyə alan uşaqlara, qaçqın və məcburi köçkünlərə yardım, elm. təhsil, səhiyyə və mədəniyyət sahəsində görülmüş işlərin dünyada xeyriyyəçlik missiyasının ən yaxşı nümunəsi kimi qiymətləndirib.



## Milli ideologiyanın və azərbaycançılıq fəlsəfəsinin təbliğatçısı

*"Haqq ədalətdən, ədalət mərhəmətdən yüksəkdir".*

***Əbu Turxan***

Bün gün beynəlxalq birlik respublikamızı regionda sülhü, inkişafı, tərəqqini, səmərəli əməkdaşlıq təşəbbüslərini dəstəkləyən dövlət kimi tanıyır. Azərbaycan yürütdüyü uğurlu diplomatiya sayəsində bədnam erməni lobbisinin məkr və iftira üzərində qurulmuş qərəzli təbliğat siyasətini darmadağın edir. Ölkə rəhbərliyinin "hücum diplomatiyası" sayəsində ermənilərin münaqişə ilə bağlı gerçəklikləri təhrif etmək, dünyanı çaşdırmaq cəhdləri puça çıxır. Ermənistan bu gün dünyada işğalçılıq siyasəti yürüdərək özünü qlobal iqtisadi layihələrdən təcrid edən, bütövlükdə Cənubi Qafqaz regionunun iqtisadi inkişafını ləngidən dövlət kimi tanınır. Təcavüzkar bədnam qonşumuz regionda başqa dövlətin "for-postu" kimi çıxış edir və sülh danışıqlarını süni şəkildə uzatmaqla vaxt udmağa çalışır. Azərbaycanın xaricdəki diasporu, səfirlikləri ilə yanaşı, ayrı-ayrı ictimai qurumların – dərnəklərin, qeyri-hökumət təşkilatlarının, cəmiyyətlərin də bu prosesdə iştirakının intensiv xarakter alması isə çox sevindiricidir. İctimai statusda fəaliyyət göstərməsinə baxmayaraq, milli mənafelərə xidmət edən strateji əhəmiyyətli layihələri uğurla reallaşdıran, cəmiyyətin ciddi rəğbətini və dəstəyini qazanan Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin milli-mənəvi irsinin dünya miqyasında tanıdılması istiqamətindəki ardıcıl və sistemli fəaliyyəti bu baxımdan xüsusi vurğulanmalıdır.

Mehriban xanım Əliyevanın üzərinə götürdüyü məsuliyyətli missiya çoxşaxəli olması ilə diqqəti çəkir. Onun milli həqiqətlərin, ilk növbədə, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü fəaliyyəti bütün ictimai təşkilatlar və cəmiyyət üçün örnək sayıla bilər.

Mehriban xanım Əliyeva, demək olar ki, bütün xarici səfərlərində, keçirdiyi görüşlərdə işğalçı Ermənistanın Azərbaycanın qədim mədəniyyət mərkəzi Qarabağda mədəni irsimizə ciddi ziyan vurmasından, tarixi yerlərimizi bərbad hala salmasından dönə-dönə, faktlarla danışır və dünya ictimaiyyətini erməni terrorçuların vəhşiliklərinə son qoymaq üçün təsirli tədbirlər görməyə çağırır. Mehriban xanım Əliyeva Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda tarixi, mədəniyyət abidələrimizin məhv edildiyini dəfələrlə yüksək tribunalardan bəyan etmişdir: "Tarixi və mədəniyyət abidələrinin qorunması ölkəmiz üçün bir də ona görə vacibdir ki, Azərbaycan əra-

zisinin 20 faizi Ermənistanın işğalı altındadır. Həmin ərazilərdə minlərlə tarixi, mədəniyyət abidələri məhv edilmişdir. Ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var və onların müəyyən hissəsi hələ də çadırlarda yaşayır. Biz bu faktları beynəlxalq ictimaiyyətə çatdırmaqda davam edəcəyik".

Mehriban xanım beynəlxalq tribunalardan Ermənistanın elmi-mədəni soyqırımı siyasətinə də xüsusi diqqət yetirir, işğalçı ölkənin Azərbaycanın təhsil sektoruna vurduğu ağır zərərlərdən bəhs edir. Onun UNESCO-nun təşkilatçılığı ilə keçirilən bir çox konfranslarda elm, mədəniyyət, təhsil sahəsində Azərbaycanın inkişafına mane olan amillərdən biri kimi Ermənistanın işğalçı siyasətini qabartması dünya ictimaiyyətində erməni vandalizmi barəsində yetkin fikir formalaşdırır. Mehriban Əliyeva dəfələrlə bəyan etmişdir ki, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə vurduğu ziyan təxminən 60 milyard ABŞ dolları həcmində hesablanır. Təhsil sahəsinə çox ciddi zərbə dəymişdir. 1000-dən çox təhsil müəssisəsi işğal zonasında qalmış və dağıdılmışdır. Bu gün əraziləri işğal olunmuş rayonlar üzrə 687 məktəb, 61 məktəbəqədər və 31 məktəbdənkənar



tərbiyə müəssisəsi fəaliyyət göstərir. Lakin şəraitin dözülməzliyinə baxmayaraq, məcburi köçkün şagirdlərin təhsilə həvəsi yüksək olaraq qalır. Məhz bunun nəticəsidir ki, məcburi köçkün məktəblərinin məzunları arasında ali və orta ixtisas təhsili ocaqlarına qəbul olunanların sayı digər məktəblərlə müqayisədə heç də aşağı səviyyədə deyildir. Azərbaycan hökuməti məcburi köçkünlərin təhsilinə yüksək qayğı göstərir, onlar üçün yeni məktəblər inşa edir. Məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə tikilmiş orta məktəblərdə minlərlə şagirdin təhsili üçün bütün imkanlar yaradılmışdır.

Azərbaycan torpaqlarının işğalının və Xocalı soyqırımının dünyada tanıdılması Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri olmuş və bu siyasət uğurla davam etdirilməkdədir. Kampaniya ayrı-ayrı insanların, ölkədəki vətəndaş cəmiyyətinin və xaricdəki diaspor təşkilatlarının ermənilər tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımı, Ermənistan rəhbərliyi tərəfindən yürüdülən siyasətin faşist mahiyyəti barədə beynəlxalq ictimaiyyətin məlumatının artırılmasına yönəlmiş sistemli maarifçilik və təbliğat işi aparılması üçün pərakəndə səylərini birləşdirmişdir. Məqsədi həm də Xocalı soyqırımının dünyada tanınmasına, bir gecədə yüzlərlə insanı yalnız azərbaycanlı olduqlarına görə məhv etmiş ermənilərin əməllərinə siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, insanlığa qarşı bu cür cinayətlər barəsində susmağın, başqalarının ağrı-acısına laqeydliyin planetin başqa guşələrində də oxşar faciələrə gətirib çıxarmasını göstərmək olan bu kampaniya Azərbaycan milli ideyasının güclənməsinə də misilsiz töhfə verməkdədir. Canlı şahidlərə malik və qətliam görüntülərini özündə əks etdirən Xocalı soyqırımının müxtəlif ölkələrin parlamentlərində tanıtdırılması və "Xocalıya ədalət" aksiyalarının keçirilməsi erməni lobbisinin fəaliyyətinə ciddi zərbədir və dünya görür ki, özünü "məzlum millət" kimi göstərmək istəyənlər Azərbaycanda əsl soyqırımı törədiblər. İndiyə qədər bu məqsədlə xaricdə müxtəlif tədbirlər, sərgilər təşkil olunmuşdur. Bu gün onlarla ölkədə uğurla həyata keçirilən bu kampaniyaya 120 mindən çox insan və 115 təşkilat qoşulmuşdur. Bu əzmkar fəaliyyətin nəticəsidir ki, son illərdə ondan artıq ölkənin parlamentində Xocalı soyqırımı haqqında qətnamələr qəbul edilmiş, ABŞ-ın 20-dən çox ştatının qanunvericilik orqanı Xocalı faciəsini soyqırımı kimi tanımışdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ən mötəbər beynəlxalq təşkilatların nüfuzlu şəxslərinin diqqətinə Ermənistanın işğalçılıq siyasətinin dayandırılmasını çatdırır, Azərbaycanın mövcud status-kvonun davam etməsi ilə barışmayacağını bəyan edir. Onun NATO-nun




baş katibinin birinci müavini Rouz Gettemüllerin başçılıq etdiyi rəsmi nümayəndə heyətini qəbul edərkən diqqətə çatdırdığı bəyanat olduqca cəsarətli və qətiyyətliliyi ilə yadda qalmışdır: "Azərbaycan dövləti öz suverenliyini və ərazi bütövlüyünü qoruyaraq beynəlxalq hüquq çərçivəsində fəaliyyət göstərir, beynəlxalq-hüquqi təcavüz ilə əlaqədar zəruri normaları implementasiya edir və əks tədbirlər görür". Bu sözlər beynəlxalq ictimaiyyətin diqqətinə Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək üçün təsirli addımlar atmaq qətiyyətinin bir ifadəsi idi. Bu, Azərbaycan dövlətinin öz milli maraqlarını müdafiə etmək, beynəlxalq hüququn prinsip və normalarını dəstəkləmək baxımından qətiyyətli mövqe olmaqla yanaşı, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək üçün digər vasitələrdən istifadə etmək məcburiyyətində qalacağının xəbərdarlığı idi.

Mehriban xanım Əliyeva milli ləyaqətin təcəssümüdür, o, həmişə ölkənin şərəfini qətiyyətlə qoruyur. Onun rəhbəri olduğu Fond Dağlıq Qarabağ münaqişəsində xalqın üzləşdiyi faciələri əyani şəkildə göstərən filmlərin, fotosənədlərin, kitabların, digər kütləvi nəşrlərin çapını və bütün dünyada yayılmasını təmin edir.



Bu məqsədlə müxtəlif internet saytları yaradılır, bir sıra xarici kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə olunur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edərkən erməni vəhşiliyinin davam etməsinə kəskin etirazını bəyan edibdir. "Diqqətinizi Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bir sıra xarici şirkətlərin qanunsuz iqtisadi fəaliyyəti faktlarına yönəltmək istərdim. Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirən 177 xarici hüquqi şəxs aşkar edilib. Bununla yanaşı, 710 xarici vətəndaş işğal olunmuş ərazilərə gəlib" deyərək, Mehriban xanım MDB dövlətlərinin diqqətini Ermənistanın işğal siyasətinin acı nəticələrinə yönəldib.

Azərbaycanın Birinci xanımı qətiyyətlə bildirmişdir ki, beynəlxalq təşkilatlar və xarici ölkələr birmənalı şəkildə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu anlamalıdır. "Ölkəmizin

ərazi bütövlüyünü bütün dünya tanıyıb. Buna görə də bu cür pozuntular, bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulması deməkdir. Bununla yanaşı, son illərdə bu ərazilərdən narkotiklərin becərilməsi və sonradan trafiki üçün istifadə olunması faktları mövcuddur. Bu da sözsüz ki, böyük narahatlıq doğurur. İstər xarici şirkətlər tərəfindən, istərsə də ayrı-ayrı şəxslər tərəfindən bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulmasıdır və bizim dövlətimiz həmin hərəkətlərin dayandırılması və qarşısının alınması üçün bütün qanuni tədbirləri görür və gələcəkdə də görəcək. Əlbəttə, bu cəhətdən biz İnterpolun dəstəyinə çox bel bağlayırıq. Mən bir daha təcrübənizi bölüşdüyünüzə, bizim birgə işimizə görə təşəkkür etmək istəyirəm və əminəm ki, gələcəkdə uğurlu əməkdaşlığımızı davam etdirəcəyik".

Xalqımızın milli faciəsi olmaqla yanaşı, həm də tariximizin qürur səhifəsinə çevrilən 20 Yanvar hadisələrinin ildönümü ilə əlaqədar da Heydər Əliyev Fondu xarici ölkələrdə davamlı şəkildə müxtəlif tədbirlər, konfranslar keçirir. Bu konfranslarda 20 Yanvar faciəsi haqqında məlumatlar verilir, sovet imperiyasının



Azərbaycan xalqının azadlıq və müstəqillik ruhunu sındırmaq üçün bu ağır qətliamı törətdiyi beynəlxalq ictimaiyyətə təqdim edilir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskva şəhərindəki nümayəndəliyinə gələrək sovet rəhbərliyinə açıq etiraz etməsi, Ulu Öndərin ölkəmizin müstəqilliyinin qorunmasında fədakar xidmətləri və 20 Yanvar hadisələrinə ilk dəfə siyasi-hüquqi qiymət verdiyi barədə dünya ictimaiyyətinə geniş bilgi verilir.

Dünyanın ən nüfuzlu ictimai-siyasi xadimlərinin, elmi-mədəni cəmiyyətlərinin tanınmış nümayəndələrinin iştirak etdiyi bu cür tədbirlərdə Mehriban Əliyevanın dəyərli fikirləri olduqca maraq doğurur. Azərbaycanın paytaxtında "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda keçirilən VI Qlobal Bakı Forumunda çıxış edən Mehriban Əliyeva ali ümumbəşəri dəyərləri, bəşəri ideyaları, qarşılıqlı anlaşmanı və sülhü təşviq edən siyasətin faydalarından danışıb.

Mehriban Əliyeva bildirib ki, uzun əsrlər boyu Azərbaycan müxtəlif dinlərin və xalqların nümayəndələrinin birlikdə sülh şəraitində yaşadığı diyar olub. Multikulturalizm və etnik zənginlik ənənələri bizim ən böyük sərvətimizdir. Biz adət-ənənələrimizi qoruyub saxlayırıq və dünyaya açığıq.

## Qadınların himayədarı, idmanımızın şöhrət tacı

*"Xoşbəxt olmaq qabiliyyəti elə özümüzdən asılıdır".*

***Şarlotta Bronte***

Heydər Əliyev Fondu fəaliyyətində insan hüquq və azadlıqlarının qorunmasını, gender bərabərliyini əsas prinsiplərdən birinə çevirmişdir. Qadın və uşaqların məişət zorakılığından müdafiə olunması, zərərli vərdişlərin aradan qaldırılması, erkən nikahların qarşısının alınması və ailədə baş verən zorakılığın uşaqlara təsirinə yol verilməməsi, əhali arasında insan hüquqları və gender bərabərliyi ilə bağlı genişmiqyaslı məlumatlandırma kampaniyasının təşkili Fond tərəfindən həyata keçirilən tədbirlər sırasında mühüm yer tutur. Bu istiqamətdə icra edilmiş layihələr gender bərabərliyinin təmin olunmasında mühüm rol oynamışdır. Mehriban Əliyeva gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Qadınlara qarşı şiddət, psixoloji zorakılıq göstərən və onu cəmiyyətdən kənarlaşdıran cəhdlər onun qətiyyəti sayəsində aradan qaldırılır.

Azərbaycan qadını Mehriban xanımın timsalında öz hamisini, yardımçısını tapmışdır. Birinci xanımın Azərbaycan qadınlarının III qurultayındakı dərin məzmunlu




çıxışı isə ümumilikdə ölkədə qadın hərəkatının dünəni, bu günü və gələcəyi ilə bağlı ən dəyərli fikirləri, tövsiyələri özündə ehtiva etmişdir. Mehriban xanım Əliyeva milli dəyərlərimizin qorunub saxlanmasında qadınların misilsiz xidmətinə diqqət çəkərək qeyd etmişdir ki, Azərbaycanda qadın, ana hər zaman uca, müqəddəs sayılmış, qadın övladlarını vətənpərvərlik, xeyirxahlıq, mərdlik, qonaqpərvərlik, tolerantlıq ruhunda tərbiyə edərək, xalqımıza xas olan bu gözəl xüsusiyyətləri qoruyub saxlamışdır.

Heydər Əliyev Fondunun prezidenti qadınların üzləşdiyi problemlərə həssaslıq nümayiş etdirir, onların cəmiyyətdə fəal və savadlı olmasının əsas yolunu elm və təhsilə yiyələnmələrində görür. Azərbaycan dövlətinin təhsil, elm sahəsində apardığı siyasətin uğurlarına və təhsil sahəsində əldə edilmiş inkişafa baxmayaraq, qadınların öz təhsil hüququnu reallaşdırmasında meydana çıxan müəyyən problemlərdən narahatlığını ifadə edir: "Uğurlarla yanaşı, cəmiyyətimizdə hələ həllini tapmayan problemlər, məsələlər də var. Hesab edirəm ki, biz qurultayda bu məsələləri birgə müzakirə etməli və problemlərin həlli yolunu axtarmalıyıq. Mən bu gün sizin diqqətinizi məni narahat edən iki məsələyə cəlb etmək istərdim. Bunun birincisi təhsilə aiddir.

Azərbaycanda təhsil sahəsində son illər çox böyük işlər görülüb, ölkəmizdə 1300-dən çox yeni məktəb tikilibdir. Bütün məktəblər ən müasir avadanlıqla, kompüterlə təmin olunub, internet şəbəkəsinə qoşulub, ali məktəblərin maddi-texniki bazası yenidən qurulur. Bizim yüzlərlə tələbəmiz dövlətin dəstəyi ilə dünyanın ən qabaqcıl universitetlərində təhsil alır. Bunlar hamısı bizi çox sevindirir. Çünki hər bir ölkənin ən böyük sərvəti onun intellektual potensialından ibarətdir".

Fondun gender bərabərliyinin təmin edilməsində beynəlxalq təşkilatlarla birgə əməkdaşlığı da müstəsna əhəmiyyət kəsb etmişdir. 2008-ci il yanvarın 16-da Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə birgə layihəyə dair sənədlərin imzalanması da bunun bariz nümunəsidir. Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESCO-nun və ISESCO-nun dəstəyi ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu da ümumbəşəri konsolidasiya prosesində qadınların



rolunun araşdırılması, bu yöndə konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva tədbirdə çıxış edərkən bildirmişdir ki, qadınlar cəmiyyətin inkişafında xüsusi rola malikdir. "Bizim seçimimiz dialoqdur. Bizim seçimimiz dözümlülük və hörmətdir. Bizim seçimimiz müxtəliflikdir və qəlblərin, insanların, dinlərin müxtəlifliyidir. Biz ona çalışmalı deyilik ki, hamıya dünyada bir gözlə baxaq. Biz müxtəlifliyi yüksək qiymətləndiririk və çalışırıq onu zənginləşdirək. Bu iki gün ərzində biz bir-birimizi dinlədik, bir-birimizi daha yaxşı tanıdıq, biz öz fikirlərimizi hörmət və anlaşma ilə bölüşdük. Bu, birgəyaşamanın kiçik bir nümunəsidir və biz istəyirik ki, bu nümunə bütün dünyanın digər yerlərində təşəkkül tapsın".

Mehriban Əliyeva Azərbaycan Qadınlarının V Forumunun iştirakçılarına ünvanladığı müraciətdə bildirmişdir ki, bu gün ölkə rəhbərliyi üçün prioritet vəzifə ictimai həyatın bütün sahələrində qadınların fəal iştirakının təmin edilməsidir. Hələ 2000-ci ilin mart ayında Ümummilli lider Heydər Əliyev qadınlara münasibətdə yeni dövlət siyasəti haqqında sərəncam imzaladı. Onun məqsədi qadınların hakimiyyət strukturlarında, biznes və iqtisadiyyatda proporsional təmsil edilməsinə nail olmaq idi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qadınların sosial müdafiəsinin təkmilləşdirilməsi, onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üzrə böyük iş aparılır. Regionlar da daxil olmaqla, bu gün Azərbaycan qadınları bütün sahələrdə – siyasi, iqtisadi, ictimai sahələrdə fəallıq nümyiş etdirir.

Mehriban Əliyevanın qadın hüquqlarının etibarlı şəkildə qorunmasındakı xidmətləri hədsiz dərəcədə böyükdür. Onun beynəlxalq tədbirlərdə gender bərabərliyi barədə səmərəli təklifləri hər zaman aktual və məzmunlu olmuşdur. 2012-ci il iyunun 29-da Bakıda keçirilən Krans Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzusunda plenar iclasda Mehriban Əliyevanın qadın hüquqlarının qorunması sahəsində fəaliyyəti yüksək qiymətləndirilmişdir. Forumda çıxış edən Jan Pol Karteron bildirmişdir ki, Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri olan qadın hüquqlarına hörmət prinsipi regional və qlobal miqyasda xüsusi diqqətə layiq hal kimi müsbət dəyərləndirilməkdədir. Fondun rəhbəri Mehriban Əliyevanın qadın hüquqlarının qorunması sahəsində geniş fəaliyyəti rəğbət doğurmaya bilməz. Onun birbaşa təşəbbüsü sayəsində qadınlar təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində müxtəlif layihələrə cəlb olunur ki, bu da yaxşı bir nümunədir. "Mehriban




Əliyeva dünyada humanitar fəaliyyəti ilə diqqət çəkir, zərurət mövcud olan yerləri nəzərdən qaçırmır". ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri də Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın gördüyü işlərin yüksək səviyyədə qəbul edildiyini bildirmişdir.

Həmin tədbirdə Krans Montana Forumunun ən ali mükafatı – "Prix de la Fondation"nun Mehriban Əliyevaya təqdim edilməsi bir daha Azərbaycanın birinci xanımının fədakar fəaliyyətinə verilən ən yüksək dəyər olmuşdur. Xatırladaq ki, "Prix de la Fondation" mükafatı beynəlxalq səviyyədə fəaliyyəti ilə seçilən və rəğbət qazanan insanlara verilir. Bu sırada qadınlar olanda isə mükafat daha böyük məna və mahiyyət kəsb edir.

Mərasimdə çıxış edən Mehriban Əliyeva Krans Montana Forumundan belə yüksək mükafatı almağın onun üçün böyük şərəf olduğunu və bu mükafatı Heydər Əliyev Fondunun müxtəlif sahələrdə qazandığı nailiyyətlərin tanınmasının bir rəmzi kimi qəbul etdiyini xatırladıb. Penar iclasda çıxış edən Mehriban Əliyeva ölkəmizdə qadınların hüquqlarının reallaşdırılması üçün geniş imkanların açıldığını, gender bərabərliyinin təmin olunması, məişət zorakılığının aradan qaldırılması haqqında qanunların qəbul edildiyini diqqətə çatdırmışdır.

Onun "qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur, qadınlar kişilərlə bərabər hüquqludur" fikri ilə iştirakçılarda maraq doğurmuşdur. Qeyd olunmuşdur ki, cəmiyyətin müxtəlif sahələrində qadınların rolunun gücləndirilməsi, onların öz fəaliyyətləri ilə bu prosesdə iştirakının təmin olunması indi qarşıda duran ən vacib məsələlərdəndir. Bütün bu amillərin həyata keçməsi üçün qadınlara daha çox səlahiyyətlərin verilməsi vacibdir və ən əsası da qadın hüquqlarının qorunması sahəsində beynəlxalq və yerli qanunvericiliyin möhkəmləndirilməsi əsas məqsədlərdən biri kimi qəbul edilməlidir. Bundan əlavə, Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasında qadınların rolu gücləndirilməli, bu sahədə prioritetlər müəyyənləşdirilərkən onların da təcrübəsindən istifadə edilməlidir

Mehriban xanım ad gününü qadınlarla birgə keçirməklə, onların sevincini bölüşməklə fəxarət duyduğunu qeyd edir. 2019-cu ildə 55 yaşını ən həssas sosial qruplardan olan ahıllarla qeyd olunması Birinci xanımın nəcibliyini, ülvi keyfiyyətlərini təsdiq etməklə, bu məsələlərdə də Birinci olduğunu göstərdi. Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bilgəhdəki



Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə baş şəkərək onların vəziyyəti ilə tanış olublar.

Dövlətimiz bu insanlara arxa-dayaq durur, onların ən böyük himayəçisi kimi sosial yaşayışını hərtərəfli şəkildə təmin edir. Ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması məqsədilə ölkəmizdə davamlı tədbirlər həyata keçirilir.

Birinci vitse-prezident Mehriban Əliyeva burada sağlamlığı məhdud insanların yaşayışı ilə maraqlanıb, onlarla söhbət edib. Müəssisə sakinləri ilə görüşdə ahıl insanlar dövlətin onlara diqqət və qayğısından razılıqlarını bildiriblər, rahat yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğulayıblar. Qeyd olunub ki, müəssisənin sakinləri arasında yaradıcı insanlar, müxtəlif sənət sahibləri var. Burada yaşayan ahıllar müxtəlif səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün mütəmadi olaraq konsertlər, bayram şənlikləri təşkil olunur.

Bu sosial xidmət müəssisəsində pensiya yaşına çatmış şəxslərə də xüsusi diqqət və qayğı göstərilir, onlara ən yüksək səviyyədə dövlətin sosial dəstəyi davam etdirilir. 235 nəfər pensiyaçının yaşadığı bu dövlət müəssisəsində Azərbaycan dövlətinin təmin etdiyi hərtərəfli sosial qayğı yaşlı nəslə xüsusi ehtiramın nümunəsinə çevrilibdir.

Mehriban xanım Əliyeva Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından didərgin



düşmüş məcburi köçkün uşaqları ilə yanaşı, internatda təlim-tərbiyə alan uşaqların da problemlərinə biganə qalmır. Heydər Əliyev Fondunun prezidenti qeyd edir ki, bizim bu sahədə xüsusi proqramımız var və bu proqram çərçivəsində ölkəmizdə 30-dan çox uşaq evi və internat məktəbi yenidən qurulub, ən müasir avadanlıqla təmin olunub: “Bu məktəblərdə, bu evlərdə yaşayan uşaqlar daim bizim diqqət mərkəzimizdədir. Mən özüm ölkəmizdə, demək olar, bütün internat məktəblərində və uşaq evlərində olmuşam və bu uşaqların bütün problemləri ilə çox yaxından tanışam. Bu gün məni narahat edən odur ki, son illər internat məktəblərində, uşaq evlərində uşaqların sayı artır. Araşdırmalar göstərir ki, bu uşaqların əksəriyyətinin valideynləri və ya heç olmasa, bir valideyni var. Hətta o qədər də ağır maddi vəziyyətdə olmayan bəzi ailələr də uşaqlarının ailədən kənarda, internatda tərbiyə olunmasını istəyirlər. Fikrimcə, bu, çox həyəcanlı bir faktdır. Çünki heç bir, hətta ən müasir, bütün tələblərə cavab verən internat, uşaq evi heç vaxt ailə mühitini, ailə tərbiyəsini əvəz edə bilməz. Axı, biz azərbaycanlılar üçün əsrlər boyu ailə, uşaqlar müqəddəs olubdur. Ona görə bu faktlar məni çox narahat edir”.

Fondun diqqət mərkəzində olan mühüm sahələrdən biri də idmana xüsusi diqqətin göstərilməsidir. Ölkəmizin müstəqillik qazanmasından elə böyük vaxt ötməsə də, tarixi baxımdan bu qısa müddət ərzində Azərbaycan özünü dünya xəritəsində inkişafda olan, dinamik, müasir ölkə kimi təsdiq edə bilmişdir. Dövlətimizin göstərdiyi qayğı sayəsində Azərbaycan idmanı da yüksək inkişaf səviyyəsinə çatmışdır. Azərbaycanın dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin rəhbərliyi altında bu sahədə aparılan düşünülmüş, məqsədyönlü dövlət siyasəti sayəsində respublikamız Avropanın və dünyanın tanınmış idman ölkələrindən birinə çevrilmişdir.

Son illər ölkəmizdə, bütün sahələrdə olduğu kimi, müasir idman infrastrukturunun yaradılması istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilmiş, yeni idman obyektləri tikilib istifadəyə verilmişdir. Dünyanın qabaqcıl idman ölkələrindən biri olan Azərbaycan hazırda Beynəlxalq Olimpiya Hərəkatının fəal üzvlərindən biridir. İdmanın bütün sahələrinin inkişaf etdirilməsi Azərbaycan Prezidentinin daim diqqət mərkəzindədir. Paytaxt Bakıda və regionlarda inşa edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuş Olimpiya idman komplekslərinin sayı artıq 40-ı ötmüşdür. Mövcud idman komplekslərinin əsaslı şəkildə yenidən qurulması isə beynəlxalq yarışların keçirilməsi üçün ölkəmizin imkanlarını daha da artırır. Azərbaycanda müxtəlif səviyyəli beynəlxalq yarışların keçirilməsi və idmançılarımızın ən mötə-

bər yarışlarda əldə etdiyi böyük uğurlar bunun əyani sübutudur. Heydər Əliyev Fondunun idmanımızın inkişafına dəstək göstərməsi, idman siyasətinə dərin töhfə verməsi sağlam gəncliyin yetişməsində mühüm rol oynamaqdadır.

"İdman sağlamlıq rəmzidir, idman gözəllik rəmzidir, idman milli qürur və milli həmrəylik rəmzidir", – deyən Mehriban xanım Əliyeva idmanın cəmiyyətin həyatında oynadığı rolu yüksək qiymətləndirərək, onun həm də birləşdirici gücünün olduğunu vurğulayır. Azərbaycanın birinci xanımı elm, təhsil, səhiyyə sahələrində fəal olan bir şəxs kimi, idmana qayğı ilə yanaşması baxımından da çoxsaylı uğurların müəllifi olaraq tanınır. Mehriban xanım Əliyevanın 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi ilə bu idman növünün uğurlu inkişafının əsası qoyuldu. Mehriban xanımın əzmkar rəhbərliyi sayəsində Azərbaycan gimnastikasına olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişdi. Federasiyanın yeni seçilmiş rəhbərliyi ilk növbədə ölkə gimnastikasının imkanlarını öyrəndi.

2002-ci ilin sonunda Azərbaycan Gimnastika Federasiyası öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirdi. Bu istiqamətlər respublikada gimnastika bölmələrinin fəaliyyətini gücləndirmək, məşqlər üçün yaxşı şərait yaratmaq, yeni klub və bölmələrin yaradılması, Azərbaycan çempionatının yüksək səviyyədə






təşkili və keçirilməsi, beynəlxalq əlaqələrin qurulması, dünya və qitə federasiyaları ilə əməkdaşlığın gücləndirilməsi, ölkəmizdə bədii gimnastika üzrə beynəlxalq yarışların keçirilməsi, Olimpiya Oyunlarına lisenziya qazanılması, respublikada gimnastika üzrə mütəxəssislərin, məşqçi və hakimlərin yetişdirilməsi, onların öz bilik və bacarıqlarının təkmilləşdirilməsi, regionlarda gimnastika bölmələrinin yaradılması, yalnız bədii gimnastikanın deyil, digər növlərin də inkişaf etdirilməsi, Azərbaycan gimnastlarının beynəlxalq yarışlarda daha çox iştirakının təmin edilməsi, gimnastikanın maddi-texniki bazasının gücləndirilməsi, gimnastikanın təbliğ olunması idi.

Qarşıya qoyulmuş hədəflərin dəqiqlik və ustalıqla yerinə yetirilməsi nəticəsində tezliklə gimnastika sahəsində mühüm canlanma hiss olunmağa başladı. Respublika çempionatlarının və birinciliklərinin təşkili və keçirilməsindəki çatışmazlıqlar tezliklə aradan qaldırıldı. İdmançıların beynəlxalq səviyyəli yarışlara qatılması üçün şərait yaradıldı. Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkə gimnastikası özünün yeni inkişaf mərhələsinə qədəm qoydu.

Mehriban Əliyevanın fədakar əməyi və idmana qayğısı sayəsində bu gün




paytaxt Bakı gimnastika üzrə dünya cempionatlarının ünvanına çevrilmişdir. Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkə gimnastikası özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Gimnastikaya gətirilən yeni keyfiyyət dəyişiklikləri bu sahənin köklü şəkildə inkişafına imkan yaratmışdır.

2004-cü il dekabrın 28-də Mehriban Əliyevanın Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilməsi ölkəmizin daha bir möhtəşəm uğura imza atması kimi yadda qaldı. Bu gün Azərbaycanın ən böyük və ən gözəl idman məkanlarından biri – Milli Gimnastika Arenası qapılarını bir daha bədii gimnastika peşəkarları və bu idman növünün pərəstişkarlarının üzünə açmışdır. Respublikamızda gimnastikanın bütün növləri üzrə beynəlxalq yarışların keçirilməsi ənənə halını almışdır. Bədii gimnastika üzrə dünya və Avropa çempionatlarının ölkəmizdə uğurla keçirilməsi Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyevanın bu idman növünün inkişafı ilə yanaşı, Azərbaycan idmanının təbliği istiqamətində əldə etdiyi çoxsaylı nailliyyətlərdəndir. O, Azərbaycanı həm də dünyada gimnastika ölkəsi kimi təqdim etməklə, tanıtmaqla qarşısına qoyduğu istənilən məqsədə qısa zamanda ən yüksək səviyyədə çata bildiyini təsdiqləmişdir.

Mehriban Əliyevanın Xəzər rayonunda ən uğurlu layihələrindən biri də Zirə İdman Kompleksinin yaradılmasıdır. Heydər Əliyev Fondunun dəstəyi ilə 2011-

ci ilin oktyabrında tikintisinə başlanılan və 2012-ci il mayın 9-da istifadəyə verilən bu kompleksin Azərbaycanın idman obyektləri sırasında özünəməxsus xüsusi yeri vardır. FİFA-nın tələblərinə cavab verən beynəlxalq idman yarışlarının keçirilməsi üçün ən zəruri infrastrukturlarla təmin edilən kompleks idman zalları, tədris otaqları, məşq avadanlığı, meydança FİFA-nın standartlarına uyğundur.

İkimərtəbəli binanın birinci mərtəbəsində şahmat, dama, boks, güləş, trenajor zalları, məşqçi, paltardəyişmə, həkim otaqları və sanitar qovşaqları, həmçinin ingilis və fransız dillərinin tədrisi üçün linqofon kabinetləri vardır. Burada məşqçi otaqları, trenajor, güləş və boks zalları beynəlxalq çempionatların təşkili üçün əlverişli imkanlar yaradır. 3 min metr məsafədə fiber-optik kabellə internetə qoşulacaq, data şəbəkəsindən, ADSL modem sistemindən ibarət bu idman obyekti beynəlxalq yarışların fasiləsiz canlı yayımına da imkan verir.

Azərbaycanın Birinci xanımının yüksək təşkilatçılıq qabiliyyəti digər mötəbər beynəlxalq tədbirlərin keçirilməsində ona həvalə edilmiş işlərin öhdəsindən ən yüksək səviyyədə gəlməsi, dünya mədəniyyət və idman ictimaiyyətinə göstərdiyi nümunəvi addımlarda da görmək mümkündür. Azərbaycanın "Eurovision" mahnı müsabiqəsində iştirakının təşəbbüskarı kimi çıxış etmiş Mehriban xanım Əliyeva bu musiqi yarışması vasitəsilə Azərbaycanın və onun



musiqisinin dünyada tanıdılmasına xüsusi səy göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il "Eurovision" mahnı müsabiqəsinin təşkili və keçirilməsi haqqında müvafiq sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinə rəhbərlik edən Mehriban xanım Əliyeva bu musiqi yarışmasının Azərbaycanda ən yüksək səviyyədə keçirilməsinə nail olmuş və ölkəmizin müxtəlif məzmunlu beynəlxalq tədbirlərin təşkilində qabaqcıl dövlətlərdən birinə çevrildiyini bir daha sübut etmişdir.

Mehriban Əliyevanın mədəniyyət və idman sahəsində xüsusi təşkilatçılıq istedadı dünya ictimaiyyəti tərəfindən müsbət qarşılanmış və ona bir çox mühüm beynəlxalq yarışların keçirilməsi etibar edilmişdir. Mehriban xanım hər dəfə bu etimadı yüksək səviyyədə yerinə yetirmiş və dünya idman təşkilatlarının nüfuzlu şəxsləri onunla əməkdaşlığın verdiyi mühüm töhfələri xüsusi qeyd etmişlər.

Birinci xanımın idmanın inkişafı və populyarlaşdırılması, eləcə də dünya ölkələrinin idman əlaqələrində yeni səhifənin açılmasında böyük rol oynayan ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi uğurlu fəaliyyəti xüsusi əhəmiyyət kəsb etmişdir. 2012-ci il dekabrın 8-də Avropa Olimpiya Komitəsi Baş Assambleyasının 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul etməsi də Azərbaycana olan



dərin inam və etibarın nümunəsi idi. İlk Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradılması və Mehriban Əliyevanın sədr təyin edilməsi də təsadüfi deyildi. Mehriban xanım bu işlərin əsl peşəkar təşkilatçısı olduğuna üçün bu ağır və məsuliyyətli iş məhz ona həvalə edildi.

Ölkəmiz 2 ildən çox davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi. Bu tipli oyunların keçirilməsinin təşkilinə 7-8 il vaxt verilsə də, Azərbaycanın Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il yarım vaxtı vardı. Olimpiadanın keçirilməsində artıq böyük təcrübə mövcuddur və Beynəlxalq Olimpiya Komitəsi, demək olar ki, hər bir sahə üzrə öz göstərişlərini verir. Mövcud təlimatlarda hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var. I Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yox idi. Belə olan halda, bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın üzərinə düşürdü.

Bu müddət ərzində Bakıda yeni infrastrukturun yaradılması və Oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi hazırlıq işlərini müəyyən edilmiş vaxtda yüksək səviyyədə başa çatdırdı. Mehriban Əliyevanın başçılıq etdiyi Təşkilat Komitəsinin apardığı gərgin və məqsədyönlü işin səmərəsi göz önündə idi. Avropa Oyunlarının keçiriləcəyi idman qurğularının tikintisi və təkmilləşdirilməsi işi dünya standartlarına uyğun və yüksək keyfiyyətlə aparılmışdı. Cəmi iki il yarımdan da az vaxtda 5 yeni idman kompleksi tikilərək istifadəyə verildi. Bunlar Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Su İdmanı Sarayı və Veloparkdır. Yarışların keçirildiyi digər idman qurğuları isə tamamilə yenidən quruldu, ən müasir standartlara uyğunlaşdırıldı. Qısa müddətdə bu qədər işin görülməsi, həqiqətən, gərgin və fədakar zəhmət tələb edirdi. Lakin ölkəmiz ən yüksək formada bunun öhdəsindən gəlməyi bacardı.

Bakıda yeni infrastrukturun yaradılması və Oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Təşkilat Komitəsi hazırlıq işlərini yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza ata bilmişdir. Bütün bu və ya digər məsələlər Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının Bakıda keçirilən iclaslarında da geniş müzakirə olunmuşdu. Ümumilikdə bu toplantıların əsas məqsədi görülən işlərin hesabatı, tədbirdə iştirak edən pe-




şəkar insanlarla təcrübə mübadiləsinin aparılması, yeni ideyaların, məsləhətləşmələrin əldə olunması idi.

Bu uğurların qazanılmasında, sözsüz ki, Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın xüsusi rolu vardı. Prezident İlham Əliyevin dediyi kimi, Təşkilat Komitəsi tərəfindən hər bir xırda məsələ ilə bağlı işlər yüksək səviyyədə görülmüş, Mehriban Əliyeva isə bu Oyunların keçirilməsinə çox böyük töhfə vermişdir.

Birinci xanımın əzmkar fəallığı və nüfuzu sayəsində Bakıda möhtəşəm şəkildə təşkil olunmuş və keçirilmiş ilk Avropa Oyunları Avrasiya məkanında Avropa idmanına yeni Azərbaycan impulsu vermiş, ölkəmizin Avropa dəyərləri ölçüsündə nəyə qadir olduğunu bariz şəkildə göstərmiş və beynəlxalq reytinqini daha da artırmışdır.

Bütün bu uğurları nəzərə alan dövlətimizin başçısı Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inki-

şafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban xanım Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif etdi.

2016-cı il yanvarın 21-də "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə qurumun ən yüksək mükafatı olan Ali Orden təqdim edilməsi ona gösrərilən böyük etimad nümunəsi idi. Bu, həm də Azərbaycanın dünyada nümunəvi idman ölkəsi olmasının əyani təcəssümü idi.

Mehriban xanım Əliyevanın "Bakı-2015"də başlatdığı uğur estafeti "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında da davam etdi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qarşıya qoyulan vəzifələri uğurla həyata keçirdi. Ölkə rəhbərliyinin diqqət və qayğısı, Təşkilat Komitəsinin yüksək professionallığı sayəsində İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsinə lazımi şərait yaradıldı. Təşkilat Komitəsinin 2 il ərzində məqsədyönlü fəaliyyəti nəticəsində Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlandı və digər zəruri təşkilati tədbirlər həyata keçirildi.



ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsini və tədbirin Təşkilat Komitəsinə Mehriban Əliyevanın başçılıq etməsini təqdirəlayiq hadisə kimi qiymətləndirərək qeyd etmişdir ki, "bu Oyunların yüksək təşkili sayəsində İslam Əməkdaşlığı Təşkilatının üzv ölkələrinin gənc iştirakçılarını bu idman tədbirləri çərçivəsində birləşdirmək və sağlam rəqabətini təmin etmək mümkün olmuşdur". Müsəlman ölkələrinin federasiya nümayəndələri, ən yaxşı idmançıları, şəhərimizin qonaqları Bakıda aparılan hazırlıq işlərindən, onlar üçün yaradılan ideal şəraitdən, insanlarımızın qonaqpərvərliyindən, bir-birindən modern idman arenalarından, xüsusən də təntənəli açılış və bağlanış mərasimlərindən heyrətə gəlmişdilər.

IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ərəfəsində isə Azərbaycan gimnastikası adına daha bir xoş xəbər gəldi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva Beynəlxalq Gimnastika Federasiyasının (FIG) yüksək mükafatı ilə təltif olundu.

Mehriban xanımın idman sahəsində göstərdiyi xidmətləri nüfuzlu idman xadimləri, beynəlxalq idman ictimaiyyəti



yüksək dəyərləndirir, onun təkcə, Azərbaycan idmanı və çempionatlarında deyil, beynəlxalq idman yarışlarının təşkilindəki nümunəvi təşkilatçılıq qabiliyyəti xüsusi vurğulanır. 2017-ci il sentyabrın 29-da Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı zamanı səslənən fikirlər Azərbaycanın Birinci xanımının idmana verdiyi töhfə xüsusi vurğulandı.

Avropa Olimpiya Komitəsinin icraçı prezidenti Janez Koçijançiç çıxışı zamanı Bakıda Birinci Avropa Oyunlarının keçirilməsi zamanı göstərilən yüksək təşkilatçılıq yüksək dəyərləndirildi. Avropa idman hərəkatına, Avropada Olimpiya Hərəkatına Azərbaycanın Birinci xanımının verdiyi böyük töhfə xüsusi vurğulandı. Eyni zamanda Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer də Avropa və dünya çempionatlarını, müxtəlif idman tədbirlərini bu cür yüksək səviyyədə təşkil etdiyinə görə Prezident İlham Əliyevə və Mehriban xanıma dərin minnətdarlığını ifadə etmişdir.

Həmin mərasimdə Janez Koçijançiç Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci xanım Mehriban Əliyevaya MOK-un yaranmasının 25 illik yubileyi münasibətilə Avropa Olimpiya Komitələrinin xüsusi mükafatlarını təqdim etmişdir.

2019-cu il iyulun 21-də Azərbaycanın paytaxtında keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalı növbəti dəfə Azərbaycanın dünyada idman şöhrətini nümayiş etdirdi və Bakını dünyanın idman ictimaiyyətinin diqqət və rəğbətinin qazanmasına səbəb olmuşdur.

Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Komitələrinin (AOK) qürur mənbəyidir. Bu festival 14–18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Tək illərdə, iki ildə bir dəfə keçirilən qış və yay festivalları da var. Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival Olimpiya zirvəsinə bir yüksəliş olacaq. Avropa Gənclər Yay Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların Olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya Oyunlarına bir qapıdır.

Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki fes-



tivalda 43 ölkənin idmançıları mübarizə aparıblar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb. 1997-ci ildə İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başlayıblar. 1999-cu ildə Danimarkanın Esbyerq şəhərində keçirilmiş festivalda üç bürünc medal qazanan komandamız 2001-ci ildə İspaniyanın Mursiya şəhərində 2 gümüş və 2 bürünc, iki il sonra Parisdə 2 gümüş və 1 bürünc, 2005-ci ildə İtaliyanın Linyano şəhərində 2 qızıl və 4 bürünc medala sahib olub. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atıb. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutub.

2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhərində keçirilən festivalda isə 1 gümüş və 1 bürünc medal qazanılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən Avropa Gənclər Olimpiya Festivalının yüksək sə-

viyyədə təşkil olunduğunu qeyd edirlər. Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç Bakının əvvəlki turnirlərdə olduğu kimi, bu festivala da uğurla ev sahibliyi edəcəyini vurğulayaraq deyib: "Bakı festivalın təşkilinə tam hazırdır. Şəhər yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil. Bakı özündə digər əsas komponentləri – yüksək təşkilatçılıq, həvəs və səmimiliyi birləşdirir. İnanıram ki, XV Avropa Gənclər Yay Olimpiya Festivalı böyük müvəffəqiyyətlə keçəcək".

"Baku Crystal Hall"da keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimində Avropa Olimpiya Komitələrinin prezidenti cənab Yanes Kosyançiç tərəfindən bildirilib ki, Azərbaycan yüksək idman nailiyyətlərinə malik bir ölkədir. Azərbaycan ən mötəbər beynəlxalq idman tədbirlərinin, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-Pri yarışlarının keçirilməsində kifayət qədər böyük təcrübəyə malik bir ölkədir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu silsilədən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədri olduğu Təşkilat Komitəsinin rəhbərliyi ilə Bakı şəhərində keçirilmiş ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq miqyaslı idman tədbirləri yüksək peşəkarlığı ilə bütün dünyada əks-sədaya səbəb olmuşdur. Yanes Kosyançiç qeyd edib ki, Azərbaycanın təşkilatçılıq bacarığı dünyaya nümunədir. "Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və Olimpiya medalçıları üçün əsl sınaq meydanıdır.

Bu, sizin üçün çox az sayda istisnalarla çox idman növlü ilk Olimpiya təcrübəsidir. Bu, sizdə idmanın inkişafında yeni səhifənin açılması deməkdir. Burada sizin bacarığınızı nümayiş etdirmək üçün nadir şans var. Bu şans göstərir ki, siz yarışlarda qələbəyə qadirsiniz və ola bilsin ki, digər Avropa ölkələrində sizinlə həmyaşıd olan qız və oğlanlardan daha yaxşısınız. Bu, həmçinin Avropada idmançıların yeni nəslinin Olimpiya idealları, bütün xalqlar arasında sülh, dostluq və əməkdaşlıq amalları, bütövlük, inklüzivlik, həmrəylik, düzgünlük və ədalətli oyun ideyaları ilə formalaşdırılmasını sübuta yetirmək fürsətidir".

## "Tolerantlıq Azərbaycanın həyat tərzidir"

***Mehriban Əliyeva***

Azərbaycanın Birinci xanımı nəcib, humanist və insanpərvər xarakterlə cəmiyyətdə mənəvi aşınma yaradan, eləcə də saf və ali dəyərləri ucuzlaşdıran mənfi meyillərə qarşı barışmaz mövqe tutur, insanlığın təntənəsinə xidmət edən nəcib təşəbbüsləri ilə həm də sivilizasiya-

lararası dialoq prosesinə öz töhfəsini verir. Son illərdə məhz Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESCO-nun iştirakı ilə Bakıda təşkil olunmuş yüksək səviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, qadın hüquqlarının qorunması, savadsızlığın, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Azərbaycanın Birinci xanımı sülh və tolerantlığın yayılması, bütün dünyada humanist dəyərlərin bərqərar olması üçün müntəzəm tədbirlər həyata keçirir. Hələ 2005-ci ildə Parisdə UNESCO-nun 60 illiyinə həsr edilmiş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində çıxış edən Mehriban xanım Azərbaycanın qlobal mədəni dialoqa töhfəsini verməyə hazır olduğunu ayrıca ifadə etmiş, respublikamızın Şərqlə Qərbin qovşağında yerləşən ölkə kimi bunun üçün geniş imkanlara malik olduğunu vurğulamışdır. 2008-ci il iyunun 10-11-də Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilmiş mötəbər tədbirin təşkili, 2009-cu ildə isə Bakının "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi, 2011-ci il aprelin 7-8-də paytaxtımızda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkili və mədəniyyətlərarası dialoqa həsr olunmuş bir neçə möhtəşəm beynəlxalq tədbirə Bakının ev sahibliyi etməsi Azərbaycan Prezidenti ilə yanaşı, Mehriban xanımın da yorulmaz və əzmkar fəaliyyətinin nəticəsidir.

Mehriban xanım dünya səviyyəli ictimai xadim, qlobal miqyaslı xeyirxah təşəbbüslərin müəllifidir. Onun dünya mədəni irsinə olan böyük ehtiramının nəticəsidir ki, Heydər Əliyev Fondu dünyada sivilizasiyanın ən nadir incilərinə, zəngin dünya tarixi abidələrinə dəstəyin və yardımın ünvanı hesab edilir. Bu gün dünya ictimaiyyəti Mehriban Əliyevanı bəşəriyyət tarixinin maddi-mədəni sərvətlərinə həssaslığını, qayğıkeşliyini, sonsuz ehtiramını öz real əməli və əməyi ilə təsdiqləyən xanım lider kimi qəbul etməkdədir. Onun müxtəlif mədəniyyətlərə aid olan abidələrin təmirinə və bərpasına yaxından dəstəyi dünya ictimai-mədəni həyatında nümunəvi addım kimi təqdir olunur. Bakıdakı Müqəddəs Məryəm kilsəsinin yenidən qurulması, Strasburq kafedral kilsəsinin, Luvr muzeyinin, Versal sarayının, II Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində qorunan orta əsr əlyazmalarının, Vatikanda Roma katakombalarının bərpası və Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmiri məhz Azərbaycanın Birinci xanımının əməyi sayəsində mümkün olmuşdur.

Dünya tarixinin bu xəzinələrinin öz keçmiş möhtəşəliyinin bərpa olunmasında məhz Mehriban xanımın əl izləri vardır. Onun bu qədirbilənliyi, xeyirxah-



lığı, dünya irsinə dərin hörməti sülpərvər dünya ictimaiyyəti tərəfindən rəğbətlə, hörmətlə, yüksək minnətdarlıqla qarşılanır. Onun dünya tarixi və mədəniyyətinə verdiyi töhfələr beynəlxalq təşkilatların ali mükafatları ilə dəyərləndirilir. Mehriban xanım Əliyevanın sülhpərvər təşəbbüsləri, dünya xalqlarının dəyərlərinə ehtiramının yüksək həqiqi ifadəsi, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsindəki xidmətləri yüksək qiymətləndirilərək UNESCO-nun "Qızıl Motsart" medalına layiq görülməsi bir daha dünyanın humanizm və mərhəmət carçısı olan Azərbaycanın Birinci xanımına sayğının böyük təzahürü hesab edilə bilər.

Birinci xanımın çoxşaxəli fəaliyyətinin ölkəmizdən kənarda rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədərdir. O, əzmkar fəaliyyəti ilə milli-mənəvi dəyərlərin, qeyri-maddi irsin dünya miqyasında təbliği ilə yanaşı, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır. Mehriban xanım Əliyeva fərqli milli mədəniyyətləri, dəyərləri bir araya gətirərək, ümumilikdə, dünyanın xilası uğrunda mətanətlə fəaliyyət göstərənlərin ön cərgəsində dayanmışdır. O, bu sırada üzərinə düşən ali missiyanı uğurla,

ürəkdən, həm də daha təsirli vasitələrlə həyata keçirməkdədir.

Mehriban xanım tolerantlığın carçısıdır, sülh və əmin-amanlığın missiyaçısıdır. Onun fəaliyyət kredosunda insanların sülh və bərabərlik şəraitində yaşamasını təşviq edən siyasət qırmızı xətt kimi keçir. Azərbaycanda əsrlər boyu müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını diqqətə çatdıran Mehriban Əliyeva xalqımızın bu tolerantlığı, dözümlülük ab-havasını, əmin-amanlığı çox yüksək qiymətləndirir. Hazırda dünyada qloballaşmanın yeni təzahürləri dövlətlərin sıx humanitar birliyində özünü göstərir. Məhz bu baxımdan, sivilizasiyalararası dialoq, multikulturalizm meyilləri hər il dərinləşir, humanitar forumların keçirilməsi böyük əhəmiyyət kəsb edir. Multikulturalizm ölkələrin qarşılıqlı hörmət və sıx əməkdaşlıq mühitinin yaranmasında vacib bir amilə çevrilib. Azərbaycan multikulturalizmə böyük önəm verir və son iyirmi il ərzində müstəqil ölkə kimi həyata keçirilən siyasətin əsas təməllərindən biri də məhz dünya ölkələri ilə humanitar əməkdaşlığı gücləndirməkdən ibarət olub. Regionda sabitliyin və qarşılıqlı həmrəyliyin, əməkdaşlıq şəbəkəsinin gələcəyi multikulturalizmdən çox asılıdır. Çünki multikulturalizmin alternativi özünütəcriddir. Özünütəcrid isə mənfi fəsadlara yol açan meyillər sayıla bilər. Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir.

Azərbaycanın Birinci xanımının izi, şəksiz ki, diplomatiya dünyasında da özünə yer qazanıb. O, sivilizasiyaların qlobal dialoquna həqiqətən də müstəsna töhfə verib. Mehriban xanım Qərbdə Şərqin qeyri-rəsmi elçisidir və klassik Qərb dəyərlərinin "vətəni" olan Avropanı Asiyada və öz vətənində təmsil edir. Birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Avropada islam-xristian dialoqunda böyük rol oynamağa başlayıb. Vatikanın tarixində ilk dəfədir ki, müqəddəs xristian abidələrinin bərpasına müsəlman ölkəsində fəaliyyət göstərən bir təşkilat kömək edir. Azərbaycanın özündə Fondun təşəbbüsü ilə katolik və pravoslav kilsələri, sinaqoq təmir edilir.

Dövlətimizin öz üzərinə götürdüyü sivilizasiyalararası körpü rolu o qədər də sadə məsələ deyil. Baxın, tarixən mədəniyyətlərin və sivilizasiyaların "qovuşduğu yer" kimi inkişaf edən bir regionda – Yaxın Şərqdə indi nələr baş verir. Praktiki olaraq Yaxın Şərqin heç bir yerində uzunmüddətli sülh yaratmaq mümkün olmur. Azərbaycan tamamilə başqa nümunədir. O göstərir ki, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin platformaları arasındakı sərhəddə əmin-amanlıq hökm sürə bilər.

Son illərdə Bakıda keçirilən Beynəlxalq humantiar forumlar da məhz dünya ölkələrinin əsas müzakirə mövzusu olan multikulturalizmi əhatə edib. Hər bir ölkə bu formulu gələcək üçün mühüm bir siyasi-ideoloji xətt sayır, multikulturalizmlə bağlı yeni çağırışları ortaya çıxarır. Bu gün Azərbaycanın bütün qitə ölkələri ilə möhkəm dostluq və əməkdaşlıq münasibətləri var. Respublikamız müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən sarsılmaz dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant bir ölkə kimi formalaşıb. Müxtəlif qitələrin kəsişməsində yerləşən Azərbaycan həm də müxtəlif mədəniyyətlərin mövcud olduğu və qovuşduğu müqəddəs bir torpaqdır. Həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi, üstəlik formalaşmış və əsrlərin sınağından çıxmış ənənələri baxımından respublikamız dünya mədəniyyətlərini bir araya toplamaq haqqını qazanıb.

Mehriban Əliyeva bir dostluq atmosferası yaratmaqla hamını Azərbaycana dəvət edir, Bakının ən qlobal məsələlərin həll olunduğu, tolerantlığın ünvanına çevrildiyini dünya ictimaiyyətinə bəyan edir. Bildirir ki, tolerantlıq həm Azərbaycan dövlətinin siyasəti, həm də Azərbaycan cəmiyyətinin həyat tərzidir. Bu, Azərbaycanın ən böyük sərvətlərindən biridir və eyni zamanda heç də sabit olmayan dünyaya vacib bir mesajdır.

Azərbaycanın Birinci xanımı dinlərarası dialoq mövzusunda keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısıdır. Bu uğurlu siyasətin nəticəsidir ki, mədəniyyətlər və sivilizasiyalararası dialoq sahəsində keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin statistikasına və coğrafiyasına diqqət yetirdikdə, bu sahədə təşəbbüslərin böyük əksəriyyətinin Azərbaycanda reallaşdırıldığının təsadüfi olmadığını görərik. Mehriban Əliyevanın təşəbbüsü ilə "Azərbaycan tolerantlığın evidir" proqramı bunun ən yaxşı nümunələrindəndir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2015-ci il sentyabrın 8-də "Azərbaycan Parisin ürəyində" adlı layihəsi çərçivəsində Fransanın paytaxtında "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilən konfrans növbəti dəfə ölkəmizin multikultural zənginliyini və sülhpərvər obrazını dünayaya təqdim etmişdir. Bu tədbir dünya birliyinə və Fransa cəmiyyətinə tolerantlığın nə qədər aktual olduğunu bir daha nümayiş etdirdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirak etdiyi həmin tədbirdə dünyəvi məsələlərə Azərbaycanın göstərdiyi xüsusi maraq nümunəvi xarakter daşıyan mükəmməl yanaşma kimi dəyərləndirildi.

Mehriban Əliyevanın konfransda verdiyi mesajlar isə birgə yaşamaq mədəniyyətinin müasir trendlərinin dünyaya tanıdılması baxımından xüsusi əhəmiyyət



kəsb edirdi. Azərbaycanın Birinci xanımı respublikamızın minilliklərlə formalaşan tolerantlıq və dözümlülük ənənələrini müstəqilliyimizi bərpa etdikdən sonra da qoruyub saxlaması, daha da möhkəmləndirməsi sahəsində nümayiş etdirdiyi qətiyyəti, siyasi iradəni dünyaya çatdıraraq regionda zəngin tolerantlıq və təhlükəsizlik məkanı olması haqqında əsl həqiqətləri ortaya qoydu. "Azərbaycan tarix boyu sivilizasiyaların, mədəniyyətlərin, dinlərin qovuşuğunda yerləşib. Ölkəmiz Asiya ilə Avropa arasında təbii bir körpüdür. Əlbəttə, bu coğrafi yerləşmə ölkəmizdəki mədəni müxtəliflikdə də öz rolunu oynamışdır. Əsrlər boyu bu qədim diyarda müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin, etnik qrupların nümayəndələri sülh və əmin-

amanlıq şəraitində bir ailə kimi yaşamışlar", – deyən Mehriban xanım Azərbaycanın dünyada nadir ölkə keyfiyyətlərini bi daha hər kəsin nəzərinə çatdırmışdır.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olmaqla bütün dinlərin nümayəndələrinə dərin ehtiramını öz yürütdüyü siyasətlə təsdiqləmişdir. Respublikamız dünyanın ən qədim məscidləri, kilsələri, dini abidələrinə malik olmaqla çoxəsrlik zəngin mədəni irsin qorunub saxlanmasına nail olmuşdur. Bu, bir daha göstərir ki, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir, burada bütün xalqların, dinlərin, etnik qrupların nümayəndələri birgə qarşılıqlı anlaşma şəraitində yaşayır, eyni hüquqlara malikdirlər. Bunun əsas səbəbi isə Azərbaycan xalqında olan dözümlülük, əsrlər boyu formalaşan sülhpərvərlik və insansevərlikdir.

Dövlət–din münasibətləri Azərbaycanda xüsusi yer tutur. İctimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə və bu gün müasirləşən Azərbaycanda xalqlar qarşılıqlı hörmət və anlayış şəraitində yaşayırlar. Ölkəmizdə bütün dinlər bərabərhüquqludur. Dövlət institutları, biznes, təhsil, səhiyyə sahələrində bütün millətlərin və dinlərin nümayəndələri təmsil olunur. Azərbaycan mentalitetinin daha bir mühüm cəhəti hər kəsin dini hisslərinə olan dərin hörmətdir.

Mehriban xanım Əliyeva digər regionlarda və ölkələrdə də bütün xalqların, dinlərin, etnik qrupların nümayəndələrinin birgə yaşamasını, eyni hüquqlara malik olmasını tövsiyə edir. Bu gün dünyanın müxtəlif bölgələrində dini və irqi ayrı-seçkiliyin artmasından narahatlığını ifadə edir, bu meyillərin dərinləşməsindən təəssüflənir. Ekstremizm və terrorçuluqdan neçə illərdir ki, əziyyət çəkən Azərbaycan da daxil olmaqla bir sıra regionlarda ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərin bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olduğunu vurğulayır. Azərbaycanın qonşu Ermənistan tərəfindən təcavüzə məruz qalmasını, torpaqlarımızın 20 faizinin işğal altında olmasını, bir milyon soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü diqqətə çatdırmaqla Ermənistanın millətlərarası münasibətlərə, dinlərarası dialoqa mane olduğunu göstərir. Digər bölgələrdə də bu tipli hadisələrin yaşanmasından dərin narahatlığını ifadə edən Mehriban xanım dünyanın nüfuzlu ictimai qüvvələrini belə halların qarşısının alınmasında fəal olmağa, qətiyyət göstərməyə çağırır: "Əfsuslar olsun ki, bir çox hallarda Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, münaqişələr, qanlı toqquşmalar baş verir. Bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq. Əlbəttə, bu meyillər, dünyada gedən proseslər bi-



zim hamımızı narahat edir. Lakin bu gün yalnız narahat olmaq kifayət deyil. Fikrimcə, siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təşkilatların və xüsusən də medianın bu məsələlərdə məsuliyyəti art malıdır".

2012-ci ildə Parisdə dünyanın ən böyük muzeyi olan Luvr muzeyində "İslam mədəniyyəti" bölməsi açılmışdır. Azərbaycan bu bölmənin yaradılmasına öz töhfəsini verməklə bütün İslam mədəniyyətinə töhfə vermişdir.

Heydər Əliyev Fondunun Fransada bir neçə iri layihə həyata keçirməsi, 2005-ci ildə Strasburq Kafedral Kilsəsinin bərpasına maliyyə yardımı göstərməsi, Fransanın müxtəlif regionlarında qədim kilsələrin bərpasında iştirak etməsi, Aşağı Normandiya regionunda 20-yə yaxın katolik kilsəsinin bərpasına dəstəyini göstərməsi bir daha sübut edir ki, Azərbaycan sülh, dözümlülük, humanizm dəyərlərinin təbliği və təşviqinə, xalqlararası və dinlərarası əlaqələrin möhkəmlənməsinə böyük töhfə verir.

Dünyanın nüfuzlu ictimai və siyasi xadimləri Azərbaycanın Birinci xanımının dərin məzmunlu və cəsarətli çıxışını alqışlayır, onun timsalında Azərbaycanın multikultural, tolerant imicinin gücləndi-



yini etiraf edirlər. Dini müxtəlifliyi çox orijinal və müdrik formada istiqamətləndirdiyinə görə, Mehriban Əliyevanın missiyasını örnək kimi qəbul edirlər.

Mehriban xanım həmişə qeyd edir ki, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa qadın gözü ilə baxmaq lazımdır. Qadın olan yerdə məhəbbət, hörmət, səmimilik vardır, nifrətə və konfliktə yer ola bilməz. Qadın potensialı dialoqun möhkəmləndirilməsində böyük rol oynaya bilər. 2019-cu il martın 29-da Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirib ki, bu gün Azərbaycanda 65 diplomatik nümayəndəlik, 13 beynəlxalq təşkilat və 4 baş konsulluq fəaliyyət göstərir. Təmsil etdiyiniz ölkələrlə Azərbaycan qarşılıqlı maraq və hörmət əsasında əməkdaşlıq qurub və bu əlaqələr inkişaf etdirilir. Bu gün Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır.

Mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş və Azərbaycanın başladığı “Bakı prosesi”ni xatırladan Birinci vitse-prezident qeyd edib ki, 2008-ci ildə Bakıda ilk dəfə başlanmış beynəlxalq konfrans Avropa Şurasının üzv dövlətlərinin mədəniyyət nazirlərini ümumi narahatlıq doğuran məsələlər ətrafında dialoqa başlamaq üçün İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan həmkarları ilə bir masa arxasında topladı: “Biz “Bakı prosesi” çərçivəsində V Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etdik. Məmnunuq ki, UNESCO həmin mühüm təşəbbüsdə bizim əsas tərəfdaşımızdır”.

Onun adı Azərbaycanın hüdudlarından kənarda da daim təbəssümlə, məmnunluqla xatırlanır. Avropa, Asiya, Amerika, Afrika qitəsinin müxtəlif ünvanlarında bu ad onu tanıyan insanlarda bir mehribanlıq yaranır. Mehriban xanımın nəcib əməlləri onu tanımayanları da tanımağa, humanitar qayğısından pay almağa fürsət verir. Bu gün bir çox ölkədə onun adını daşıyan təhsil və sosial müəssisələrdə Mehriban xanımın xeyirxah obrazını təsvir edən minlərlə insan vardır. Misirin Əl-Obur şəhərində yerləşən məktəbdə hamı Azərbaycanın Birinci xanımı haqqında yaxşı məlumata malikdir. Mehriban Əliyevanın adını daşıyan bu eksperimental məktəb 10 ildir ki, Afrika bölgəsində ən yaxşı təhsil verən ünvana çevrilib. 2009-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş məktəb qısa vaxtda bölgənin aparıcı təhsil ocağına çevrilməyi bacarıb. 1600 şagirdin təhsil aldığı bu təhsil müəssisəsində Mehriban xanımın himayəsi heç vaxt unudulmur, müəllimdən şagirdə kimi hər kəs onun yaratdığı bu ocağı işıqlı məkan hesab edir. Minlərlə şagird burada yüksək təhsil alaraq elmə qovuşur. Məktəbdə xarici dillərin tədrisi yüksək səviyyədə həyata keçirildiyindən, Misirin digər bölgələrindən də şagirdlər bu ünvana üz tuturlar. Azərbaycan məktəbin texniki avadanlıq və dərs vəsaitləri ilə təchizatını son illərdə daha da artırıb və bunun nəticəsidir ki, məktəbdə təhsilin keyfiyyəti digər məktəbləri geridə qoymağa başlayıb. Təbii ki, bu uğur, nailiyyət həm də Mehriban xanımın əməyinin nəticəsidir.

Azərbaycanın iqtisadi inkişafında və ölkədə sosial yüksəlişin təmin olunmasında fəal iştirak edən, milli sosial intibaha öz layiqli töhfəsini verən sahibkarlara dövlətin dəstəyi hər zaman güclü olub, onların geniş və azad fəaliyyəti üçün bütün zəruri tədbirlər görülüb, eyni zamanda sahibkarlıq subyektlərinin daha əlverişli fəaliyyəti və cəmiyyətin aparıcı qüvvəsi kimi mövqeyinin möhkəmlənməsi üçün davamlı işlər həyata keçirilir. Dövlətin yaratdığı bu imkanlardan istifadə edən ölkə sahibkarları bunun müqabilində milli iqtisadi inkişafın sürətlənməsi üçün bütün səylərini ortaya qoyaraq ən iri layihələrin reallaşmasına nail olurlar. Nəticədə dövlət-sahibkar qarşılıqlı münasibətlərinin dərinləşməsi iqtisadiyyatımızın yüksəlişinə güclü zəmin yaradır. Azərbaycan dövləti ölkədə davam edən nəhəng sosial infrastruktur quruculuğunda sahibkarların da iştirakını zəruri hesab edir, sosial sektorla bağlı investisiya layihələrinə milli sahibkarlığın da qoşularaq təşəbbüskarlığını artırmasını istəyir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkəmizdə geniş vüsət alan sosial infrastruktur layihələrində iştirak edən özəl şirkətlərin, milli sahibkarların bu təşəbbüslərə daha aktiv qoşulmasını tövsiyə edir: "Hazırda böyük infrastruktur layihələrinin icrasına cəlb olunmuş

Azərbaycan şirkətlərinin və sahibkarlıq subyektlərinin sosial məsuliyyəti artmalı, işgüzar dairələr sosial layihələrdə fəal iştirak etməlidirlər".

Mehriban xanım Əliyeva hazırda uşaq evlərinin, internat məktəblərinin yenidən qurulması və bərpası sahəsində çoxmiqyaslı işlərin aparıldığını xatırladaraq, "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsində özəl sektorun rolunun artacağına ümid etdiyini bildirmişdir. Qeyd etmişdir ki, dövlət regional inkişaf proqramı çərçivəsində təmirə ehtiyacı olan bütün məktəbləri yenidən qurmağı, ölkədəki bütün təhsil müəssisələrinin, uşaq evlərinin təmirini başa çatdırmağı hədəf seçib. Bu işlərdə dövlətin ayırdığı maliyyə vəsaitləri, investisiya layihələrinin həcmi çoxalacaq, amma bununla yanaşı, bu sosial tədbirlərdə özəl şirkətlərin də fəallığının artması məqsədəuyğundur. Bu məqsədlə özəl sektor və dövlət arasında gözəl işbirliyinin yaradılması daha müsbət nəticələr verə bilər.

Ehtiyacı olanlara əl tutmaq, maddi kömək göstərmək xeyriyyəçilik kimi sosial kateqoriya sisteminə aiddir. İctimai istehsalın və iqtisadi sistemin sosial formasından asılı olmayaraq, dünyanın maliyyə cəhətdən istər qüdrətli, istərsə də zəif ölkələrində sosial ədalət ümumi ədalətin tərkib hissəsi kimi başa düşülməli, tətbiq edilməli, həyata keçirilməlidir. Bu mühüm və xeyirxah fəaliyyətə, insanpər-



vər addıma maraq və meyil daim artırılmalı və sözügedən məsələ mütəmadi xarakter almalıdır. Bununla da xeyriyyəçilər ölkənin, cəmiyyət üzvlərinin maddi rifahının yaxşılaşdırılmasında, dövlətlə birlikdə korporativ (birləşmiş) sosial vəzifənin həllində öz iştirakçılarını təmin etmiş olurlar. Uşaq evlərini təmir etdirmək sahibkarın ən böyük xeyriyyəçilik əməli hesab oluna bilər.

Həqiqətən də belə sahibkarların sayı kifayət qədərdir. Xüsusilə də rayonlarda xeyriyyəçilik edən, insanların sosial həyatına müsbət təsir göstərən layihələrin maliyyələşdirilməsində öz köməyini əsirgəməyən sahibkarlar çoxdur. Həmin sahibkarlar öz vəsaitlərini sərf etməklə məktəblərin sinif otaqlarını təmir etdirir, avadanlıqlarla təmin edir, digər ehtiyaclarına yardımçı olurlar. Eyni zamanda yaşayış yerlərinin qazlaşdırılması, məhəllələrarası yolların təmir edilməsi, yol kənarında elektrik lampalarının asılması, onlarla imkansıza, kimsəsizə yardım bu cür sahibkarların xeyriyyəçilik əməllərinin göstəricisidir. Mehriban xanım Əliyevanın başlatdığı bu missiyanın geniş vüsət alması, xüsusilə də uşaq evlərinin, internat



məktəblərinin yenidən qurulması və bərpası sahəsində aparılan işlərə milli sahibkarların dəstək verməsi ən yaxşı əməl sayılmalıdır.

Heydər Əliyev Fondunun dəstəyi ilə infrastruktur layihələrinin həyata keçirilməsi də ölkəmizin həyatında mühüm yer tutur. Azərbaycanın bütün regionlarında həyata keçirilən infrastruktur layihələri bölgənin sosial-iqtisadi, mədəni həyatında böyük dəyişikliklərə, insanların həyat səviyyəsinin daha da yaxşılaşmasına səbəb olmuşdur. Bu layihələr həm də "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində gerçəkləşən ümumdövlət siyasətinə dəstəkdir. Fondun mühüm infrastruktur layihələri sırasında Qaradağ rayonu Lökbatan qəsəbəsində 20 min sakinin su təminatının yaxşılaşdırılmasına imkan verən su kəmərinin çəkilməsi, Xəzər rayonunun Zirə, Binə, Türkan, Qala və digər qəsəbələrinə yolların inşa olunması, Binə qəsəbəsində yardımçı stansiyanın yenidən qurulması, qəsəbələrin su təchizatının yaxşılaşdırılması, parkların salınmasını qeyd etmək mümkündür. Xəzər rayonu ərazisində yaşıllıqların salınması, məişət tullantılarının yığılması, abadlıq işlərinin aparılması məqsədilə alınmış su maşınları, yükünü özüboşaldan və məişət tullantıları daşıyan maşınlar, eləcə də qreyder, yükvuran, traktor, çoxfunksiyalı ekskavator rayonun müvafiq icra strukturlarına təhvil verilməsi bu ərazidə yaşayan on minlərlə insanın sevincinə səbəb olmuşdur. Bu cür layihələr Bakı və regionlarda davamlı olaraq həyata keçirilməkdədir. Fond tərəfindən ölkəmizin bir çox regionlarında dini və tarixi mədəniyyət obyektlərinin ətraf əraziləri abadlaşdırılmış, yaşıllıqlar salınmış, insanların asudə vaxtlarının səmərəli keçirilməsi üçün parklarda lazımi şərait yaradılmışdır.

Heydər Əliyev Fondunun imzası olan uğurlu layihələrdən biri də Dövlət Bayrağı Meydanı ərazisində yaradılan Daş salnamə muzeyidir. 1921-ci ildə inşa olunmuş və vaxtilə neft mədənlərinin enerji təminatı üçün nəzərdə tutulmuş elektrik stansiyasının binasında yerləşən muzey Azərbaycanın neft tarixinin canlı salnamələrindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Muzeydə daş plastikanın bir çox növləri sərgilənir. Ekspozisiyaya "Qobustan" və "Qala" qoruqlarından gətirilmiş eksponatlarla yanaşı, heykəltəraş Hüseyn Haqverdinin əsərləri də daxildir.

Heykəltəraş bu sərgidə "Arteriya" adlandırdığı səpkidə bir tarixi təqdim edir.

Azərbaycanın müxtəlif guşələrində aşkar edilmiş çoxlu sayda daş plastikasının nümunələri ilə yanaşı, qədim eksponatların əhəmiyyətli hissəsini funksional məna daşıyan və heç bir bəzəyi olmayan müxtəlif məişət əşyaları təşkil edir. Ekspozisiyada müxtəlif məzmunlu epiqrafik yazılar qorunub saxlanılır, xatirə plastikasının qiymətli eksponatları təqdim edi-



lir. Bütövlükdə, sənduqələr və başdaşılarında orta əsr dövrünün müxtəlif ictimai-siyasi, sosial, mədəni, ideoloji hadisələri haqqında orijinal informasiya verilir. 2015-ci il iyunun 8-də muzeyin açılışı zamanı Prezident İlham Əliyev, xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva bu tarix və mədəniyyət obyektinin fəaliyyəti ilə tanış olublar.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bir çox ölkələrdə Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünə həsr edilmiş silsilə tədbirlər milli tariximizin şanlı və şərəfli tarixinə olan böyük ehtiramın nümunəsi kimi yadda qalmışdır. Şəxsən Mehriban xanımın təşəbbüskarı olduğu bu tədbirlər Avropanın əksər dövlətlərində geniş şəkildə təntənə ilə qeyd edilmişdir. Almaniyada "Şərqdə ilk dünyəvi parlament respublikası: dəyərlər və irs" mövzusunda keçirilən konfrans Xalq Cümhuriyyətinin tarixi yoluna geniş nəzər salınması baxımından xüsusilə əlamətdar və yaddaqalan olmuşdur. Şərqdə özünü ilk demokratik respublika elan edən Azərbaycanın dünyəvi dövlət quruculuğu yolunda atdığı inadlı addımlar, Avropa ilə inteqrasiyaya yönəlmiş siyasi iradə və dövlət quruculuğu yolunda həyata keçirilmiş tətdbirlər haqqında verilən zəngin məlumatlar avropalı ictimai xadimlərin böyük marağına səbəb olmuşdur. Azərbaycan hələ 100 il əvvəl dinin dövlətdən ayrılmasını təmin edən, qadınlara geniş hüquqlar verən, milli azlıqları

ölkənin tamhüquqlu vətəndaşlarına çevrilməsi üçün hüquqi sistem yaradan, demokratik islahatların həyata keçirilməsi yönündə prinsipial addımlar atan respublika yaratmaqla, dünyada bir çox ölkələr üçün nümunəyə çevrilmişdi. Şərqdə ilk universitet, opera və balet yaradan Azərbaycan Demokratik Respublikası dünya mədəniyyətinə xalqımızın zəngin mədəni irsini təqdim etmək istiqamətində böyük təşviqat işləri həyata keçirmişdir. Cümhuriyyətin təmin etdiyi demokratik cəmiyyətdə Azərbaycanda yaşayan avropalılar, o cümlədən alman icmasına da böyük hüquqlar verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı yubiley tədbirləri digər ölkələrdə də ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. 2018-ci ildə Romada 100 illik yubiley münasibətilə rəsmi ziyafətdə iştirak edən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva diqqətə çatdırıb ki, həmin dövrdə ölkəmiz üçün çox vacib addımlar atılmışdır. Azərbaycanda demokratiya institutları formalaşmağa başlamış, azad seçkilər nəticəsində çoxmilli və çoxpartiyalı parlament yaradılmış, milli ordumuz formalaşdırılmışdır. "Biz ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşırıq", – deyə tariximizin qürur və şərəf səhifəsi haqqında danışan Mehriban xanım bu gün Azərbaycanın zəngin, qədim tarixə və mədəniyyətə malik olduğunu, Şərqlə Qərb arasında – qədim İpək Yolu üzərində yerləşdiyini, ölkəmizdə bütün xalqların, mədəniyyətlərin, dinlərin, millətlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını vurğulamışdır: "Biz fəxr edirik ki, bu ənənələr indi də qorunub saxlanılır. Azərbaycanda multikulturalizm, dözümlülük, qarşılıqlı hörmət artıq həyat tərzidir".

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə İtaliya, Gürcüstan, Fransa, Vatikan, Böyük Britaniya, Polşa və digər Avropa dövlətlərində təşkil edilmiş yubiley tədbirləri ilə bağlı konfranslar milli iftixarımız olan Xalq Cümhuriyyətinin tarixinə dair zəngin irsin dünyaya təqdim edilməsində mühüm vasitələrdən biri olmuşdur. Mehriban xanımın böyük vətənpərvərliyi, milli tariximizin şərəfli salnamələrinin dünyaya təqdim edilməsində göstərdiyi fədakarlığı onun Xalq Cümhuriyyətinin siyasi obrazının dünyaya tanıdılmasında əvəzsiz xidmətləri təsdiq etmişdir. Dünya birliyi, eyni zamanda bugünkü müstəqil Azərbaycanın demokratik cümhuriyyətin varisi kimi yüksək inkişaf yolu haqqında geniş məlumatlar əldə etmişdir. Bu gün müstəqil dövlətimiz Azərbaycan Xalq Cümhuriyyəti banilərinin arzularını həyata keçirərək, dünyada öz layiqli yerini tutmuşdur.

Son 15 ildə qarşıya qoyduğu bütün layihələri uğurla gerçəkləşdirən Heydər Əliyev Fondu insanlara qayğı və təmənnasız xidməti ilə cəmiyyətdə böyük rəğ-




bət qazanıb. Fondun vətəndaşların hər bir müraciətinə həssas münasibəti, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində əzmkar fəaliyyəti, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verməsi bu qurumun ən ali ideallara xidmət etdiyini təsdiqləyir. Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı fəaliyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir və görülən bütün işlər Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir.

Mehriban xanım Əliyeva üzərinə götürdüyü şərəfli missiyanı belə dəyərləndirir. Peşəkar siyasətçi qabiliyyəti, liderlik keyfiyyətləri, xalqın sonsuz rəğbəti ona siyasi həyatda da böyük uğurlar qazandırmışdır. Mehriban Əliyeva xarici ölkələrə səfərləri, dünyanın ünlü simaları ilə keçirdiyi görüşləri, müxtəlif tribunalarda çıxışları ilə siyasi xadim, dünyada qadın liderliyinin ən fəal təmsilçilərindən biri kimi daim mərkəzdə olsa da, o, öz dərrakəsini, zəkasını, ictimai nüfuzunu həyat yoldaşının böyüklüyü naminə əsirgəməyən əsl Azərbaycan qadınıdır.

2019-cu il mayın 10-da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən



Prezident İlham Əliyev bildirib ki, Heydər Əliyev Fondu bu illər ərzində bir çox sahələrdə – mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər görübdür. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır və onun dünya miqyasında çox böyük hörməti var.

Cəmiyyət Heydər Əliyev Fondunu mərhəmət və nicat rəmzi olmaqla yanaşı, ona rəhbərlik edən Mehriban Əliyevanın ideyalarını yaşadan möhtəşəm irs məbədi kimi qəbul edir. Qurumun fəaliyyətinin prioritet istiqamətləri xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq, ictimai həyatın ən müxtəlif sahələrində fundamental layihələr həyata keçirmək, hər bir vətəndaşın zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin həllinə maddi-mənəvi dəstək vermək istiqamətində inamla, inadla öz xeyirxah yolunda davam etməkdədir.

Mehriban xanımın mərhəmətinin əhatə dairəsi çox genişdir: böyükdən kiçiyə – hər kəsə onun qəlbində geniş yer vardır. Azərbaycanda xoş bir ənənəyə çevrilmiş kasıblara yardım etmək missiyası Mehriban xanımın mərhəmətinin hədsiz-hüdudsuz olduğunu göstərir. Hər il Novruz bayramı günlərində minlərlə insanı sevindirən Azərbaycanın Birinci xanımı aztəminatlı ailələrin qəlbində xeyirxahlıq heykəli kimi ucalıb, insanpərvər nəcib insan kimi doğma şəxsə çevrilibdir. Hər kəs Mehriban xanımı böyük ürək sahibi kimi qəbul edir, məhəbbət bəsləyir.

Beynəlxalq Siyasət və İctimaiyyət İnstitutunun direktoru K.Plevenin "Qadın liderliyi qadınların gücüdür. Dünyanın ən uğurlu qadınlarından öyrənməli" adlı kitabında Mehriban Əliyevanın fəaliyyətinə də geniş yer vermişdir. Həmin nəşrdə Azərbaycanın Birinci xanımının fəaliyyətinin çox mühüm istiqamətlərinə nəzər salınır və ölkəmizdə qadınların fəallığı ənənələrinin varisliyi qeyd edilir. Kitabda Heydər Əiyev Fondunun mühüm layihələri, ölkənin mədəni və sosial inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məsələləri barədə məqamlar zəngin faktlarla publisistik kaloritlə oxuculara təqdim olunur.

Amerikanın nüfuzlu "CNN World News International" telekanalının "Azərbaycan xalqının sevimlisi" adlandırdığı Mehriban Əliyevanın bütün dünyada tanış obrazı bütövlükdə ölkəyə proyeksiya edilir. Amerikalı jurnalistlər qeyd edirlər ki, Azərbaycanın Birinci xanımı alim, ictimai xadim, deputat, ana, dəyişkən dəyərləri müsbət məcraya yönəldən insandır. Daim ictimaiyyət arasında olan Azərbaycanın Birinci xanımı insanlara kömək göstərir, qadınlara qarşı zorakılıqla mübarizə kampaniyasına rəh-



bərlik edir, idmanı və sağlam həyat tərzini təbliğ edir.

Mehriban xanımın məqsədi, məramı, məsləki, idealı ona etibar edilmiş vəzifəsini alnıaçıq və şərəflə yerinə yetirməkdir. O, öz işinin ustasıdır. Bu baxımdan, Mehriban Əliyeva qürur və fəxr edilə biləcək rəhbər, ictimai və siyasi xadimdir. Onun rəhbəri olduğu Heydər Əliyev Fondu beynəlxalq aləmdə tanınmış institut nüfuzunu formalaşdırmaqla qlobal humanitar və sosial xarakterli layihələrin müəllifinə çevrilmişdir. Bu Fondun başlıca strateji xətti hüdudsuz humanitar proqramların sərhəd tanımadan reallaşdırılmasıdır. Bu isə qlobal təşəbbüskarlığın, təşkilatçılığın Azərbaycan modelinin dünyaya təqdim edilməsi deməkdir. Bu ictmai hərəkat həm də fundamental diplomatik qələbələrin əldə olunmasının mühüm bir vasitəsidir.

Heç şübhəsiz, dövlətlər arasında münasibətlər yalnız hakimiyyət dəhlizlərində qurulmur, hökumətlərarası əlaqələr konkret yaradıcı əsasa malik olub ictimai, sosial və mədəni səviyyələrdə yaradılır.

Fondun fəaliyyətində bu istiqamət Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun möhkəmləndirilməsinin mühüm tərkib hissəsi olmaqla, 15 il əvvəl olduğu kimi, bu gün də aktualdır. Gələcəyə hesablanmış proqramlar, beynəlxalq xeyriyyəçilik missiyası, bütövlükdə insan-

lara və insanlığa təmənnasız xidmətin təcəssümüdür. Bu gün də Azərbaycan diplomatiyasının resurs potensialının keyfiyyətinin artmasında, yeniləşməsində Heydər Əliyef Fondunun strategiyası və onun rəhbərinin siyasi iradəsi olduqca faydalı və nümunəyə çevrilmiş bir elmi-mədəni-siyasi istinaddır.

Ötən illərin zəngin tariximizə həkk olunmuş bir cox mühüm hadisələri göstərdi ki, Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxsaylı layihələr nadirliyi, orijinallığı, yetkinliyi və fəlsəfi bitkinliyi ilə seçilir, kompleks xarakter daşıyır. Ən başlıcası, Mehriban xanımın qısa zaman kəsiyində bu qədər işin öhdəsindən bacarıqla və yaradıcı şəkildə gəlməsi insanlarda dərin ehtiram hissi doğurur. Təbii ki, Azərbaycanın Birinci xanımının üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməsində Heydər Əliyev ucalığının təcəssümü olan ailəsi onun üçün tükənməz güc mənbəyidir.

Ölkəmizin Birinci xanımının ictimai-siyasi-mədəni sahələrdə çoxsaylı təşəbbüslərin müəllifi kimi önə çıxması Azərbaycanın inkişafı üçün yeni üfüqlər açmışdır. Dünyanın bir çox ölkəsində, o cümlədən Rusiya Federasiyasında nümayəndəliyi olan Heydər Əliyev Fondu yüksək beynəlxalq nüfuza malikdir. Ona beynəlxalq aləmdə tanınmış institut nüfuzunu gətirən başlıca faktor humanitar və sosial xarakterli layihələrin reallaşdırılması vasitəsilə konstruktiv xarici siyasətin yeni modelini təqdim etməsidir. Bu cəhət diplomatiyanın resurs potensialının keyfiyyətindən, yeniləşdirilməsindən xəbər verir. Başqa sözlə, bu, o deməkdir ki, qonşu dövlətlər arasında münasibətlər yalnız hakimiyyət dəhlizlərində qurulmur, həmçinin hökumətlərarası əlaqələr konkret yaradıcı əsasa malik olub, ictimai, sosial və mədəni səviyyələrdə yaradılır. Fondun fəaliyyətində bu istiqamət Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun möhkəmləndirilməsinin mühüm tərkib hissəsidir. Belə bir düşünülmüş fəaliyyət perspektivdə hərtərəfli inkişaf üçün zəruri olan qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin miqyasının formalaşdırılmasında və genişləndirilməsində mühüm rol oynayır.

Bu ənənənin davamı olaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti və Rusiya Nümayəndəliyinin rəhbəri, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq təşəbbüsünün (İDEA) təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlər artıq gənc Azərbaycan xanımının cəmiyyət üçün aktual olan məsələlərin həllində söz sahibinə çevrildiyini göstərir.




# V FƏSİL

*Mehriban Əliyevanın ictimai-siyasi portretinin əsas cizgiləri*





*"Bizim bütün işlərimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı durur".*

**Mehriban Əliyeva**

## MEHRİBAN ƏLİYEVA İLƏ MİLLİ DİPLOMATİYAMIZDA BAŞLAYAN YENİ DALĞA

Hər bir müstəqil dövlət xarici siyasətində milli maraqlarını ön planda tutur. Azərbaycanın xarici siyasətində bir sıra mühüm vasitələr rol oynayır. Xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və beynəlxalq təşkilatlarda fəal iştirak etmək bu vasitələrdən biridir. Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsi və bu ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin yaradılmasıdır. Bir çox ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq xarici siyasətimizin ən mühüm istiqamətlərindən olmaqla Azərbaycan Respublikasının nüfuzunun artmasına, beynəlxalq arenada uğurlar əldə etməsinə xidmət edir.

Azərbaycanın xarici əlaqələrinin coğrafiyasının əhəmiyyətli dərəcədə genişləndirilməsi, beynəlxalq aləmdə nəzərəçarpan və hörmət edilən ölkəyə çevrilməsi, eləcə də xarici siyasət məqsədlərinin daha da təkmilləşdirilməsi Mehriban xanım Əliyevanın mühüm fəaliyyət istiqamətlərindəndir. Bütün bu xüsusiyyətlər isə onu dünya vətəndaşına çevirmişdir. Aqillərin "milli problem həmin millətə aid olan fərdin şəxsi probleminə çevrildikdə, o, millətlə eyniləşir. Elə o vaxtdan da dünya vətəndaşı olur" kimi ifadə etdiyi fikir məhz Mehriban xanım Əliyevanın simasında öz mənasını ehtiva edir.

Mehriban Əliyevanın diplomatik fəaliyyəti zəngin və çoxşaxələdir. Onun Polşa, Xorvatiya və digər ölkələrə səfərləri tərəflər arasında əməkdaşlıq üçün yeni üfüqlər açmış, bir sıra sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün dərin zəmin yaratmışdır. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın xarici ölkələrin səfirləri ilə görüşü də dipomatik sahədə mühüm uğurlarımıza işıq saçan mühüm hadisələrdəndir. Mehriban Əliye-

va səfir xanimlarla görüşlərdə respublikanın bütün regionlarında aparılan işlərdən geniş bəhs edir, bu istiqamətdə Heydər Əliyev Fondunun səhiyyə, elm və mədəniyyətin inkişafına, informasiya texnologiyalarının tətbiqinə dair bir neçə layihə həyata keçirməsinə diqqət çəkir. Fondun beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurmasının dünya ictimaiyyəti üçün faydalarını təqdim edir.

Mehriban xanımın diplomatik fəaliyyəti azərbaycançılıq ideologiyasına xidmətin bariz nümunəsidir. O, ötən illər ərzində bir çox ölkələrə səfərləri çərçivəsində çox maraqlı və yaddaqalan görüşlər keçirmiş, dövlətlərarası münasibətlərin hərarətini artırmış, ikitərəfli və çoxtərəfli əməkdaşlığa impuls vermişdir. Mehriban Əliyeva dünyanın ən nüfuzlu siyasi, ictmai xadimləri ilə faydalı və əməkdaşlığa yeni səhifə açan görüşlər keçirərək Azərbaycanın diplomatiya palitrasına rəngarənglik gətirmiş, siyasi münasibətlərin strateji zirvəyə çatmasında mühüm rol oynamışdır.

Eyni tarixə, mədəniyyətə, soy-kökə, dil və dinə malik olan, eyni adət-ənəni, oxşar həyat tərzini yaşayan, yaşadan, genetik-mənəvi bağlarla bir-birinə sıx bağlanan Türkiyə və Azərbaycan tarixin bütün mərhələlərində yaxın qardaşlıq və dostluq nümunəsi nümayiş etdirir. Tarixən yerləşdiyi coğrafi ərazilərdə ortaq ideyalardan çıxış edərək milli birliyin təntənəsinə çevrilən iki qardaş ölkə bəşəriyyət üçün zəngin maddi-mənəvi, tarixi irsin sahibi olmaqla, həm də güclü dövlətçilik ənənələrini dünyaya təqdim etmişdir. Bu gün hər iki türk dövləti inzibati baxımdan tarixi coğrafiyasının böyük bir hissəsini itirsə də, türkün şərəfli dövlətçilik ənənəsini qoruyub saxlamış, milli gücünü və böyüklüyünü ehtişamla bu günə daşıyaraq daha da qüdrətləndirmiş, maddi irsini və mənəviyyat xəzinəsini zənginləşdirmişdir.

Türkiyə tarixin bütün dövrlərində həmişə Azərbaycanın yanında olmuş, çətin sınaqlarda köməyini əsirgəməmişdir. Qazi Mustafa Kamal Paşa Atatürk deyirdi ki, Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq, ona yardım etmək borcumuzdur”. Həqiqətən də Türkiyə bir qardaş kimi həmişə Azərbaycanın yanında olmuş, ortaq düşmənlərimizin, erməni terrorçularının hücumlarının qarşısının alınmasında fədakarlığını əsirgəməmişdir.

Ümummilli lider 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra qardaş ölkələr arasında əlaqələrin inkişafını təmin edən mühüm sənədlər imzalamışdır. “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında” müqavilə iki ölkə arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni, elmi sahədə əlaqələrə hüquqi baza yaratmış, iki dövlətin rəhbərlərinin müntəzəm xarakterli qarşılıqlı səfərləri ölkələrimiz arasındakı münasibətlərin daha da inkişaf etdirilməsinə səbəb



olmuşdur. Prezident İlham Əliyevin Türkiyəyə davamlı rəsmi və işgüzar səfərləri, eləcə də Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərləri münasibətlərin daha da zirvəyə qalxmasında önəmli rol oynamışdır. Rəcəb Tayyib Ərdoğanın 2005-ci il iyunun 30-da Heydər Əliyev Fondunda olması gələcək humanitar layihələrə stimul vermişdir.

Milli Məclisdə Azərbaycan–Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupun və Türkiyə Böyük Millət Məclisində yeni Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun təsis edilməsi hər iki ölkənin milli mənafelərinin ifadəçisi və milli məsələlərdə birgə fəaliyyətin əlaqələndirilməsində mühüm rol oynamışdır.

Qardaş ölkə ilə ictimai-siyasi əlaqələrin daha da möhkəmlənməsində Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir, onun humanitar aksiyaları türk xalqının diqqətini daim cəlb etmişdir. Mehriban xanım Heydər Əliyev Fondunun qardaş ölkənin ictimai təşkilatları ilə əlaqələrinin genişlənməsində fəal rol oynamışdır. Türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə Azərbaycanın Birinci



xanım Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfinin "Türk dünyasına xidmət" mükafatına layiq görülmüşdür.

Türkiyənin dövlət başçısının xanımı Əminə Ərdoğanla görüşlər ənənə halını almış, qarşılıqlı səfərlər zamanı humanizmə xidmət edən layihələr haqqında birgə müzakirələr aparılmışdır. Əminə Ərdoğan Heydər Əliyev Fondunun beynəlxalq layihələrin həyata keçirilməsində gördüyü işləri yüksək qiymətləndirmişdir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva 2005-ci ilin avqustun 31-də Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü də maraqlı və faydalı hesab edilə bilər. Akkan Suver və nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxması bu təşkilat haqqında zəngin məlumatın əldə edilməsi baxımından əhəmiyyət kəsb etmişdir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə nümayəndə heyətinin üzvləri arasında görüş Azərbaycan ilə Türkiyə arasındakı sıx əməkdaşlığın artmasına öz töhfəsini vermişdir. Eyni zamanda Mər-

mərə Qrupu Vəqfinin ölkələrimiz arasında əlaqələrin inkişafı sahəsində səmərəli işlərinə stimul yaratmışdır.

Türk xalqlarının zəngin tarixi, maddi-mədəniyyət abidələri dünya sivilizasiyasının zəngin xəzinələrindəndir. Dünya xalqları içərisində ən qədim mədəniyyət çalarlarını özündə yaşadan, bəşəriyyətə dövrünün ən mükəmməl ixtiralarını, döyüş sənətini, cəngavərliyi, mərdliyi bəxş edən məhz türklər olub. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Türkiyə Cümhuriyyətinin ərazisi istər antik, istərsə də orta əsrlər dövrü, xüsusilə də Bizans və Osmanlı imperatorluğu dövrünə aid tarixi mədəni abidələrlə zəngindir. Odur ki, UNESCO-nun Maddi Mədəni İrs Siyahısında Türkiyənin mədəni abidələri xüsusi yer tutur. Türk xalqlarının tarixinin, mədəniyyətinin, incəsənətinin öyrənilməsində, təbliğində böyük xidmətləri olan Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə bir çox tarixi abidələrin bərpası böyük önəm daşıyır.

Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Türkiyənin Antalya şəhərində yerləşən Side qədim yaşayış məntəqəsi ilə tanışlığı bu baxımdan böyük maraq doğurmuşdur. 2006-cı illər noyabrın 17-də gerçəkləşən səfər zamanı Mehriban xanım Əliyevaya Antalya şəhərindən təxminən 100 kilometr məsafədə yerləşən Sidc yaşayış məntəqəsindəki qədim dövrə aid maddi mədəniyyət abidələri barədə geniş məlumat verilib. Bildirilib ki, üç sərgi salonundan ibarət muzey Türkiyənin ən böyük və



möhtəşəm muzeylərindən biridir. Buradakı qədim hamam nadir tikililərdən biri kimi ilk baxışdan diqqəti cəlb edir. Azı 1400 illik tarixi olan hamama su 38 kilometr məsafədən gətirilir. Bəşər tarixinə böyük hörmətlə yanaşan Türkiyə hökuməti bu muzeyin zənginləşməsinə və antik maddi mədəniyyət abidələrinin olduğu kimi qorunub saxlanılmasına xüsusi diqqət yetirir. Bir-birindən gözəl əsərlər Anadolunun antik mədəniyyətini hərtərəfli ehtiva edir, o dövr barədə real təsəvvürlərin formalaşdırılmasına və elmi araşdırmaların aparılmasına geniş imkanlar açır. Mehriban xanım Əliyeva əfsanəvi Heraklın nəfis şəkildə işlənmiş heykəlinə də tamaşa edib.

Aralıq dənizi boyunca sıralanan qədim tikililər, antik dövrün qalaları buraya gələnlərdə gözəl hisslər doğurur, bəşər tarixinə dərin məhəbbət oyadır. Azərbaycanın mədəni irsinin qorunması, beynəlxalq miqyasda təbliği sahəsində ardıcıl və məqsədyönlü tədbirlər görən UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Türkiyə dövlətinin maddi mədəniyyət abidələrinə belə yüksək səviyyədə qayğı ilə yanaşmasından razılığını bildirib. Mehriban Əliyeva eramızdan əvvəl II–I əsrlərə aid edilən "Aspendos" teatrına da baxıb. Bildirilib ki, təkrarolunmaz memarlıq üslubu ilə seçilən bu tikili dünya memarlığının nadir incilərindən sayılır, fərqlənir. Əsrlərin şahidi olan bu teatrdan





indi də istifadə edilir. Burada mütəmadi olaraq konsertlər, festivallar təşkil edilir.

Azərbaycanın Birinci xanımının ictimai və diplomatik fəaliyyətinə Türkiyənin ən məşhur və nüfuzlu jurnallarından olan "First Business"in saylarından birində geniş yer verilmiş, onun bənsərsiz xidmətləri digər Şərq qadınları üçün örnək hesab edilmişdir. Jurnal Mehriban xanımın dünyadakı yeri və rolunu çox əhatəli və dolğun şəkildə təqdim edir. Qeyd olunur ki, Azərbaycanın Birinci xanımının həyatı, fəaliyyəti, dünyaya baxışı gənc qızlar və qadınlar üçün gözəl bir örnəkdir. O, türk və müsəlman qadınının bütün dünyada yüksək səviyyədə tanınması və qəbul edilməsi üçün yorulmaz bir fədakardır. O, artıq gözəlliyi və ağlı, həyat tərzi və fəaliyyəti ilə nəinki ölkəsində, eləcə də Avropada, Qərbdə və Şərqdə kifayət qədər tanınır və sevilir.

2015-ci il noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Böyük İyirmiliyin" (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfəri də mühüm ictimai-siyasi əhəmiyyət kəsb etmişdir. Həmin səfər zamanı Mehriban Əliyevanın Türkiyənin Antalya şəhərində Əlillərin Bərpa Mərkəzi ilə tanış olması qardaş ölkənin ictimaiyyətində dərin rəğbət doğurmuşdur.

Mehriban Əliyevanı və Fondun vitse-prezidenti Leyla Əliyevanı Əlillərin Bərpa Mərkəzində Türkiyənin Birinci xa-

nımı Əminə Ərdoğanın iştirakı ilə Cənubi Afrika Respublikasının Birinci xanımı Tobeka Madiba Zuma, Zimbabvenin Birinci xanımı Qreys Muqabe, Malayziya Baş nazirinin xanımı Rosma Mansor və digər qonaqlarla birgə mərkəzin fəaliyyəti ilə tanış olmuşdur.

Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkiyəyə səfər zamanı ənənəvi türk əl sənətləri olan ebru və şüşə işləmələrindən nümunələri ilə də tanış olmuşlar. Mehriban Əliyeva ebrulardan birinin hazırlanması prosesində iştirak etmişdir.

Mehriban Əliyeva "Böyük İyirmiliyin" Antalyada keçirilən Sammiti çərçivəsində "Biznes-20"/"Qadınlar-20" ("Business-20"/"Women-20") birgə sessiyasında da iştirak etmişdir.

Tədbirdə çıxış edən natiqlər milliyyəti və sərhədi olmayan terrorun yaratdığı təhlükələrin aradan qaldırılmasında dünya xalqlarının birgə fəaliyyətlərinin zəruriliyindən danışıblar.

Mehriban Əliyeva Türkiyədə qlobal ictimai əhəmiyyət kəsb edən sammit və forumlarda iştirak edərək Azərbaycanın humanist ideyalarını təşviq edir. 2016-cı il aprelin 14-də İstanbulda keçirilən İs-





lam Əməkdaşlıq Təşkilatının XIII Sammiti çərçivəsində "Xərçəng xəstəliyi ilə mübarizədə birinci xanımların liderliyi" mövzusunda sessiyada çıxış edən Mehriban Əliyeva bu ciddi problemə beynəlxalq ictimaiyyətin diqqətini yönəltmişdir.

Dünyanın ən böyük siyasi və iqtisadi gücü olan Amerika Birləşmiş Ştatları ilə münasibətlərin möhkəmləndirilməsi bu baxımdan respublikamız üçün prioritet olmuş, rəsmi Bakı xarici siyasətində ABŞ-la münasibətlərə xüsusi yer vermişdir. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda bütün sahələrdə mühüm köklü dəyişikliklər olduğu kimi, ABŞ-la uğurlu xarici siyasətin əsası qoyulmuş, rəsmi Vaşinqtonun ölkəmizin milli maraqlarına cavab verməyən regional siyasətinin qarşısı alınmış və bu istiqamətdə müsbətə doğru zəruri addımlar atılmışdır.

2000-ci ildən sonra Azərbaycan– ABŞ münasibətləri daha geniş şaxə almağa başlamışdır. Geosiyasi amillər – regional və beynəlxalq təhlükəsizlik məsələləri, hərbi əməkdaşlıq, siyasi və iqtisadi münasibətlərin dinamikasına mühüm təsir etmişdir. Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursunda ABŞ-la strateji əlaqələrin möhkəmlənməsi xüsusi yer tutmuş, iki ölkə arasında iqtisadi əlaqə-



lər möhkəmlənərək enerji, logistika, nəqliyyat, ticarət, infrastruktur və digər sahələrdə uğurla davam etdirilmişdir.

Ölkələrimiz arasında əlaqələrin genişlənməsinə parlamentlərarası münasibətlərin də mühüm təsiri olmuşdur. Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəflər arasında əlaqələrin inkişafına əlavə stimul vermişdir.

Mehriban Əliyevanın ABŞ–Azərbaycan Ticarət Palatası üzvləri ilə keçirilən səmərəli və faydalı görüşləri Azərbaycandakı biznes və sərmayə mühiti haqqında dolğun informasiyanın verilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. ABŞ–Azərbaycan Ticarət Palatasının strateji münasibətlərlə bərabər, iqtisadi təmasların artmasında, Xəzər hövzəsinin enerji ehtiyatlarının işlənilməsi və neft sənayesi, ticarət, xidmət sektorlarında göstərdiyi səyləri yüksək qiymətləndirən Mehriban xanım Palatanın ABŞ iş adamlarının Azərbaycanın qeyri-neft sektoruna cəlb olunmasında təşviqedici siyasət aparacağına əminliyini ifadə etmişdir. Vurğulanmışdır ki, ABŞ–Azərbaycan Ticarət Palatası ikitərəfli münasibətlərin inkişafı istiqamətində daha da səmərəli iş aparacaqdır.

Mehriban Əliyeva Birləşmiş Ştatlara səfəri çərçivəsində Azərbaycan diplomatiyası tarixində aktuallığı ilə seçilən məsələlərin müzakirə olunduğu bir sıra

görüşlər də keçirmişdir. Bu görüşlərdə Ermənistanın işğalçılıq əməlləri barədə ətraflı məlumat verən Mehriban xanım Dağlıq Qarabağ münaqişəsinin həlli, “Azadlığa dəstək aktı”na 907-ci düzəlişin aradan qaldırılması barədə qətiyyətli mövqe nümayiş etdirmişdir.

ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri Riçard Luqar həmin görüşdə bildirmişdir ki, Azərbaycan demokratik təsisatların inkişaf etdirilməsi istiqamətində güclü səylər göstərir, ölkədə demokratik siyasi islahatlar aparılır.

Mehriban Əliyevanın həmin səfəri Azərbaycanla ABŞ-ın uzunmüddətli strateji əməkdaşlığa imkan verən başlıca faktorlardan biri kimi qiymətləndirilmişdir. Həmin səfər zamanı Mehriban xanıma ABŞ–Azərbaycan Ticarət Palatasının "2006-cı ilin xoşməramlı səfiri" mükafatı təqdim edilmişdir.

Mehriban Əliyevanın diplomatik uğurları sayəsində ötən illərdə Amerika Birləşmiş Ştatlarının nüfuzlu ictimai-siyasi xadimləri ilə əlaqələr daha da intensiv xarakter almışdır. 2006-cı il fevralın 13-də ölkəmizə səfər edən ABŞ-ın aparıcı yəhudi təşkilatlarının rəhbərlərinin qatıldığı konfransın nümayəndə heyətinin məhz Heydər Əliyev Fondunda keçirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Mehriban xanım Əliyeva Amerikada yaşayan yəhudiləri birləşdirən təşkilatların təmsilçilərini ölkəmizdə və ulu öndər Heydər





Əliyevin adını daşıyan Fondda görməkdən çox böyük qürur hissi keçirdiyini söyləyərək, Fondun nüfuzlu beynəlxalq təşkilatlarla, dünyanın müxtəlif ölkələrinin ictimai, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa da çox böyük əhəmiyyət verdiyini və ABŞ-ın yəhudi təşkilatları ilə də əlaqələr yaratmağa hazır olduğunu diqqətə çatdırmışdır. Amerikalı qonaqlar ölkəmizdə bütün dinlərdən, millətlərdən olan insanların azad, dinc, birgə yaşayışı üçün hər cür hüquqi-mənəvi şəraitin mövcud olduğunu yəqin etdiklərini, erməni təcavüzünün xalqımıza böyük əzablar verdiyini öyrəndiklərini, Azərbaycan həqiqətlərinin ABŞ-da yayılmasına yardımçı olacaqlarını söyləmişlər.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın 2006-cı il dekabrın 4—7-də Amerika Birləşmiş Ştatlarına növbəti səfəri də zəngin olmuşdur. Dekabrın 4-də Mehriban Əliyeva ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun həmsədrləri, konqresmenlər demokrat Solomon Ortis, respublikaçı Bil Şuster və qrupun üzvləri Ed Uilfild, Visente Foks ilə görüşmüş, görüşdə Azərbaycan ilə ABŞ arasında münasibətlərin yüksək səviyyədə olduğu və uğurla inkişaf etdiyi vurğulanıb, bir neçə aktual məsələ, o cümlədən Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin aradan qaldırılması, Azərbaycanın geostrateji mövqeyi, ölkəmizin müasir durumu ətrafında müzakirələr aparılmışdır.

Mehriban Əliyevanın ABŞ Konqresinin Avropa və yeni təhlükələr üzrə altkomitəsi-

nin sədri vəzifəsinin icrasına yaxın günlərdə başlayacaq konqresmen Robert Ueksler ilə də görüşü də xüsusi maraq doğurmuşdur.

Mehriban Əliyeva səfər zamanı, həmçinin, Corc Buş Prezident Kitabxanası Fondunun prezidenti, ABŞ-ın Milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri general Brent Skoukroftla olub. Söhbət zamanı Heydər Əliyev Fondu ilə Corc Buş Prezident Kitabxanası Fondu arasında əməkdaşlığın perspektivləri və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə edilmişdir.

ABŞ-a səfəri çərçivəsində Mehriban Əliyeva Vaşinqtonun nüfuzlu təhlil və tədqiqat mərkəzlərinin, universitetlərinin nümayəndələri ilə də görüşmüşdür. Görüşlərdə ABŞ-ın tanınmış alim və ictimai xadimləri, o cümlədən Syuzan Eyzenhauer, Frederik Star, Svant Kornel, Ancela Stend, Ceyms Beyker, Rob Sobhani, Roald Saqdeyev, Ariel Koen iştirak etmişlər. Mehriban Əliyeva "Volter Rid" adına hərbi tibb mərkəzində və Vaşinqtondakı Toxuculuq muzeyində olmuş, muzeydə Ona Azərbaycan xalçaçılıq muzeyi ilə həyata keçirilən layihələr haqda məlumat verilmişdir.

Mehriban Əliyevanın Vaşinqtondakı ABŞ–Azərbaycan Ticarət Palatası nəzdində Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində Amerikada yaşayan azərbay-





canlı və amerikalı incəsənət xadimləri ilə görüşü də mühüm ictimai-siyasi baxımdan əhəmiyyət kəsb etmişdir. Azərbaycan ilə ABŞ arasında münasibətlərin yüksək səviyyəsindən danışan Mehriban Əliyeva zəngin mədəni irsimizin Amerikada tanıdılmasına dair layihələrin həyata keçirilməsinə ehtiyac olduğunu söyləmişdir.

Mehriban Əliyeva Ağ evdə ABŞ-ın birinci xanımı Lora Buş ilə görüşü də beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmuş, Amerikanın nüfuzlu KİV-ləri bu görüşə xüsusi yer ayırmışdır. Görüşdə Azərbaycan–ABŞ münasibətlərinin möhkəmləndirilməsində təhsil, səhiyyə, mədəniyyət sahələrinin rolundan danışılmışdır.

Mehriban Əliyeva ABŞ senatoru Key Beyli Hatçinson və Konqresin üzvü Şila Sikula Qibs ilə görüşmüş, maraqlı müzakirələr aparmışdır. Heydər Əliyev Fondu ilə senator Hatçinsonun həmsədri olduğu "Vital Voice" qeyri-hökumət humanitar təşkilatı arasında əməkdaşlığa dair memorandum imzalanmışdır. Mehriban Əliyeva Azərbaycanın ABŞ-dakı səfirliyində Amerikanın müxtəlif ştatlarında təhsil

alan azərbaycanlı tələbələrlə görüşü də yaddaqalan ictimai hadisəyə çevrilmişdir. Heydər Əliyev Fondunun fəaliyyətində təhsil layihələrinin prioritet yer tutduğunu qeyd edən Mehriban Əliyeva Fondun bu istiqamətdə apardığı işlərdən danışmışdır.

Səfər zamanı ABŞ–Azərbaycan Ticarət Palatası Vaşinqtonun "Endryu Melon" Auditoriumunda Mehriban Əliyevanın şərəfinə ziyafət vermişdir. Ziyafətdə 300-dən artıq qonaq, o cümlədən Ağ evin və Dövlət Departamentinin yüksək vəzifəli rəsmiləri, ABŞ Konqresinin üzvləri, görkəmli siyasi və ictimai xadimlər, xarici ölkələrin ABŞ-da akkreditə olunmuş səfirləri iştirak etmişdir.

ABŞ səfəri çərçivəsində Mehriban Əliyeva bu ölkənin dövlət katibinin ictimai diplomatiya və ictimai məsələlər üzrə müavini Karen Hyuz ilə görüşmüşdür. Mehriban Əliyeva Karen Hyuza rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən humanitar sahədə həyata keçirilən layi-





hələr haqda məlumat vermışdır. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də bəhs etmişdir.

2011 -ci ilin martın 4-də Azərbaycanın Birinci xantını, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki sətiri Metyu Brayza ilə görüşü də ikitərəfli əlaqələrin yüksək inkişafının təzahürü kimi dəyərləndirilə bilər. Görüşdə Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuşdur. Azərbaycanın Birinci xanımını Azərbaycan – ABŞ əlaqələrinin yüksək səviyyədə olduğunu bildirmiş, səfirə ölkələrimizin qarşılıqlı münasibətlərinin inkişaf etdirilməsi istiqamətindəki fəaliyyətinə yüksək qiymətləndirmişdir.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti barədə ətraflı məlumat əldə edən Metyi Brayza Fondun həyata keçirdiyi müxtəlif sosial-iqtisadi, mədəni layihələrin sosial inkişafda mühüm rolunu yüksək qiymətləndirmiş, həyata keçirilən layihələrin davam etdirilməsinin vacibliyini vurğulamışdır.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2013-cü il martın 15-də ABŞ-ın ölkəmizdəki səfiri Riçard Morninqstar ilə görüşü də dövlətlərarası münasibətlərin inkişafına töhfə verən hadisə kimi xarak-

terizə oluna bilər. Görüşdə Mehriban Əliyeva səfirə Heydər Əliyev Fondunun fəaliyyəti barədə məlumat vermiş, beynəlxalq qurumlar, o cümlədən YUNESCO və ISESCO ilə əməkdaşlığın istiqamətləri barədə danışmışdır.

Görüşdə Heydər Əliyev Fondu ilə ABŞ arasında təhsil, tələbə mübadiləsi, qadın peşə məktəblərinin yaradılması istiqamətində fikir mübadiləsi aparılmışdır. Bildirilmişdir ki, həmin məktəblərdə qızlar müxtəlif peşələrə yiyələnəcəklər. Söhbət zamanı, həmçinin, Azərbaycanda qadın sahibkarlara dövlət dəstəyinin göstərilməsi, onların cəmiyyətdəki rolunun, ictimai fəaliyyətinin stimullaşdırılmasına xüsusi önəm verilməsi diqqətə çatdırılmışdır.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2015-ci il oktyabrın 15-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Robert Sekuta ilə görüşü də əlamətdar olmuşdur. Heydər Əliyev Fondunda keçirilən görüşdə Mehriban Əliyeva Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrdən danışmış, ölkəmizin müstəqilliyini bərpa edəndən sonra Amerika Birləşmiş Ştatları ilə bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə uğurlu əməkdaşlıq etdiyini bildirmişdir.

Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrdə neft-qaz sektorundakı əməkdaşlığın əhəmiyyətini xüsusi olaraq qeyd etmiş, energi sahəsində möhkəm si-





yasi və iqtisadi münasibətlərin dərinləşdiyini diqqətə çatdırmışdır. Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin yeni missiya rəhbəri Mikaela Meredisin də iştirak etdiyi görüşdə bu layihələrin həm region, həm Avropa üçün əhəmiyyəti vurğulanmışdır.

2017-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyası çərçivəsində ABŞ-da səfərdə Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın bu ölkənin yüksək səviyyəli dövlət nümayəndələri, ictimai-siyasi təşkilatların rəhbərləri ilə keçirilən səmərəli görüşləri də Azərbaycan və Amerika arasında strateji tərəfdaşlığın möhkəm olmasını təsdiqləmişdir.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın diplomatik əlaqələrdə yorulmaz fəaliyyəti dünyanın nüfuzlu siyasi elitası, ictimai dairələri tərəfindən dəyərləndirlir. “Caspian Group Holdings”in baş direktoru Rob Sobhani hesab edir ki, Azərbaycanın Birinci xanımı öz məğrur xalqını beynəlxalq ictimaiyyətə çox gözəl şəkildə təqdim edə bilib: “Mehriban Əliyeva hansı ölkədə olmasından asılı olmayaraq, hər zaman Azərbaycanın zəngin irsi və mədəniyyətindən bəhs edir. O, yorulmadan Azərbaycanı mədəniyyətlərin qovuşduğu tarixi mərkəz kimi tanıdır. Ona görə də təəccüblü deyil ki, Mehriban Əliyeva dini tolerantlığın tərəfdarıdır və bu, beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir”.

Rob Sobhani qeyd edib ki, humanitar diplomatiya Şərqlə Qərb arasında əməkdaşlıq baxımından çox vacibdir, Mehriban



Əliyeva isə bu sahədə peşəkar diplomatdır: "İncəsənət, mədəniyyət və tarixi abidələrin bərpası üzrə işlər vasitəsilə o, tədricən, amma əminliklə Şərqlə Qərb arasında qarşılıqlı anlaşma körpüləri yaradıb. Mehriban Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin olunanda mən ABŞ-da məqalə yazdım və bu məqalədə həmin tarixi məqamın bütün dünya qadınları, xüsusilə də müsəlman qadınları üçün vacibliyini vurğuladım. O, təkcə qadının nəyə qadir ola biləcəyinə deyil, həm də öz ailəsi, cəmiyyəti və ölkəsi üçün nə edə biləcəyinə nümunədir".

"Caspian Group Holdings"in baş direktoru bildirib ki, Mehriban Əliyeva qayğıkeş ana, diqqətli həyat yoldaşı və övladdır: "O, bütün bu insani keyfiyyətləri öz işində təkcə Azərbaycanın birinci xanımı kimi yox, həm də Azərbaycanın hər bir vətəndaşının anası kimi tətbiq edir. Onun geniş ürəyi bütün dünyada bir çox insanların həyatına təsir edib. Mən şəxsən şahidi olmuşam ki, onun səxavəti sayəsində əlilliyin ağır formasından əziyyət çəkən uşaqlara zəruri texniki vasitələr alınıb, yaxud ürək xəstəliyi olan azərbaycanlı uşaq tez bir vaxtda müalicə olunub.



Mehriban Əliyevanın xarakterinin bu cizgisi çox vacibdir, çünki o, həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar üçün mehriban və səxavətli bir insan olmaqla öz müsəlman inancına sadiqdir. Məhəmməd peyğəmbər öz tərəfdarlarını ehtiyacı olanlara kömək etməyə, yoxsulların qayğısına qalmağa və həyatda bəxti gətirməyənlərə kömək etməyə çağırırdı. Mehriban Əliyeva bu ehkamlara əməl edir və öz inancına sadiqdir".

Azərbaycanda keçirilmiş irimiqyaslı tədbirlərdən də danışan R.Sobhani onların yüksək təşkilatçılıq səviyyəsini qeyd edib: "Mən Azərbaycanda "Eurovison" mahnı müsabiqəsi keçirilən zaman olmuşam. Bu, qlobal KİV-lərin diqqətini cəlb etmiş unudulmaz hadisə idi. Azərbaycanın dünyaya nümayiş etdirilməsi üçün bu və digər tədbirlərin Mehriban Əliyevanın birbaşa rəhbərliyi ilə təşkil edilməsi çox az adamın sahib olduğu istedaddır".

R.Sobhani bildirib ki, beynəlxalq tədbirlərin uğurla keçirilməsi üçün detallara diqqət və böyük təşkilatçılıq bacarığı tələb olunur: "Azərbaycanın Birinci xanımı bütün bu keyfiyyətlərə sahibdir, ona görə də mən ümid edirəm ki, "Ekspo-2025" sərgisi Azərbaycanda keçiriləcək. "Ekspo-2025" qlobal hadisədir və Mehriban Əliyevanın Şərqlə Qərb, Şimalla Cənub arasında körpülər yaratmağa tərəfdar olduğunu nəzərə alsaq, Azərbaycan hazırda bir çoxları tərəfindən beynəlxalq tədbirlərin keçirilməsi üçün ideal məkan kimi qəbul edilir".

R.Sobhani Birinci vitse-prezident Mehriban Əliyevanın erməni təcavüzü haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində fəaliyyətinə toxunaraq bu fəaliyyətin xüsusi əhəmiyyətini qeyd edib: "Heydər Əliyev Fondu dünyanın Dağlıq Qarabağda baş verən faciəvi hadisələr barədə məlumatlandırılmasında aparıcı rol oynayır. Mehriban Əliyevanın bu səylərinin uğur qazanmasının səbəbi münaqişənin qərb auditoriyası üçün bəşəriləşdirilməsi oldu. Bu münaqişənin həlli üçün beynəlxalq ictimaiyyətin dəstəyini qazanmaq da çox vacibdir. Mən səmimi olaraq inanıram ki, Mehriban Əliyeva Nobel Sülh Mükafatı laureatı ola bilər. Nəyə görə bunu deyirəm? Ümumiyyətlə, istənilən münaqişəsonrası vəziyyətdə tərəflər bir-birinin humanitar tərəflərini yaxşı başa düşməlidirlər. Azərbaycanın birinci xanımı erməni işğalının qurbanı olan xalqının yorulmaz müdafiəçisi olsa da, müharibə və münaqişənin yaralarının sağalmasına da böyük təsir göstərə bilər".

"Caspian Group Holdings"in baş direktoru vurğulayır ki, əgər beynəlxalq ictimaiyyət, xüsusilə də ATƏT Minsk qrupunun həmsədrləri qismində Rusiya, ABŞ və Fransa Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycan və Ermənistanla işləyərsə, Mehriban Əliyevanın münaqişədən sonrakı bərpa prosesində rolu böyük əhəmiyyət daşıyacaq: "O, fransalı, rusiyalı və amerikalılarla yaxşı münasibətlərə malikdir və ona görə də bu ölkələrdən olan beynəlxalq donorlarla, həmçinin hazırda erməni qoşunlarının işğalı altında olan torpaqların bərpası üçün Dünya Bankı ilə iş görmək baxımından yaxşı imkanları var".

Azərbaycanın Birinci xanımının fəaliyyəti Amerikanın nüfuzlu nəşrlərinin diqqətində olur, onun təşəbbüsü ilə həyata keçirilən layihələrə geniş yer verilir. ABŞ-da çıxan "The Washington Times" qəzetində "Caspian Group Holdings"in baş direktoru Rob Sobhaninin "Mehriban Əliyeva: ağacəkmə layihəsi ilə tanınan Azərbaycanın Birinci xanımı" sərlövhəli məqaləsi də bu qəbildən mühüm əhəmiyyət kəsb edir. Məqalədə Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı Mehriban Əliyevanın meşəsalma yolu ilə ölkənin ekologiyasının yaxşılaşdırılması və vətəndaşlarının rifahının artırılması səylərindən danışılır.

Müəllif yazır ki, Amerika cəmiyyətinin iqlim dəyişmələrinin nəticələrinə qarşı mübarizə tədbirlərinin müzakirəsini davam etdirdiyi bir vaxtda, Azərbaycanın Birinci xanımının həyata keçirdiyi layihələr parnik qazları tullantıları problemini siyasiləşdirmədən onun həllində bütün dünya üçün model ola bilər. Bu strategiya meşəsalmanın miqyasının genişləndirilməsindən ibarətdir.

R.Sobhani qeyd edir ki, Azərbaycana ilk dəfə 1990-cı ildə gedib və müstəqilliyini 1991-ci ildə bərpa etmiş bu ölkənin




ekoloji sisteminin Sovet İttifaqının mövcud olduğu illərdə dağılmasının şahidi olub. Atmosferdə çirkləndirici maddələrin yüksək səviyyəsi müşahidə olunur, aeroportdan paytaxt Bakının mərkəzinə gedən yolun kənarlarında ağaclar gözə dəymir, əvəzində xam neft "gölməçələri" görünürdü. Müəllifin yazdığına görə, təəssüf ki, Moskvanın mərkəzi hakimiyyət orqanları əsasən müsəlmanlardan ibarət 9 milyon əhalisi olan bu sovet respublikasının gözəl landşaftını da onun əlindən almışdı.

Mehriban xanım Əliyevanın sayəsində bu gün Azərbaycan hər bir açıq məkanda ağacəkmə yolu ilə ekoloji sağlamlaşdırma dövrünü yaşayır. İndi aeroportdan Bakının mərkəzinə gedən yol boyu gözəl ağaclar əkilib. Ətraf mühitin vəziyyətinin bu şəkildə dəyişməsi ilə yanaşı, Azərbaycan bu uzaqgörən layihə ilə dünyaya həm də sensasiya yaratmadan iqlim dəyişikliklərinə qarşı mübarizəni aparmaq yollarını nümayiş etdirir. Ağaclar atmosferi oksigenlə zənginləşdirməklə iqlim dəyişmələrinin nəticələrini dayandırmağa kömək edir.

Azərbaycanda ağacəkmə təkcə ətraf mühitin sovet dövründən qalma tənəzzülünə qarşı mübarizə vasitəsi deyil, o, həm də ictimai səhiyyə ilə birbaşa bağlıdır. Harvard Universitetinin ətraf mühitin gigiyenası üzrə eksperti Linda Tomassonun sözlərinə görə, ağacəkmənin sağlamlıq üçün çox böyük faydası var və havanın çirklənməsi ilə ağciyər xəstəlik-

ləri arasında əlaqəni azalda bilər. Təəccüblü deyil ki, Azərbaycanda havanı zərərli hissəciklərdən təmizləmək üçün daha çox enliyarpaqlı ağaclar əkilir.

R.Sobhani qeyd edir ki, Azərbaycanın Birinci xanımını ağacəkmə layihələrini həyata keçirməyə sövq edən daha bir amil iqtisadi amildir. Ağacların əkilməsi, onlara qulluq və nəzarət edilməsi üçün yerli sakinlərin işə götürülməsi layiqli gəlir təmin edə bilər. IDEA İctimai Birliyi ağacəkməni gənclərin hüquq və imkanlarının genişləndirilməsi üçün gözəl şans sayır. Təəccüblü deyil ki, "Coca-Cola" 2020-ci ilə qədər 100 000 ağac əkmək üçün ADA Universiteti ilə tərəfdaşlıq sazişi imzalayıb. Bu yaxınlarda Mozambikdə 2,2 milyon ağacın əkilməsini bayram edən ABŞ-ın "Eden Projects" xeyriyyə təşkilatının layihələri Mehriban Əliyevanın ağacəkmə təşəbbüslərinin səmərəliliyinin və bu təşəbbüslərin iş yerlərinin yaradılmasına qlobal təsirinin təsdiqidir. Təşkilatın baş direktoru Stiv Fitçin sözlərinə görə, ağacəkmə yerli kəndlərdə məşğulluğu artırıb.

Mehriban Əliyevanın ağacəkmə kampaniyasının qlobal nəticələri dərhal görünməsə də, potensialı çox böyükdür. Məsələn, Asiya və Afrikanın az inkişaf etmiş dövlətlərində çox vaxt elə şərait yaranır ki, işsiz cavanlar arasında radikalizm meyilləri güclənir. Ağacəkmə nəticəsində əldə edilən fundamental fayda iş yerlərinin davamlı artmasının əsasını qoya bilər. Meşəsizləşmə, ərzaq təhlükəsizliyinin təmin edilməməsi və gənclər üçün təhdidlərin yaranması ilə üzləşən müsəlman ölkələrinə gəldikdə isə ağacəkmə İŞİD və "Əl-Qaidə" kimi cinayətkar qruplaşmalara və terror təşkilatlarına qoşulmağa mümkün alternativ ola bilər.

Mehriban Əliyevanın ağacəkmə kampaniyasının qlobal miqyasda dini dözümlülüyün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşəkkülünə kömək etməsi bu kampaniyanın daha bir nəticəsidir. Dünyanın bütün əsas dinləri ağacların əkilməsini və onlara qulluq edilməsini savab iş sayır. Məsələn, yəhudilikdə Tu bi-Şvat deyilən ağacəkmə bayramı var. Quran və hədislərdə Allahın adı ilə ağac əkilməsi tez-tez xatırlanır. Bibliyada ağaclar "yaxşı qida"ya kömək edən vasitə kimi xatırlanır. Qlobal ağacəkmə kampaniyası müxtəlif etiqad və inancları olan xalqları birləşdirə bilər. Vos Fondunun məlumatına görə, bir ağacın əkilməsinin qiyməti 10 sentdən baha deyil və deməli, 1 trilyon ağacın əkilməsi 100 milyard dollara başa gələcək ki, bu da hazırda dünyanın 10 aparıcı suveren xeyriyyə fondunun sərəncamında olan 6 trilyon dollardan çox məbləğin müəyyən qismini təşkil edir.

Rob Sobhani sonda yazır ki, dünya liderlərinin bütün dünyada və öz ölkələrində ağaclar əkməklə, iqlim dəyilşmələri probleminin bu sağlam həllini tətbiq etmələrinin vaxtı çatıb.

Dünyanın ən böyük dövlətlərindən biri olan Rusiya Federasiyası ilə münasibət-



lərin möhkəmləndirilməsi Azərbaycan üçün daim prioritet olmuş, rəsmi Bakı xarici siyasətində Moskva ilə münasibətlərə xüsusi yer vermişdir. Azərbaycanın milli maraqlarının təmin edilməsi baxımından Rusiya ilə münasibətlər bir sıra istiqamətlərinə görə mühüm əhəmiyyət kəsb edir. Xüsusilə regional təhlükəsizlik və qüvvələr balansında oynadığı rola görə, Rusiya ilə təmaslar olduqca vacibdir. Minsk Qrupunun həmsədri və beynəlxalq münasibətlərin aparıcı qüvvəsi kimi rəsmi Moskva ilə işğalçılıq siyasətinin aradan qaldırılmasında bu ölkənin dəstəyinə ehtiyac vardır.

Müstəqilliyinin ilk illərində Azərbaycanın Rusiya ilə münasibətlərində gərginlik və anlaşılmazlıqlar mövcud olsa da, əlaqələrin normallaşması və inkişafı ulu öndər Heydər Əliyevin dahiyanə və qətiyyətli siyasəti sayəsində mümkün olmuşdur. Heydər Əliyevin Rusiyaya rəsmi və işgüzar səfərləri ikitərəfli münasibətlərin inkişafının sürətlənməsinə impuls verdi.

2000-ci ildə Vladimir Putinin Rusiya Federasiyasının Prezidenti seçilməsi ilə bu ölkənin rəhbərliyi Azərbaycanla münasibətlərdə daha praqmatik vəzifələr və prioritetlər irəli sürməyə başladı. Əvvəlki dövrdən fərqli olaraq, yalnız MDB çərçivəsində inteqrasiya məqsəd seçilmədi, hər iki ölkənin milli maraqları (təhlükəsizlik, iqtisadi inkişaf) daha prioritet məsələ elan olundu. Sonrakı dövrdə Azərbaycan və Rusiyanın sıx dostluq münasibətləri qurması üçün əhəmiyyətli siyasi baza formalaşdırıldı. İki ölkə arasında

bugünə kimi 150-dək hökumətlərarası sənəd imzalanıb. Bu sənədlər siyasi, hərbi-texniki, təhlükəsizlik, iqtisadi (ticarət, investisiya, maliyyə, yanacaq-energetika sahəsində əməkdaşlıq, Azərbaycan neftinin Rusiya ərazisi ilə nəql olunması), elmi, mədəni, həmvətənlərin hüquqlarının təmin olunması sahələrini əhatə edir.

Son illər Azərbaycan və Rusiya arasında bütün səviyyələrdə intensiv siyasi dialoq gedir. Birgə səylər nəticəsində hər iki tərəf üçün mühüm olan bir sıra məsələlər üzrə optimal, qarşılıqlı qəbul edilən və hər iki tərəfin xeyrinə olan həll yolları tapılıb. Dövlət sərhədi barədə müqavilə imzalanıb, Samur transsərhəd çayının mühafizəsi və rasional istifadəsi məsələsi həll edilib, Xaçmaz rayonunun iki kəndində yaşayan Rusiya vətəndaşları ilə bağlı situasiya nizama salınıb. Xəzərin statusu ilə bağlı Moskva, Bakı və Astananın mövqelərinin yaxınlaşması prosesi faktiki olaraq başa çatıb. Bu, perspektivdə bütün Xəzəryanı ölkələr arasında konsensusun əldə olunmasını təmin edə bilər.

Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolunu da qeyd eymək lazımdır. Fond iki ölkə arasında humanitar və mədəni əməkdaşlığa mühüm töhfə vermişdir. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında humanitar əməkdaşlıq əsasən humanitar sahədə əməkdaşlıq proqramlarının icrasına dəstək göstərməkdir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə son bir neçə il ərzində iki ölkə arasında yüksək səviyyədə humanitar əməkdaşlıq inkişaf edərək ye-





ni mərhələyə qədəm qoymuşdur. 2006-cı ilin fevral ayında Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Fondunda olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Mehriban xanımın misilsiz xidmətlərinə heyranlığını ifadə etmişdir. Rusiyanın dövlət başçısı Fondun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti haqqında ətraflı məlumat almış, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin təbliği ilə əlaqədar aparılan işlərə göstərdiyi köməyi yüksək dəyərləndirmişdir.

Xatirə kitabına ürək sözlərini yazan Rusiya Prezidenti bildirmişdir: "Heydər Əliyev Fondunun fəaliyyəti ilə böyük maraqla tanış oldum. Fond Azərbaycan xalqının görkəmli oğlunun xatirəsini nəinki yaşadır, həm də mühüm istiqamətlərdən birində onun işini davam etdirir, insanlara ən müxtəlif humanitar sahələrdə – təhsil, səhiyyə və s. sahələrdə kömək göstərir".

Fond 10 ildən artıqdır ki, Rusiyada bir sıra xeyriyyə aksiyaları keçirir, mədəni tədbirlərin təşkilatçısı kimi çıxış edir. Moskvada Azərbaycan məktəbinin açılması, təhsil və mədəniyyət müəssisələrinə maddi dəstəyin verilməsi, digər humanitar proqramların gerçəkləşməsi ildənilə artmaqdadır.

Yeri gəlmişkən, 2005-ci il iyunun 9-da Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə, təhsil və mə-



dəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdür. Fondun vitse-prezidenti Leyla xanım Əliyeva isə Həştərxan şəhərində Müqəddəs Knyaz Vladimirin abidəsinin ucaldıması və ətraf ərazidə yeni parkın salınmasına görə III dərəcəli "Knyaginya Olqa" ordeni ilə təltif olunmuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin möhkəmlənməsində xidmətləri çox böyükdür. Mehriban xanımın rəhbərliyi ilə Fond Rusiyanın bu regionunda sosial əhəmiyyətli bir sıra iri layihələr həyata keçirmişdir.

Həştərxanda ulu öndər Heydər Əliyevin abidəsi ucaldılmış, onun adını daşıyan bağ və 11 nömrəli ümumtəhsil məktəbinin binası yenidən qurulmuşdur. Müqəddəs Mələksima Knyaz Vladimirin abidəsi və "Arzu" uşaq əyləncə şəhərciyi də Fondun gördüyü xeyirxah işlər sırasındadır. Həyata keçirilmiş layihələrdən biri 240 yerlik uşaq bağçasının tikintisidir. Mehriban xanım Əliyevanın bu xidmətləri yüksək dəyərləndirilmiş, "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilmişdir. Həştərxan şəhə-

rində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə həyata keçirilən humanitar və digər sosialyönlü layihələrin gerçəkləşdirilməsində böyük xidmətlərinə görə Leyla xanım Əliyeva da "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeninə layiq görülmüşdür.

Azərbaycan–Rusiya əlaqələrinin inkişafında təhsil və səhiyyə sahəsində reallaşan layihələrin də xüsusi rolu vardır.

Mehriban xanımın təhsilə verdiyi xüsusi önəm Rusiya ilə həmin sahədə bir sıra birgə layihələrin həyata keçirilməsinə, uğurlu təhsil proqramlarının icrasına səbəb olmuşdur. Onun bu istiqamətdəki fəaliyyəti də hər zaman yüksək qiymətləndirilmişdir. 2012-ci ili aprelin 13-də UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" diplomu və xatirə nişanı təqdim edilməsi təhsil sahəsində xidmətlərinə verilən töhfə kimi qəbul edilə bilər.

MDTU-nun rektoru, Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü, professor Pyotr Qlıboçkonun vurğuladığı kimi, çoxsahəli fəaliyyətində Heydər Əliyev Fondu təhsil sahəsinə çox böyük diqqət yetirir. O, Heydər Əliyev Fondunun sosial və humanitar sahələri, təhsil və səhiyyə






sahələrini əhatə edən fəaliyyətindən və onun əhəmiyyətindən ətraflı danışmışdır. Fond mövcud olduğu illər ərzində səhiyyə sahəsində çox böyük iş görmüş, talassemiyaya, diabetə və digər uşaq xəstəliklərinə qarşı mübaizəyə, uşaqlar arasında ölüm hallarının sayının azaldılmasına və bütövlükdə Azərbaycanda səhiyyə sisteminin inkişafına yönəldilmiş bir sıra iri layihələr həyata keçirmişdir. Fondun dəstəyi ilə təkcə Azərbaycanda deyil, müxtəlif ölkələrdə minlərlə məktəb, habelə tibb müəssisələri və digər sosial obyektlər tikilib istifadəyə verilmişdir. P.Qlıboçko xüsusilə vurğulamışdır ki, universiteti 1988-ci ildə əla qiymətlərlə bitirmiş Mehriban xanım Əliyeva ali məktəbin fəxridir və çox sevindirici haldır ki, o, bu gün də doğma elm ocağını unutmur, universitetlə əlaqə saxlayır, onun problemlərinə böyük diqqətlə yanaşır. Elmi Şuranın yekdil qərarı ilə Mehriban xanım Əliyevaya fəxri professor adı verilmişdir.

Azərbaycan və Rusiya arasında münasibətlər və əməkdaşlıq bütün sahələr – siyasi, iqtisadi, sosial, humanitar, hərbi məsələlər uğurla inkişaf etməkdədir. Tərəflər arasında KİV sahəsində əməkdaşlıq da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Kütləvi informasiya sahəsində əldə olunmuş razılaşmalar iki ölkə arasında əməkdaşlığın inkişafında böyük rol oynayır. Bu məsələlər Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2010-cu ilin yanvarın 22-də Rusiya Dövlət Dumasının de-



putatları və Rusiyanın nüfuzlu kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşündə də xüsusi olaraq qeyd edilmişdir.

Mehriban xanım Əliyeva Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunda iştirak etmək üçün Bakıya gəlmiş qonaqlara iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla davam etdirildiyi barədə məlumat verib.

Qonaqlar Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdəki əməkdaşlıq məsələlərinə toxunaraq keçirilən Forumun tərəflər arasında mövcud münasibətlərin daha da inkişafına zəmin yaradacağına əminliklərini bildiriblər.

Bu cür görüşlər davam etdirilib, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2015-ci il aprelin 11-də Moskvada Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə növbəti görüş keçirilib. Rusiyanın TASS Agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə təşkil olunan görüşdə müxtəlif mövzuda maraqlı fikir mübadiləsi aparılıbdır.

Heydər Əliyev Fondunun və Fondun Rusiya nümayəndəliyinin Rusiyadakı uğurlu fəaliyyəti də diqqət mərkəzində olub. Mehriban xanımın bu ölkənin ictimai-mədəni həyatına verdiyi zəngin töhfə yüksək dəyərləndirilirb. Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi Rusiya nümayəndəliyinin bu ölkənin müxtəlif şəhərlərində mühüm humanitar və sosial layihələr həyata keçirdiyi də xüsusi vurğulanıbdır.

Rusiya Federasiyası Federal Məclisinin rəsmi mətbu orqanı olan "Parlamentskaya qazeta"nın 22 sentyabr tarixli

nömrəsində və nüfuzlu "Rossiyskaya Federatsiya seqodnya" jurnalının 18-ci nömrəsində tanınmış politoloq, "Ekonomiks" Beynəlxalq Araşdırmalar Birliyinin (Azərbaycan) Rusiya nümayəndəliyinin rəhbəri Aleksandr Karavayevin Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva haqqında geniş məqaləsi dərc edilib. "Mehriban Əliyeva qəlbinin siyasəti" sərlövhəli məqalədə Azərbaycanın Birinci xanımının genişşaxəli fəaliyyətinin müxtəlif istiqamətləri barədə dolğun məlumat verilmişdir.

Həmin məqalədə qeyd olunur ki, son əlli ildə qadınların siyasətdə rolunun artması müşahidə olunur. "Ölkəsinin sosiohumanitar və mədəni modernləşməsinin ilhamvericisi olan Azərbaycanın Birinci xanımı da müasir dünyanın görkəmli lider qadınları sırasındadır. Heç şübhəsiz, sonrakı dövrlərin tarixçiləri Mehriban Əliyeva fenomenini maraqla öyrənəcəklər. Bizim üçün isə bir sıra aspektlərin harmonik vəhdətindən yaranan bu fenomenin genezisini başa düşmək əhəmiyyətlidir. Bir tərəfdən Azərbaycanda Mehriban Əliyeva kimi liderin formalaşmasını taleyin qisməti hesab etmək olar. Obyektiv desək, onun təşəbbüs və təklifləri müxtəlif sivilizasiya platformalarının qovuşuğunda yerləşən Azərbaycanın sosiohumanitar və mədəni modernləşməsinin hərəkətverici amilinə çevrilib. Digər tə-


22 сентября 18:51

ПОГОДА +17° День +20° Ночь +9°

КУРС ВАЛЮТ $ 66.15 € 74.83

Парламентская газета

ИЗДАНИЕ ФЕДЕРАЛЬНОГО СОБРАНИЯ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

Совет Федерации Государственная Дума

ГЛАВНАЯ НОВОСТИ МНЕНИЯ ГОСДУМА СОВЕТ ФЕДЕРАЦИИ РЕГИОНЫ ПРЕСС-ЦЕНТР ГАЗЕТА ЭКСПЕРТЫ КОНТАКТЫ 16+

УКРАИНА ПОЛИТИКА ЭКОНОМИКА ОБЩЕСТВО В МИРЕ ПРОИСШЕСТВИЯ ПОИСК ПО САЙТУ

В МИРЕ

**Политика сердца Мехрибан Алиевой**

Сегодня, 22 сентября 2015 года 12:26

**Последние 50 лет наблюдается возрастание роли женщин в политике. В ряду выдающихся женщин-лидеров современного мира и первая леди Азербайджана - вдохновитель социогуманитарной и культурной модернизации своей страны.**

Феномен Мехрибан Алиевой наверняка с интересом будут изучать историки последующих времен. Для нас же важно понять генезис этого явления, возникшего в результате гармоничного сочетания ряда аспектов.

С одной стороны, появление в Азербайджане такого лидера, как Мехрибан Алиева, можно рассматривать как удачу судьбы. Объективно говоря, ее инициативы и предложения стали движущим фактором социогуманитарной и культурной модернизации в стране, расположенной на стыке разных цивилизационных платформ.

НОВОСТИ

17:21 В Вильнюсе прошла массовая акция, чтобы привлечь внимание к проблеме самоубийств

17:16 Небанковским кредитным организациям могут увеличить уставный капитал

17:15 Организаторы Всероссийского конкурса лучших муниципальных практик уже получили 140 заявок

17:14 Налог на прибыль будет снижен

17:11 Госдума отклонила обращение о проверке итогов выборов в Амурской области и Марий Эл

17:10 В Госдуме готовится

rəfdən, bu fenomenin milli siyasi məkanda formalaşması faktı dünya trendinə tam uyğundur. Axı Avrasiyanın şərqinin siyasi tarixi baxımından "Əliyeva amili" qadınların inqilabi şəkildə siyasətə qoşulmasının və onların dünya ölkələrinin çoxunun idarəçilik strukturlarına yol tapması imkanlarının genişlənməsinin qanunauyğun nümunəsidir. Bu mənada Azərbaycan Avrasiyanın tarixən təşəkkül tapmış "qadın siyasəti" dairəsində özünün mövcudluğunu bir daha diqqətə çatdırır".

"Mehriban Əliyeva qəlbinin siyasəti" sərlövhəli məqalədə o da vurğulanır ki, Heydər Əliyev Fondu Mehriban Əliyevanın rəhbərliyi ilə əslində, Azərbaycanın qeyri-institusional inkişaf vasitəsinə çevrilib. Fond öz layihələri ilə səhiyyə, elm və təhsil sahələrində dövlət siyasətini tamamlayır, informasiya kommunikasiyaları və ətraf mühitin mühafizəsi sahələrində ölkə üçün pilot layihələr işləyib hazırlayır: "Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfiri və Bakıda birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi misilsiz fəallığı və nüfuzu dünya səviyyəli, genişmiqyaslı bu idman hadisəsinin təşkilində böyük rol oynayıb, bu Avropa ideyasına güclü təkan və yeni Avrasiya meyarı verdi".

Həmin nəşrdə Azərbaycanın Birinci xanımının respublikamızın mədəni-ictimai həyatında yaratdığı mühüm müsbət dəyişikliklərə də nəzər salınır, Azərbaycan paytaxtının memarlıq simasının dəyişməsində rolu xüsusi vurğulanır. Qeyd olunur ki, dünyanın ən yaxşı arxitektorları tərəfindən həyata keçirilən, Bakını həqiqətən dəbdə olan müasir şəhərə çevirən bir sıra layihələr Mehriban Əliyevanın şəxsi iştirakı sayəsində mümkün olub. "Beləliklə o, öz işində iki istiqaməti – Azərbaycanın kompleks humanitar "brend" kimi dünyada irəliləməsini və ölkənin sistemli sosiomədəni inkişafını uğurla sintezləşdirə bilib. Onun rəhbərliyi ilə bu iki proses, necə deyərlər, çiyin-çiyinə irəliləyir. Sevindirici haldır ki, bu işlə sadəcə təyin edilmiş məmur deyil, fəal həyat mövqeyi, bitib-tükənməyən enerjisi və güclü xarizması olan mütərəqqi əqidəli bir insan məşğul olur. Ən başlıcası isə unutmayaq ki, indiki halda söhbət üç övlad tərbiyə etmiş cazibədar xanımdan gedir. Gözəllik ilə xeyirxahlığın vəhdəti onun hər addımını sosial reallığı dəyişən yaradıcılığa çevirir. Görünür, Mehriban Əliyeva fenomeninin sirri də elə bundadır".

"Parlamentskaya qazeta"da qeyd edilir ki, sadə azərbaycanlılar ölkənin birinci xanımını şox sevirlər. Onlar Mehriban Əliyevanın timsalında "yaxasını kənara çəkən" funksioner deyil, onların istəkləri ilə maraqlanan, protokol çərçivəsindən kənara çıxmağı, hər bir ciddi problemə münasibət bildirməyi bacaran insan görürlər. "Maraqlı fakt: nisbətən kiçik ölkədə o, hər gün "yerlərdən" təqribən 300 məktub alır. Ona yazırlar, çünki bilir-

lər ki, müraciət edib yardım, dəstək, yaxud məsləhət ala bilərlər. Azərbaycan Prezidentinin xanımı ölkə daxilindəki səfərlərdə daim onu müşayiət edir. Yəni o, necə deyərlər, göz qabağındadır və bununla da iqtidarla cəmiyyətin qarşılıqlı əlaqələrinə öz töhfəsini verir. Həm də bu, necə deyərlər, canlı töhfədir və buna görə də xalqın gözündə inzibati kommunikasiyaların standart "mexaniki" strukturlarından daha qiymətlidir, çünki xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa ictimaiyyət onu qəbul etməyəcək. İnsanlar hiss edirlər ki, birinci xanım onların qayğıları ilə yaşayır. Özü də bu, elə bir haldır ki, xarizmatik və cazibədar şəxsiyyət yüksək dərəcədə ziyalılıq ilə vəhdət təşkil edir. Mehriban Əliyeva istər aldığı tərbiyəyə, istər əsil-nəcabətinə, istərsə də təhsilinə görə (o, İ.M.Seçenov adına Moskva Tibb İnstitutunu bitirib) Azərbaycanın sovet dövrü ziyalıları mühitindən çıxıb. İndi dünyada bu səviyyəli başqa birinci xanım çətin tapılar. Bu məziyyətlərə malik olan elita nümayəndələri adətən soyuqqanlı olur, xalqın problem və qayğılarını ürəklərinə yaxın buraxmamağa çalışırlar. Həqiqətən, çətindir, amma Mehriban Əliyeva başqasının dərdinə ürəkdən şərik olmağı bacarır. Bunu rola girməklə imitasiya etmək mümkün deyil. Onun təbiəti belədir".

Nəşrdə bildirilir ki, Mehriban xanımın formalaşdığı mühit Azərbaycanın tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Mehriban Əliyeva fenomeni başqa amillərlə yanaşı, həm də iki konkret ailənin – Paşayevlər ilə Əliyevlərin qohum olmasının nəticəsidir. Mehriban xanımın babası, görkəmli Azərbaycan yazıçısı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayev əslən İrandan idi. Anası Aida İmanquliyeva tanınmış ərəbşünas olub, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq edib. "Mehriban Əliyevanın həyat yoldaşının, indiki Prezident İlham Əliyevin atasının təqdimata ehtiyacı yoxdur: Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur. Bu fakt çox şeyə dəlalət edir. Bu ailələr milli elitadır. Azərbaycanda onlarla səmimi qəlbdən fəxr edirlər. Özü də çox sadə bir səbəbdən — ölkəyə və xalqa görə məsuliyyət yükü real şəkildə onların çiynindədir. Onlar sınaqların və itkilərin ağrı-acısının nə demək olduğunu bilirlər. Çox vaxt görürsən ki, naz-nemətin çoxluğu elitanı zəiflədir. Bu ailələr isə, əksinə, şəxsi enerjiləri ilə islahatları sürətləndirir və stimullaşdırırlar. Heç şübhəsiz, söhbət müasir Azərbaycan tarixinin passionar şəxsiyyətlərindən gedir".

"Parlamentskaya qazeta"nın qeyd edilən sayında o da diqqətə çatdırılır ki, Mehriban Əliyeva Azərbaycanın və postsovet məkanının ayrılıqda götürülən tarixi baxımından müstəsna, amma qlobal proseslər baxımından obyektiv qanunauyğun fenomenidir. "Mehriban Əliyevanın adı, şübhəsiz ki, bundan sonra da müasir

dünyanın görkəmli lider qadınları sırasında olacaq. Özü də taleyin ona nə kimi gələcək hazırlamasından asılı olmayaraq. Kim bilir, bəlkə o, ölkəsində "şaquli" siyasi xətt boyunca yüksələcək, bəlkə də "üfüqi" sosial-humanitar layihələrin sayı artdıqca onun rolu da güclənəcək. İstənilən halda o, Azərbaycanın yetkin qeyri-rəsmi lideridir. Şəksiz ki, onun izi diplomatiya dünyasında da qalacaq. Azərbaycanın Birinci xanımı sivilizasiyaların qlobal dialoquna həqiqətən müstəsna töhfə verib. Mehriban xanım Qərbdə Şərqin qeyri-rəsmi elçisidir və klassik Qərb dəyərlərinin "vətəni" olan Avropanı Asiyada və öz vətənində təmsil edir. Birinci xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu Avropada islam-xristian dialoqunda böyük rol oynamağa başlayıb. Vatikanın tarixində ilk dəfədir ki, müqəddəs xristian abidələrinin bərpasına müsəlman ölkəsində fəaliyyət göstərən bir təşkilat kömək edir. Azərbaycanın özündə Fondun təşəbbüsü ilə katolik və pravoslav kilsələri, sinaqoq təmir edilir".

Rusiya parlamentinin nəşrində bildirilir ki, ənənələrin əhəmiyyətli rol oynadığı hər hansı digər ölkə kimi Azərbaycan da liderin, prezidentin siyasi zirvədə nə kimi rol oynamasından asılıdır. "Prezident İlham Əliyevin sərt və prinsipial siyasi xətti Azərbaycanın modernləşməsinin şəksiz xeyrindədir. Onun siyasəti elitanı stimullaşdırır, onu daim sərvaxt saxlayır. Belə olan halda birinci xanımın rolu nədən ibarətdir? Onun rolu Prezidentin xanımı rolu barədə adi təsəvvürlərdən xeyli yüksəkdir. Demokratiyanın Azərbaycan modelinin indiki mərhələdə inkişafı Prezidentin yanında kimin olmasından, onun komandasının şəxsən kimlərdən ibarət olmasından və ömürgün yoldaşı Mehriban xanım kimi ən yaxın adamlarından asılıdır. O, İlham Əliyevin sərtliyini müəyyən mənada yumşaldır və eyni zamanda sosial sahədə ölkə üçün "riskli" görünən maraqlı layihələrin həyata keçirilməsi baxımından onun hakimiyyətini gücləndirir, eləcə də iqtidarla cəmiyyətin birbaşa əlaqəsini emosional cəhətdən dolğunlaşdırır. Nəzərə almaq lazımdır ki, o, ölkəsinin siyasi meydanında formal statusuna görə də yetərincə nüfuzlu simadır, hakim Yeni Azərbaycan Partiyası sədrinin müavinidir. Tezliklə – noyabrın 1-də ölkə parlamentinə seçkilər keçiriləcək. Hakim partiya bu seçkilərdə cəmiyyətin arzu və istəklərinə cavab vermək bacarığını sübut etməlidir. Aydın məsələdir ki, "iqtidar partiyası" Azərbaycan cəmiyyətinin ölkənin birinci xanımına bəslədiyi məhəbbət və etimaddan da güc alır".

Məqalə müəllifləri yekun olaraq belə qənaətə gəlir ki, Azərbaycanı başa düşmək, bu ölkəni duymaq istəyirsinizsə, onda Mehriban xanım kimi bir şəxsiyyətdən yan keçmək olmaz. "Onun yeri icra hakimiyyətinin formal strukturundan kənardadır, amma İlham Əliyev hakimiyyətinin amili kimi adı böyük hərflərlə yazı-

lan siyasətdədir. Azərbaycanın sistemli sosial-iqtisadi inkişafında onun rolunu danmaq və ya diqqətdən kənarda qoymaq olmaz. Cəsarətlə deyə bilərik ki, o, Azərbaycanın tarixində daim yaşayacaq".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Prezidenti Vladimir Putinin 2019-cu il avqustun 13-də imzaladığı Fərmana əsasən, Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunması Kremlin Azərbaycanın Birinci xanımının fədakar əməyinə verilən növbəti yüksək dəyərin təcəssümü oldu. Azərbaycanın Birinci xanımı bu mükafata Azərbaycan–Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə layiq görülmüşdür.

Son illər Azərbaycan və Rusiya arasında bütün səviyyələrdə intensiv siyasi dialoq gedir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə son bir neçə il ərzində iki ölkə arasında yüksək səviyyədə humanitar əməkdaşlıq inkişaf edərək yeni mərhələyə qədəm qoymuşdur.

Heydər Əliyev Fondu 15 ilə yaxındır ki, Rusiyada bir sıra xeyriyyə aksiyaları keçirir, mədəni tədbirlərin təşkilatçısı kimi çıxış edir. Moskvada Azərbaycan məktəbinin açılması, təhsil və mədəniyyət müəssisələrinə maddi dəstəyin verilməsi, digər humanitar proqramların gerçəkləçməsi ildən-ilə artmaqdadır.

Azərbaycan–Rusiya münasibətlərinin inkişaf etdirilməsində Mehriban Əliyevanın diplomatik fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Onun təşəbbüsü ilə həyata keçirilən sosial-mədəni tədbirlər, mədəniyyətlərarası dialoq təşəbbüsləri rəsmi Moskva ilə əlaqələrin inkişaf etdirilməsində mühüm rol oynamışdır.

Mehriban xanım Əliyeva xeyriyyəçilik, humanitar və ictimai fəaliyyətinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə dəfələrlər Rusiyanın ən ali mükafatlarına layiq görülmüşdür. Onun "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeni və digər mükafatlarla təltif edilməsi zəngin ictimai fəaliyyətinə verilən yüksək dəyərdir.

Onun Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunması növbəti beynəlxalq ictimai titul hesab oluna bilər. Bu təltiflərin hər birinin arxasında prinsipiallıq, xeyirxahlıq, ən əsası, xalqına, dövlətinə, bəşəriyyətə sevgi dayanır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın mədəni-humanitar, diplomatik fəaliyyəti Azərbaycanla müxtəlif ölkələr arasında münasibətlərin genişlənməsinə, zəngin humanitar dostluq platformasının möhkəmlənməsinə dərin töhfə verməkdədir. Onun bu zəngin fəaliyyəti Azərbaycanın deyil, dünyanın mədəniyyət və humanitar əlaqələrinə yeni rəngarənglik, fəqrlilik, estetika, dizayn gətirmişdir.

Yüksək ali mükafatla təltif edilməsinə görə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə məktub ünvanlayan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin inkişafı sahəsində fəaliyyətinə verdiyi yüksək qiymətə və Rusiya Federasiyasının ali fəxri mükafatına – "Dostluq" ordeninə görə minnətdarlığını bildirmişdir. Mehriban xanım vurğulamışdır ki, Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapmış, ölkələrimiz arasında münasibətlər bir çox sahələri əhatə etməkdədir. Hazırda bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb. Azərbaycan və Rusiya öz münasibətlərini sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq əsasında qururlar. Bizim dostluğumuz və səmərəli tərəfdaşlığımız ölkələrimizin və xalqlarımızın maraqlarına tam cavab verir, regionda sülhə və sabitliyə xidmət edir.

Mehriban Əliyevanın ali mükafatla təltif olunması Rusiyanın tanınmış ictimai-siyasi xadimləri, parlament üzvləri və müxtəlif ictimai institutların nüfuzlu şəxsləri tərəfindən də təqdir olunmuşdur. Rusiya – Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirmişdir ki, Azərbaycanın Birinci vitse-prezidentinin bu mükafa layiq görülməsi iki ölkə arasında münasibətlərin gücləndirilməsində çəkilən zəhmətə verilən qiymətdir: "Hörmətli Mehriban xanım Əliyevanın olduqca rəmzi bir ordenlə təltif edilməsi Azərbaycanın Birinci vitse-prezidenti və Birinci xanımının ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin gücləndirilməsinə böyük töhfəsinə verilən qiymətdir".

Rusiya ilə Azərbaycan arasındakı dostluq münasibətlərinə Azərbaycanın Birinci vitse-prezidentinin töhfələrindən danışan deputat "Dostluq" ordeninə Mehriban Əliyevadan daha çox layiq olan şəxs tanımadığını da xatırlatmışdır: "Heydər Əliyev Fondunun rəhbəri kimi Mehriban xanımın təşəbbüsü ilə bütün dünya boyu həyata keçirilən saysız-hesabsız mədəniyyət, xeyriyyə layihələri, tədbirləri xatırlayaq. Onun birbaşa iştirakı ilə bir çox tarixi, mədəni abidələr bəşəriyyət üçün xilas edilib. İctimai inkişafın artıq əhəmiyyətini itirən Avropa modeli fonunda Azərbaycan multikulturalizminin tanıdılmasına Mehriban xanımın diqqəti isə ən yüksək təqdirəlayiqdir. Azərbaycan kimi, Rusiya da çoxmillətli ölkə olduğundan Mehriban xanıma təqdim edilən bu orden qarşılıqlı hörmətə, bir-birimizin mədəniyyətinə marağa əsaslanan birgə tarixi keçmişimizi, xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin güclənməsini ifadə edir".

Rusiyanın "Siyasi Araşdırmalar İnstitutu"nun baş direktoru, politoloq Sergey

Markov isə bildirmişdir ki, Mehriban Əliyeva xalqlarımız arasında dostluğun inkişafına böyük töhfə verir. Onun iki ölkə arasında əlaqələrin inkişafına verdiyi töhfə əvəzsizdir. “Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban Əliyeva bu qurumun fəaliyyətini Rusiya ilə Azərbaycan arasındakı mədəniyyət sahəsində müştərək layihələri dəstək məcrasına yönəldir. Ötən illər həyata keçirilən onlarla, bəlkə də yüzlərlə layihə sırasında Moskvada geniş maraq doğuran Azərbaycan rəssamlarının sərgilərini qeyd etmək olar. Sovet rəssamlıq məktəbi çox yüksək səviyyədə olub. Bakıda da Rusiyanın müasir dizaynerlərin sərgiləri təşkil olunur. Bununla yanaşı, Mehriban Əliyevanın dəstəyi ilə Həştərxan vilayətində çox sayda tədbirlər keçirilir”.

Sergey Markov qeyd etmişdir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyanın "Dostluq" ordeni ilə təltif olunması, ilk növbədə, onun mədəniyyət və humanitar sahədəki fəaliyyəti, xalqlarımız arasındakı dostluq münasibətlərinə verdiyi böyük töhfə ilə bağlıdır: “Mehriban Əliyevanın "Dostluq" ordeninə layiq görülməsi Birinci vitse-prezidentin ölkələrimiz arasındakı dostluq münasibətlərinə böyük şəxsi töhfəni təsdiq etməklə, eyni zamanda Rusiya ilə Azərbaycan arasında bu gün sürətlə inkişaf edən münasibətlərin yüksək səviyyəsini ifadə edir”.

MDB-də ən yaxın dost ölkələrdən olan Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın son illərdə artaraq müasir mərhələyə daxil olmuşdur. İkitərəfli münasibətlərin möhkəm ənənələri – səmimilik, etibarlılıq, dostluq və qarşılıqlı mənfəət formalaşmışdır. İki ölkənin rəhbərliyi səviyyəsində münasibətlərin aktivliyi ikitərəfli əlaqələrin bütün sahələrində öz əksini tapmışdır. Belarus və Azərbaycan rəsmiləri siyasət, iqtisadiyyat, vətəndaşların hüquqlarının və maraqlarının qorunması, səhiyyə, hüquq-mühafizə, humanitar və elmi-texniki əməkdaşlıq sahələrində 100-dən çox beynəlxalq müqavilə imzalamışdır.

Elmi dairələrin birgə fəaliyyəti üçün yeni maraqlı istiqamətlər üzrə böyük potensial var: işıqdiodlu texnika, enerjiyə qənaət edən texnologiyalar, suyun təmizlənməsi, biotibb və farmakologiya, aqrar sənaye kompleksi üçün texnologiyalar, nüvə texnologiyası, lazer-optik və optik-elektron texnologiyalar. Bio və nanotexnologiyalar, informasiya texnologiyaları və digər layihələr daha çox maraq cəlb edir.

Belarus və Azərbaycan təhsil, səhiyyə sahələrində də yaxşı əlaqələr qurmuşdur. Belarusda təhsil alan azərbaycanlı tələbələrin sayı son illərdə 523 nəfərədək artmışdır. Azərbaycanlı tələbələrin daha çox tibb, informasiya-kommunikasiya texnologiyaları, inşaat və arxitektura, kənd təsərrüfatı sahələrində təhsil almalarına Azərbaycanda daha çox tələbat vardır. Tibb sahəsində yüksək səviyyədə əmək-



daşlıq qurulmuşdur. Bu münasibətlərin inkişafında Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın müstəsna xidmətləri vardır.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Fondunda olması elmi-humanitar sahədə birgə əməkdaşlığa dərin töhfə vermişdir.

Müasir Azərbaycan Respublikasının çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda Avropa İttifaqının aparıcı dövlətlərindən biri olan İtaliya Respublikası ilə sıx münasibətlərin qurulması və inkişaf etdirilməsi, çevik siyasi və iqtisadi əlaqələrin həyata keçirilməsi vacib amillərdən olmuşdur. Eyni zamanda, özünün coğrafi və geoiqtisadi mövqeyi, zəngin təbii ehtiyatları ilə fərqlənən respublikamız fövqəldövlətlərin, o cümlədən İtaliyanın geostrateji maraq dairəsində olmuşdur. Dünyada sülhün və təhlükəsizliyin qorunmasında, ümumbəşəri məsələlərin həllində, xalqların və mədəniyyətlərin yaxınlaşması proseslərində, eləcə də qlobal iqtisadi layihələrin icrasında fəal iştirakı və beynəlxalq aləmdə öz layiqli yerini təsdiqləməsi İtaliya ilə etibarlı strateji tərəfdaşlığın qurulmasında mühüm rol oynamışdır.

Azərbaycan İtaliya ilə münasibətləri hər hansı üçüncü tərəfin və maraqla-

rın əsirinə çevirməməklə, qarşılıqlı faydalı münasibətlər qurmaq istiqamətində zəruri addımlar atmaqla yanaşı, bu ölkədəki bəzi siyasi qüvvələrin ölkəmizin daxili işlərinə qarışmaq, daxili və xarici siyasətlə bağlı qərarlarda iradələrini qəbul etdirmək istiqamətində təzyiqlərinə imkan verməmişdir.

Dünyadakı geosiyasi hədəflərə təsir edən əsas faktorlardan biri enerji və karbohidrogen ehtiyatlarının təhlükəsiz yollarla dünya bazarlarına çatdırılmasıdır. Bu mənada, Mərkəzi Asiya və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının ixrac marşrutları, bu xətlərin hansı ölkənin ərazisindən keçməsi çox mühüm geosiyasi əhəmiyyət daşıyır. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq neft və qazın böyük əhəmiyyəti vardır. Azərbaycan–İtaliya münasibətlərində məhz bu nöqteyi-nəzərdən enerji faktoru mühüm rol oynamışdır.

İtaliya–Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi Ulu Öndərin və onun siyasi varisi Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursunun əsas prioritetlərindən biri olmuşdur. Eyni zamanda, Mehriban Əliyevanın diplomatik fəaliyyətində İtaliya ilə əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Mehriban Əliyevanın dünyada mədəniyyətlərarası dialoqun, multikulturalizm ideyasının genişlənməsində fədakar əməyi İtaliya üçün böyük maraq kəsb etmişdir. İki ölkə arasında mədəniyyət sahəsində möhkəm əlaqələr qurulmuşdur. Onun təşəbbüsü ilə həyata keçirilən sosial-mədəni tədbirlər,



mədəniyyətlərarası dialoq təşəbbüsləri rəsmi Roma tərəfindən əlaqələrin inkişaf etdirilməsində mühüm rol oynamışdır.

2005-ci ilin mart ayında Prezident İlham Əliyevin İtaliya Respublikasına və Vatikan Dövlətinə rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər dövlətlərarası münasibətlərin inkişafında mühüm mərhələnin başlanmasına səbəb olmuşdur. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva üçün ayrıca xüsusi səfər proqramının tərtib olunması onun güclü diplomat və ictmai statusunun göstəricidir. Mehriban Əliyeva həmin proqrama uyğun olaraq, möhtəşəm tarixi abidə kimi öz füsunkar gözəlliyi ilə seçilən Prezident sarayı ilə tanış olmuş, Romadakı uşaq xəstəxanasına və nadir incəsənət muzeylərinə baş çəkmişdir.

Mehriban Əliyevanın Vatikanda keçirdiyi görüşlərdə multikulturalizmə və tolerantlığa verdiyi töhfə yüksək qiymətləndirilmişdir. Bu görüşlərdə Heydər Əliyev Fondunun təşəbbüsü və vəsaiti hesabına həyata keçirilmiş layihələr təqdir edilmiş, Mehriban xanımın bu çətin və şərəfli işi, xeyirxahlığı, dəyərli ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın İtaliya səfərləri zamanı Roma Papası ilə görüşləri də mühüm əhəmiyyət daşıyan hadisə kimi xarakterizə edilə bilər. Onun 2014-cü ilin iyun ayında Roma Papası Fransisk ilə görüşündə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etməsi qeyd edilmiş, Mehriban Əliyevanın bu əməkdaşlığın mədəni irsin qorunması sahəsində xidmətləri təqdir olunmuşdur. Heydər Əliyev Fondu tərəfindən Müqəddəs Roma katakombalarının bərpası isə xüsusilə yüksək qiymətləndirilmişdir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Vatikana səfərləri tərəflər arasında yaxın dostluq əlaqələrinin artmasına səbəb olmuş, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında 2012-ci ildə imzalanmış ikitərəfli müqavilə qardaşlıq, dostluq, əməkdaşlığın yeni müstəvidə inkişafına zəmin yaratmışdır. Fond ilə Vatikanın Mədəniyyət Nazirliyi arasında son illər humanitar sahədə olan əməkdaşlıq da dərinləşmiş, bu ölkədə mühüm layihələrin həyata keçirilməsi bəşəriyyət üçün xoş təsir bağışlayan nümunəvi addım kimi dəyərləndirilmişdir. Mehriban Əliyevanın dünya irsinin nadir incilərinə olan xüsusi hörməti Vatikanda bir çox dəyərli tarixi abidələrin bərpasına səbəb olmuşdur.

Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin və sivilizasiyaların təmas və ünsiyyət məkanı olmuşdur. Çoxmillətli, çoxkonfessiyalı ölkə kimi tolerantlıq və dözümlülük ideyaları üzərində qurulmuş Azərbaycan dövləti bu gün bütün dünyaya multikulturalizm nümunəsi təqdim edir. Ölkəmiz dinlərarası münasibətlərin ən səmərəli, ən xeyirxah forması olan



güclü platforma yaradır. Bunun bariz nümunəsi xristian abidələrinə diqqətdir. Bu baxımdan, Roma imperiyası dövrünə aid olan Zevsin heykəlinin bərpa olunmasında Heydər Əliyev Fondunun xidmətləri əvəzolunmazdır. Müqəddəs Marçellinio və Pietro katakombaları ən qədim xristian abidələri sırasında tarixi və memarlıq baxımından xüsusi yer tutur. Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakomba arasında məhz bu katakombalar xristian aləmi üçün ən mühüm və ən müqəddəs abidələrdən hesab edilir. Məhv olmaq təhlükəsi ilə üzləşən katakombaların bərpası ilə bağlı bütün dünya xristianlarına müraciət edən Vatikanın çağırışına Heydər Əliyev Fondunun cavab verməsi sivilizasiyalara, dəyərlərə verilən ən böyük ehtiram idi. Məhz Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində Müqəddəs Marçellinio və Pietro katakombaları bərpa edilmişdir. İtaliya və dünya ictimaiyyəti Fondun bu addımını dinlər və mədəniyyətlərarası dialoqun inkişafına verilən ən sanballı töhfələr kimi qiymətləndirmişdir.

Heydər Əliyev Fondu öz fəaliyyətini genişləndirərək, 2013-cü ildən etibarən İtaliyanın regionlarında da yeni layihənin həyata keçirilməsinə başlamışdır. Fondun yerinə yetirdiyi bu missiya iki ölkə arasında mədəni əlaqələrin inkişafına təsir etməklə yanaşı, İtaliya ictimaiyyəti arasında ölkəmizin müsbət imicinin formalaşdırılması və möhkəmləndirilməsi baxımından da mühüm rol oynamışdır.

Azərbaycan–İtaliya münasibətlərinin dinamikasına Heydər Əliyev Fondunun

rəhbəri Mehriban xanım Əliyevanın bu ölkənin yüksək vəzifəli dövlət və hökumət üzvləri ilə keçirdiyi görüşlər müsbət təsir göstərmişdir. Bu görüşlərdə yeni layihələrin icrası ilə bağlı aparılan səmərəli danışıqlar əsas yer tutur. 2016-cı il martın 9-da Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva İtaliyanın ölkəmizdəki səfiri Ciampaolo Kutillo ilə görüşündə də dövlətlər arasında sıx münasibətlərə təkan verən mühüm məsələlər ətrafında müzakirələr aparılmışdır.

Azərbaycan ilə İtaliya arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji sahələrində mövcud olan uğurlu əməkdaşlığa toxunan Mehriban Əliyeva humanitar əlaqələrin xüsusi əhəmiyyətindən danışmışdır. Səfir Ciampaolo Kutillo son illər Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə İtaliyada bir çox tədbirlərin həyata keçirilməsinin İtaliya ictimaiyyətində dərin minnətdarlıqla qarşılandığını diqqətə çatdırmışdır.

Mehriban xanımın 2016-cı il sentyabrın 29-da ölkəmizdə səfərdə olan İtaliya Senatında Azərbaycan–İtaliya dostluq qrupunun sədri Mauro Mariya Marinonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü də faydalı müzakirələr baxımından əlamətdar olmuşdur. Mehriban Əliyeva Azərbaycan–İtaliya əlaqələrinin nümunəvi xarakter aldığını, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun İtaliyada





mədəni abidələrin qorunması və bərpasında yaxından iştirak etdiyini diqqətə çatdırmışdır.

İtaliya Senatında nümayəndələri Azərbaycanla əlaqələrin yaxşı dostluq mühitində möhkəmləndiyini və gerçəkləşən layihələrin ikitərəfli əlaqələrin güclənməsinə xidmət etdiyini bildirmişlər. Onlar 2019-cu ildə Avropanın mədəniyyət paytaxtı elan olunan qədim Mattera şəhərinin İçərişəhərlə qardaşlaşması təklifini irəli sürüblər. Mehriban Əliyeva bunu gözəl təşəbbüs kimi dəyərləndirərək bu cür addımların regionlar arasında əlaqələrin qurulmasına yaxşı imkan yaratdığını vurğulamışdır.

Azərbaycan–İtaliya əlaqələrinin bütün sahələrdə artan dinamikası strateji tərəfdaşlığın möhkəmlənməsində mühüm rol oynamışdır. İtaliya Azərbaycanın Avropada ən güclü və böyük ticarət tərəfdaşı olmaqla yanaşı, beynəlxalq tədbirlərdə siyasi dəstəyini nümayiş etdirən ölkələrdən biridir. Rəsmi Roma Azərbaycanın haqlı mövqeyni hər zaman dəstəkləmiş, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin yanında olduğunu siyasi iradəsi ilə təsdiqləmişdir. Bu xidmətlərə görə, Azərbaycan hökuməti İtaliyanın dövlət və hökumət üzvlərini ən yüksək mükafatlarla təltif etmişdir.

2018-ci il iyulun 18-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində təltifetmə mərasimlərinin keçirilməsi dost ölkələr arasında siyasi münasibətlərin möhtəşəmliyini nümayiş etdirmişdir.

Həmin mərasimdə İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycanın ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, Prezidentin qızı Laura Mattarellanın "Şöhrət" ordeni, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesinin isə "Dostluq" ordeni ilə təltif olunmuşdur. Təltif edilən şəxslər iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı, humanitar əməkdaşlığın və dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində xidmətlərinə görə bu ordenlərlə təltif olunublar.

Azərbaycanla İtaliya arasında mədəni və humanitar sahələrdə, o cümlədən mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələrin həyata keçirilməsində Heydər Əliyev Fondunun misilsiz xidmətləri xüsusi yer tutur və Fondun icra etdiyi proqramlar İtaliya xalqının yaddaşında dərin iz buraxmışdır. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın Azərbaycan–İtaliya əlaqələrinin uğurla inkişafına verdiyi dərin töhfə qarşı tərəfin hər zaman yüksək minnətdarlığı ilə qiymətləndirilmişdir.

İtaliya Prezidentinin Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordeni və Birinci vitse-prezident Mehriban Əliyeva İtaliyanın "Xidmətlərinə görə" ordeni ilə mükafatlandırılmışdır.

Azərbaycanın xarici siyasətində Böyük Britaniya ilə əlaqələr də mühüm



yer tutur. Böyük Britaniya BP-nin Azərbaycanın neft-qaz sektorunun inkişafı və modernləşdirilməsinə verdiyi mühüm töhfələr vasitəsilə enerji sənayesində Azərbaycanın əsas tərəfdaşıdır. Bu əlaqələr siyasi baxımdan da möhkəm təməllər üzərində inkişaf edərək güclü strateji tərəfdaşlığa çevrilibdir.

İki ölkə arasında elmi-mədəni, təhsil sahəsində əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir.  Böyük Britaniya azərbaycanlıların xaricdə təhsil almağa üstünlük verdikləri aparıcı ölkələrdən biridir. Minlərlə azərbaycanlı Böyük Britaniyada təhsil alır və iki ölkənin səfirləri kimi fəaliyyət göstərirlər. Onlar ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə öz töhfələrini verirlər. Onlar Böyük Britaniya və Azərbaycan arasında şəxsi əlaqələr qurmaqla tanışlıq və anlaşmaya kömək edirlər. Böyük Britaniyada olan bu tələbələrin hər biri əlaqələrin qurulmasına can atır. Böyük Britaniya bu prosesdə xüsusilə "Chevening'' təqaüd proqramı vasitəsilə dəstək verir. Azərbaycanlılar da bu təqaüd proqramından faydalanmaqla Böyük Britaniyada magistr təhsili alırlar.

Britaniya Şurası təhsil, mədəniyyət və incəsənət sahələrinin davamlı inkişaf etdirilməsi və bu sahədə əlaqələrin qurulmasına da böyük önəm verir. Azərbaycanlılara yalnız ingilis dilinin tədrisi ilə deyil, tədris vəsaitlərinin hazırlanması, peşəkar təhsil və digər sahələrdə Britaniya təcrübəsinin mübadiləsi istiqamətində iş aparılır. Britaniya Şurasının ən böyük təsir istiqamətlərindən biri bütün ölkə ərazisində fəaliyyət göstərən dövlət məktəblərində Təhsil Nazirliyinin ingilis dilinin tədrisi və praktiki tətbiqi sahəsində apardığı islahatlara öz əhəmiyyətli töhfəsini verməkdir.

Azərbaycanla Böyük Britaniya arasında elmi-mədəni, təhsil və humanitar sahələrdə əməkdaşlığın genişlənməsinə Heydər Əliyev Fondunun və fondun rəhbəri Mehriban Əliyevanın verdiyi töhfə də xüsusi əhəmiyyət kəsb edir.

2016-cı il noyabrın 28-də Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə ikitərəfli əlaqələrin yüksək səviyyədə olmasına diqqət çəkilmişdir.

Mehriban Əliyeva Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətinin səfərinin ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirmiş, qonağın siyasi fəaliyyəti ilə yanaşı, ictimai fəaliyyətini xüsusi qeyd etmişdir. Onun uşaqlara qayğı, qadınların hüquqlarının müdafiəsi, mədəniyyət və digər sahələrdə gördüyü işləri yüksək qiymətləndirmişdir. Mehriban Əliyeva qonağın ölkəmizlə, xüsusilə

də Heydər Əliyev Fondu ilə gələcək əməkdaşlığına ümidvar olduğunu bildirmişdir.

Baronessa Emma Nikolson Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən danışaraq gələcəkdə Fondla səhiyyə sahəsində bir sıra layihələrin reallaşdırılması təklifini irəli sürmüşdür.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2017-ci il dekabrın 14-də Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhedin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü də faydalı olmuşdur.

Mehriban Əliyeva Azərbaycanın Böyük Britaniya ilə bir sıra sahələrdə əməkdaşlıq qurduğunu bildirərək enerji və iqtisadiyyatın digər sahələri ilə yanaşı, o cümlədən qeyri-neft sektorunda da geniş və uğurlu əməkdaşlığın qurulmasının vacib olduğunu diqqətə çatdırıb.

Xalqlarımızın bir-birini daha yaxından tanıması üçün humanitar sahədə əməkdaşlığı xüsusi vurğulayan Mehriban Əliyeva Azərbaycan ilə Böyük Britaniya arasında son illər təhsil sahəsində də əlaqələrin genişləndirildiyini qeyd edib, ölkəmizdə 16 məktəbdə təhsilin ingilis dilində aparıldığını, yüzlərlə azərbaycanlının Böyük Britaniyada təhsil aldığını bildirib.

Ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlıq üçün geniş imkanla-





rın olduğunu deyən Mehriban Əliyeva Azərbaycanın Təhsil Nazirliyi ilə Oksford Universiteti arasında yüksək səviyyəli əlaqələrin qurulduğunu vurğulayıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın 2019-cu il fevralın 22-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşü də əlamətdar olmuşdur. Mehriban Əliyeva artıq üçüncü dəfədir Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşdüyünü bildirərək, ölkəmizlə Böyük Britaniya arasında münasibətlərin daha da inkişaf etdirilməsində Baronessa Emma Nikolsonun töhfəsini qeyd edib.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında səhiyyə, ekologiya və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Mehriban Əliyeva ölkəmizdə aparılan islahatlardan, Azərbaycanda ekologiyaya dair icra edilən dövlət proqramlarından danışıb, səhiyyə sahəsinin daha da təkmilləşdirilməsi ilə bağlı təşəbbüsləri dəstəkləməyə hazır olduğunu bildirib.

Regionun ən yaxın dost ölkələrindən olan Azərbaycan və Gürcüstanın strateji



tərəfdaşlığı da digər ölkələr üçün nümunəvi xarakter daşıyır. Beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birinə dəstək olan, işğal edilmiş ərazilər, ölkələrin suverenliyi və bütövlüyü ilə bağlı qarşılıqlı mövqeləri sərgiləyən, dəstək verən iki ölkə son illərdə daha yaxın münasibətlər qurmuşdur. Siyasi və iqtisadi sahələrdə dinamik xətt üzrə əlaqələri dərinləşdirən tərəflər regionda birgə qətiyyətli addımlar atır, ən iri layihələri müvəffəqiyyətlə yerinə yetirirlər.

Mehriban Əliyevanın iki ölkə arasında mədəni-humanitar və ictimai-siyasi əlaqələrin dinamikliyinə verdiyi stimul xüsusi qeyd edilməlidir. 2005-ci il martın 21-də Mehriban Əliyevanın Gürcüstan prezidentinin xanımı Sandra Elizabet Rulofs ilə görüşü bu baxımdan əhəmiyyət kəsb etmişdir. Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Fondun fəaliyyəti barədə danışaraq qeyd etmişdir ki, onun əsas vəzifələrindən biri xəstə uşaqlara, o cümlədən qan xəstəliyinə – talassemiyaya tutulmuş uşaqlara yardım etməkdir. Bu məqsədlə Fond layihə həyata keçirir. Həmin layihə çərçivəsində bir sıra tədbirlər görülmüş, o cümlədən gündüz stasionarı olan tibb mərkəzi tikilmişdir.

Heydər Əliyev Fondu Gürcüstanda bir sıra mühüm layihələr həyata keçirmiş, xüsusilə də yeni təhsil ocaqları inşa etmiş, minlərlə insanın həyatında dərin izlər buraxmışdır. Fondun bu ölkədə kilsələrə təmənnasız yardım etməsini xüsusi vurğulamaq lazımdır. 2009-cu ilin noyabr



ayında Azərbaycanın Birinci xanımı Gürcüstanın Patriarxı, Katolikos II İlya ilə görüşdə gürcü cəmiyyətinə olan hörmətini ifadə etmiş, dost ölkədə bir neçə layihə həyata keçirmək planlarını diqqətə çatdırmışdır.

2019-cu il fevralın 27-də Azərbaycanda səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili ilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın görüşü iki ölkə arasında dostluğun, yaxın və səmimi münasibətlərin nümunəsi hesab edilə bilər. Mehriban Əliyeva bu səfərin dost ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edərək, müxtəlif sahələr üzrə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparmışdır.

Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin rəhbər posta seçilməsindən sonra regiona ilk səfərini dost və qardaş ölkə olan Azərbaycana etməsi çox mühüm siyasi məna kəsb edir. Azərbaycanla strateji dostluq ənənəsini davam etdirirən xanım Zurabişvili Gürcüstanın siyasi və iqtisadi perspektivinin məhz Azərbaycandan asılı olduğunu yaxşı anladığından əlaqələri dərinləşdirmək niyyətindədir. Xanım prezidentin ölkələr arasında humanitar sahədə əlaqələri daha da yüksək səviyyəyə çatdırmaq üçün yeni layihələrin həyata keçirilməsinin planlaşdırıldığını bildirməsi, mədəni mübadilələrin gücləndiriləcəyini bəyan etməsi indiyə qədər hədəf götürülmüş strateji xəttin daha yüksək zirvəyə çatmasına



əsaslar verir. Ötən illərdə hər iki tərəf xalqlararası anlaşmanı gücləndirmək istiqamətində sərgilər, konsertlər və müxtəlif mədəni tədbirlər təşkil etmiş, cəmiyyətlərin inkişafına töhfə verən bir sıra uğurlara nail olmuşlar. Sözsüz ki, burada Mehriban xanımın gerçəkləşdirdiyi humanizm siyasəti daha dərin və töhfəverici olmuşdur.

Gürcüstanın dövlət başçısı Azərbaycan Prezidenti ilə görüşdə də çox mühüm mesajlar verərək terroru və terrorçulara dərin nifrətini, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bəyan etdi. O, açıq və qətiyyətli bəyanatı ilə, həmçinin, işğalçılıq siyasətini davam etdirən Ermənistanın yeni hakimiyyətinə açıq mesaj göndərdi. Separatizmdən əziyyət çəkən Gürcüstanın liderinin "Biz son illər eyni faciələri yaşadıq. Bu gün də biz ölkə üçün ərazilərin işğalının nə demək olduğunu yaşayırıq. Ərazi bütövlüyü hələ bərpa olunmayıb. İşğal məsələsi bizim üçün hələ də açıq yara kimi qalır" bəyanatı qonşu Ermənistana da bir xəbərdarlıq idi.

Salome Zurabişvilinin səfərin nəticələrinə dair verdiyi açıqlamalar da bir daha ölkələrimiz arasında münasibətlərin mükəmməl olduğuna işarə idi: "Biz bu regionda olan və oxşar tarixi yaşayan iki ölkəyik. Eyni çətinliklərlə üzləşmişik, bir-birimizlə problemimiz olmadan eyni iğtişaşları və bəzən eyni faciələri yaşamışıq.

Əksinə, bu çətin, lakin maraqlı vaxtlarda bir-birimizə dəstək olmuş, bir-birimizdən güc almışıq. Münasibətlərimiz ona görə mükəmməldir ki, yaxın tariximiz çox maraqlı olub və bu müddətdə biz bütün region üçün mühüm olan, lakin eyni zamanda regionla məhdudlaşmayan bir sıra layihələrə imza atmışıq. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün bizim mövqelərimiz üst-üstə düşür. Mən həm Xəzər dənizini, həm Qara dənizi, həm də Şərq və Qərbi əhatə edən daha geniş coğrafiyanı nəzərdə tuturam. Bu, çox çətin, amma ümidverici bir layihədir. Düşünürəm ki, məhsuldar və dost münasibətlərimiz bizə bu kimi iddialı layihələrin öhdəsindən gəlmək imkanı verəcək".

Gürcüstan Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında tarixi-siyasi və strateji dostluq əlaqələrinin möhkəmlənməsi və dərinləşməsinə güclü təkan verməklə, siyasi əlaqələrdə yeni səhifənin açılması baxımından mühüm əhəmiyyət kəsb edir.





Azərbaycan İsrail əlaqələri qarşılıqlı maraqlara söykənir və ikitərəfli xarakter daşıyır. Bu iki ölkə arasında qarşılıqlı-faydalı münasibətlər eyni zamanda dünyada və regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.

Azərbaycan İsrailin enerji məhsulları ilə təminatında etibarlı tərəfdaş kimi çıxış edir. İsrail idxal etdiyi neftin 40 faizini Azərbaycandan alır. Həmçinin Azərbaycan və İsrail etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Azərbaycanın silah sənayesinin formalaşmasında və ordumuzun müasir silahlarla təchiz edilməsində İsrail əhəmiyyətli müttəfiq kimi mühüm rol oynayır.

İsraillə yaxşı münasibətlər Azərbaycana beynəlxalq arenada da kömək edir. Belə ki, dünya miqyasında tanınan yəhudi lobbi təşkilatları qlobal müstəvidə Azərbaycanın maraqlarının təmin olunması üçün səy göstərirlər.

Azərbaycan–İsrail əməkdaşlığının yüksələn xətt üzrə inkişafında azərbaycanlılarla yəhudilər arasında tarixən mövcud olan güclü münasibətlərin də böyük rolu var. Hazırda Azərbaycanda çoxminli yəhudi icması, İsraildə isə on minlərlə Azərbaycan əsilli yəhudi yaşayır.

Azərbaycanlılar ölkədə yaşayan yəhudilərə heç zaman özgə kimi baxmayıblar, yəhudilər də Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayıblar. Qeyd etmək yerinə düşər ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk səhiyyə naziri yəhudi əsilli şəxs olub. Azərbaycan əsilli İsrail

vətəndaşları hazırda iki ölkə arasında iqtisadi münasibətlərin inkişafına mühüm töhfə verirlər.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iki ölkə arasında bir sıra mühüm layihələrin gerçəkləşməsində fəal rol oynayır. Xüsusilə də təhsil və səhiyyə sahəsində əməkdaşlığın möhkəmlənməsində Mehriban Əliyevanın müstəsna xidmətləri vardır.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva beynəlxalq tibb elmi sahəsindəki xidmətlərinə və İsrail ilə Azərbaycan arasında səhiyyə əlaqələrinin inkişafına töhfələrinə görə İsrail Tibb Akademiyasının fəxri doktoru diplomuna layiq görülübdür.

Azərbaycan–Ukrayna münasibətləri də diplomatiya sahəsində mühüm əhəmiyyət kəsb edir. Son illərdə ikitərəfli münasibətlərimizin yüksək səviyyədə inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayıb, əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Azərbaycan ilə Ukrayna arasında mövcud əlaqələrin münasibətlərin inkişafında Heydər Əliyev Fondunun rolu da böyükdür.

2006-cı ilin fevralı ayında Azərbaycanda olan Ukrayna Prezidenti, "Ukrayna" Fondunun rəhbəri Leonid Kuçmanın Heydər Əliyev Fondunda olaraq Fondun ikitərəfli əlaqələrin inkişafına verdiyi töhfə xüsusi vurğulayıb.

Azərbaycanla Almaniya arasında mədəni və siyasi əlaqələrin inkişafında da



Mehriban xanımın xidmətləri kifayət qədərdir. Onun birbaşa təşəbbüsü sayəsində Azərbaycanın mədəniyyətinin, ənənələrinin, incəsənətinin, musiqisinin və mətbəxinin Almaniyada təbliğ edilməsi, mədəni mübadilənin təşviq olunması və yerli əhali ilə təmasların intensivləşdirilməsi məqsədilə mütəmadi olaraq tədbirlər təşkil edilir. Mehriban xanımın təşkilatçılığı ilə Almaniyada bir sıra mühüm tədbirlər keçirilmiş, Berlində "Müasir incəsənət sərgisi", Münhen, Köln, Ştutqart və Hamburqda isə "Azərbaycan mədəniyyət axşamları" yüksək səviyyədə baş tutmuşdur. Almaniyada "Azərbaycan ili" çərçivəsində Almaniyanın 12 şəhərində 100-dək müxtəlif səpkili tədbirlər təşkil edilmiş, Azərbaycanda Almaniya mədəniyyət həftələri keçirilmişdir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sivilizasiyalararası dialoqa verdiyi töhfələr bu ölkədən də yan keçməyib. Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan–Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə 2014-cü ildə Türk–Alman Dostluq Federasiyasının idarə heyətinin qərarı ilə qurumun fəxri mükafatına layiq görülməsi



də bu fədakar və yorulmaz ictimai xadimin titanik fəaliyyətinə verilmiş yüksək dəyərdir. Mükafatın təqdim olunması mərasimində Türk–Alman Dostluq Federasiyasının prezidenti Cehan Sendan bildirmişdir ki, Mehriban xanım istedadlı və bacarıqlı diplomat kimi, Almaniya ilə Azərbaycan, o cümlədən türk dünyası arasında siyasi, iqtisadi sahələrdə böyük uğurlara imza atıb.

Amaniya hökumətinin nüfuzlu ictimai-siyasi xadimləri ilə görüşlərdə Mehriban xanım ikitərəfli əlaqələrin dərinləşməsi istiqamətində səmərəli danışıqlar aparır. Onun 2016-cı il martın 14-də Almaniyanın ölkəmizdəki səfiri xanım Haydrun Tempel ilə görüşü də əlamətdar olmuşdur.

Azərbaycan ilə Almaniya arasında mövcud əlaqələrin bütün sahələrdə yüksək səviyyədə olduğunu deyən Mehriban Əliyeva münasibətlərimizin daha da inkişafı üçün böyük potensialların mövcudluğunu vurğulayıb. Görüşdə Heydər Əliyev Fondunun ikitərəfli əlaqələrin inkişafına verdiyi töhfə xüsusi vurğulanıb. Bildirilib ki, Fond alman cəmiyyətində böyük xeyirxahlıq və humanizm ünvanı kimi tanınır.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Almaniyanın ölkəmizdəki səfiri xanım Haydrun Tempel ilə görüşü də iki ölkə arasında əlaqələrin inkişafına verdiyi töhfə xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan ilə Almaniya arasında mövcud əlaqələrin bütün sahələrdə yüksək səviyyədə olduğunu qeyd edən Mehriban Əliyeva münasibətlərimizin inkişafında Haydrun Tempelin xidmətlərini xüsusi vurğulayıb. Bildirib ki, bu, ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin inkişafına önəmli töhfədir.

Görüşdə bildirilib ki, Azərbaycan Avropanın aparıcı ölkələrindən biridir. Ölkələrimiz arasındakı əməkdaşlıq qarşılıqlı maraq əsasında qurulub. Ölkələrimizin






humanitar sahədə də münasibətlərinin inkişafı üçün yaxşı potensialın mövcudluğu qeyd edilib, Heydər Əliyev Fondunun bu sahədə daha çox iş görməyə hazır olduğu vurğulanıb. Heydər Əliyev Fondunun Almaniyada bir sıra layihələr həyata keçirdiyini xatırladan Mehriban Əliyeva bu layihələrin böyük maraqla qarşılandığını, humanitar sahədə əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdırıb. Səfir Haydrun Tempel ölkələrimiz arasında münasibətlərə verilən yüksək dəyərə görə Mehriban Əliyevaya dərin təşəkkürünü bildirib. Azərbaycan ilə Almaniya arasında gözəl münasibətlərin qurulduğunu qeyd edib, Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun fəaliyyətinin ölkəmizin hüdudlarından kənarda da yaxşı tanındığını vurğulayıb.

Azərbaycanın xarici siyasətində İranla diplomatik əlqələrin də xüsusi əhəmiyyəti vardır. İki ölkə arasında ikitərəfli və digər formatlarda davam edən uğurlu regional əməkdaşlıq isə iqtisadi-siyasi münasibətləri daha da möhkəmləndirir. Bu münasibətlərin təməlində yüksək səviyyəli qarşılıqlı səfərlər dayanır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin xarici siyasət kursunun əsas istiqaməti – proritet istiqaməti ikitərəlfi münasibətlər formatıdır. Bu formatın reallaşması nəticəsində xüsusilə bizim qonşu dövlətlərdən təbii ki, işğalçı Ermənistan istisna olmaqla münasibətlərimiz ən yüksək səviyyədədir. Rəsmi Tehran da Azərbaycanın Cənubi Qafqazdakı strateji yerini və rolunu düzgün qiymətləndirir, əməkdaşlığın gücləndirilməsinə mühüm diqqət yetirir.

2005-ci il yanvarın 24-də Prezident İlham Əliyevin İrana rəsmi səfəri çərçivəsində Azərbaycanın Birinci xanımının Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin xanımı Zəhra Sadeqi Xatəmi ilə görüşü əlamətdar olmuşdur. Mehriban xanım Əliyeva Tehranda səmimiyyətlə qarşılanmış, ona xoş münasibət göstərilmişdir. Azərbaycanın Birinci xanımının İranın sabiq Prezidenti, Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşemi Rəfsəncaninin qızı Fatimə Rəfsəncani görüşü də mühüm ictimai hadisə kimi dəyərləndirilə bilər. Söhbət zamanı Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu ilə Fatimə Rəfsəncaninin rəhbərlik etdiyi Xeyriyyə Fondunun eyni missiyaya xidmət edən zəngin fəaliyyətləri maraq doğrurmuş, tərəflərin humazim fəlsəfəsinə söykənən bu xoş məramlarının cəmiyyətə verdiyi töhfə yüksək qiymətləndirilmişdir.

2017-ci il martın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü də əlamətdar hesab edilə bilər. Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin bir çox sahələri əhatə etdiyindən və bu əlaqələrin qarşılıqlı hörmət əsasında qurulduğundan şad olduğunu bildirib.

Azərbaycan ilə İran arasında münasibətlərin tarixi köklərə əsaslandığını deyən xanım Mehriban Əliyeva Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında bir çox sənədlərin imzalandığını diqqətə çatdırıbdır. Bir çox sahələrdə qurulan əlaqələrdən danışan





Azərbaycanın Birinci vitse-prezidenti humanitar sahədə əməkdaşlıq üçün daha geniş imkanların olduğunu da söylədi və bu əməkdaşlığa dəstəyini verməyə hazır olduğunu vurğulayıb.

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi Mehriban Əliyevanı İran–Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini vurğulayıbdır. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirib.

Mehriban Əliyevanın 2018-ci il martın 28-də İran İslam Respublikası Prezidentinin qadın və ailə məsələləri üzrə müavini Məsumə İbtikar ilə görüşü də ikitərəfli əlaqələrin möhkəmlənməsi baxımdan faydalı olmuşdur. Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin tarixən

dostluğa və qardaşlığa əsaslandığını qeyd edərək bu əlaqələrin bir çox sahələri, o cümlədən siyasi və mədəniyyət sahələrini əhatə etdiyini vurğulayıb.

Azərbaycanın və İranın dövlət başçıları arasında keçirilən görüşlərin ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə xidmət etdiyini bildirib. Azərbaycan ilə İran arasında münasibətlərin, bütün sahələrdə qurulan əlaqələrin güclənməkdə olduğunu deyib və bu əlaqələrin iki xalqın rifahına xidmət etdiyini vurğulayıb. Məsumə İbtikar Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ictimai və sosial sahədə həyata keçirdiyi layihələri qeyd edərək, bu layihələrin uğurla icra olunduğunu vurğulayıb.

Azərbaycan Respublikasının çoxtərəfli və balanslaşdırılmış xarici siyasətinin mühüm istiqamətlərindən biri dünyanın güc mərkəzləri və qabaqcıl dövlətləri ilə normal münasibətlərin qurulmasından ibarətdir. Bu sırada Fransa ilə dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan-Fransa münasibətləri son illərdə daha da inkişaf etmiş, Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın bu ölkəyə səfərləri ikitərəfli əlaqələrin güclənməsinə mühüm töhfə vermişdir.

Azərbaycan–Fransa mədəni əlaqələri ildən-ilə intensiv xarakter alaraq müxtəlif sahələri əhatə etmişdir. Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın dövlətlərarası əlaqələrin inkişafında verdiyi töhfə xüsusi vurğulanmalıdır. Fransanın müxtəlif ictimai təşkilatları və institutları, dövlət qurumlarının nümayəndələri ilə keçirilən səmərəli görüşlər bır sıra sahələrdə birgə layihələrin gerçəkləşməsinə dərin zəmin yaratmışdır. Mehriban Əliyevanın Fransaya davamlı səfərləri bu əlaqələrin dinamikasını daha da gücləndirmişdir.

2007-ci ilin aprelin 4-də Heydər Əliyev Fondunun prezidenti, UNESCO vo ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransaya səfəri də ikitərəfli münasibətlərin genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Mehriban xanımın Fransanın Mədəniyyət və Kommunikasiya naziri Reno Donnedyö de Vabr ilə görüşündə ölkələrimiz arasında təkcə siyasi-iqtisadi deyil, həm də mədəni əlaqələrin daha intensiv xarakter aldığı vurğulanmışdır. R.D.Vabr Fransa–Azərbaycan mədəni əlaqələrinin tarixini xatırladaraq bildirmişdir ki, bu ənənə indi də davam edir. Fransa qarşılıqlı mədəni əməkdaşlığın daha da genişləndirilməsi və inkişaf etdirilməsini istəyir. Mədəni əlaqələrin genişlənməsi sahəsində Mehriban Əliyevanın çox önəmli xidmətlərindən xəbərdar olduğunu bildirən nazir ölkəmizin Birinci xanımının Azərbaycan mədəniyyətinin dünyada tanıdılması sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir.



Qeyd olunmuşdur ki, Azərbaycanın Birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünyanın bir çox ölkələri və təşkilatları ilə mədəniyyət sahəsində əməkdaşlıq edir. Fond Fransada da mədəni tədbirlərin keçirilməsi, Azərbaycanın tanıdılması üçün konkret layihələrin reallaşdırılmasında maraqlıdır. Mehriban Əliyeva bu baxmıdan ölkələrimizdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini təklif etmişdir.

2011-ci ildə Heydər Əliyev Fondunun Fransada fəaliyyətinə başlaması ilə Avropanın bu ən zəngin zivilizasiya mərkəzlərindən birində Azərbaycan milli mədəniyyətinin və tarixinin təşviqində yeni və genişmiqyaslı təbliğat kampaniyasının təməli qoyuldu. Bu baxımdan, Fond mədəni inteqrasiyanın dərinləşməsində, qarşılıqlı mədəniyyət layihələrinin həyata keçirilməsində xüsusi rol oynadı. Heydər Əliyev Fondu Fransada ölkəmizin milli-mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti, tarixi, Azərbaycan həqiqətləri barədə geniş və dolğun məlumatların təbliği və təşviqi işində fasiləsiz olaraq böyük iş görmüşdür.

Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Fransada həyata keçirilən humanitar aksiyaların təşəbbüskarı və təşkilatçısı olmaqla yanaşı, ictimai-siyasi fəaliyyəti ilə də diqqəti cəlb etmişdir. Mehriban xanımın bu fədakar

əməyi, insanpərvərlik missiyası xoş və xeyirxah bir nümunəyə çevrilərək dünya qadınlarının cəmiyyətin həyatında fəal olmasını təşviq edir, dünyada qadın hərəkatının ictimai-siyasi proseslərdə rolunun artırılmasına stimul verir. Onun fəaliyyət arealı xeyli geniş və çoxşaxəlidir. Mənalı həyat tərzinə çevrilmiş bu fəaliyyət konsepti yorulmaq və dayanmaq bilmədən müxtəlif humanitar təşəbbüslərin gerçəkləşməsinə yönəlmişdir.

Mehriban xanım Əliyeva bildirmişdir ki, Fransa–Azərbaycan münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurulub və son illər bir çox sahələrdə sürətlə inkişaf edir: "Bu baxımdan, regionlararası münasibətlər çox vacib əhəmiyyət daşıyır. Çox gözəl bir haldır ki, son bir neçə il ərzində Azərbaycan ilə Fransanın 12 şəhəri arasında əməkdaşlıq və dostluq sazişi imzalanıb. Bu şəhərlər qardaşlaşma sazişi də imzalayıblar. Belə əlaqələr bir tərəfdən ölkələrimizi, xalqlarımızı daha dərindən, daha dolğun tanımağa imkan yaradır, digər tərəfdən iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişafı üçün yeni imkanlar açır”.

Fransa ictimai mühitində Mehriban xanımın insanpərvər ictimai xadim kimi tanınması Azərbaycanın uğuru və ictimai-siyasi tarixinə həkk olunan şərəf və qürur səhifəsidir. Heydər Əliyev Fondunun prezidenti kimi onun rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən layihələr həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda beynəlxalq ictimaiyyət, o cümlədən Fransa tərəfindən böyük rəğbətlə qarşılanmış, beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir.

2011-ci il oktyabrın 7-də Fransa Prezidenti Nikola Sarkozinin Azərbaycana səfəri çərçivəsində Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın Fransa Respublikasının “Şərəf Legionunun Zabiti” dövlət ordeni ilə təltif olunması ən mühüm tarixi hadisə kimi qeyd edilə bilər. Sarkozinin “ Siz Azərbaycanın ən yaxşı səfirisiniz, eyni zamanda Siz dünyada bütün qadınlar üçün gözəl nümunəsiniz. Siz mədəni müxtəlifliyin təşviq edilməsində şəxsən iştirak edirsiniz. Fransanın böyük dostusunuz. Siz dünya mədəni irsinin qorunmasına da töhfə verirsiniz” fikirləri Mehriban Əliyevaya olan böyük ehtiramın nümunəsi idi, onun şərəfli fəaliyyətinə verilən yüksək qiymət idi.

Mehriban xanım Azərbaycan Milli Məclisinin deputatı kimi parlamentdə Fransa–Azərbaycan dostluq qrupunun sədri kimi də dövlətlərarası münasibətlərin inkişafına böyük töhfə vermişdir. Onun humanitar və sivilizasiyalararası dialoqun genişlənməsi, mədəni müxtəlifliyin təşviq edilməsində iştirakı Fransa cəmiyyətində xüsusi rəğbət doğurmuşdur.

Azərbaycan və Fransa arasında təhsil sahəsində əməkdaşlıq da xüsusi yer tutur. Bu əməkdaşlığın zəngin tarixi vardır və rəmzi köklərə əsaslanır. Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə 50-yə



yaxın azərbaycanlı tələbə Fransanın müxtəlif elm ocaqlarında təhsil almış, Paris Universiteti, Nansi Universiteti, Lion Universiteti, Tuluza Ali Texniki Məktəbi, Nansi Ali Toxuculuq məktəbində müxtəlif ixtisaslara yiyələnmişdir.

Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü ilə iki ölkə arasında təhsil və mədəniyyət sahəsində yeni mərhələnin əsası qoyulmuş, Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunun tədris proqramlarına Azərbaycan dili əlavə edilmişdir. Azərbaycanda fransız dilinin tədrisinin genişlənməsi əməkdaşlığa dərin töhfə vermişdir. Fransanın Strasburq Universiteti ilə Azərbaycan Dillər Universiteti arasında əməkdaşlıq, Fransa arxivlərində Azərbaycan mühacir hökumətinin Fransada fəaliyyətini özündə əks etdirən sənədlərin mövcudluğu, eyni zamanda Azərbaycan arxivlərində Fransaya aid diplomatik, mədəniyyət və digər sahələrə aid sənədlərin mühafizə edilməsi tarixi ənənənin bərpasına və güclənməsinə səbəb olmuşdur.

Azərbaycanın Birinci xanımının Fransanın hökumət və dövlət strukturlarının nümayəndələri ilə intensiv xarakter alan görüşləri iki ölkə arasında sıx tərəfdaşlığın səmimi ifadəsi kimi səciyyələndirilməkdədir. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin Azərbaycan–Fran-

sa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Mehriban Əliyevanın rəhbərliyi altında deputatlardan ibarət nümayəndə heyətinin 2013-cü il mayın 21-də Parisə səfəri də bu baxımdan ciddi siyasi hadisə kimi yadda qalmışdır. Fransa Milli Assambleyasının sədri Klod Bartolonenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən səmərəli görüşlər açıq siyasi dialoqun daha da möhkəmləndiyini göstərdi. Klod Bartolonenin vurğuladığı kimi, Mehriban Əliyevanın ikitərəfli əlaqələrin inkişafında fəaliyyəti Fransa ictimaiyyətinə aydındır. Azərbaycanın Birinci xanımı atdığı prinsipial addımlarla parlamentlərarası əlaqələrin möhkəmləndirilməsində vacib rol oynayır.

Son illər tərəflər arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yeni mərhələyə qədəm qoymasında Mehriban Əliyevanın xidmətləri əvəzsizdir. İkitərəfli münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edən Mehriban Əliyeva Heydər Əliyev Fondunun Fransada uğurlu layihələrinə diqqət çəkərək bu istiqamətdə işlərin davam etdirildiyini bildirib.

Mehriban Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyətinimn Fransa Milli Assambleyasının Fransa–Azərbaycan dostluq qrupunun sədri Tierri Marianni ilə görüşü də faydalı müzakirələr şəraitində keçibdir. Görüşdə ölkələrimizin qanunverici orqanları arasında əlaqələrin daha da inkişaf etdirilməsinin, o cümlədən işçi qruplarının fəaliyyətinin gücləndirilməsinin əhəmiyyəti qeyd olunub, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanıb.



Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın Milli Assambleyanın Avropa məsələləri komissiyasının sədri xanım Daniel Orua ilə görüşündə də faydalı müzakirələr keçirilib. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər ətrafında fikir mübadiləsi aparılıb. Daniel Orua Azərbaycan ilə Avropa İttifaqı, o cümlədən Fransa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdıraraq, əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini bildirib. O, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın perspektivlərini yüksək dəyərləndirib. Mehriban Əliyeva isə Avropa strukturları ilə əməkdaşlığın ölkəmizin xarici siyasətində mühüm yer tutduğunu vurğuladı. Azərbaycanın Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramında və enerji layihələrində fəal iştirak etdiyini diqqətə çatdıran Mehriban Əliyeva Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb.

Fransa Senatının Fransa–Qafqaz dostluq qrupunun sədri Ambruaz Düpon ilə keçirilən görüşdə də iki dövlət arasında münasibətlərin strateji dostluq səviyyəsinə çatdığı vurğulanıb. Parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunan Ambruaz Düpon dostluq qrupları arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini qeyd edibdir. O, Fransada Azərbaycan mədəniyyətinin təbliğinə həsr olunan tədbirləri yüksək qiymətləndirib. Mehriban Əliyeva da ölkələrimizin





qanunverici orqanları arasındakı əməkdaşlığın inkişafı baxımından bu cür görüşlərin xüsusi əhəmiyyət kəsb etdiyini bildirərək Fransada Azərbaycan mədəniyyətini tərənnüm edən layihələrin bundan sonra da həyata keçiriləcəyini diqqətə çatdırıb.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın Fransa Senatının sədri Jan-Piyer Bel ilə də görüşü ictimai-siyasi, iqtisadi baxımdan xüsusi əhəmiyyət kəsb etmişdir.

Jan-Piyer Bel Mehriban Əliyevanın Fransa–Azərbaycan münasibətlərinin inkişafındakı müstəsna rolunu qeyd edərək Onu Fransanın həqiqi dostu adlandırmış, Fransa mədəniyyətinin Azərbaycandakı təbliğinə görə Mehriban Əliyevaya minnətdarlığını bildirmişdir. Fransa senatının sədri ölkələrimizin bütün sahələrdə əməkdaşlığının inkişaf etdiyini və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında parlament diplomatiyasının önəmini vurğulamışdır.

Mehriban Əliyeva Fransanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə yönələn səylərini yüksək qiymətləndirmiş, parlamentlərarası əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini dilə gətirən Mehriban Əliyeva Fransa Senatında ölkəmizin

dostlarının sayının artacağına inandığını qeyd etmişdir. Azərbaycanın Birinci xanımının Fransanın Frankafoniya məsələləri üzrə naziri, Fransa prezidentinin Frankafoniya üzrə xüsusi təmsilçisi xanım Yamina Benqiqi ilə görüşü də mühüm əhəmiyyət kəsb etmişdir. Yamina Benqiqi Fransa hakimiyyətinin Mehriban Əliyevanı ölkənin dostu kimi tanıdığını, onun Azərbaycan mədəniyyətinin dünyada və Fransada tanıdılması istiqamətində həyata keçirdiyi tədbirləri alqışladığını bildirmişdir. Bu baxımdan son bir neçə ayda Parisdə və ölkənin ayrı-ayrı regionlarda Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsinin uğurlu olduğunu deyən Yamina Benqiqi Fransa mədəniyyətinin və dilinin Azərbaycanda təbliğinə, o cümlədən Bakıda fransız liseyinin yaradılmasına verdiyi dəstəyə görə Mehriban Əliyevaya minnətdarlıq etmişdir.

Mehriban Əliyeva Fransanın Azərbaycan üçün önəmli tərəfdaş olduğunu, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdiyini, Azərbaycanın Fransada tanıdılması istiqamətində Heydər Əliyev Fondu tərəfindən reallaşdırılan layihələrin bundan sonra da davam etdiriləcəyini, Bakıda fransız liseyinin tikilməsi ilə bağlı layihənin uğurla başa çatdırılacağına əminliyini diqqətə çatdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Azərbaycan–Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Əliyevanın 2013-cü oktyabrın 31-də Fransa parlamentinin deputatları və senatorla-



rından ibarət nümayəndə heyəti ilə görüşü növbəti dəfə tərəflər arasında starteji münasibətlərin möhtəşəmliyini nümayiş etdirmişdir.

Görüşdə ölkələr arasında müxtəlif sahələrdə əlaqələrin genişlənməsi, həyata keçirilən mühüm proqramların əməkdaşlığın inkişafına yeni töhfələr verəcəyi qeyd edilmiş, Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirilmiş, parlamentlərarası dostluq qruplarının əməkdaşlığının iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsindəki rolu vurğulanmışdır.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan–Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Əliyevanın 2016-cı il fevralın 19-da Fransa hökumət üzvləri ilə daha bir görüşü zəngin və yaddaqalan olmuşdur. Fransa Senatının Yuxarı Departamentindən olan senatoru, Fransa–Qafqaz dostluq qrupunun üzvü Jan-Mari Bokelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Azərbaycan–Fransa əməkdaşlığının vəziyyəti müzakirə edilmişdir. Ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar sahələrdə güclü əməkdaşlığın olduğu, əlaqələrin yaxşı templərlə inkişaf etdiyi bildirilmiş, əməkdaşlığın yüksək səviyyəyə çatmasında Fransa Senatının üzvlərinin, həmçinin Azərbaycanın Fransadakı dostlarının və Fransa–Azərbaycan dostluq qrupunun üzvlərinin əməyi xüsusi vurğulanmışdır.

Mehriban xanım Əliyeva bildirmişdir ki, tərəflərin birgə fəaliyyəti nəticəsində son illər bir çox uğurlara nail olunmuş, ötən illər ərzində Fransa və Azərbaycanın



12 regionu və şəhəri arasında qardaşlaşma və əməkdaşlıq haqqında sənədlər imzalanmışdır. Mehriban xanım Fransada Azərbaycan mədəniyyəti ilə bağlı müxtəlif tədbirlərin təşkil olunduğu, bu il də belə tədbirlərin keçiriləcəyi bildirilib və bütün bunların ölkəmizin daha yaxşı tanıdılmasına xidmət etdiyi vurğulamışdır.

Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa Milli Assambleyasının nümayəndələri ilə görüşləri intensiv xarakter almış, qısa müddət ərzində hər iki tərəf arasında sıx görüşlər keçirilmişdir. Fransa Milli Assambleyasının sədri Rişar Ferran ilə 2019-cu il martın 12-də keçirilən görüş də olduqca faydalı və siyasi münasibətlərə təkan verən mühüm hadisə kimi qiymətləndirilə bilər.

Azərbaycan–Fransa əlaqələrinin inkişafından məmnunluğun ifadə edildiyi görüşdə Mehriban xanımın Fransaya növbəti səfərinin hər iki ölkənin parlamentləri arasında əlaqələrin inkişafına təkan verəcəyi bildirilib. Mehriban Əliyeva ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmindən da-





nışıb, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib. Bu cür səfərlərin ölkəmizi daha yaxından tanımaq və Azərbaycan həqiqətlərini fransız ictimaiyyətinə çatdırmaq üçün yaxşı fürsət yaratdığını bildirib. Milli dəyərlərə sadiq olan ölkəmizdə tarixlə müasirliyin gözəl sintezinin yaradıldığını diqqətə çatdırıb.

2014-cü il sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Bakı Fransız Liseyinin açılması dövlətlər arasında təhsil sahəsində əməkdaşlığın ən mühüm təntənəsi kimi yadda qalmışdır. Bakının "Ağ şəhər" adlanan ərazisində inşa olunan 320 şagird yerlik, sahəsi 14 min kvadratmetr olan liseydə təlim-tədris üçün bütün şərait mövcuddur.

Tədris müəssisəsində məktəbəqədər hazırlıq kursu daxil olmaqla ibtidai təhsil və kollec-lisey qrupları fəaliyyət göstərir. Tədris uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil müəssisəsində tətbiq edilən klassik fransız tədris planı əsasında qurulmuş, tədris proqramı Fransa milli təhsil sisteminin tələblərinə uyğun olaraq fransız dilində aparılmaqdadır. Şagirdlərə verilən attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə tam uyğundur və nazirlik tərəfindən tanınır. Bu isə məktəbin məzunları öz seçimlərinə uyğun olaraq təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsində davam etdirmək imkanı qazandırır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2019-cu il martın 11–12-də Fransa Respublikasına etdiyi səfər proqramı öz zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Tərəflər arasında

qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsi, faydalı siyasi dialoqun güclənməsi, Azərbaycan–Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir. Səfər zamanı Mehriban xanım Əliyevanın Fransanın dövlət və hökumət üzvləri, nüfuzlu elm və mədəniyyət xadimləri ilə keçirdiyi görüşlər iki ölkə arasında humanitar, mədəniyyət sahəsində əlaqələrin yeni bir səviyyəyə qalxmasına, ölkələrimizi bir-birinə daha yaxın etməsinə səbəb olmaqdadır. Azərbaycanın iqtisadi əlaqələrinin inkişafı, Fransanın Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində fəallığını artırması və Fransa ilə əlaqələrin inkişafının Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin möhkəmləndirilməsində rolu kimi bir-birindən əhəmiyyətli məsələlər Mehriban xanım Əliyevanın səfər çərçivəsində keçirdiyi görüşlərdə də əsas müzakirə mövzusu olub.

Mehriban xanım Əliyevanın Fransanın birinci xanımı Brijit Makron, Fransa Senatının sədri Jerar Larşe, Fransanın sabiq prezidenti Nikola Sarkozi, Fransa Milli Assambleyasının sədri Rişar Ferran, Fransanın mədəniyyət naziri Frank Riyester, iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşlərinin hər biri özlüyündə Azərbaycan–Fransa münasibətlərinin bu və ya digər sahələrinə işıq salır. Mehriban xanım Əliyevanın səfərinə göstərilən diqqət Azərbaycanın Birinci vitse-prezidentinin simasında ölkəmizə yüksək etimadın bariz nümunəsi kimi qiymətləndirilməlidir. Bu gün Azərbaycan–Fransa iqtisadi əlaqələrinin inkişaf səviyyəsi göz önündədir. Fransanın aparıcı şirkətləri ölkəmizdə fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdırlar. Ölkəmiz üçün ənənəvi sayılan neft və qaz sektorunda çox güclü əlaqələrimiz var. İndiyədək icra olunmuş və hazırda da icrası davam etdirilən layihələr qarşılıqlı faydalara gətirib çıxarır.

Bu gün ən ağır problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Fransanın mövqeyi ölkəmiz üçün çox önəmlidir. Mehriban xanım Əliyevanın səfər çərçivəsində keçirdiyi görüşlərdə də Dağlıq Qarabağ probleminə xüsusi diqqət yönəldilib. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh yolu ilə beynəlxalq hüququn normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayan Mehriban xanım Əliyeva bildirib ki, münaqişənin mövcudluğu bütün regionun inkişafına və təhlükəsizliyinə ciddi təhdiddir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində Fransa-

nın 59 şirkəti fəaliyyət göstərir və onların fəaliyyəti bu ölkənin milli maraqlarını ifadə edəcək qədər böyükdür. Fransanın Baş naziri ilə görüşdə dəmiryolu, kommunikasiyalar və bank sektoru ilə bağlı imzalanmış sənədlər də ondan xəbər verir ki, hər iki dövlətin maraqları əməkdaşlığın daha da dərinləşməsini tələb edir və tərəflər buna hazırdır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa səfəri rəsmi Parisin siyasi dairələri, nüfuzlu ictimai xadimləri və biznes dairələri tərəfindən də yüksək dəyərləndirilir. Fransalı iş adamları səfər çərçivəsində imzalanmış mühüm sazişlərin – "Thales" şirkəti və Bakı Metropoliteni, Mərkəzi Bank və "Rotschild & Cie" bankı, eləcə də Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasındakı sazişlərin iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının, eləcə də ikitərəfli münasibətlərin inkişafı və möhkəmlənməsi baxımından yaxşı perspektivlər yaratdığını bildirirlər. Fransa biznes icmasının əsas sütunlarından biri olan "MEDEF" İnternationalın baş direktoru Filip Qotye Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa səfərinin əhəmiyyətini xüsusi vurğulayaraq, 2019-cu ilin ikitərəfli əlaqələrin inkişafı baxımından zəngin il olacağından xəbər verdiyini bildirib: "Azərbaycanla sıx və zəngin əlaqələr qurulmasını arzulayırıq. Ümid edirik ki, tezliklə Fransa tərəfindən Azərbaycana yüksək səviyyəli səfərlər reallaşacaq. "MEDEF" İnternational olaraq, biz ikitərəfli iqtisadi əlaqələrin inkişafına maksimum töhfələr verməyə çalışacağıq. Digər layihələrlə yanaşı, istərdik ki, Bakıya fransız şirkətləri nümayəndələrinin ən yüksək səviyyəli tarixi səfərini də reallaşdıraq. Bu barədə tezliklə rəsmi məlumat verəcəyik". Baş direktor Azərbaycanda öz bürolarını açmaq istəyən yeni müəssisələr və investorların iştirakı ilə əlaqələrin şaxələndirilməsinin, eləcə də Avropa bazarlarına məhsullarını çıxaracaq Fransa-Azərbaycan birgə müəssisələrinin yaradılmasının çox vacib olduğunu diqqətə çatdırıb: "Çalışmalıyıq ki, azərbaycanlı sərmayəçiləri də Fransaya cəlb edək. Ümid edirəm ki, 2019-cu il ikitərəfli əlaqələr sahəsində ən zəngin, məhsuldar il olacaq".

Fransa Milli Assambleyasının rəsmi saytında yerləşdirilmiş məqalədə bildirilir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri Azərbaycanın Fransa ilə əlaqələrinin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Səfər zamanı Fransa rəsmiləri ilə keçirilən görüşlər, aparılan danışıqlar ikitərəfli siyasi, iqtisadi, mədəni və elmi sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi, əlaqələrin yeni istiqamətlərinin müəyyənləşdirilməsi və konkret layihələrin həyata keçirilməsi ilə bağlı geniş perspektivlər açıb.

Fransanın https://luxus.plus.com portalında dərc olunmuş "Fransa–Azərbaycan: uzun tarixi, iqtisadi əməkdaşlıq" adlı



məqalədə səfərin xüsusi əhəmiyyətindən bəhs olunub. Məqalədə qeyd edilir ki, Qafqazın güclü iqtisadi ölkəsi olan Azərbaycanla siyasi, iqtisadi və mədəniyyət münasibətlərindən necə yan keçmək olar? Fransa yaxşı anlayır ki, dünyanın stabil və regional aparıcı ölkələrinə ehtiyacı var. Buna görə də bu gün güclü iqtisadi inkişafı olan ölkələrlə ikitərəfli münasibətləri təşviq etmək zəruridir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2019-cu il iyulun 10-da Azərbaycanda səfərdə olan Fransa Sahibkarlar Təşkilatı – MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Beziönla görüşü də olduqca maraqlı və zəngin olmuş, siyasi-iqtisadi mesajlarla yadda qalmışdır. Azərbaycan ilə Fransa arasında uğurlu əməkdaşlığın qurulmasına diqqət çəkən Mehriban Əliyeva siyasi, iqtisadi, humanitar əlaqələrin son illərdə daha da intensivləşməsini müsbət amil kimi dəyərləndirmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti Fransa ilə münasibətlərin daha da şaxələnməsinə səbəb olmuşdur. Onun yüksək siyasi posta seçilməsindən sonra rəsmi Paris ilə münasibətlərin dinamikasında hərarət bir qədər də artıbdır. Fransa–Azərbaycan münasibətlərində elmi-humanitar sahələrlə yanaşı, siyasi-iqtisadi sektorlara da geniş imkanlar yaranıb. Mehriban Əliyevanın 2019-cu il iyulun 29-da Fransanın İqtisadiyyat və Maliyyə naziri ilə görüşü də bu baxımdan ikitərəfli iqtisadi münasibətlərin inkişafında təkab verən amil kimi qiymətləndirilməlidir.



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa Respublikasının İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merlə görüşündə Azərbaycan ilə Fransa arasında münasibətlərin dostluq və qarşılıqlı maraqlara əsaslandığını qeyd edilib, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirilib. İqtisadi əlaqələrin münasibətlərimizin inkişafında xüsusi yer tutduğunu vurğulayan Birinci vitse-prezident son zamanlar bu sahədə müşahidə edilən müsbət dinamikanın ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə töhfə olacağını dedi. Birinci vitse-prezident mövcud potensialdan tam istifadə etməyin vacibliyini diqqətə çatdırıb.

Mehriban Əliyeva bu görüşdə Azərbaycan iqtisadiyyatının mövcud inkişaf meyilləri haqqında da geniş məlumat verib. Bildirib ki, Azərbaycanda son illərdə iqtisadi sahədə böyük islahatlar aparılır, əsas məqsəd iqtisadiyyatın şaxələndirilməsidir, özəl sektorun rolunun artırılmasında Fransanın təcrübəsi də böyük maraq doğurur.

Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Mer də həmin görüşün iqtisadi əməkdaşlığın yeni mərhələyə çatmasında mühüm rol oynayacağına dərin əminliyini ifadə edib. Nazir qeyd edib ki, ikitərəli iqtisadi münasibətləri daha da artırmaq üçün böyük potensial mövcuddur. Bu potensialı nəzərə alaraq Azərbaycan və Fransa şirkətləri arasında əlaqələrin daha da genişləndirmək və inkişaf etdirmək mümkündür. Xüsusilə də, Azərbaycanda qeyri-neft sektorunda hə-



yata keçirilən layihələrə fransızların cəlb olunması daha aktualdır. Fransa şirkətləri hazırda Azərbaycanın özəl qurumları ilə bu istiqamətdə işgüzar əlaqələr qurmaq üçün intensiv müzakirələri artıra bilər.

Heydər Əliyev Fondu ilə yaxın əməkdaşlıq edən ölkələr arasında yaxın əməkdaşlıq edən dövlətlər arasında Baltikyanı ölkələr mühüm yer tutur. Həmin dövlətlərlə əlaqələrin inkişafında dövlət başçısının səfərləri, parlamentlərarası dostluq qruplarının, hökumət komissiyalarının səmərəli fəaliyyəti, müxtəlif iqtisadi və siyasi qurumların rəhbərlərinin görüşləri bu əlaqələrin genişlənməsində mühüm rol oynamaqdadır.

Baltikyanı ölkələrdən Litva ilə humanitar sahədə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. 2010-cu ilin iyulun 12-də Heydər Əliyev Fondu ilə Litvanın Azərbaycandakı səfirliyi arasında humanitar sahədə əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması əlaqələrin dinamikasına güclü təkan vermişdir. Mehriban xanım Əliyeva və Litvanın Azərbaycandakı səfiri Kestutis Kudzmanas tərəfindən imzalanan saziş mədəniyyət, təhsil, səhiyyə, hüquq sahələrini əhatə etmişdir.

Mehriban xanım Əliyeva bu sənədin imzalanmasının ikitərəfli əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu deyərək gələcəkdə yeni birgə layihələrin həyata keçirilməsinə zəmin yaradacağına ümidvar olduğunu söyləmişdir.

Memorandum çərçivəsində bu il xüsusi istedada malik 20 azərbaycanlı gənc Litvanın apancı universitetlərində ödənişsiz əsaslarla təhsil almaq hüququ qazanacaqdır. Litva səfiri Fondun uşaqlarla bağlı çox mühüm layihələr həyata keçirdiyini deyərək, imzalanan memorandumun azərbaycanlı gənclər üçün yeni imkanlar açdığını bildirmişdir. Qeyd etmişdir ki, Litva səfirliyi Heydər Əliyev Fondunu azərbaycanlı gənclərin bu ölkədə təhsil alması üçün ən yaxın tərəfdaşı hesab edir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2013-cü il martın 15-də Litvanın ölkəmizdəki səfiri Arturas Jurauskas ilə görüşü də Litva–Azərbaycan münasibətlərinin dostluq mühitində inkişaf etməsinin növbəti təzahürü kimi yadda qalmışdır.

Mehriban Əliyeva Azərbaycan ilə Litva arasında son illərdə elm, təhsil, texnologiyalar sahəsində yaxşı əməkdaşlığın qurulduğunu, bunu inkişaf edən hər iki ölkənin gələcəyinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etmişdir. Təhsil sahəsində həyata keçirilən proqram da qısa





müddətdə öz müsbət nəticələrini vermiş, Litvada 104 azərbaycanlı tələbənin təhsilini təmin edilməsi faydalı əməkdaşlığa dərin töhfə vermişdir.

Azərbaycanın Birinci xanımı Heydər Əliyev Fondunun Litva ilə əməkdaşlığa da böyük önəm verdiyini qeyd edərək bu istiqamətdə aparılan işləri xatırlatmış, əməkdaşlığın müxtəlif istiqamətlərdə davam etdiriləcəyinə ümidvar olduğunu xatırlatmışdır.

Baltikyanı ölkələrdən Latviya ilə əlaqələrin genişləndirilməsi də Azərbaycan üçün prioritetlərdəndir. Bu münasibətlərin inkişafında Heydər Əliyev Fondunun rəhbəri, Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın rolunu xüsusi qeyd etmək mümkündür. Mehriban Əliyevanın Latviyanın müxtəlif ictimai-siyasi, elmi-humanitar dairələri ilə keçirdiyi faydalı görüşlər ikitərəfli münasibətlərə təkan vermişdir. Azərbaycanın Birinci xanımının 2011-ci ilin yanvarın 17-də bu ölkəyə səfəri də xeyli əlamətdar olmuşdur. Onun Riqada "Saule" Sosial İnkişaf Mərkəzinə baş çəkməsi humanitar sahədə səmərəli əməkdaşlığın qurulmasında mümühm rol oynamışdır.

Səfər zamanı Mehriban xanıma beynəlxalq donorlar tərəfindən təsis olunmuş bu qeyri-hökumət təşkilatının məqsədi barədə geniş məlumat verilmişdir. Bildirilmişdir ki, Mərkəz əqli cəhətdən zəif insanların öz imkanları daxilində cə-

miyyətə maksimum inteqrasiya olunmasına yardım göstərir. Mərkəzin qayğısı ilə əhatə olunan insanların əl işləri beynəlxalq sərgilərdə nümayiş edilir. Təşkilat həm də vətəndaş cəmiyyətinin qurulmasında yaxından iştirak edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində "Saule" Sosial İnkişaf Mərkəzi Gənclərin Beynəlxalq mübadilə layihələrində yaxından iştirak edir, müxtəlif təlim-tədris proqramlarını həyata keçirir.

Azərbaycanın Birinci xanımına mərkəzin reallaşdırdığı müxtəlif xeyirxah layihələr barədə də məlumat verilmişdir. Mehriban xanım Heydər Əliyev Fondunun adından "Saule" Sosial İnkişaf Mərkəzinə noutbuklar təqdim edilmişdir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın birbaşa əməyi Azərbaycanın ən yaxın strateji müttəfiqi olan Pakistanla da ictimai-siyasi münasibətlərin hərarətini yüksəltmişdir. Onun həyata keçirdiyi humanitar layihələr Pakistanda son illər daha da genişlənmiş, bu ölkənin müxtəlif sahələrini əhatə etmişdir. Rəsmi İslamabad Azərbaycan dövlətinin bu xeyirxahlığını həmişə yüksək qiymətləndirmiş, dost və qardaş ölkə kimi davamlı dəstəyinə görə, xüsusi rəğbətini ifadə etmişdir. Mehriban Əliyevanın 2013-cü il martın 15-də Pakistan parlamentinin komitə sədri, Azərbaycan–Pakistan parlamentlərarası dostluq qrupunun üzvü xa-





nım Rubina Saadat Qaimxani ilə görüşündə də Azərbaycanın qardaşlıq köməyi xüsusi razılıq hissi ilə qarşılanmışdır. Görüşdə qeyd olunmuşdur ki, ölkələrimiz bütün sahələrdə əməkdaşlıq etməklə yanaşı, həm dövlət, həm parlament, həm də qeyri-dövlət təşkilatları səviyyəsində gözəl əlaqələr qurmuşdur. Bu əlaqələr isə xalqlarımızın da dost olmasına gətirib çıxarıb. Ölkələrimiz bütün beynəlxalq qurumlarda bir-birinin mövqeyini daim dəstəkləyirlər.

Rubina Saadat Qaimxani Heydər Əliyev Fondunun Pakistanda humanitar, təhsil, mədəniyyət, səhiyyə və digər istiqamətlərdə uğurla həyata keçirdiyi layihələrin ölkəsində minlərlə insanın sosial-mədəni həyatında müsbət rol oynamasına diqqət çəkərək Mehriban xanımın bu xeyirxah əməllərinin milyonların qəlbində dərin məhəbbətlə iz buraxdığını xatırlatmışdır. O, Pakistan xalqının göstərilən yardımlara görə Azərbaycan rəhbərliyinə, Heydər Əliyev Fonduna və şəxsən Mehriban Əliyevaya minnətdar olduğunu söyləmiş, Mehriban Əliyevaya 2012-ci ilin "Humanizm rəmzi – Dünya miqyasında apardığı xeyirxah fəaliyyətinə, bəşəriyyətin ülvi ideyalarına xidmətinə görə" qadın mükafatı təqdim etmişdir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Koreya ilə ölkəmiz arasında humanitar və elmi-mədəni, texnologiyaların inkişafı sahələrində əlaqələrin möhkəmlənməsinə verdiyi töhfə də xüsusi yer tutur. İki ölkə arasında qurulmuş yaxşı mədəni əlaqələr Azərbaycan tarixinin, mədəniyyətinin və incəsənətinin, memarlığının, ədəbiyyatının, turizm imkanlarının Koreyada geniş təbliğinə səbəb olmuş, Seulda təşkil edilmiş müxtəlif sərgi və konfranslarda ölkəmizin zəngin tarix və mədəniyyətinə dair vəsaitlər, müxtəlif nəşrlər, xalça və milli geyim nümunələri, musiqi alətləri, Bakının tarixi və müasir memarlıq abidələrinin maketi, əl işləri, milli ornamentli suvenirlər nümayiş etdirilmişdir. Eyni zamanda, Koreyada təşkil olunmuş beynəlxalq tədbirlərdə Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə Azərbaycan mədəniyyətinin tanıdılması istiqamətində keçirdiyi tədbirlərə, Azərbaycanın tolerant və multikultural dəyərlərinə aid videoçarxlar təqdim olunmuşdur.

Mehriban Əliyevanın 2013-cü il martın 15-də Koreya Respublikasının Azərbaycandakı səfiri Çoy Sukin ilə görüşü də elmi-mədəni sahələrdə münasibətlərin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Həmin görüşdə Mehriban Əliyeva Azərbaycan və Koreya arasındakı münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini və münasibətlərin yüksəlməsində dövlət başçılarının



qarşılıqlı səfərlərinin önəmini qeyd etmişdir.

Koreya Respublikasının Azərbaycandakı səfiri Çoy Sukin Azərbaycanın Birinci xanımının dünyanın bir çox bölgələrində həyata keçirdiyi nəcib və xeyirxah işlərədən məmnun qaldığını qeyd etmiş, Heydər Əliyev Fondunun bu istiqamətəki misilsiz uğurlarını təqdir etmişdir. Səfir ölkələrimiz arasında münasibətlərin inkişafında Fondun fəaliyyətinin mühüm əhəmiyyətinə toxunaraq qarşıdakı dövrdə yeni layihələrə uğurlu imza atacağına əminliyini ifadə etmişdir.

Azərbaycanın Avropa ölkələri içərisində yaxın dostlarından biri olan Macarıstanla əlaqələri də yaxın və mehriban tellərlər son illər daha da qüvvətlənmişdir. Azərbaycan və macar xalqlarını ənənəvi səmimi dostluq əlaqələri son illərdə daha da genişlənmiş, tərəflər arasında bir-birinə qarşı hörmət və rəğbət dərinləşmişdir. İkitərəfli siyasi əlaqələrin möhkəmlənməsi müxtəlif sahələrdə əməkdaşlığın nəticəsi kimi ciddi nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur. Hər iki ölkənin dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri və keçirilən yüksək səviyyəli görüşlər, vacib sənədlərin imzalanması Azərbaycanı Cənubi Qafqaz regionunda Macarıstanın strateji tərəfdaşına çevirmişdir. Azərbaycan həmçinin Macarıstanın "Şərqə açılış siyasəti" adlandırılan strategiyasında əsas dövlətlərdəndir.

Azərbaycan–Macarıstan mədəni və humanitar əlaqələrinin inkişafı da son illərdə intensivləşmiş, iqtisadi və humanitar əlaqələrin yüksək səviyyəyə çatmasında Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi rol oynamışdır. Bu fəaliyyətin nəticəsində 2015-ci ildə Macarıstanın nüfuzlu universitetlərində azərbaycanlı tələbələr üçün təqaüd və ödənişsiz yerləşmə də daxil olmaqla 200 yer ayrılmışdır. Macarıstan Semmelveis Universiteti ilə Azərbaycan Tibb Universiteti və Kapoşvar Universiteti ilə Lənkəran Dövlət Universiteti arasında elmi-mədəni əməkdaşlığın qurulması, 2014-cü ilin sentyabrında Azərbaycan Dillər Universitetində macar dili tədrisinin tətbiqi də uğurlu əməkdaşlığın nəticəsidir. Mədəniyyət sahəsində əlaqələrin möhkəmlənməsinə səbəb olan birgə proqramların həyata keçirilməsi, Bakıda macar incəsənət nümunələrinin nümayişi, "Macar mədəniyyəti günləri"ni folklor proqramları, qala-operetta, bədii sərgilərin təşkili və digər tədbirlər iki dövlət arasında sıx tərəfdaşlığın dinamikasını daha da möhkəmləndirmişdir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva xalqlar arasında dostluğun dərinləşdirilməsinə şəxsən təşəbbüs edir, Onun xeyirxah fəaliyyəti, xüsusilə kor uşaqlar üçün Laszlo Batthiani Roma Katolik Evinin yenidənqurulması və geniş-

ləndirilməsində mərhəmətli dəstəyi macar xalqının qəlbində sonsuz məhəbbət hissi yaratmışdır. Bunun ən yüksək təzahürü kimi 2016-cı ilin martında Macarısatnın Baş naziri Viktor Orbanın Azərbaycana rəsmi səfəri zamanı Mehriban xanım Əliyevanın Macarıstan qarşısındakı xidmətlərinə görə yüksək mükafatla təltif edilməsini də qeyd etmək olar.

Mehriban Əliyevanın Azərbaycanın xarici ölkələrlə əlaqələrinin genişlənməsində xidmətləri genişdir və onun diplomatik faəliyyətinin coğrafiyası çox zəngindir. Azərbaycan Prezidenti İlham Əliyevin xarici ölkələrə səfər proqramlarında yer alan Mehriban xanım üçün həmin səfərlərdə ayrıca proqramların tərtib edilməsi Birinci xanımın yüksək ictimai fəaliyyətinə verilən dəyər hesab edilməlidir. Bu cür görüşlərin hər biri maraqlı və faydalı olmaqla Azərbaycanın siyasi nüfuzunun artmasına səbəb olur. 2005-ci ilin iyunun 10-da Prezident İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri çərçivəsində dövlətimizin başçısının xanımı Mehriban Əliyeva üçün ayrıca proqramın tutulması da xüsusi qeyd edilə bilər.

Mehriban xanım Əliyevanın Xorvatiya Prezidentinin xanımı Milka Mesiç ilə görüşü iki ölkə arasında mədəniyyət, onun ayrılmaz qolu olan folklor sənətinin təbliği və bu sahədə əməkdaşlıq, habelə sə-





hiyyə, kimsəsiz və əlil uşaqlara dövlət qayğısı məsələləri barədə fikir mübadiləsinin aparılması və bu sahələrdə əməkdaşlığın qurulması ilə əlamətdar olmuşdur.

UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Zaqrebdəki mərkəzi uşaq evinə baş çəkməsi, uşaq evinin müdiriyyəti və burada tərbiyə alan balacalarla səmimi görüşü və onlara hədiyyələr təqdim etməsi Xorvatiya ictimaiyyətində dərin rəğbət doğurmuşdur.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın Qazaxıstan, Özbəkistan, Ukrayna, Belarus, Moldova və digər ölkələrin dövlət və hökumət üzvləri, tanınmış ictimai xadimlər, mədəniyyət və incəsənət xadimləri ilə keçirdiyi səmərəli və faydalı görüşlər də dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynamışdır.

Həmin ölkələrə səfərlər zamanı Mehriban Əliyevanın keçirdiyi görüşlərdə elm və təhsil, mədəniyyət, səhiyyə sahələrində əməkdaşlıq barədə razılıqlar əldə olunmuş, Heydər Əliyev Fondunun bu sahədə nərərdə tutulan layihələrinin əhəmiyyəti vurğulanmışdır.

## Millətin vəkili: ləyaqətli və layiqli xidmətin Azərbaycan nümunəsi

*"Mən Milli Məclisdə 12 illik fəaliyyətimi böyük bir ömür məktəbi kimi qiymətləndirirəm. Millət vəkili kimi əldə etdiyim təcrübə əvəzsizdir".*

**Mehriban Əliyeva**

Mehriban Əliyevanın ictimai-siyasi portretini tamamlayan cizgilər kifayət qədər zəngin və dolğundur. O, hələ Milli Məclisin deputatı seçildiyi gündən Azərbaycan dövlətçiliyinin – milli müstəqilliyimizin qorunmasına, ölkəmizin ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin inkişafına, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşmasına xidmət edən qərar və qanunların qəbul olunması üçün mühüm təşəbbüslərlə çıxış etmiş, müstəqil Azərbaycanın müasir mənzərəsinin daha da zənginləşməsində müstəsna rol oynamışdır. Bu, Azərbaycanın müstəqillik tarixində ölkəmizin inkişafı və milli qüdrətinin artmasında çox mühüm əhəmiyyətə malik olan tarixi faktdır. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyəti peşəkarlıq və səmərəlilik baxımından xüsusilə diqqətəlayiqdir. 2005, 2010 və 2015-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Mehriban Əliyeva seçicilərin böyük səs çoxluğu ilə millət vəkili statusu almışdır. Bu, həm də Mehriban xanımın fəaliyyətinə verilmiş layiqli vətəndaş qiymətinin bariz nümunəsidir. Azərbaycan seçicisi bu seçimlə dövlətçiliyimizin möhkəmləndirilməsi və xalqın rifahının yüksəldilməsi işində həm dövlət başçısı İlham Əliyevin, həm də bütün təşəbbüslərində ona öz dəstəyini əsirgəməyən Birinci xanımın yanında olduğunu bir daha sübut etmişdir. Bu, Mehriban xanım Əliyevanın dövlət, ölkə və cəmiyyət qarşısında fəaliyyətinə verilən yüksək qiymətin ifadəsi idi. Bu nəticə onu sübuta yetirdi ki, ölkə vətəndaşlarının mütləq əksəriyyəti Azərbaycanın birinci xanımının fəaliyyətini dərin sevgi və rəğbətlə qarşılayır, hər məqamda öz pozitiv münasibətini göstərir.

Millət vəkili seçilməsi Mehriban xanım üçün xalqın vəkilinin de-yure rəsmiləşməsi oldu. Birinci xanım kimi o, faktiki olaraq, yalnız 45 min seçicinin deyil, milyonların vəkilliyini edir. Millət vəkili kimi peşəkarlığı və təvazökarlığı ilə fərqlənən Mehriban xanımın xdimətlərindən biri kimi parlament institutunun inkişaf etməsi, Milli Məclisin humanitar, sosial məsələlərə daha diqqətlə yanaşmasını göstərmək mümkündür.

Mehriban Əliyeva Azərbaycanın millət vəkili kimi ictimai-siyasi proseslərdə daha aktiv rol oynamağa başlamış, ölkənin siyasi elitasının aparıcı qüvvələrindən birinə çevrilmişdir. O, bu sonsuz inam və etimadı yüksək qiymətləndirərək depu-



tatlıq fəaliyyəti dövründə humanizm, ədalət, vətəndaşa qayğı kimi prinsipləri rəhbər tutmuş, daim xalqın mənafeyindən və milli maraqlardan çıxış etmişdir.

Mehriban Əliyeva xalqının, millətinin vəkili kimi öz misilsiz ictimai və siyasi fəaliyyəti ilə xalqın seçilmiş nümayəndəsinin, ona etimad göstərən insanların maraqlarının müdafiəsində dayanan, onların problemlərinin həllinə kömək edən şəxsiyyət təcəssümünə çevrildi. Seçicilər gördü ki, onların qayğıları ilə maraqlanan deputat necə ola bilər və necə olmalıdır.

Mehriban xanımın millət vəkili kimi fəaliyyəti olduqca zəngin və yaddaqalandır. Onun seçildiyi Xəzər rayonunun ərazisində 2005-ci ildən bu günədək genişmiqyaslı işlər aparılmışdır. Bu müddət ərzində rayonda 42 məktəb, 44 uşaq bağçası, 16 uşaq evi və internat məktəbi, o cümlədən 3 uşaq evi üçün yay düşərgəsi inşa olunub və ya əsaslı təmir edilmişdir. 17 səhiyyə müəssisəsi, 10 idman obyekti, o cümlədən 6 stadion, mədəniyyət evləri, kitabxanalar, muzeylər daxil olmaqla 28 mədəniyyət obyekti, 7 məscid və ziyarətgah istifadəyə verilmişdir. Rayonun Şüvəlan, Binə, Türkan və Zirə qəsəbələrində əhalinin qaz və elektrik enerjisi ilə təminatı yaxşılaşdırılmış, Şüvəlan, Binə və Qala qəsəbələrində su xətləri çəkilmiş, rayon ərazisində ümumi uzunluğu 93 kilometr olan yollar salınmışdır.

Mehriban xanım millət vəkili kimi Xəzər rayonunu hər zaman diqqətində saxlayıb, bu rayonun bütün kənd və qəsəbə-

lərinin yeniləşməsi üçün lazım olan bütün köməyini göstəribdir. Heydər Əliyev Fondunun Xəzər rayonunda ən yaddaqalan layihələrindən biri bu rayonun və Bakı sakinlərinin hər birinin daimi istirahət və gəzinti ünvanına çevrilən tərəfindən Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın yaradılmasıdır. Xüsusi layihə əsasında tikilmiş bu istirahət və mədəniyyət obyekti ölkəmizin xüsusi zövqoxşayan məkanlarından birinə çevrilmişdir.

2015-ci il dekabrın 30-da olan açılışı olan Zirə Mədəniyyət Mərkəzi və eko-park yüksək səviyyədə qurulub, burada hər cür şərait yaradılıb Mərkəzin və eko-parkın ərazisində geniş yaşıllıq sahəsi salınıb, müxtəlif növ ekzotik bitkilər, gül və ağaclar əkilib, köşklər qurulub, su-kanal sistemi yaradılıb. Parkda insanların asudə vaxtının səmərəli keçirməsi üçün istirahət zonaları da yaradılıb, köşklər qurulub. Fəvvarələr meydançası əraziyə xüsusi yaraşıq verir. Pilləli formada yaradılan meydançada rəngarəng işıqlandırma sistemi də qurulub.

Zirə Mədəniyyət Mərkəzindəki IDEA resurs mərkəzi ölkə üzrə fəaliyyət göstərən anoloji mərkəzlərdən biridir və Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyinin ideyası ilə yaradılıb. Burada qlobal iqlim, flora və fauna dəyişikliyi problemləri, kimyəvi tullantı-



lar, ekoloji tarazlığın pozulması ilə bağlı görüşlər, "dəyirmi masa"lar keçirilir. Muzey formatında yaradılan Zirə Xalça Muzeyi də Mədəniyyət Mərkəzində yerləşir. Muzeydə 150 ildən çox yaşı olan Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri qorunur. Burada xovlu və xovsuz xalçalar, kilim, palaz nümunələri nümayiş olunur. Xüsusi elektron tanıtım sistemi ilə təchiz edilən muzeydə hər bir xalça haqqında Azərbaycan və ingilis dillərində geniş məlumat verilir.

Mərkəzdə idman və bədii gimnastika təlimləri üçün nəzərdə tutulan gimnastika zalı da yaradılıb və zal Gimnastika Federasiyası tərəfindən müvafiq avadanlıqlarla təchiz olunub. Art-studiya isə rəngkarlığın sirlərini öyrənmək istəyən müxtəlif yaş qruplarına aid istedadlı gənclərin cəlb olunması üçün nəzərdə tutulub. Studiya zəruri avadanlıq və rəngkarlıq vasitələri ilə təchiz edilib. Burada gələcəkdə tanınmış rəssamların ustad dərslərinin təşkili planlaşdırılır.

Xalça Muzeyinin nəzdində Xalçaçılıq Tədris Mərkəzi də fəaliyyət göstərir. Burada xalçalarımız haqqında praktik və nəzəri dərslər keçirilir. Bu dərslərdə müxtə-



lif yaş qruplarına aid insanlar iştirak edir. Tədris mərkəzi xalçaçılıqda istifadə olunan ləvazimatlarla və hanalarla təchiz olunub. Dərslərin səmərəli keçirilməsi üçün mərkəz Azərbaycan xalçaçılığından bəhs edən audio və videomateriallar, kitablar, kataloq və jurnallarla təmin olunub.

Zirə Mədəniyyət Mərkəzi xüsusi xidməti avtobuslarla təchiz olunub. Bundan əlavə, qəsəbə sakinlərinin rahatlığının təmin olunması üçün Zirə bələdiyyəsinə sərnişin avtobusları da verilib. Onu da deyək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Zirə Mədəniyyət Mərkəzinin yaxınlığında Suraxanı rayonu 2 saylı uşaq evi üçün 140 yerlik yay düşərgəsinin inşası başa çatmaq üzrədir.

Mehriban xanım millətin vəkili adını uca tutaraq vaxtının böyük bir hissəsini insanlara həsr edir, onlara xidmət etməkdən zövq alır, qürur duyur. Ötən illər ərzində Xəzər rayonunda yaşayan əhalini narahat edən problemlərin həlli istiqamətində bütün gücünü ortaya qoyan Mehriban xanım ona müraciət edən hər kəsə dəstək olmağa çalışmışdır. Onun özü vətəndaşlarla səmimi münasibətlərin yaratdığı xoş təəssüratı sevinc hissi ilə qeyd



edir: “Fəaliyyətimin bütün mərhələlərində mən rayon sakinlərinin dəstəyini hiss etmişəm. Bizim ünsiyyətimiz formal yox, hər zaman çox səmimi olub. Mən tam əminliklə deyə bilərəm ki, əldə etdiyimiz bütün nailiyyətlər bizim birgə fəaliyyətimiz nəticəsində həyata keçirilib. Bu illər ərzində məni dəstəkləyən hər kəsə dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, gələcəkdə də Xəzər rayonunun inkişafı üçün tam gücümlə çalışacağam”.

Mehriban Əliyevanın Milli Məclisdəki fəaliyyəti mühüm sosial-iqtisadi, siyasi sahələrdə qanunların qəbul edilməsində də xüsusi rol oynamışdır.

Azərbaycan xalqı onu humanizm və ədalət ideallarının carçısı, humanist aksiyaların müəllifi kimi tanıyır. Parlamentin qəbul etdiyi amnistiya aktları məhz onun adı ilə bağlıdır. 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktlarının qəbul edilməsi təşəbbüsünün müəllifi kimi Mehriban xanım milyonların məhəbbət ünvanına çevrilib. Onun bu təşəbbüslərlə çıxış etməsi böyük mənəvi-əxlaqi və siyasi məzmuna malikdir. Azərbaycan vətəndaşlarının çox yüksək qiymətləndirdiyi bu humanist addım qanun pozuntusuna yol vermiş insanlara yeni bir şans vermək, onların cəmiyyət həyatına qayıdaraq sosial reabilitasiya və inteqrasiyasının təmin edilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Nəticə etibarilə, amnistiya elan edilməsi haqqında qərarlar əsasında ümumilikdə 39 min 887 məhkum cəzadan azad edilib. Bu humanizmdən ən çox təskinlik tapan, sevinən də məhz Mehriban xanım olmuşdur. Özünün də qeyd etdiyi kimi, amnistiya təşəbbüsləri on minlərlə insana azadlıq bəxş etmişdir və həmin məhbusların ailələrinin sevincindən ona da pay düşmüşdür.

Mehriban xanım Əliyeva cəmiyyətdə humanizm prinsiplərinin rəhbər tutulmasının nə qədər önəmli olduğunu belə ifadə etmişdir: “Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir”. Mehriban Əliyevanın simasında Azərbaycan qadını ilk dəfə olaraq humanist dəyərləri mənəvi kamilliyin əsas meyarı kimi önə çıxarır, ədalətli cəmiyyətin bərqərar edilməsinin zəruri şərtlərini müəyyən edir. Beləliklə, Azərbaycanın qadın hərəkatında güclü dövlət, ədalətli cəmiyyət və azad qadın anlayışı bir-birinə möhkəm tellərlə bağlanaraq, sosial-mədəni inkişafımızın mütəhərrik qüvvəsinə çevrilir.

Azərbaycanın Birinci xanımının millət vəkili kimi fəaliyyəti dövründə amnistiya aktları təşəbbüsü ilə çıxış etməsi, bir-

mənalı olaraq, böyük sosial önəm daşıyır, cəmiyyətin sağlamlaşdırılmasına, onun bütövlüyünün qorunub saxlanmasına xidmət edir. Məsələnin mahiyyətini daha dərindən anlamaq üçün bir sıra məqamlara xüsusi nəzər yetirmək lazımdır. Sirr deyil ki, müasir çağırışlara uyğun olaraq inkişaf və inteqrasiya yolunu tutmuş ölkələrin qarşısında duran strateji vəzifələrdən biri modern, açıq və şəffaf cəmiyyət quruculuğunun həyata keçirilməsidir. Bu strateji kursun uğurla, dövlətçilik maraqlarına müvafiq surətdə reallaşdırılması üçün bir sira məsələləri cəmiyyətin sosial-psixoloji durumu və tələblərinə uyğun həll etmək lazımdır. Bu kontekstdə ictimai münasibətlərin fərdlərin maraqları və sosial qanunauyğunluqlar əsasında tənzimlənməsi xüsusi yer tutur. Bu, sağlam cəmiyyətin formalaşmasına xidmət edir. Məhz əfv fərmanları və sərəncamları da cəmiyyət daxilində sosial inteqrasiyanın intensiv xarakter almasına, ictimai münasibətlərin sosial tələblər və reallıqlar əsasında təşəkkül tapmasına və inkişafına əhəmiyyətli şəkildə təsir göstərir. Azərbaycan da bu baxımdan istisna təşkil etmir. Hüquqi dövlət olan, qanunların aliliyinin təmin olunduğu, sosial ədalətin təşəkkül tapdığı, ictimai münasibətlərin qarşılıqlı maraqlar və milli mənafe əsasında tənzimləndiyi Azərbaycanda əfv institutu formalaşıb, bu mütərəqqi ənənə böyük ictimai-sosial, mədəni, hüquqi və humanitar məzmun – mahiyyət kəsb edir. Bu, Azərbaycan dövlətinin öz vətəndaşlarına münasibətdə humanist mövqe nümayiş etdirdiyini, onların cəmiyyət daxilində təhlükəsiz, əmin-amanlıq şəraitində yaşamasına, öz imkan və qabiliyyətlərindən səmərəli istifadə etmələrinə xüsusi diqqət ayırdığını nümayiş etdirir. Azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən sərəncamların imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarının yanında olduğunu, dövlətin sosial dayaqlarının mütəmadi olaraq gücləndirildiyini göstərir.

Azərbaycanda məhkumların əfv olunması həm ölkə Prezidentinin imzaladığı fərman və sərəncamlar, həm də Milli Məclisin qəbul etdiyi amnistiya aktları əsasında həyata keçirilir. Qürur hissi ilə vurğulamaq lazımdır ki, ölkəmizdə humanizm siyasətinin və bu müsbət ənənənin təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər hər zaman humanizm – insanpərvərlik dəyərlərinə böyük önəm verib və bunu öz fəaliyyətində daim nümayiş etdirib. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra ölüm hökmünə moratorium qoyub. O dövrdən etibarən Azərbaycanda heç kimə ölüm hökmü tətbiq olunmayıb və sonradan bu cəza növü ləğv edilib. Bununla yanaşı, Ulu Öndərin



ölkəmizə rəhbərliyi dövründə – 1996-cı ildən başlayaraq – dəfələrlə əfv sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib. Ümummilli Liderin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Öz siyasətində daim yüksək humanizm prinsiplərini rəhbər tutan Azərbaycan Prezidentinin imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum öz azadlığına qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb. Bu günə qədər ölkəmizdə 11 dəfə amnistiya aktı qəbul edilib, 70-ə yaxın əfv fərmanı və sərəncamı imzalanıb. Sonuncu amnistiya aktı isə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilib və 10 mindən artıq insana şamil olunub. Şübhəsiz ki, Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan bu addımları yüksək dəyərləndirirlər. Bu fakt, eyni zamanda müstəqil dövlətçilik uğrunda məqsədyönlü və səmərəli fəaliyyət göstərən Mehriban xanım Əliyevanın humanizm ideyası və bəşəri ideallara, xalqa, Vətənə, dövlətə xidmət fəlsəfəsinə sonsuz önəm verdiyini göstərir.

Mehriban xanımın ötən dövrlərdə gördüyü işləri Azərbaycanın müasir həyatında güclü ictimai hərəkat dövrü kimi qiymətləndirmək mümkündür. Bu baxımdan, onun fədakar, yorulmaz və cəsarətli fəaliyyət proqramı ictimai diplomatiyanın mühüm amili kimi şərh edilə bilər.

Mehriban Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanın cəlbedici obrazı formalaşır, dünyada ölkəmizin mövqeləri daha da möhkəmlənir, günü-gündən hörməti artır. Uğur Mehriban Əliyevanın alın yazısıdır. Ona görə də onun hər addımı uğur və sevinc gətirir. Birinci xanımın uğur formulu belədir: hərtərəfli düşünmək, məqsədyönlülük, laqeyd olmamaq, başqasının sevincinə-kədərinə şərik olmaq.

Mehriban Əliyeva təşəbbüskar olmaqla yanaşı, həm də yeniliyin müəllifidir. O, ilklərə imza atan, yeni cığırlar açan novatordur, yaradıcıdır. Gözəllik və ağıl, zəriflik və iradə kimi məziyyətləri özündə ahəngdar şəkildə birləşdirən Mehriban xanım ölkə Prezidentinin layiqli və ləyaqətli həyat yoldaşı statusundan istifadə etmir. Onun özünün yüksək ictimai statusu cəmiyyət tərəfindən qəbul olunmuşdur. O, öz statusuna və mövqeyinə uyğun, hər hansı qayğılardan uzaq, kübar həyat tərzi ilə kifayətlənə bilərdi. Amma bunlar ona aid deyil. Aşkardır ki, burada da genlər amili özünü göstərir.

Mehriban Əliyeva Azərbaycana, onun qayğılarına aid bütün məsələləri öz qayğısı, onun şəxsi iştirakını və qüvvəsini tələb edən məsələlər kimi qəbul edir. O, dövlətin ictimai iştiraka və dəstəyə ehtiyacı olan fəaliyyət sahələrini hərtərəfli düşünülmüş şəkildə, inanılmaz dərəcədə dəqiqliklə seçir: gənclər siyasəti, ekoloji problemlər, ölkənin imicinin, mədəniyyətinin və ənənələrinin dünyada populyarlaşdırılması, Qarabağ münaqişəsi, Azərbaycanın xarici siyasətinin oriyentirləri haqqında obyektiv təsəvvürün formalaşdırılması və s. Mehriban xanım təmənnasız, heç bir siyasi məqsəd güdmədən çalışan sadə və olduqca səmimi insandır. Onun hər bir işində vicdan, ləyaqət, xeyirxahlıq, ədalət amili əsasdır. Fəaliyyətində və göstərdiyi xidmətlərin qayəsində məhz insan amili durur. Özünün vurğuladığı kimi, vəzifəsindən, fəaliyyət istiqamətindən asılı olmayaraq, o, həyatda hər zaman sadə prinsiplərə arxalanmışdır: “Çalışmışam heç zaman unutmayım ki, vicdan və ləyaqət, mərhəmət və xoş niyyət, ədalət və qarşılıqlı hörmət Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlərdir”.

Məhz bunun nəticəsidir ki, bu keyfiyyətləri fəaliyyətinin bütün istiqamətlərində uğurla gerçəkləşdirən Mehriban Əliyevaya inam və etimad hər gün artır. İnsan taleyinə biganəlik ona yaddır, heç vaxt xarakterində unutqanlıq, laqeydlik olmayıb. Ədalət onun həyat prinsiplərindən biridir. Ona dərin inamla müraciət edən insanlar ümidlərinin boşa çıxmayacağından əmindirlər. Çünki Birinci xanım söz verirsə, demək, problem həll olunacaq. Bunu ona ünvanlanan yüzlərlə məktub və müraciətlər, ictimaiyyətin münasibətindən görmək mümkündür. “Bu son günlər mənim ünvanıma soydaşlarımızdan çoxsaylı təbrik məktubları gəlir. Sadə insanlardan aldığım hər bir məktub, hər bir təbrik mənim üçün çox dəyərlidir”.



Mehriban Əliyevanın millət vəkili kimi fəaliyyəti medianın da daim diqqətində olub. Parlament Jurnalistləri Birliyinin dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2012-ci ildəki fəaliyyətinin qiymətləndirilməsi üçün Milli Məclisdə akkreditasiya olunmuş jurnalistlər arasında keçirdiyi sorğuda Mehriban Əliyeva birinci olub. O, seçki dairələrində seçici hüquqlarını müdafiə etdiyinə görə "Seçici hüquqlarını müdafiə edən fəal millət vəkili" nominasiyasının qalibi elan edilib.

Mehriban Əliyevanın Yeni Azərbaycan Partiyası sədrinin müavini kimi fəaliyyəti də Azərbaycanın siyasi həyatında mühüm mərhələ kimi xarakteriz edilə bilər. Yeni Azərbaycan Partiyasının 2013-cü il iyunun 7-də keçirilmiş V qurultayında Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın hakim partiyanın sədr müavini seçilməsi cəmiyyət tərəfindən böyük rəğbət və sevinclə qarşılandı. İctimaiyyət partiya strukturunda bu dəyişikliyi hakim partiya üçün böyük bir hadisə kimi dəyərləndirdi.

Azərbaycanın ictimai-siyasi həyatında kifayət qədər tanınan, müsbət imicə malik olan, ölkəmizin dünyada tanıdılması üçün böyük işlər görən Mehriban xanım Əliyevanın YAP sədrinin müavini seçilməsi partiyanın nüfuzunun daha da

artması, həmçinin partiyanın başqa ölkələrdə yüksək səviyyədə əlaqələrin qurulması baxımından güclü zəmin oldu. Həmin gün Mehriban xanım Əliyevanın şəxsində, ümumilikdə, Azərbaycan qadınına göstərilən böyük etimadın təcəssümü idi. Mehriban xanımın bu vəzifəyə seçilməsi ilə Azərbaycan qadınının siyasətdə təmsilçiliyinə böyük dəyər verildi və bu fakt qadınlarımızın Yeni Azərbaycan Partiyasına axınını daha da stimullaşdırdı. Çünki qadınlarımız bir daha dərk etdilər ki, YAP-ın üzvü olmaq şərəfdir, YAP-ı təmsil etmək qürurdur. Əqidəli yeni azərbaycanlı olmaq ali mənəviyyat və yüksək ləyaqətdir. Dünyada ən böyük məktəb - hansısa dəyərli keyfiyyəti əxz etmək üçün təsirli vasitə bir insanın öz həyat və fəaliyyəti ilə yaratdığı şəxsi nümunədir. Mehriban xanım Əliyeva, bu mənada, Azərbaycan qadınları üçün müasir dünyamızda bəşəriyyətə faydalı olmağın yeni meyarlarını müəyyən edən parlaq örnəkdir. Müasir Azərbaycan tarixinə dünyanın bir çox demokratik, sivil ölkələrinin ictimai həyatında faydalı bir norma kimi çoxdan sabitləşmiş birinci xanım ənənələrini gətirən Mehriban Əliyeva, ümumilikdə, bəşəriyyətə təlqin etdiyi prinsiplərlə mədəni dəyərlərə sayğını, insanın insana mərhəmətini, sevgisini, xeyirxahlığı, tolerantlığı, dözümlülüyü müasir dünyamızda insan həyatının əsas mənası kimi gündəmə gətirir. Bu gün mədəniyyətlər



arasında dialoq məkanına çevrilmiş Azərbaycanda təşkil edilən beynəlxalq tədbirlər, bütün dünyada bu yöndə aparılan maarifləndirmə ilə multikulturalizmi, savadlılığı, sivilizasiyalar arasında qarşılıqlı təmasları dünyanı bir çox bəlalardan, konfliktlərdən, toqquşmalardan hifz edə biləcək dəyər kimi diqqətə çatdırır. Onun təşəbbüsü ilə Azərbaycan mədəniyyəti incilərinin – səsimizin, sözümüzün bütün dünyada təbliği, dövlətimizin dəstəyi ilə ölkə daxilində və xaricdə keçirilən mədəni tədbirlər reallaşdırılan layihələrlə Azərbaycan özü bu prosesin ən fəal iştirakçısı qismində çıxış edir.

## Birinci vitse-prezident: siyasətdə qadın ledi

*"Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır".*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

Mehriban Əliyeva ictimai-siyasi fəaliyyəti ilə nikbin və gələcəyə ümidlə baxan, uğurlu qadındır. Peşəkar siyasətçi qabiliyyəti, liderlik keyfiyyətləri, xalqın sonsuz rəğbəti Mehriban Əliyevaya siyasi həyatda böyük uğurlar qazandırdı. Məqsədi, məramı, məsləki, idealı ona etibar edilmiş vəzifəni alnıaçıq və şərəflə yerinə yetirməkdir. O, öz işinin ustasıdır. Bu baxımdan, hamı onunla qürur duyur, fəxr edir. Mehriban xanım həm də xalqın ideallarının lideridir. O, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın quruculuq salnaməsinin inkişaf etdirilməsində yorulmadan çalışır.

Mehriban Əliyeva "Baku" jurnalına müsahibəsində çox maraqlı məqamlara diqqət çəkərək qeyd edir ki, ölkənin Birinci xanımı olmaq heç də asan deyil: "Tədricən kameralara, sənə zillənən baxışlara öyrəşirsən. Bunu öz həyat atributun kimi qəbul edirsən. Ölkə Prezidentinin həyat yoldaşı olmaq elə onun özü qədər məsuliyyətli işdir. Bunu başa düşmək vacibdir ki, sən yalnız özünü və ailəni yox, həm də haradasa öz ölkəni təmsil edirsən. Sözlər, hərəkətlər, davranış hamısı yerində olmalıdır. Xoşbəxtlikdən, mən hələ uşaqlıqdan öz valideynlərimə, ailəmə layiq övlad olmağa çalışmışam. Bu gün belə bir məsuliyyət bizim uşaqlarımızın üzərinə düşür və mən fəxr edirəm ki, onlar şərəflə bu cür asan olmayan bir işin öhdəsindən gəlirlər".

Mehriban Əliyeva qeyd edir ki, ailə həyatındakı çoxillik təcrübəsi ona çox şey öyrədib: "İlham hər hansı problemi düzgün qiymətləndirə və nəticəni əvvəlcədən görə bilir. Mən onun məsləhətlərini dinləyirəm, amma öz intuisiyama da güvənirəm. Əlbəttə, elə hallar olur ki, baxışlarımız tutuşmur. Amma bu, mübahisə

üçün səbəb ola bilməz. Biz artıq çoxdan bir-birimizə hörmət etməyi öyrəşmişik".

Ölkənin Birinci xanımı həyat yoldaşı İlham Əliyevlə fəxr etdiyini də gizlətmir. Onun sözlərinə görə, sonsuz vətənpərvərlik, öz işinə sadiqlik, şərtsiz milli maraqları müdafiə etmək əsl dövlət xadiminə xas xüsusiyyətlərdir. Birinci xanım onu da vurğulayıb ki, siyasətçi qadının dəqiq məqsədi olmalıdır. O, məhz bunun xətrinə siyasətə gəlir. Qoyulmuş məqsədlərə çatmaq üçün güc və mənlik əsas şərtdir. Cəmiyyətin inkişafı, müasir trendlər, yeni davranış modellərinin yaranması, yeni tələbatların formalaşması fərdlərin fəallığını yüksəldir və onun daxili dinamikliyini artırır. Maraq və mənafelərin təmin olunması isə qadının siyasi proseslərə fəal qoşulmasını yüksəltmiş olur. Qadının siyasiləşməsinin, siyasi aktivliyinin yüksəlməsi cəmiyyətdəki proseslərin siyasi tarazlığı dinamikasının inkişafında vacib şərtdir. Kiçik qruplardan, təşkilatlardan tutmuş böyük siyasi partiyalara və dövlət strukturlarında müəyyən sahələrə rəhbərliyədək bütün vəzifələrdə olan qadınların təsir gücü, sosial-siyasi proseslərdə əsas həlledici təsirə malik olmaq imkanları da dinamikləşmişdir. Qadınların ictimai-siyasi proseslərdə fəal iştirak etməsi bir sıra mühüm amillərlə bağlıdır. Bunlardan biri – problemlərin həlli zərurəti cəmiyyətin əsas üzvləri kimi qadınları da yeni proseslərdə iştirak etməyə sövq etmişdir. Bu proseslər nə qədər çətin xarakter daşısa da, öz məzmunu etibarilə mütərəqqi cəhətlərə malikdir.

Hazırda dünyanın təhlükəli nüvə silahlarından xilas olmaq təşəbbüsü yeni nəslə öz sözünü demək imkanı yaratmışdır. Bu prosesin fonunda qadınlar demokratik, ekoloji, mənəvi arenalarda kök salmış neqativ halları aşkarcasına tənqid etmək imkanı əldə etmişlər. Digər tərəfdən, düşdüyü qloballaşmanın təzahürləri getdilkcə artır və bu təsirlər daha çevik milli dircəliş, milli özünüdərk, eləcə də müasirləşmə prosesi yaradır. Eyni zamanda, qadınların həyatına müasir sivilizasiyanın ümumbəşəri keyfiyyətlərinin harmonik təsiri də əsas mühüm amillərdən birinə çevrilmişdir.

Hər bir qadının fəal siyasətə qoşulması onun sosial statusuna, yəni yaşına, cinsinə, mənşəyinə, peşəsinə və ailə vəziyyətinə görə cəmiyyətdə tutduğu yerlə şərtlənir. Qadının siyasi sosiallaşması səviyyəsi, əvvəla, onun fəal siyasətə şərait yaradan sosial-psixoloji mexanizmlərin vəhdəti ilə, digər tərəfdən isə siyasi fəallığının yüksəlməsi kimi amillərlə tənzimlənir. Cəmiyyətdə sosial müdafiənin yüksəlməsi qadınların aktiv fəaliyyətinə səbəb olan amillərdəndir. Yəni artıq cəmiyyətdə birgə fəaliyyət mexanizmi, əxlaqi dəyərlərin getdikcə nizamlanması prinsipləri, əksər fərdlər kimi, qadınları da daha çox düşünməyə sövq edir, onları fəallaşdırır. Fəal, məzmunlu, şüurlu davranış isə siyasi aktivliyin göstəricisi kimi çıxış edir.

Məhz bu nöqteyi-nəzərdən, mənsub olduğu cinsin mənafeyini tam aydın, düzgün anlama qabiliyyəti, dərk etməsi, mənimsəməsi və reallaşdırması səviyyəsindən, öz qarşısına hansı məqsədi qoymasından, ona nail olmaq üçün hansı mümkün vasitə və imkanlardan istifadə etməsindən, cəmiyyətdəki prosesləri necə qavrayıb, ona necə müdaxilə etməsindən, hadisələrdən necə baş çıxarmasından, hansı siyasi biliklərə yiyələnməsindən, hansı siyasi əqidəyə mənsubiyyətindən asılı olaraq, qadınların siyasi fəallığı müxtəlif formalarda və səviyyələrdə təzahür edir.

Mehriban Əliyeva qadın hərəkatının fəal nümayəndəsi kimi müasir siyasi tariximizə daxil olmuş liderdir. Onun cəmiyyət qarşısında xidmətlərini konkret olaraq bir sahə ilə məhdudlaşdırmaq mümkün deyil. Onun fəaliyyət dairəsi kifayət qədər geniş, gördüyü işlərin məzmunu olduqca dərindir. İstənilən zaman müddətində sosioloji sorğu təşkil etsək, respondentlərin mütləq əksəriyyəti Mehriban xanım Əliyevanın bəşəri ideallara əsaslanan və ümumilli maraqlara xidmət edən fəaliyyətinin müsbət nəticələrini birmənalı olaraq təqdir edər, bu nailiyyətlərin Azərbaycan xalqının gələcəyi, dövlətimizin perspektivinə müstəsna – fundamental töhfələr verdiyini qeyd edər. Çünki reallıqlar göz önündədir. Bu gerçəklikləri istisna etmək olar, əhəmiyyətini azaltmaq qətiyyən mümkün deyil.

Mehriban Əliyeva böyük ictimai-siyasi xadim kimi, milli-siyasi elitamızın zən-



gin simalarındandır. Bütün ruhi rahatlığı insanların xoş əhvali-ruhiyyəsində tapan, yalnız sosial istiqamət fəaliyyəti ilə deyil, həm də xoş ünsiyyəti, təvazökarlığı, xeyirxahlığı ilə seçilən Mehriban xanım Əliyevanın həyatda tutduğu yol – neçə-neçə nəslə uğurlu fəaliyyətin sirlərini öyrətmək, mənəviyyatımızın saflığını, zənginliyini qorumaq yoludur.

Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir, qadının siyasətdə uğur formulunu öz praqmatik və nikbin xarakterində cəmləşdirməyə müvəffəq olur. O, ictimai-siyasi fəaliyyəti ilə respublikamızın milli maraqlarının qorunmasına, Azərbaycan reallıqlarının beynəlxalq miqyasda təbliğinə — dünya ictimaiyyətinə çatdırılmasına mühüm töhfələr vermişdir. Onun həm ictimai məzmunlu, həm də siyasi xarakterli fəaliyyətinin əsasında duran faktor strateji xarakter daşıyır – bu, Azərbaycan xalqının və dövlətinin maraqlarının, ölkənin davamlı inkişafına xidmət edən ümummilli məqsədlərin təmin olunmasına layiqli töhfə vermək kimi ali məramlı missiyadır.

Mehriban xanım Əliyevanın çoxşaxəli, genişmiqyaslı, dərin məzmunlu və səmərəli fəaliyyəti Azərbaycanın inzibati-siyasi sərhədləri ilə məhdudlaşmır. O, humanizm və sosial ədalət prinsipinə əsaslanan fəaliyyətini ölkənin hüdudlarından kənarda da uğurla və əzmlə davam etdirir, Azərbaycanın müsbət beynəlxalq reputasiyasının daha da möhkəmlənməsində fəal rol oynayır.

Mehriban xanım Əliyevanın Azərbaycan reallıqlarının beynəlxalq müstəvidə təbliği istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyətindən danışarkən mədəni irsimizin dünyaya çatdırılması məsələsinə ayrıca nəzər salmaq lazımdır. Bu məqsədlə həyata keçirilən tədbirlər azərbaycanlıların milli kimliyinin, xalqımızın əsrlər boyu yaşadığı zəngin ənənələrin, bənzərsiz mirasın tanıdılması baxımından çox mühüm əhəmiyyətə malikdir.

Mehriban xanım Əliyevanın layiq görüldüyü mükafatların və fəxri adların sayı kifayət qədər çoxdur. Nüfuzlu beynəlxalq mükafatlara layiq görülməsi həm də onun dünya mədəni irsinin qorunmasına, tərəqqipərvər bəşəriyyətin sülh şəraitində və ahəngdar birgəyaşayışına verdiyi töhfələrin yüksək qiymətləndirilməsinin ifadəsidir. O, hər zaman sülhpərvərlik ideyasını dəstəkləyir, mədəniyyətlər arasında inteqrasiya, dialoq və əməkdaşlığın əhəmiyyətini önə çəkir.

Azərbaycan cəmiyyəti birmənalı şəkildə etiraf edir ki, Mehriban xanımın tarixi missiyası xalqımızın və dövlətimizin inkişafına xidmət etməkdən ibarət olmuş və bu missiya dövlət sektorlarını daha geniş əhatə etmişdir. Onun xalq və dövlət qarşısında xidməti və uğurları saysız-hesabsızdır. Təkrarolunmaz xarizması, geniş dünyagörüşü, şəxsiyyəti, vətənpərvər-

liyi ilə o, bu obrazları və dəyərləri öz fəaliyyətində parlaq şəkildə təcəssüm etdirir.

Mehriban xanım tariximizin çox önəmli bir hissəsini – qadın iştirakçılığı və liderliyi ilə bağlı ənənələri öz fəaliyyəti ilə reproduksiya edərək, həmçinin yeni çalarlar əlavə edərək mühüm ictimai statusunu möhkəmləndirmişdir. Ən vacibi budur ki, Birinci xanım kimi, o, fəaliyyətində Şərq və Qərb ənənələrini, keçmişi və moderni çox məharətlə üzvi şəkildə vəhdətə gətirərək, yeni bir obraz və nümunə yaradaraq xaqlımızın, dövlətimizin imici, reputasiyası üçün qlobal miqyasda çox böyük uğura imza atdı. Mehriban Əliyeva həm müsəlman Şərq dünyası, həm də MDB ölkələri üçün Birinci xanım institutu ilə bağlı faktiki olaraq yeni bir  model yaratdı. Mehriban xanım bütün dünyaya qadın liderliyi və iştirakçılığının uğurlu nümunəsi, güclü və zərif lider xanım nümunəsini nümayiş etdirdi.

Ənənələrin əhəmiyyətli rol oynadığı hər hansı digər ölkə kimi, Azərbaycanda da liderin, Prezidentin siyasi zirvədə nə kimi rol oynamasından asılıdır. Prezident İlham Əliyevin sərt və prinsipial siyasi xətti Azərbaycanın modernləşməsinin şəksiz faktorudur. Onun siyasəti elitanı stimullaşdırır, onu daim sərvaxt saxlayır. Demokratiyanın Azərbaycan modelinin indiki mərhələsində dövlət başçısının komandasının kimlərdən ibarət olmasından çox asılıdır. Bu baxımdan, həqiqətən də, Prezident İlham Əliyevin bəxti gətirib. Çünki onun ən yaxın silahdaşı, məsləkdaşı ömür-gün yoldaşı Mehriban xanım kimi bir şəxsiyyətdir. Nəzərə almaq lazımdır ki, Mehriban Əliyeva ölkəsinin siyasi meydanında formal statusuna görə də yetərincə nüfuzlu simadır: Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini kimi olduqca məsuliyyətli vəzifənin daşıyıcısıdır.

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin sevimli gəlini və Prezident İlham Əliyevin sadiq silahdaşı heç zaman siyasətə biganə qalmayıb və qala bilməzdi. Həqiqətən də müasir bilikləri yaradıcılıqla mənimsəyən yüksək erudisiya və universal istedad sahibi kimi o, dövlətçiliyin müasir sivilizasiya üçün nə demək olduğunu bütün professionallığı ilə dərk edir. Mehriban xanım Prezident İlham Əliyevin ən yaxın və etibarlı silahdaşı olaraq müstəqil, güclü və sabit Azərbaycanımızın sütunlarını daha da möhkəmləndirmək uğrunda tükənməz əmək sərf edən qadın liderdir.

Çoxşaxəli fəaliyyəti ilə xalqın tükənməz sevgisini qazanması Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizdə dövlət səviyyəsində yüksək vəzifəyə – Azərbaycanın Birinci vitse-prezidenti postuna təyin edilməsində mühüm rol oynamışdır. Bu, əslində, gözlənilən idi. Çünki Mehriban xanım yuxarıda qeyd etdiyimiz və etmədiyimiz böyük, xeyirxah əməlləri, Azərbaycan naminə fə-



dakarlığı, yorulmaz titanik fəaliyyəti, gərgin zəhməti ilə seçilirdi. Bu vəzifə, bu ali kürsü, yüksək post onun haqqı idi. Azərbaycanın Birinci vitse-prezidenti fəaliyyətinin elə ilk günlərində sübut etdi ki, ölkə rəhbəri öz seçimində heç də yanılmayıb.

Mehriban xanım Əliyeva Birinci vitse-prezident postunda ümummilli məqsədlərə xidmət edən ardıcıl və səmərəli fəaliyyətini daha da qətiyyətlə davam etdirərək, xalqın sonsuz inam və etimadını doğrultmağa müvəffəq olub. Bu mövzuya keçməmişdən əvvəl ölkədə vitse-prezidentlik institutunun yaradılmasının əhəmiyyətinə toxunmaq gərəkdir. Bildiyimiz kimi, 2016-cı il sentyabrın 26-da Azərbaycanın inkişafında mühüm və həlledici mərhələlərdən birinin başlanğıcı olan əlamətdar hadisə qeydə alındı. Bu, ümumxalq səsverməsi – referendumun keçirilməsi idi. Azərbaycan Respublikası Konstitusiyasına bir sıra əlavə və dəyişikliklərin nəzərdə tutulduğu referendumda çox mühüm məsələlər ümumxalq səsverməsinə çıxarıldı. Bu əlavə və dəyişikliklər ölkəmizin gələcək inkişafı, dövlətimizin daha da gücləndirilməsi, siyasi sistemin təkmilləşdirilməsi, əhalinin rifah halının daha da yüksəldilməsi baxımından mühüm əhəmiyyətə malik idi. Məhz bu səbəbdəndir ki, Azərbaycan seçiciləri böyük ruh




yüksəkliyi ilə bu siyasi aksiyada iştirak etdilər.

Təfərrüatları diqqətə çatdırmadan öncə qeyd edək ki, referendum günü səsvermənin gedişini Avropa Şurası Parlament Assambleyasının, MDB Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının müşahidə missiyaları, Böyük Britaniya, İtaliya, Türkiyə, Fransa, Avstraliya və digər dövlətlərin parlamentariləri, xarici ölkələrin ali seçki qurumlarının nümayəndə heyətləri və s. daxil olmaqla 18 beynəlxalq qurumdan 117 müşahidəçi izlədi. Bunlar 33 ölkənin vətəndaşları idi. Səsvermə prosesini izləmək üçün, həmçinin, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, referendum üzrə təşviqat qruplarının təşəbbüsü ilə akkreditasiyadan keçmiş 53 min 531 yerli müşahidəçi də qatılmışdı.

Ümumxalq səsverməsinin gedişini çox sayda yerli və xarici KİV nümayəndələri ətraflı işıqlandırdılar. Yerli və beynəlxalq müşahidəçilər öz rəylərində referendumun azad, demokratik və beynəlxalq standartlara uyğun şəkildə keçirildiyini vurğuladılar. Ən əsası, ölkə seçiciləri yüksək fəallıqla bu referendumda iştirak edərək Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərə müsbət münasibət bildirdilər. Bu fakt onu təsdiqləyir ki, Konstitusiya islahatları cəmiyyətin sosial sifarişi olaraq ciddi bir zərurət kimi meydana çıxmışdı. Ümumiyyətlə, bütövlükdə cəmiyyətin inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması hər bir dövlətin əsas qanununda islahatların aparılmasını zəruri edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edil-

miş uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, Avoratlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi, bütövlükdə respublikanın həyatında özünü qabarıq göstərən fundamental dəyişikliklər və pozitiv yeniliklər ölkə Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklərin vacibliyini gündəmə gətirmişdi. Əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə seçilirdi.

Respublikamızda sosial-iqtisadi inkişafa paralel şəkildə hüquqi və siyasi islahatların da genişləndirilməsinə təminat yaradan Konstitusiya islahatı həm də xalqın hakimiyyətə olan inamının bariz təcəssümü kimi diqqəti çəkir. Bütövlükdə isə referenduma çıxarılan məsələlərin xalq tərəfindən dəstəklənməsi göstərdi ki, ölkəmizin nailiyyətlərini gündəlik həyatında hiss edən, respublikanın əldə etdiyi böyük uğurlarla qürur duyan xalqımız daha təminatlı gələcəyə, yüksək sosial rifaha, demokratik inkişafa aparan mövcud siyasi kursa öz dəstəyini nümayiş etdirir. Ən əsası, Prezident İlham Əliyevin təşəbbüsü ilə ümumxalq səsverməsinə çıxarılan məsələlərin dəstəklənməsi məhz bu təkliflərin cəmiyyətin sosial sifarişini əks etdirdiyini göstərdi. Mərkəzi Seçki Komissiyasının açıqladığı yekun nəticələrinə əsasən, referendumda seçicilərin ən çox səs verdikləri dəyişikliklərdən biri məhz ölkədə prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə qaldırılması oldu. Əlbəttə, bu, təsadüfi xarakter daşımırdı, Azərbaycan Prezidenti İlham Əliyevə xalq tərəfindən etimadın, dövlət başçısının fəaliyyətinə verilən qiymətin başlıca göstəricisi idi. Başqa sözlə, referendumun nəticələri ona dəlalət edirdi ki, Azərbaycan xalqının mütləq əksəriyyəti Prezident İlham Əliyevin siyasətini dəstəkləyir. Dövlət başçısının qeyd etdiyi kimi: “Referendum ölkəmizin gələcək inkişafını müəyyən edir. Azərbaycan xalqının mütləq əksəriyyəti referenduma birmənalı şəkildə “hə” deyib, bizim təkliflərimizi dəstəkləyib, bəyənib. Buna görə də mən bir daha bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm”.

Ümumxalq səsverməsi – referendum zamanı yüksək səs çoxluğu ilə qəbul edilən məsələlərdən biri də Azərbaycanda vitse-prezidentlik institutunun təsis edilməsi oldu. Bu, xalqımızın yeni idarəetmə institutunun yaradılmasına müsbət münasibətin göstəricisi idi. Olduqca mürəkkəb tarixi mərhələdə meydana çıxan reallıqların fonunda islahatlar kursunun dərinləşdirilməsi və hədəflənmiş nəticələrin əldə olunması ölkədə effektiv idarəetmə mexanizminin qurulmasından çox asılıdır. Mütəxəssislər Konstitusiyaya

idarəetmənin təkmilləşdirilməsi ilə bağlı yeni maddənin əlavə edilməsini Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən və Azərbaycanın bütün sahələrini əhatə edən modernləşdirilmə siyasətinin davamı kimi dəyərləndirdilər. Vitse-prezidentlik anlayışının fəlsəfi-elmi izahı onun dərinlik və mürəkkəblik, eyni zamanda sadəlik məzmunundan ibarətdir. Vitse-prezidentlik institutunun fəlsəfi anlayışının iki baza xətti mövcuddur: hakimiyyətin ali pilləsində siyasi idarəçilikdə rəngarəngliyin formalaşdırılması; ali idarəçiliyin dərinləşdirilməsi və şaxələndirilməsi; şaquli və üfüqi iyerarxiyanın həm sadələşdirilməsi, həm də çoxçalarlı olması. Hər iki xətt vəhdətlik yaradır və bütövlüyü təmin edir. Bütövlük isə, öz növbəsində, möhkəmlənməni təmin edir. Ali pillə – dövlət rəhbərliyi postu – vəzifənin icrası baxımdan şaxələrə ayrılır və yeni idarəetmə ruhu ilə pik nöqtədə birləşir. Dövlət idarəçiliyinin vahid piramidası tərkib etibarilə müxtəlif piramidalardan təşkil olunur. Bu baxımdan da vitse-prezidentlik dövlət idarəçiliyində mövcud olan daxili piramidaların birləşməsi ilə yeni məzmunlu ali piramidaları meydana gətirən şərtləndirici dayaq elmenti rolunu oynayır. Vitse-prezidentlik sayəsində pikdə birləşən piramidaların sayı artır və böyük bir forma halını alır. Vitse-prezidentlik yeni piramidal xətlərin meydana gəlməsini və həcmcə daxili iri piramidaları yaradır.

Dövlət rəhbəri dövlətin və xalqın bütövlüyünün, ərazi toxunulmazlığının, təhlükəsizliyin, xalqın sosial rifah halının yaxşılaşdırılmasının təminatçısıdır. Dövlət rəhbəri xarici siyasətin əsas fiquru kimi ölkəni beynəlxalq münasibətlərdə təmsil edir. Dövlət rəhbəri hakimiyyətlər üzərində tarazlı əsaslarla rəhbərlik funksiyasını həyata keçirir. Onun rəhbərliyinin əsasları, istiqamətləri və obyekti, başlıca olaraq, konstitusion səlahiyyətlərdən ibarət olur. Konstitusiya dövlət rəhbərinə, xalqa, ölkəyə, hakimiyyətlərə rəhbərlik funksiyalarını müəyyən edir: ona müvafiq səlahiyyətlər verir, həmin səlahiyyətlər çərçivəsində funksiyalar müəyyənləşdirir, vəzifələr təyin edir. Xalqın dövlət rəhbərinə müəyyən etdiyi hüquqi səlahiyyətlər nəzəri baxımdan Konstitusiyada əksini tapır. Konstitusiya isə dövlət rəhbəri, hakimiyyətlər və xalq arasında vəhdət yaradan vasitə rolunda çıxış edir.

Dövlət rəhbərinin səlahiyyətləri kompleksklikdən ibarətdir və müxtəlif sahələri əhatə edir. İdarəçilik birbaşa və dolayı (universal) olmaqla, dövlətin bütün sahələrini əhatə edir. Dövlət rəhbərinin səlahiyyətləri idarəçilik sisteminin piramidal formasında piramidanın zirvəsindən ətraflara doğru genişlənmiş olur. Dövlət rəhbərinin idarəçiliyində çoxsahəli tapşırıqlar, müşahidə və nəzarət mühüm əhəmiyyət kəsb edir, bu baxımdan da idarəçilik yükü çox olur. Yükün çoxluğundan irəli gələrək, hakimiyyət səlahiyyətlərinin

bölgüsü zərurəti meydana gəlir. Dövlət rəhbərinin səlahiyyətləri onun köməkçi-rəhbərləri tərəfindən bölünür. Bu zaman mozaik idarəçilik meydana gəlir. Mozaik idarəçilik vahid dövlətçilik xətti üzrə rəngarəng fikirləri, qərarları və ideyaları özündə cəmləşdirir. Dövlət rəhbərinin xalq və hakimiyyət üzərində nəzarət funksiyası çoxaspektli əsaslarla tərkiblərə ayrılır.

Bölgü sayəsində hakimiyyətin piki də rəngarəngləşir. Çoxşaxəli nəzarət və tapşırıqlar, göstərişlər sistemi, strukturu formalaşır. Dövlət rəhbərinin səlahiyyətlərinin rəhbər-köməkçilər arasında bölüşdürülməsi dövlət rəhbəri postunun möhkəmləndirilməsini və ətraf qurşaqlar sisteminin yaradılmasını özündə ehtiva edir. Dövlət rəhbəri postunun gücləndirilməsi özlüyündə dövlətin idarəçilik sisteminin gücləndirilməsini əks etdirir.

Vitse-prezidentlik institutu da dövlət rəhbərinin köməkçi-rəhbərlər şəbəkəsindən ibarətdir. Bu şəbəkə idarəçiliyin yuxarı mərhələsində idarəetmənin şaquli və üfüqi trayektoriyasında xətləri çoxaldır. Yuxarıdan-aşağıya və əksinə – nəzarət mexanizmi üzrə tərkib piramidalarını meydana gətirir.

Vitse-prezidentlik institutu vəzifə və məsuliyyətlərin bölgüsü zərurətini yaradır və sahələr üzrə idarəçilikdə arxayınlığı şərtləndirir. Məsuliyyətlər və öhdəliklər iyerarxiyası dövlət rəhbəri postunun gücləndirilməsini özündə ehtiva edir. Vitse-prezidentlik institutunun fəlsəfəsi ali mərhələdə siyasi kollegiallıqdan ibarətdir. Qərarların qəbulu və icrası məsələsində çoxtərkibli mövqelərin mövcudluğunu özündə ehtiva edir. Dövlətin strateji idarəçiliyində çoxsahəli və çoxistiqamətliliyi şərtləndirir. İdarəçilikdə strateji məzmunlu kompleksliliyi meydana gətirir.

Ümumi qənaət belədir ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması başlanılan və nəzərdə tutulan islahatların həyata keçirilməsini, ümumiyyətlə, ölkənin daha uğurlu idarə olunmasını təmin edir. Vitse-prezidentlik institutunun yaradılması həm də Azərbaycanın xarici əlaqələrinin intensivləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik idi. Sirr deyil ki, Azərbaycan beynəlxalq əlaqələri kifayət qədər geniş olan bir dövlətdir. Respublikamız həm xarici əlaqələrini genişləndirir, həm də beynəlxalq təşkilatların üzvü olaraq müxtəlif konvensiyalara qoşulur. Azərbaycan beynəlxalq təşkilatların üzvlüyündən, qoşulduğu ayrı-ayrı konvensiyalardan irəli gələn öhdəlikləri tam şəkildə yerinə yetirir. Dünyada geniş tətbiq olunan vitse-prezidentliyi Konstitusiya sistemimizə yeni təsisat kimi daxil etməkdə məqsəd prezidentlik institutunu gücləndirmək, ölkənin sabit inkişafına xidmət edəcək idarəçilik sistemini təkmilləşdirmək idi. Bu strukturun Azərbaycanda tətbiqi mühüm məqsədləri – dövlət qurumlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaş-

lar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini, ümumilikdə isə yeni mobil, effektiv icraçılıq funksiyasının yaranmasını ehtiva edir.

Vitse-prezidentlik institutunun yaradılması, daxili idarəetmədə olduğu kimi, respublikanın xarici siyasətində də dinamikliyin, çevikliyin daha da artırılması baxımından çox mühüm əhəmiyyətə malik idi. Bütövlükdə, ölkəmizdə Konstitusiya islahatları yolu ilə idarəetmə sisteminin təkmilləşdirilməsinin və vitse-prezidentlik təsisatının yaradılmasının cəmiyyətin sosial sifarişi olduğu sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılmış Referendum Aktı layihəsi üzrə səslərin hesablanmasının yekun nəticələrində də öz əksini tapdı. Mərkəzi Seçki Komissiyasının açıqlamasına əsasən, referendumda Konstitusiyaya əlavə olunan və ölkəmizdə idarəetmə mexanizminin təkmilləşdirilməsini nəzərdə tutan "Azərbaycan Respublikasının vitse-prezidentləri" maddəsinə seçicilər yüksək dəstək nümayiş etdirərək 89,28 faiz səslə lehinə səs verdilər. Bəhs olunan maddənin "Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir" məzmunlu 2-ci hissəsinin lehinə 84,5 faiz səs verildi. Mərkəzi Seçki Komissiyasının açıqlamasından da göründüyü kimi, ölkə üzrə seçicilərin böyük əksəriyyəti respublikamızda idarəetmə sisteminin təkmilləşdirilməsinə və çevik, əlverişli idarəçilik mexanizmi kimi beynəlxalq təcrübədə özünü doğruldan vitse-prezidentlik institutunun yaradılmasına müsbət münasibət bildirdilər. Ölkə vətəndaşları əmin idilər ki, vəzifənin təsis edilməsi Azərbaycanda prezident üsul-idarəsinin daha da təkmilləşdirilməsinə, onun funksionallığının artırılmasına, o cümlədən fors-major hallarda dövlət idarəçiliyinin arzuolunmaz vəziyyətə düşməsinin qarşısının alınmasına, yeni şəraitdə başlanan islahatların dairəsinin genişləndirilməsinə gətirib çıxaracaq. Və bütün gözləntilər özünü doğrultdu...

Birinci xanımın vitse-prezident kimi milli siyasi məkanda meydana gəlməsi faktı dünya trendinə tamamilə uyğundur. Şərqin Avrasiya bölgəsinin siyasi-tarixi baxımından "Əliyeva faktoru" qadınların siyasətə inamla və yüksək intellektlə daxil olmasının qanunauyğun təzahürüdür. Bu kontekstdə bir çox ölkələrin idarəçilik strukturlarında qadınların iştirakı dövrün inkişaf məntiqi baxımından milli zərurətdir.

İnsanlar inandıqları, etimad bəslədikləri Mehriban xanım Əliyevanın təyinat aldığı yeni məsuliyyətli vəzifədə Azərbaycan naminə fədakar fəaliyyətini təqdir edirlər. Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin həssas təbəqələrinin problemlərini həll etməyə, ana nəvazişinə ehtiyac duyan uşaqları sevindirmə-

yə, zəngin mədəniyyətimizi təbliğ etməyə, müxtəlif istiqamətlərdə yeni layihələr reallaşdırmağa böyük səy göstərir. Yeni funksional təsisatın rəhbəri vəzifəsində gördüyü bu kimi genişmiqyaslı işlər isə cəmiyyətdə onun nüfuzunu daha da artırıb.

Mehriban xanım Əliyeva istər millət vəkili, istər Heydər Əliyev Fondunun prezidenti kimi çoxşaxəli və ictimai faydalı, səmərəli fəaliyyətinin qanunauyğun nəticəsi kimi, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edildi. 2017-ci il fevralın 21-də ölkə Prezidentinin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı Mehriban xanım Əliyevanın bu posta təyin edilməsinin əsasında duran amillərdən, həmçinin onun xalqımız və dövlətimiz qarşısında xidmətlərindən geniş bəhs edərək, bu qərarı şərtləndirən faktorları diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, Mehriban Əliyeva uzun illərdir ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm və fəal rol oynayır: “Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır”.

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması respublika ictimaiyyəti tərəfində birmənalı şəkildə rəğbətlə, məmnunluqla, böyük sevinc hissi ilə qar-



şılandı. Çünki 20 ildən çox bir zaman kəsiyində Azərbaycanın ictimai-siyasi həyatında xüsusi fəallığı ilə seçilən, böyük amalını, uğurlu missiyasını ölkə hüdudlarından qlobal miqyasadək layiqincə genişləndirən Mehriban xanım xalqın etimadını yetərincə qazanmış, daxildə və xaricdə inam, ümid, güvənc ünvanına çevrilmişdir.

Mehriban Əliyevanın ali hakimiyyət sistemində Birinci vitse-prezident kimi ikinci yer tutması Azərbaycanın birinci xanımının, necə deyərlər, halal haqqı idi. Dövlət idarəçiliyində xüsusi bacarıq və qabiliyyəti, istər ictimai, istərsə də siyasi fəaliyyətində daim Heydər Əliyev amallarını yaşatması, təbliğ etməsi, ən başlıcası isə xalqın etimad və sevgisini qazanması ona bu yüksək səlahiyyəti qazandırmışdı.

Ümummilli lider Heydər Əliyevin ölməz ideyalarına bütün varlığı ilə bağlı olan, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli daxili və xarici siyasətə layiqli töhfələrini verən Heydər Əliyev Fondunun prezidentinin Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan dövlətinin ali idarəetmə sistemində ikinci yüksək vəzifəni daşımasına çoxdan siyasi və mənəvi haqqı çatırdı. Xalqımızın milli mədəniyyətinin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında Mehriban xanımın müstəsna xidmətləri onu cəmiyyətə mötəbər ictimai-siyasi xadim kimi tanıtmışdır.

Akademik Ramiz Mehdiyev "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" adlı monoqrafiyasında qeyd edir ki, Azərbaycan hökuməti son illərdə dövlət idarəçiliyinin prinsiplərini yeni meyarlara uyğunlaşdırır, institusional islahatları dərinləşdirməklə demokratik dövlət quruculuğunun əhatəsini daha da genişləndirir: "Prezident İlham Əliyevin "Vətəndaşlar dövlətə deyil, dövlət vətəndaşlara xidmət etməlidir" prinsipini rəhbər tutması həyata keçirilən idarəetmə islahatlarında, ilk növbədə, ölkə vətəndaşlarının maraq və mənafelərinin önə çəkilməsini bir daha təsdiq edir. İnstitusional islahatlar dövlət məmurları tərəfindən ölkə vətəndaşlarına göstərilən xidmətin daha da təkmilləşdirilməsinə və yaxşılaşdırılmasına yönəldilmişdir. Ölkə rəhbərliyi tərəfindən tətbiq edilən idarəetmə texnologiyasının əsas cəhətlərindən biri hər bir məmurun fəaliyyətinin əldə edilmiş konkret nəticələr əsasında qiymətləndirilməsidir. Fəaliyyətin nəticələrə görə qiymətləndirilməsi prinsipi, bir qayda olaraq, dövlət məmurlarının öz işinə daha məsuliyyətlə yanaşması ilə nəticələnir, digər bir tərəfdən də dövlət idarəetmə aparatının daha səmərəli və məhsuldar işləməsinə zəmin yaradır".

Akademik Ramiz Mehdiyev idarəetmə sistemində aparılan dəyişikliklərin idarəetmə texnologiyasında müasir üsul və formaların tətbiq edilməsinə, bəzi

dövlət orqanlarında mövcud olan süstlük və ətalətin aradan qaldırılmasına, onların koordinasiyasının daha səmərəli və çevik təşkil edilməsinə, dövlət qulluğunun müasir tələblərə uyğun qurulmasına yönəldildiyini vurğulayır. Bildirir ki, müəyyən edilmiş hədəflərə çatmaq üçün görülən işlərə peşəkar yanaşmadan başqa, həm də komanda prinsipinə ciddi riayət edilməsi tələb olunur. Komanda prinsipi heç də hər bir dövlət məmurunun eyni cür düşünməli olduğunu deyil, ölkənin inkişafının strateji istiqamətləri ilə bağlı vahid mövqe nümayiş etdirmələrini, qarşıya qoyulan məqsəd və vəzifələrin reallaşdırılması naminə bütün səylərini səfərbər etmələrini nəzərdə tutur: “Azərbaycanda institusional islahatların mahiyyətinin, onun məqsəd və vəzifələrinin düzgün qiymətləndirilməsi struktur dəyişikliklərinin uğurla aparılmasının həlledici şərtlərindən biridir. Lakin müşahidələr göstərir ki, idarəetmə islahatlarının “fəlsəfəsi” ilə bağlı bir-birindən fərqli təsəvvürlər mövcuddur”.

Azərbaycan Respublikasının Konstitusiyasında edilmiş müvafiq dəyişikliklərin dövlət idarəçiliyinin güclənməsinə və islahatların ahənginin artmasına səbəb olduğunu qeyd edən akademik Ramiz Mehdiyevin fikrincə, 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş Konstitusiyaya dəyişikliklər bu baxımdan müasir dövlət aparatı sisteminin daha güclü institutlaşmasına səbəb olmuşdur: “Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri institutu yaradılmışdır. Xüsusilə də Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi ölkəmizin dövlət idarəçiliyi tarixində yeni mərhələnin əsasını qoydu. Bu təyinat ali dövlət idarəçiliyinin təkmilləşdirilməsi və daha da gücləndirilməsi, hüquqi dövlət quruculuğu prosesinin sürətləndirilməsi, dövlət idarəetmə orqanlarında qərarların operativ qəbulu, sosial-humanitar sahədə dövlət siyasətinin uğurla həyata keçirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir”.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov hesab edir ki, vitse-prezidentlik institutu çevik və səmərəli idarəçiliyin təmin edilməsi üçün əlverişli mexanizm kimi beynəlxalq təcrübədə də özünü doğrultmuşdur. Vitse-prezident vəzifələrinin təsis edilməsi Azərbaycanda prezident üsul-idarəsinin təkmilləşdirilməsini, onun müasir çağırışlara adekvatlığını, fors-major vəziyyətlərdə dövlət idarəçiliyi mexanizminin optimal funksionallığını təmin etmək məqsədindən irəli gəlir, iqtisadi islahatların dairəsinin genişləndirilməsinə və onların sürətləndirilməsinə

xidmət edir. Həmçinin, yeni institutun formalaşdırılması ilə Azərbaycan Prezidentinin səlahiyyətlərinin icra mexanizmi dəqiqləşir, dövlət idarəçiliyi iflic vəziyyətə düşmək təhlükəsindən sığortalanır.

Əli Həsənov bildirmişdir ki, Mehriban Əliyeva zəngin və çoxşaxəli fəaliyyəti ilə ölkənin ictmai-siyasi həyatında mühüm rol oynamış, ölkənin Birinci xanımı institutunu formalaşdırmışdır. Onun ölkə həyatında daha geniş fəaliyyətinə olduqca zəruri imkanlar yaranmışdır. Birinci vitse-prezidentlik institutu məhz bu siyasi tələbatın ödənilməsi üçün ən yaxşı funksional sistemdir: “Mehriban xanım Əliyevanın dinamik xarakteri, onun xarakterindən gələn konkretlilik, işgüzarlıq, humanistlik, Azərbaycan dövlətinə, xalqına bağlılıq hissi əsas verir ki, o, cənab Prezidentin qarşıya qoyduğu vəzifələrin reallaşdırılmasına, hakimiyyət komandasının səfərbər olunaraq inamla ölkəni gələcəyə doğru aparmasına dəyərli töhfə versin. Mən əminəm ki, Birinci vitse-prezidentlik institutu Azərbaycan dövlətinin inkişafında önəmli rol oynayacaq, onun əsas hədəflərini, sosial, mədəni və digər sahələrdə əhəmiyyətli layihələri uğurla həyata keçirəcək bir qurum olacaq”.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması xalqın arzusunu əks etdirən uğurlu bir seçim idi. Çünki ölkədə və dünyada hər kəsə aydındır ki, Mehriban xanım nəinki ictimai, mədəni, humanitar xarakterli fəaliyyəti ilə Azərbaycanın inkişafına öz layiqli töhfəsini verib, eyni zamanda ölkəmizin siyasi sisteminin avanqard qüvvəsi – alternativsiz siyasi güc olan Yeni Azərbaycan Partiyasında sədr müavini kimi öz səmərəli və məqsədyönlü fəaliyyətini davam etdirib. Tarixi reallıqların fonunda ictimai-siyasi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edərək zəngin və şərəfli yol keçib, Azərbaycanın gələcəyini inşa edən möhkəm təməllər ataraq ölkəmizin xilası və dirçəlişini təmin edib. Ümummilli Liderin layiqli varisi, onun siyasətini müasir dövrün reallıqlarına müvafiq surətdə uğurla davam etdirən Prezident İlham Əliyevin sədrliyi ilə YAP bu gün müstəqil, qüdrətli və nüfuzlu Azərbaycanın inkişafına layiqli töhfələr verir, ölkəmizin gücünün dahada artmasında özünəməxsus rol oynayaraq tarixi missiyanı yerinə yetirir. Şübhəsiz ki, adı və fəaliyyəti humanizm və xeyirxahlıqla assosiasiya olunan, Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılmasında fəal rol oynayan Mehriban xanım Əliyevanın partiyanın sədr müavini seçilməsi YAP-ın sonrakı fəaliyyətində yeni nailiyyətlərin qazanılmasında, yeni keyfiyyət dəyişikliklərinin meydana gəlməsində müstəsna əhəmiyyətə malik olub. Ümumxalq partiyası olan YAP-ın tarixi əhəmiyyətə malik olan V Qurultayında bu barədə yekdil qərarın qəbul olunması



Azərbaycan ictimaiyyəti tərəfindən böyük məmnunluqla qarşılandı.

Bu kontekstdə bir sıra mühüm məqamlara nəzər yetirək. Əvvəla, vurğulamaq vacibdir ki, Azərbaycan siyasi tarixinin mühüm əlamətdar hadisəsi olan Yeni Azərbaycan Partiyasının V Qurultayı çərçivəsində qəbul edilən qərarlar və edilən seçimlər partiyanın gücləndirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edib. YAP-ın strukturlarına yeni seçimlərin edilməsi təşkilati nöqteyi-nəzərdən xüsusi önəm daşımaqla yanaşı, partiyanın fəaliyyətinin stimullaşdırılmasına və səmərəlilik səviyyəsinin artırılmasına əhəmiyyətli töhfələr verib. Xüsusilə də Azərbaycanın müstəqilliyinin ilk dövrlərindən etibarən milli mədəniyyətin qorunması sahəsində çoxşaxəli və genişmiqyaslı fəaliyyət göstərən, milli musiqinin, ədəbiyyat və poeziyanın, idmanın inkişafına verdiyi töhfələrə, dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə görə Azərbaycan cəmiyyətinin hər bir üzvü tərəfindən təqdir olunan Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Yeni Azərbaycan Partiyasının sədrinin müavini seçilməsi əlamətdar hadisə oldu. Danılmaz həqiqətdir ki, dünya təcrü-

bəsində birinci xanımın ictimai, siyasi həyatda, humanitar sahələrdə bu qədər aktiv olması, beynəlxalq miqyasda ölkənin layiqli təmsilçisinə çevrilməsi hallarına az rast gəlmək olar. Bu, onu göstərir ki, Mehriban xanım Əliyevanın YAP sədrinin müavini seçilməsi partiya və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, ölkənin aparıcı partiyasının və dövlətimizin daha da gücləndirilməsi istiqamətində mötəbər hadisədir. Ötən zaman müddətində bu tezisin gerçəkliyi öz təsdiqini tapmış oldu.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsini şərtləndirən mühüm amillərdən – pozitiv obyektiv gerçəkliklərdən biri onun Yeni Azərbaycan Partiyasının sədr müavini kimi səmərəli fəaliyyət göstərməsidir. Siyasi həyatın gərgin ritminə baxmayaraq, Mehriban xanım Əliyeva öz təkrarsız və bənzərsiz imicini qoruyub saxlaya bilir, özünəməxsus çevik, orijinal fəaliyyəti cəmiyyət üçün aktuallıq kəsb etdiyindən, dövlət idarəetmə aparatının onun fəaliyyətinə dərin ehtiyacı duyulur.

Prezident İlham Əliyev Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi də mühüm işlərin altına imza atdığını, seçicilərin problemlərinin həlli, həmçinin Azərbaycanın beynəlxalq müstəvidə təmsil olunması istiqamətində səmərəli fəaliyyət göstərməsini diqqətə çatdırmışdır: "Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb".

Sadalanan istiqamətlərlə yanaşı, dövlət başçısı Mehriban xanım Əliyevanın humanitar, mədəniyyət, incəsənət sahəsində, elm və təhsilin inkişafı istiqamətində çoxşaxəli, dərinməzmunlu və səmərəli fəaliyyətinin parlaq və incə cizgilərini dəqiqliklə təsvir edir, ümummilli əhəmiyyətə malik olan müsbət nəticələri diqqətə çatdırır. Prezident İlham Əliyev, həmçinin, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq qabiliyyətini, bu sahədə əldə etdiyi nailiyyətləri vurğulayaraq deyir: "Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ər-

zində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır".

ABŞ-ın Markett Universitetinin beynəlxalq münasibətlər üzrə eksperti Piter Teys də Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasına münasibət bildirərkən qeyd edib ki, Mehriban xanım ictimai diplomatiya sahəsinə qazandığı uğurlarla Azərbaycanın və dünyanın ictimai elitasına yaxşı tanışdır. Onun zəngin fəaliyyəti siyasi postda mühüm işləri həyata keçirmək üçün əla baza deməkdir. Mehriban Əliyeva Birinci vitse-prezident kimi ölkənin icra hakimiyyətinə yeni dinamika gətirəcək və ictimai diplomatiya təşəbbüslərini daha da aktiv mərhələyə yüksəldəcək. Piter Teysin sözlərinə görə, ölkə prezidenti tərəfindən qəbul edilmiş qərar Azərbaycan qadınının ölkənin iqtisadi inkişafına töhfəsini nümayiş etdirir və Azərbaycanın dünyadakı nüfuzunu artıracaq. Ekspert Mehriban Əliyevanın Azərbaycanın bir çox ölkə və beynəlxalq təşkilatlarla əməkdaşlığını möhkəmləndirəcəyini də əminliyini ifadə edib. Qeyd edib ki, Birinci vitse-prezident multikulturalizm və dini tolerantlıq dəyərlərinin təşviqi istiqamətində də fəaliyyət göstərəcək.

Avropa İttifaqının xarici siyasəti, beynəlxalq əlaqələr və diplomatiya məsələlərini işıqlandıran "Brussels Diplomatic" xəbər portalı da Mehriban xanımın təyinatına yer ayırmış, Azərbaycanın Birinci xanımının mühüm dövlət postuna irəli çəkilməsini dövlət sektorunda və ictimai-siyasi həyatda başlnanan yeni islahatların mühüm tərkib hissəsi kimi səciyyələndirmişdir. Portalda "Aliyeva from First Lady to First vice-president of Azerbaijan" başlıqlı xəbərdə qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi demokratik dövlət quruculuğu istiqamətində atılan addımlara yeni impuls verəcəkdir. Həmin yazıda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında oxuculara məlumat verilir, onun UNESCO-nun xoşməramlı səfiri kimi ictimai-humanitar fəaliyyətinin müxtəlif sahələrindən bəhs edilir.

ABŞ-ın nüfuzlu "The Washington Times" qəzetində "Caspian Group Holdings"in direktoru Rob Sübhaninin "Azərbaycanın xeyirxah xanımı" sərlövhəli məqaləsində isə Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti Mehriban Əliyevanın yüksək insani keyfiyyətlərindən və xeyriyyəçilik fəaliyyətindən bəhs edir. Müəllif Mehriban Əliyevanın bu yaxınlarda ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsinin mədəni, iqtisadi və siyasi baxımdan əsaslandırılmış olmasından söhbət açaraq, "Azərbaycanın Şekspiri" Hüseyn Cavidin aşağıdakı misralarını sitat gətirir:

“Gəzdim, dolaşdım, uğradım hər elə,
Mən böylə bir qadın görmədim hələ.
Böyüklükdə, mərhəmətdə seçilmiş,
Alicənablıq boyuna biçilmiş”.

Müəllif yazır ki, müsəlman dünyasında qadınlar gender bərabərliyi və mühüm qərarlar qəbul edilən masa arxasında yer uğrunda mübarizə apardıqları bir vaxtda Azərbaycan bu yüksək vəzifəyə qadını təyin etməklə tarixi əhəmiyyətli sıçrayış edib.

Avropanın nüfuzlu media orqanları Mehriban xanımın yüksək siyasi posta irəli çəkilməsini mühüm hadisə kimi işıqlandırdı. Avropa İttifaqının xarici siyasəti, beynəlxalq əlaqələr və diplomatiya məsələlərinə dair xəbərlər dərc edən “Brussels Diplomatic” portalı Prezident İlham Əliyevin imzaladığı Sərəncamla Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsinə geniş yer verdi. “Aliyeva from First Lady to First vice-president of Azerbaijan” başlıqlı yazıda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında oxuculara məlumat verilmiş, Onun UNESCO-nun xoşməramlı səfiri kimi dünya miqyasında gördüyü işlər geniş işıqlandırılmışdır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəxri vətəndaşı olduğu Bolqarıstanın Veliko Tırnovo şəhərinin meri Daniel Panov da bu təyinatı yüksək qiymətləndirmişdir. D.Panov qeyd etmişdir ki, Mehriban xanım dünyada ictimai fəaliyyəti ilə seçilən nüfuzlu xadimdir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünyada fəaliyyəti milyonlarla insanda xoş münasibət formalaşdırmışdır. Fondun dəstəyi ilə Bolqarıstanda bərpa olunmuş “Trapezitsa” Memarlıq Muzey-Qoruğu da bu baxımdan dünya ictimaiyyətinin diqqətini cəlb etmişdir. “Mehriban Əliyeva bu humanist fəaliyyəti ilə dünya multikulturalizmin dərin töhfələr verir. Onun bu xidmətləri sayəsində Azərbaycan gələcəkdə də multikultural müxtəlifliyin təşviqini davam etdirəcək, dünyaya tolerantlıq və demokratiya nümunəsi olacaq”.

Daniel Panov qeyd etmişdir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük təcrübəsi, dünya mədəni irsinin qorunmasına verdiyi töhfələr ölkənin beynəlxalq miqyasda rolunun daha da artmasına stimul verəcək.

Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin rektoru Xristo Bonjolov isə bildirmişdir ki, Veliko Tırnovo Universitetinin fəxri doktoru Mehriban Əliyevanın belə yüksək etimada layiq görülməsi bu ali təhsil ocağının bütün kollektivi üçün böyük şərəfdir. “Böyük peşəkarlığa, yüksək intellektə və zəngin təcrübəyə malik Mehriban Əliyeva ona göstərilən bu etimadı doğruldacaq, Azərbaycan Respublikasının sülh və rifah vahəsi kimi daha da güclənməsinə əhəmiyyətli töhfələr verəcək. Mehriban Əliyevanın hu-

manizm, tolerantlıq və multikulturalizm naminə gördüyü işlər yüksək dəyərə malikdir".

Bolqarıstanın nüfuzlu "Focus", "Pik", "Blitz" xəbər agentlikləri, BTV televiziya kanalı, "Standart", "24 Çasa", "Seqa", "Zemya" qəzetləri, Frognews.bg, Mediapool.bg, Dnesplus.bg informasiya portalları Mehriban Əliyevanın həyat və fəaliyyəti, onun gördüyü işlər, Birinci vitse-prezident vəzifəsinə təyin olunması barədə məlumatlar yaymışdır. Həmin məlumatlarda Azərbaycanda həyata keçirilən Konstitusiya islahatları, bu islahatların tərkib hissəsi kimi vitse-prezidentlik institutunun yaradılması haqqında da məlumat verilir. Məlumatlarda, həmçinin Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Bolqarıstanın Veliko Tırnovo şəhərindəki "Trapezitsa" Tarixi Memarlıq Qoruğunun bərpasına etdiyi maliyyə töhfəsindən, qoruğun ötən ilin sentyabr ayında keçirilmiş açılış mərasimində onun özünün iştirakından, Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı və Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktoru adlarına layiq görülməsindən, ölkədə və xaricdəki fəal ictimai fəaliyyətindən bəhs edilmişdir.

Pakistanın nüfuzlu ingilisdilli "Pakistan Observer" qəzetində tanınmış jurnalist Həmid Şahinin "Mehriban Əliyeva: Kədəri sevincə çevirən insan" sərlövhəli məqaləsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, millət vəkili, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinə nəzər salınır. Müəllif bildirir ki, tanınmış ziyalı ailəsində böyümüş Mehriban Əliyeva valideynlərindən insan dəyərlərinə hörmətlə yanaşmağı, poeziya, mədəniyyət və musiqini sevməyi öyrənib.

Yazıda Mehriban Əliyevanın öz xeyriyyəçilik fəaliyyətinə 1995-ci ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondu vasitəsilə Azərbaycan mədəniyyətinin təbliği ilə başladığı vurğulanır. Bildirilir ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2004-cü ilin 10 may tarixində ümummilli lider Heydər Əliyevin adını daşıyan fondun prezidenti vəzifəsinə təyin olunduqdan sonra bu fəaliyyətini daha da genişləndirib.

Məqalədə mədəniyyət sahəsinin Heydər Əliyev Fondunun prioritet istiqamətlərindən biri olduğu qeyd olunur. Bu istiqamətdə görülmüş işlər, inşa edilmiş Muğam Mərkəzi, konsert zalları, musiqi liseyləri və muğam günləri, Qəbələ festivalı, Vivaldi və Gerşvinin musiqi kompozisiyalarının ifaları, Azərbaycan mədəniyyəti haqqında nəşrlər barədə bilgilər məqalədə öz əksini tapır.

Həmçinin Fondun əsas istiqamətlərindən birinin uşaq problemlərinin həlli olduğunu bildirən H.Şahin bu təşkilat tərəfindən yüksək standartlara cavab verən məktəblər, xəstəxanalar, Talassemiya Mərkəzinin inşa olunduğunu vurğulayır.

Məqalədə, həmçinin Mehriban Əliyevanın təşəbbüsü ilə bir çox ölkələrdə uşaqlar və ahıllar evlərinə maddi və mənəvi yardımlar edildiyi, əlil uşaqların cəmiyyətə inteqrasiya olunması üçün yay düşərgələrinin təşkil olunduğu, qanvermə və insulin paylaşdırılması proqramlarının həyata keçirildiyi bildirilir.

"Vatikan radiosu"nun saytında verilmiş məqalədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın "Vatikan radiosu"na müsahibəsi də yer alır. Mehriban Əliyeva "Müsəlman ölkəsi olan Azərbaycandakı Fond xristian irsinin bərpası ilə bağlı işləri nə üçün maliyyələşdirir" sualının cavabında deyib:

"Azərbaycan Avropa ilə Asiyanın, Şərq ilə Qərbin qovuşuğunda yerləşən ölkədir. Bu coğrafi mövqe ölkəmizi səciyyələndirən zəngin müxtəlifliyə təsir göstərib. Azərbaycanda məskunlaşan xalqlar arasında həmişə dostluq və qardaşlıq münasibətləri olub. Çoxsaylı dini konfessiyaların mövcud olması bizim böyük sərvətimizdir. O cümlədən Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası Müqəddəs Taxt-Tacın və Azərbaycanın müştərək layihəsinin tərkib hissəsidir. Bizim Fondumuz bu müştərək işi gələcəkdə davam etdirməyə həmişə hazır olacaq".

"Avvenire" qəzetinin saytında yerləşdirilmiş yazıda Müqəddəs Marçellinio və Pietro katakombalarının tarixi haqqında məlumat verilir, onların xristian dünyasının önəmli mədəni dəyərlərindən olduğu vurğulanır. Qeyd olunur ki, bu katakombaların bərpası Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında 2012-ci ildə imzalanmış ikitərəfli sazişə əsasən həyata keçirilib. Katakombaların bərpadan sonra açılış mərasimində iştirak edən Mehriban Əliyeva dinlərarası dialoqun önəmli dəyər olduğunu bildirib. Vatikanın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazi isə müsəlman ölkəsinin xristian abidəsinin bərpasına töhfə verməsinin tarixdə bir ilk olduğunu deyib.

Ərəb dünyasında nüfuzlu "Əl-Mənərə" jurnalında dərc olunmuş məqalədə ziyalı ailə mühitinin Mehriban Əliyevada mərhəmət, xeyirxahlıq, insan sevgisi kimi nəcib hisslərin, o cümlədən incəsənətə marağın əsasını təşkil edən dünyagörüşünün formalaşmasına təsiri barədə söhbət açılır, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin həm milli, həm qlobal səviyyələrdə gördüyü işlər barədə məlumat verilir, həmin işlərin onun haqqında mütərəqqi müsəlman qadını imicini yaratdığı vurğulanır.

Yazıda Mehriban Əliyevanın 2004-cü ildə regionda ən böyük qeyri-hökumət təşkilatını təsis etdiyi bildirilir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan bu təşkilatın Azərbaycan reallıqlarının dünyada geniş təbliği ilə yanaşı, Heydər Əliyev irsinin yeni və gənc nəslə öyrədilməsində mühüm rol oynadığı qeyd olunur. Müəllif Heydər Əliyev

Fondunun çoxvektorlu fəaliyyəti haqqında ətraflı məlumat verir. Bu xüsusda, Mehriban Əliyevanın gündəlik fəaliyyətlərində sosial və humanitar aspektlərin öndə getdiyi vurğulanır, ölkəmizdə kimsəsiz uşaqların və yaşlıların problemlərinin həll edilməsi yolunda mühüm işlərin görüldüyü oxucuların diqqətinə çatdırılır. Fondun xətti ilə yeni təhsil, səhiyyə və incəsənət ocaqlarının inşa edildiyi, insulin və qan donorluğu aksiyaları, eləcə də ana südü ilə qidalandırma üzrə maarifləndirmə aksiyaları və s. sosial təşəbbüslərin həyata keçirildiyi bildirilir. Həmçinin Mehriban Əliyevanın milli musiqi ənənələrinin inkişafı və xaricdə tanıdılması yönündə Heydər Əliyev Fondunun dəstəyi ilə müasir Muğam Mərkəzinin tikildiyi, Fondun təşəbbüsü ilə müxtəlif ölkələrdə keçirilən mədəniyyət tədbirlərində Azərbaycan muğamının prioritet yerdə olduğu, habelə hər il ayrı-ayrı istedadlı yerli və beynəlxalq musiqiçilərin iştirakı ilə Qəbələ Beynəlxalq Musiqi Festivalının təşkil edildiyi oxucuların diqqətinə çatdırılır.

İtaliyanın "Italia Oggi" qəzetində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edən yazıda vurğulanır ki, Mehriban Əliyeva durmadan çalışaraq ölkəsində önəmli missiyaları yerinə yetirməkdədir. Azərbaycan Prezidentinin xanımı gördüyü önəmli işlər sayəsində ölkənin ən tanınmış simalarından birinə çevrilib.

Məqalədə ötən il Vatikanda səfərdə olan Mehriban Əliyevanın Roma Papası Fransisk ilə görüşünə, "Milan-Expo 2015" Ümumdünya sərgisində Azərbaycan pavilyonunda təşkil edilmiş "Milli gün"də iştirakına dair məqamlar yer alıb. Diqqətə çatdırılır ki, Azərbaycanın birinci xanımı idman, mədəniyyət, sosial və digər sahələrdə mühüm layihələrin təşəbbüskarıdır. Onun irəli sürdüyü təşəbbüslər hər zaman böyük əks-səda doğurur. Azərbaycanın inkişafı və dünyada təbliği istiqamətində onun ideyaları tükənmək bilmir. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik edən Mehriban Əliyevanın səyləri nəticəsində 2005-ci ildə Bakı gimnastika üzrə dünya çempionatına ev sahibliyi edib. Həmçinin 2004-cü ildən Heydər Əliyev Fonduna rəhbərlik edən Azərbaycanın birinci xanımı Bakıda keçirilən ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə sədrlik edib. O, Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və birinci Avropa Oyunlarının təşkilində əvəzsiz xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Birləşmiş Ərəb Əmirliyinin "Vəhdət" və "Əl-Fəcr" qəzetləri, "Arabian business" biznes xəbərləri, "Ermi Media" qrupuna daxil olan "Foochia", eləcə də mərkəzi ofisi Londonda yerləşən "Middle East Online" portalında dərc edilmiş məqalələrdə

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən ətraflı bəhs edilir. Birinci xanımın ölkədaxili fəaliyyətinə nəzər salınarkən ilk növbədə bildirilir ki, Mehriban Əliyeva Azərbaycan Mədəniyyətinin Dostları Fonduna və Azərbaycan xalqının Ümummilli Liderinin adını daşıyan Heydər Əliyev Fonduna rəhbərlik edir. Diqqətə çatdırılır ki, hər iki Fond humanitar, sosial və iqtisadi layihələr həyata keçirməklə Azərbaycan dövləti və xalqı üçün töhfələr verir. Bu xüsusda, Mehriban Əliyevanın uşaqlara və yaşlı nəslin nümayəndələrinə göstərdiyi xüsusi diqqət, onların qarşısında duran problemlərin həlli istiqamətində gördüyü işlər diqqətə çatdırılır.

Nəşrlərdə vurğulanır ki, tolerantlıq və sülh dəyərlərini üstün tutan Heydər Əliyev Fondunun ölkədə məscid və kilsələrin tikintisi və ya yenidən qurulmasını öz üzərinə götürür, dünyada slühün carçısı kimi çıxış edir. Məhz bu cür yanaşmanın da respublikamızda yaşayan çoxsaylı milli azlıqların bir-biri ilə dinc şəraitdə yaşamasını təmin etdiyi vurğulanır.

Məqalələrdə Azərbaycan xalqının zəngin milli musiqi irsinin gənc və yetişən nəsillərə ötürülməsi işində Mehriban Əliyevanın xüsusi rolu qeyd edilir. Oxucuların diqqətinə çatdırılır ki, məhz Mehriban Əliyevanın hərtərəfli diqqəti hesabına bu gün Azərbaycanda incəsənət obyektləri tikilir, musiqiyə, ələlxüsus da onun muğam janrına gənc istedadlar tərəfindən böyük rəğbət göstərilir.

Dünyanın 135 ölkəsinə yayılan və 15 milyondan çox üzvü olan Vyetnamın Qadınlar Birliyinin mətbu orqanı olan “Vyetnam qadını” jurnalında yayımlanan məqalədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkənin ictimai-siyasi və mədəni həyatındakı rolundan bəhs olunur. “Mehriban Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu, onun təşəbbüsü ilə təsis edilmiş və bir neçə xarici dildə nəşr olunan “İrs” jurnalı Azərbaycan mədəniyyətinin dünyada təbliğinə böyük töhfələr verir”, – deyə məqalədə bildirilir: “Azərbaycanın xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılmasında və inkişaf etdirilməsi sahəsində əvəzsiz xidmətlərinə görə Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri adına layiq görülüb”.

Yazıda Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun Azərbaycanda və dünyanın bir sıra ölkələrində həyata keçirdiyi xeyriyyəçilik tədbirlərindən, Mehriban Əliyevanın Milli Məclisin deputatı və hakim Yeni Azərbaycan Partiyasının sədr müavini kimi siyasi fəaliyyətindən də bəhs olunur: “Mehriban Əliyeva çoxşaxəli fəaliyyətinə görə Azərbaycanda və dünyada bir sıra mötəbər mükafatlara layiq görülüb, müxtəlif yerli və xarici təşkilatlar tərəfindən keçirilmiş ictimai rəy sorğularında bir neçə dəfə ilin ən nüfuzlu xanımı seçilib”.

Məşhur "COSMOPOLITAN" nəşrində qeyd olunur ki, ağıllı və gözəl Mehriban Əliyeva yazıçı Mircəlal Paşayevin nəvəsi və Milli Aviasiya Akademiyasının rektoru Arif Paşayevin qızı Azərbaycanda ən nüfuzlu soyadlardan birinin nümayəndəsidir. Mehriban xanım öz nəslinin şöhrətini ləyaqətlə davam etdirib: Seçenov adına Moskva Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib, hələ tələbəlik dövründə Azərbaycanın gələcək prezidenti ilə ailə qurub. "Mehriban Əliyeva əvvəlcə Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda ixtisası üzrə işləyib, sonra xeyriyyəçiliklə məşğul olmağa başlayıb. Hazırda Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun Xoşməramlı səfiridir. Və əlbəttə, ölkənin ən cazibədar xanımıdır."

Mərakeşin ərəbdilli "əl-İslah və ət-Tənmiyə" qəzetində dərc olunmuş məqalədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Milli Məclisin deputatı kimi çoxşaxəli fəaliyyəti barədə oxuculara ətraflı məlumat verilir. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, nəcib və tərəqqipərvər təşəbbüslərinə, eləcə də mədəniyyətlərarası dialoqa verdiyi töhfələrə görə Mehriban Əliyevanın 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə isə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görüldüyü diqqətə çatdırılır.

Müəllif Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Azərbaycanda və bir sıra İslam ölkələrində sosial, mədəni layihələrə böyük töhfə verdiyini qeyd edir. Məhz Fondun dəstəyi ilə Azərbaycanda müasir məktəblərin inşa edildiyini, həmin məktəblərin bütün avadanlıqlarla təchiz olunduğunu, ən son standartlara cavab verən yeni tədris metodunun tətbiq edildiyini bildirir.

Müəllif Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə parlamentdə qəbul olunan amnistiya aktlarının cəmiyyətdə böyük rəğbətlə qarşılandığını qeyd edir. Geniş ictimai dəstək alan bu amnistiya aktlarının böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etdiyi bildirilir.

Özbəkistanın "podrobno.uz", "uchildiz.uz" informasiya agentliklərində dərc olunmuş "Mehriban Əliyeva xeyirxahlığın və ümidin mücəssəməsidir" sərlövhəli məqalədə bildirilir ki, Mehriban Əliyeva yaşından, milliyyətindən və dini etiqadından asılı olmayaraq milyonlarla insanın ürəyini fəth edib. "Onu ətrafdakılara humanist münasibətinə, ehtiyacı olan insanlara qayğı göstərdiyinə və kömək etdiyinə, onların dərdinə şərik çıxdığına və lazımlı məqamda yanlarında olduğuna görə ehtiram bəsləyir və sevirlər. Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr səhiyyə, mədəniyyət, sosial sahə, ekologiya, idman və digər istiqamət-

ləri əhatə edir. Onun müasir Azərbaycan tarixinin bir hissəsinə çevrilən fəaliyyəti cəmiyyətin həyatında Azərbaycan qadınının rolu haqqında aydın təsəvvür yaradır. Mehriban xanım özünü reallaşdıra bilən harmonik, məqsədyönlü və güclü qadınların etalonuna çevrilib".

Nəşrdə qeyd edilir ki, Mehriban xanımın rəhbərliyi ilə bir çox əhəmiyyətli layihələr həyata keçirilib. "O, milli-mədəni dəyərlərin qorunub saxlanmasına və dünyaya təqdim olunmasına töhfə verir, istedadlı gəncləri – idmançıları, rəssamları, musiqiçiləri dəstəkləyir. O, minlərlə adama sağlamlığını və ümidini qaytarıb. Bütün bunlar bir məqsədlə – xalqının və Vətəninin rifahına xidmət məqsədi ilə edilib. Onun fəaliyyəti insanları xeyirxah işlərə ruhlandırır, cəmiyyətdə mərhəmət və şəfqət kimi əbədiyaşar dəyərlərin təsdiqinə xidmət edir... Mehriban Əliyevanın sayəsində cəmiyyətin sosial həyatında xeyriyyəçilik və mesenatlıq ənənələri dirçəldildi. O, bütün sosial problemlərin yalnız dövlət tərəfindən həll olunması barədə ictimai şüurda kök salmış təsəvvürləri dağıtdı və onların həllində cəmiyyətin bütün zümrələrinin iştirak etməyə can atmasına nail oldu".

Küveytin geniş oxucu kütləsinə malik "Əl-Nahar" qəzetində dərc olunmuş yazıda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyatı, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Azərbaycanda və xarici ölkələrdə həyata keçirdiyi layihələrdən söhbət açılır. Müəllif, həmçinin Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın milli-mənəvi irsimizin qorunub saxlanılmasında və dünyada təbliğində rolu, Azərbaycanda və ölkə xaricində nəcib xeyriyyəçilik fəaliyyəti, elmə, təhsilə, səhiyyəyə, idmana və cəmiyyətin inkişafına stimul yaradan digər mühüm sahələrə göstərdiyi diqqət və qayğı barədə ətraflı məlumat verir.

"Московский Комсомолец" qəzetində dərc olunan məqalədə qeyd edilir ki, Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva həm öz ölkəsi, həm də başqa ölkələr üçün çox iş görür: "Mehriban Əliyeva Azərbaycanın birinci xanımı olmaqla bərabər, həm də dünyada ali dövlət təltiflərinə layiq görülmüş ilk qadındır. Axı Azərbaycan Prezidentinin xanımı Fondun rəhbəri olmaqla həm öz ölkəsi, həm də başqa ölkələr üçün çox iş görür. Məsələn, Mehriban Əliyeva Küveyt Dövlətinin Qadın Məsələləri üzrə Komitəsinin sədri Şeyxa Lətifə Əl-Fəhd Əl-Səlim Əl-Sabahın imzaladığı Fəxri diplom ilə təltif edilib. Bu, Küveyt qadınlarının adından xarici ölkənin ictimai-siyasi xadiminə, üstəlik əcnəbi qadına verilən ilk mükafatdır. Diplomda deyilir ki, Küveyt qadınları UNESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci xanımı Mehriban Əliyevaya "İslam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə

verdiyi böyük töhfələrə görə" təşəkkür edirlər".

Qəzetin müəllifləri bildirilər ki, biz rusiyalılar üçün xüsusilə fərəhlidir ki, birinci xanımın özünün sözlərinə görə, Azərbaycanda böyük rus ədəbiyyatına, mədəniyyətinə və tarixinə çox hörmət edirlər. "Fondun vitse-prezidenti Leyla Əliyeva Rusiyada olarkən həmişə vurğulayır ki, Azərbaycanda məktəblərdə rus dilinin tədrisi tam həcmdə saxlanıb, Rus Dram Teatrı, Rus Mədəniyyət Mərkəzi, Bakı Slavyan Universiteti və Lomonosov adına Moskva Dövlət Universitetinin filialı işləyir".

Dünyanın nüfuzlu "The Business Year" jurnalında isə qeyd olunmuşdur ki, Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu müxtəlif mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə, xalqlararası dialoqun dərinləşməsinə, tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verir. Fond dünyada geniş nüfuz və rəğbət qazanan "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini həyata keçirir. Layihə çərçivəsində dini abidə və ziyarətgahlarda təmir-bərpa işləri aparılır, mövzuya aid sərgilər təşkil olunur.

Heydər Əliyev Fondu gerçəkləşdirdiyi layihələrlə əhalinin sağlamlığının qorunmasında da yaxından iştirak edir. Fondun müəyyən etdiyi başlıca vəzifələrdən biri uşaq evləri və internatlardakı azyaşlı və yeniyetmələrə, şəhid, qaçqın, məcburi köçkün və aztəminatlı ailələrdən olan, həmçinin belə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım etməkdir. Fond beynəlxalq təşkilatlar və dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri ilə əməkdaşlıq şəraitində "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və digər layihələr həyata keçirmiş, tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasına nail olmuşdur. Fondun yarandığı gündən ölkədə bir sıra xəstəxana, poliklinika, diaqnostika mərkəzi və digər tibb ocaqları tikilmiş, təmir olunmuş və yenidən qurulmuşdur.

Fondun fəaliyyətinin mühüm istiqamətlərindən biri də xeyriyyəçilikdir. Valideyn himayəsindən, ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq, asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə Fond mütəmadi olaraq xeyriyyə aksiyaları keçirir. Bu aksiyalar çərçivəsində Fond geniş tərkibli yardımlar göstərir. Belə ki, qurum uşaq evlərinə və internat məktəblərinə hədiyyələr göndərməklə yanaşı, konsert və əyləncə proqramları təşkil edir".

Mehriban Əliyevanın Birinci vitse-prezident təyinatı ilə bağlı informasiyaya, özəlliklə, Rusiya, Türkiyə, Gürcüstan, Qazaxıstan, Ukrayna, Belarus mətbuatı yer ayırmışdır. Mehriban Əliyevanın Birinci vitse-prezident təyin edilməsi haqqında informasiyanı verən mətbuat orqanları onun siyasi və ictimai fəaliyyəti haqqında əhatəli məlumat paylaşmışdır.

Birinci vitse-prezident haqqında Rusiyanın İTAR TASS, "RİA Novosti", "Raşşın Tudey", "İnterfaks", "Gazeta.ru", "Sputnik", RBK, Türkiyənin TRT, "Anadolu Agentliyi", "Hürriyet", Qazaxıstanın "Nur.kz", "Kursiv.kz", Belarusun "Belta.by", Ukraynanın "Unian.net" və digər KİV-lər də geniş yazılar dərc etmişdir.

Prezident İlham Əliyev Mehriban xanım Əliyevanın beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu, onun tərəfindən görülən işlərin sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun inkişafında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə çatdıraraq bildirib. Qeyd edib ki, Azərbaycanın beynəlxalq nüfuzunun artmasında, imicinin daha da güclənməsində ölkəmizin qlobal əhəmiyyətli mühüm, nüfuzlu tədbirlərə ev sahibliyi etməsi xüsusi əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, respublikamız beynəlxalq xarakterli idman, mədəniyyət, humanitar tədbirləri müvəffəqiyyətlə təşkil edir, Azərbaycan reallıqları dünyaya uğurla təqdim olunur. Ona görə də Azərbaycan qlobal müstəvidə beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi xarakterizə olunur. Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər mühüm tədbirlər məhz mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda keçirilib. Bu mötəbər tədbirlərin təşkilində Mehriban Əliyevanın xidmətləri xüsusi əhəmiyyət kəsb edir. Mehriban xanımın bu qlobal tədbirlərdə və forumlarda dünya ictimaiyyətinin diqqətinə mədəniyyətlərarası dialoq, multikulturalizm və tolerantlıq ənənələrinin təşviqi kimi məsələləri çatdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Onun səsləndirdiyi fikirlər Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bir daha təsdiq edir.

Prezident İlham Əliyev qeyd edir ki, Mehriban Əliyevanın təşəbbüskarı olduğu bu tədbirlər ötən müddət ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib: "Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi

Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir. Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram".

Mehriban xanım Əliyevanın həm ictimai-siyasi, həm də sosial, mədəni-humanitar istiqamətlərdə fəaliyyətinin müsbət nəticələri göz önündədir. O, ictimai faydalı və milli maraqlara əsaslanan fəaliyyəti ilə öz xalqına və dövlətinə qırılmaz mənəvi tellərlə bağlı olduğunu sübuta yetirib. "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında, kiçik də olsa, öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, sözündə və işində bütöv olmalıdır". Bu fikirlər Mehriban xanım Əliyevanın xalqın və dövlətin maraqlarını əks etdirən genişmiqyaslı və məqsədyönlü işlərinin əsasında duran fəaliyyət prinsiplərini təşkil edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz xalqına və dövlətinə qırılmaz mənəvi tellərlə bağlılığını ifadə edərək, ona verilmiş bu məsuliyyətli və şərəfli işin öhdəsindən layiqincə gəlmək üçün bütün gücünü əsirgəməyəcəyini diqqətə çatdırıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bu mühüm posta təyin olunduqdan 2 ay sonra "Rossiya 24" telekanalına verdiyi müsahibədə bildirib ki, indi onu düşündürən əsas məsələ insanların etimadını doğrultmaqdır. "Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın mənə tövsiyələri və deyəcəkləri tamamilə üst-üstə düşəcək. Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam".

Mehriban Əliyeva həddindən artıq intizamlı, işinə məsuliyyətli və calışqandır. Onun "mən öz vəzifələrimi vaxtında yeri-




nə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Ümidvaram ki, gələcəkdə də bunu bacaracağam", – kimi açıqlaması özünəinamın göstəricisidir.

Məcburi köçkünlərə qayğı, diqqət, mərhəmət Mehriban xanımın iş üslubunda əsas yer tutur. Onun xarakterindəki insanpərvərlik siyasi fəaliyyətinin ən mühüm məqamında da əsas xarakterik keyfiyyətlər kimi özünü büruzə verir. Məcburi köçkün ailələri üçün salınmış yeni binaların istifadəyə verilməsi mərasimində iştirakı ənənə halını almışdır. "Mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram", – deyən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 mart 2017-ci il tarixdə sədrlik etdiyi ilk müşavirəni də məhz Bakı və Sumqayıt şəhərlərinin qəzalı vəziyyətdə olan binalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etmişdi. Bu, onun qarşıya qoyduğu prioritet vəzifələrdən birincisi olub: qaçqın, məcburi köçkün və aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması.

Həmin müşavirədə müvafiq qurumlar qarşısında bu sahədə görüləcək işlərlə bağlı konkret vəzifələr qoyan Mehriban xanım Əliyeva yeni mənzillərin, yeni binaların tikilməsi və onların keyfiyyət standartlarına tam cavab verməsi ilə bağlı göstəriş verdi. İlkin mərhələdə dörd min köçkün ailəsini yeni mənzillə, həmçinin

iş yerləri ilə təmin etmək vəzifəsi qarşıya qoyuldu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti ilk müşavirəsində söz verdi ki, qəzalı binalarda müvəqqəti məskunlaşan 4 min məcburi köçkün ailəsi 2 il ərzində yeni mənzillərlə təmin olunacaqlar və artıq 2017-ci ilin 5 ayı ərzində qəzalı binalarda məskunlaşan min məcburi köçkün ailəsinin qısa dövr ərzində bütün infrastruktura malik inşa edilmiş yeni qəsəbələrə köçürülməsinə nail oldu. Qısa zaman ərzində Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün 1026 mənzildən ibarət müasir yaşayış kompleksinin təməlinin qoyulması, qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində onlara Abşeron rayonunun Masazır və Mehdiabad qəsəbələrində yeni mənzillərin verilməsi, iş adamlarının yardımı ilə 214 ailənin yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülməsi, eyni zamanda Masazır, Ramana qəsəbələrində və Xətai rayonunda yeni binaların istifadəyə verilməsi ilə daha 725 məcburi köçkün ailəsinin mənzil şəraitinin yaxşılaşdırılması qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə icra edildiyini, görülən işlərin əhəmiyyətini göstərir. Digər tərəfdən, Mehriban xanım Əliyevanın 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabitləri ilə görüşü, ehtiyacı olanların yüksək texnologiyalı protezlərlə təmin edilməsi barədə tapşırıq verməsi də xüsusi qeyd olunmalıdır.



Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin salınmış 1 milyondan çox soydaşımızın bütün qayğıları, sosial problemləri, münaqişənin siyasi cəhətdən həlli Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir, bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir. Onlar üçün müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınır, qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraiti yaxşılaşdırılır, məşğulluqlarının təmin olunması üçün xüsusi dövlət proqramları qəbul edilib və uğurla həyata keçirilir.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın məcburi köçkünlərə olan xüsusi diqqət və qayğısı hər zaman davamlı xarakter daşıyıbdır. Azərbaycanın



Birinci vitse-prezidenti vəzifəsində təyin olunduqdan sonra isə Mehriban xanım birbaşa bu sahəyə olan diqqətini daha da artırıb, Birinci vitse-prezident kimi keçirdiyi ilk müşavirə Bakı və Sumqayıt şəhərlərində qəzalı və yararsız binalarda yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi məsələsinə həsr edilmiş və bununla bağlı ciddi tədbirlər görülübdür. O, məcburi köçkünlərin yaşayışının yaxşılaşdırılması üçün müvafiq qurumlara tapşırıqlar verib, bir sıra mühüm tədbirlərdə iştirak edib. Son 2 ildə Prezident İlham Əliyevlə birlikdə məcburi köçkünlər üçün inşa edilmiş yaşayış binalarının açılış mərasimlərində iştirak edən Birinci vitse-prezident bu insanların hər bir qayğısına həssas yanaşdığını nümayiş etdirib.

2019-cu il avqustun 26-da Heydər Əliyev Mərkəzində bir qrup məcburi köçkünün iştirakı ilə tədbirin təşkili Mehriban Əliyevanın qaçqınları daim diqqətdə saxladığını, onun üçün özəl gün olan ad günündə bu insanlarla bir yerdə olması yüksək mənəvi keyfiyyətlərin, insanpərvərliyin yaxşı nümunəsi hesab edilə bilər. Məcburi köçkünlərin tədbirə qatılan Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyevanı hərarətlə və sevinclə, məhəbbətlə qarşılaması Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə dəstəyin və Birinci vitse-prezidentə olan sonsuz sevginin təzahürü idi.

Məcburi köçkünlər qarşısında çıxış edən Birinci vitse-prezident Mehriban Əliyevanın "Bu gün ad günümdə sizinlə



bərabər olmaq, doğma insanların əhatəsində olmaq mənim üçün çox xoşdur. Əminəm ki, sizin hər birinizin qəlbində yaşayan arzu hər bir azərbaycanlının ən müqəddəs arzusudur – torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qarabağ torpağında Azərbaycanın üçrəngli bayrağının dalğalanması" fikirləri xüsusi coşqu və dərin inam, ümid hissləri ilə qarşılandı.

Mehriban xanım Əliyeva hər bir məcburi köçkünə Prezident İlham Əliyevin və özünün dərin hörmət, minnətdarlıq və məhəbbətini çatdırıraraq onları hər zaman diqqətdə saxladıqlarını bəyan edibdir. Məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasının dövlətimizin ən prioritet məsələlərindən biri olduğunu xatırladan Birinci vitse-prezident ötən illər ərzində bu sahədə çox işlər görüldüyünü diqqətə çatdırıb: "Məcburi köçkünlərin, bizim əziz soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılması, onların işlə təmin olunması, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin borcudur. Azərbaycan dövləti bu yolda çox böyük nailiyyətlər əldə edib. Altmış minə yaxın soydaşımız yeni mənzillərlə təmin olunub. Ötən il 5900 qaçqın və məcburi köçkün ailəsi yeni evlərlə təmin edilib. Bu il 6 minə yaxın yeni mənzil istifadəyə veriləcək. "Qobu Park-2" yaşayış qəsəbəsində işlər bu yaxınlarda tamamlanacaq və yenə də 1300 məcburi köçkün ailəsinin yaşayış şəraiti yax-






şılaşacaq. Amma bu, müvəqqətidir. Çünki bir daha deyirəm, bizim arzumuz başqadır. Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir".

Məcburi köçkünlər Birinci vitse-prezident Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək ən xoş arzularını çatdırıblar. Onlar dövlətin, o cümlədən Birinci vitse-prezidentin qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərə görə minnətdarlıqlarını bildirib, Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələrin əhəmiyyətini vurğulayıblar.

Birinci vitse-prezidentə "Şuşanın qalası" rəsm əsəri hədiyyə edilib. Mehriban Əliyeva hər zaman qaçqınların və məcburi köçkünlərin diqqətini hiss etdiyini və bundan sonra da dövlətin onların yanında olacağını bildirib.

Əlbəttə, sadalananlar Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin heç də tam siyahısı deyil. Bütün hallarda olunanlar Mehriban xanım Əliyevanın cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllini diqqət mərkəzində saxladığını birmənalı şəkildə nümayiş etdirir.

Mehriban Əliyevanın Birinci vitse-prezident seçildikdən sonra əsas fəaliy-



yət sahələrindən biri şəhid ailələri, Qarabağ döyüşçülərinin problemlərinin həlli istiqamətində gördüyü işlərin əhatəsinin daha da genişləndirilməsidir. Bütün bunlar Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanlarımızın əziz xatirəsinə dərin ehtiramın bariz ifadəsidir. Aprel hadisələrindən sonra şəhid əsgərlərimizin anaları və ailələri ilə görüşən Mehriban Əliyeva onların acı kədərinə şərik olduğunu bildirdi, dərin hüznlə başsağlığı verdi. "Mən o qadınların – anaların, xanımların, bacıların, ailə üzvlərinin qarşısında baş əyirəm. Çünki onlar elə övladlar böyüdüblər ki, bütün xalq onların ismini söyləyir, onlarla fəxr edir", – deyən Mehriban xanım növbəti dəfə öz böyüklüyünü, əsl ana kimi qəlbinin dərin çırpıntılarını ifadə etdi.

Mehriban Əliyeva vətənpərvər oğullarımızın qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirir, hər zaman onlara dəstək olacağını vurğulayır. Birinci xanım bu igid və cəsur övladlarımızı özünün ən yaxın doğması hesab edir, dərin hörmətlə onları öz qardaşı adlandırır. Birinci-vitse prezident Azərbaycanın çox zəngin ölkə olduğunu, ancaq ən qiymətli və zəngin sərvətimizin Azərbaycan insanı, qəhrəman hərbçilərimizin olduğunu bildirir:

"Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var". O, bu insanlara ən yüksən qayğının davam etdiriləcəyini, onların problemlərinin həllində əlindən gələni etməyə hazır olduğunu, bu məsələləri şəxsən özünün diqqətdə saxlayacağını əmin edir. O, əmin edirsə, deməkkün olan bütüm köməyi də ən yüksək səviyyədə göstərəcəkdir.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş övladlarımızın əziz xatirəsinə dərin ehtiramlarını, sonsuz məhəbbətlərini hər zaman ən yüksək səviyyədə nümayiş etdirirlər. 2019-cu il yanvarın 28-də Prezident Sarayında şəhid ailələri keçirilən görüş bu doğma münasibətin bir daha təsdiqi oldu. Bu humanizm cəmiyyətdə nümunəvi addım ol-





maqla yanaşı, səmimi ovqat, xoş ünsiyyətin göstəricisi kimi rəğbət və məmnunluqla qarşılandı. Bu görüş şəhidlərimizin hər birimiz üçün müqəddəs olduğunun, əziz xatirələrinin daim ürəklərdə yaşadığının ifadəsi idi.

Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələri ilə yanaşı, Böyük Vətən müharibəsi veteranlarına da yüksək dövlət qayğısı göstərilir. Dövlət onların sosial müdafiəsinin yaxşılaşdırılması, sosial ehtiyaclarının ödənməsi istiqamətində davamlı addımlar atır. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Böyük Vətən müharibələri iştirakçıları ilə görüşür, onların bütün problemini həll edir.

Birinci vitse-prezident Mehriban Əliyevanın hərbi təhsil müəssisələrinə qayğısı da diqqət çəkməkdədir. Onun rəhbəri olduğu Heydər Əliyev Fondunun bu cür məktəblərin yaradılmasında və formalaşdırılmasında dəstəyi vardır. Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yeni tədris korpusu da bu qəbildəndir. 2018-ci il martın 5-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən məktəbin yeni tədris korpusunun açılışında iştirak edən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban

Əliyeva bu addımı ilə sərhədlərimizin qorunmasında ayıq-sayıq dayanan vətən oğullarında vətənpərvərlik duyğusunu daha da artırmış olur.

Mehriban Əliyeva hərbi vətənpərvərlik sinfində I kurs – 5-ci sinifdə təhsil alan kursantlarla görüşüb. Burada təhsil alanlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər, Azərbaycana ləyaqətli vətəndaş və peşəkar zabit kimi xidmət edəcəklərini deyiblər.

Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin fəaliyyətə başlaması ilə Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini təmin edəcək ixtisaslı zabit kadrların hazırlanması üçün 12 illik təhsil dövrünü əhatə edən mükəmməl hərbi tədris sistemi formalaşıb. Xüsusi Məktəb bu sistemin müstəsna əhəmiyyətli ilkin səviyyəsini təşkil edir. Yeni korpusun istifadəyə verilməsi ilə kursantlara daha keyfiyyətli təhsil vermək imkanları artıb.

O, bütün əsgərlərin Anasıdır. Qürur və fəxr ünvanımız olan Azərbaycan Ordusunun hər bir əsgəri onun üçün doğmadır, əzizdir. Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə təbrik məktubunda bir daha milli iftixarımız olan hərbçilərimizlə, Vətənin etibarlı müdafiəsində göstərdikləri dəyanətə görə fəxr etdiyini bildirir: "Biz Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd





edirik. Bu, hərbi rəşadət, şərəf və igidlik bayramıdır. Bu gün biz həyatını riskə məruz qoyaraq Vətənimizi müdafiə edənlərin qəhrəmanlığına ehtiramımızı bildiririk. Ordu bizim dövlətçiliyimizin, təhlükəsizliyin və sabitliyin dayağıdır. Dövlətin hərbi qüdrəti bir çox amillərlə şərtlənir. Lakin bizim ordumuzun əsas gücü Azərbaycanın əsgər və zabitlərinin döyüş ruhu və Vətənə hədsiz sevgisidir. Əziz hərbçilərimiz! Biz sizin mərdliyiniz, şücaətiniz və ən yüksək peşəkarlığınızla fəxr edirik! Bu əlamətdar bayram münasibətilə sizi ürəkdən təbrik edirəm!"

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə keçirilən tədbirdə Birinci-vitse prezidentin iştirak etməsi bütün əsgərlərə sevinc bəxş etmiş, onlarda milli vətənpərvərlik ruhunu artırmışdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından hərbi hissənin şəxsi heyətini təbrik edən Mehriban xanımın bu addımı Vətənin müdafiəsində şərəf və ləyaqətlə xidmət edən bütün hərbi hissə heyətinin qəlbində dərin iz buraxmışdır.

Azərbaycan Ordusunda xidmət edən hər bir gənc böyük şərəf hissi ilə hərbin sirlərinə yiyələnir. Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli işin öhdəsindən layiqincə gələn əsgərlərimiz dünyanın ən qüdrətli ordularından birində xid-

mətləri ilə qürur duyurlar. Bu gün Azərbaycan Ordusu müasir silah-sursat təminatına və maddi-texniki bazasına görə dünyada lider yerlərdən birini tutur. Amma ən əsas məsələ müstəqil ölkəmizin ordusunda xidmət edən hərbçilərdə olan Vətənə bağlılıq, Vətən sevgisi və ruh yüksəkliyidir. Üzərinə düşən vəzifələri lazımi səviyyədə icra etməyə qadir olan Azərbaycan əsgəri doğma torpağını, xalqını və dövlətini sonsuz məhəbbətlə sevir və Vətən uğrunda canından belə keçməyə hazırdır.

2019-cu il iyulun 1-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması mərasimində iştirak edən Mehriban xanımın bu jesti əsgərlər və zabitlər üçün növbəti dəfə sevinc və fərəhə səbəb olmuşdur. Bu mərasim bütün əsgər anaları, hərbi qulluqçuların ailə üzvləri üçün xoş təəssürat yaradan hadisə kimi xatırlanmaqdadır. Ehtiyata buraxılan hərbi qulluqçular arasında Azərbaycan Prezidenti, Ali Baş Komandanın oğlu Heydər Əliyev də olmuşdur.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın avqustun 19-da Ali Hərbi Məktəbin bir qrup məzunu ilə şəhidlərin əziz xatirəsini yad etməsi onun torpaqlarımızın bütövlüyü uğrunda canını qurban vermiş unudulmaz Vətən oğullarına olan sonsuz ehtiramının növbəti nümunəsi hesab edilə bilər. Mehriba xanım bu fikirlərində, həqiqətən də, dövlə-





tə və vətənə böyük məhəbbətini ifadə edir. Onun bu səmimi və xoş duyğu yaradan sözlərində Vətənin keşikçilərinin əziz xatirəsinin hər zaman yad edildiyi, bu gün torpaqlarımızı qoruyan cəsur və qəhrəman oğullarımıza minnətdarlıq hissləri ifadə olunubdur. "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin bir qrup məzunu ilə Vətənimiz naminə, Azərbaycan torpaqlarının işğalçılardan azad edilməsi naminə həyatından keçən şəhidlərin işıqlı xatirəsini yad etdim. Bu insanların qəhrəmanlığı qarşısında baş əyirəm. Azərbaycanın layiqli övladları, əsgər və zabitləri ilə fəxr edirəm. Onların şücaəti, onların adları Azərbaycan tarixinə və Azərbaycan xalqının qəlbinə əbədi olaraq həkk olunub. Allah rəhmət eləsin. Ulu Tanrı hər zaman Azərbaycanı qorusun!"

Birinci vitse-prezident bu nümunəvi addımı ilə həm də Azərbaycan hərbçilərinə böyük ruh yüksəkliyi, döyüş əzmkarlığı və Vətən eşqi aşılayır.

Cəmiyyət onun bu diqqətini unutmur, yüksək dəyər verir və başqalarına örnəkverici addım hesab edir. Şəhid ailələri onun bu davranışını xüsusi olaraq yüksək qiymətləndirir. "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, "Aprel döyüşləri"ndə həlak olmuş polkovnik-leytenat Raquf Orucovun xanımı Sevinc Alızadə Birinci vitse-prezidentin bu addımını yüksək qiymətləndirərək vurğulayıb ki, Mehriban xanımın şəhidlərin əziz xatirəsini yad etməsi qürurvericidir. "Mehriban xanım yanında heç kim olmadan Ali Hərbi Məktəbin məzunları ilə birgə şəhid məzarını ziyarət edib. Mehriban xanım II Fəxri Xiyabanda uyuyan şəhidləri ziyarət edib. Həmin yerdə "Aprel şəhidləri"ndən olanlar da dəfn edilib. Bu, bütün məmurlara örnək addımdır". Birliyin sədri bildi-

rib ki, şəhid adını hamımız uca tutmalıyıq: "İkinci Fəxri Xiyabanda da bizim igidlərimiz uyuyur. Onları da hörmət və ehtiramla yad etməliyik. Bu addım ölkənin Birinci vitse-prezidentinin şəhidə verdiyi dəyərdir. Şəhid adını hamımız uca tutmalıyıq. Şəhidlik baş tacımızdır. İnsanlarımız şəhidlərimizi sayqıyla anmalı, adları çəkiləndə ayağa qalxmalıdır.

Azərbaycan Birinci xanımı xarici iqtisadi-siyasi əlaqələrin inkişaf etdirilməsini fəaliyyətinin ən mühüm mərhələsində – Birinci vitse-prezident təyin edildikdən sonra da davam etdirmişdir. Onun Bolqarıstanın vitse-prezidenti İlina İotova, Yaponiyanın xarici işlər nazirinin parlamentari müavini Manabu Hori, İtaliya Senatının sədr müavinin başçılıq etdiyi nümayənəd heyəti, Latviyanın sabiq prezidenti Varya Vike-Vyerberqa, UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis, İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti, Fransa Milli Assambleyasının Fransa–Azərbaycan dostluq qrupunun üzvləri ilə görüşləri dövlətlərarası münasibətlərin inkişafına, yeni əməkdaşlıq proqramlarının həyata keçirilməsinə dərin töhfə verən hadisələr kimi qiymətləndirilə bilər. Polşa, Xorvatiya və digər ölkələrə səfərləri tərəflər arasında əməkdaşlıq üçün yeni üfüqlər açmış, bir sıra sahələrdə yeni əlaqələrin qurulması üçün dərin zəmin yaratmışdır.

2018-ci il fevralın 12-də Azərbaycan Birinci vitse-prezidenti Mehriban Əliye-



vanın Müqəddəs Taxt-Tacın dövlətlərlə münasibətlər üzrə katibi arxiyepiskop Pol Riçard Qalaherin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü ikitərəfli münasibətlərin inkişafına təkan verən mühüm hadisə kimi yadda qalmışdır. Bu səfər Azərbaycanda sülh və qarşılıqlı hörmət şəraitində yaşayışın, dözümlülüyün, əmin-amanlığın çox yüksək olmasına verilən qiymət idi. Həmin görüşdə bəyan olunduğu kimi, Azərbaycan dünyada ən sabit və tolerant ölkədir. Səfər eyni zamanda Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərin dinamikliyini təsdiqləyən hadisə kimi əlamətdar oldu.

Azərbaycanın Birinci vitse-prezidentinin 2018-ci il martın 15-də Türkiyənin Baş naziri Binəli Yıldırımla görüşü ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin nümunəvi olduğunu təsdiqləmişdir. Mehriban Əliyeva bütün sahələrdə ən yüksək səviyyədə olan münasibətlərin əhəmiyyətinə toxunmuş, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyənin ölkəmizin ədalətli mövqeyini müdafiə etməsinə və dünya ictimaiyyətinə çatdırmasına görə minnətdarlığını bildirərək, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normaları və prinsipləri əsasında tezliklə həll olunacağına əminliyini ifadə etmişdir. Görüşdə Azərbaycan və Türkiyə xalqları arasında dostluq münasibətlərinə heç nə-





yin xələl gətirə bilməyəcəyi xüsusilə vurğulanmışdır.

2017-ci il dekabrın 26-da Rusiya Federasiyasına səfər edən Birinci vitse-prezident Mehriban Əliyeva bir sıra maraq doğuran görüşlər keçirmiş, ikitərəfli əlaqələrin inkişafına təkan verən mühüm layihələrin davam etdirilməsinin perspektivlərinə toxunmuşdur. Həmin səfər zamanı Mehriban Əliyevaya II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilmişdir. Birinci vitse-prezident Mehriban Əliyeva Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə bu ordenlə təltif edilmişdir.

2017-ci il fevralın 17-də Prezident İlham Əliyevlə birgə 53-cü Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfər edən Mehriban Əliyeva bu qlobal sammitə qatılmış, panel-müzakirələri izləmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın 2018-ci il sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü xüsusilə ictimai-siyasi baxımdan məzmunlu olmuşdur. Görüşdə Azərbaycanın NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayan Mehriban xanım ölkəmizin Alyansın müxtəlif tədbirlərində iştirak etdiyini bildirmişdir. Qeyd etmişdir ki, 2002-ci ildən başlayaraq, Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə birgə Əfqanıstanda çiyin-çiyinə xidmət edir, 2018-ci ilin yanvar ayından Qətiyyətli



Dəstək Missiyasında Azərbaycan hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb. Ölkəmiz, həmçinin, Əfqanıstanın milli ordusuna maliyyə yardımı göstərir, logistika və nəqliyyat problemlərinin həllinə kömək edir, ordunun şəxsi heyəti üçün təlimlər təşkil edir. Hazırda NATO ilə Azərbaycan arasında yüksək səviyyəli dialoq uğurla inkişaf etdirilir.

Azərbaycanın NATO-nun gender məsələlərinə, qadın hüquqları, sülh və təhlükəsizlik məsələsində göstərdiyi böyük diqqəti alqışlayan Birinci vitse-prezident ölkəmizdə gender bərabərliyinin dövlət siyasətinin prioritetlərindən biri olduğunu qeyd etmişdir. Ermənistanın işğalçılıq siyasətinə diqqət çəkən Mehriban Əliyeva Azərbaycanın 25 ildən artıqdır ki, bu işğaldan əziyyət çəkdiyini, beynəlxalq səviyyədə ölkəmizin ərazisi kimi tanınan Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun bu siyasət nəticəsində işğal altında qaldığını, 1 milyondan çox insanın qaçqın və məcburi köçkün həyatı yaşadığını, münaqişə zamanı yüzlərlə azərbaycanlı qadının öldürüldüyünü, girov götürüldüyünü, Xocalı faciəsi zamanı 600-dən çox insanın, o cümlədən qadın və uşaqların vəhşicəsinə qətlə yetirildiyini diqqətə çatdırmışdır. Bu görüş bir daha Azərbaycanın sülhsevər ölkə olduğunu, qonşuları və digər ölkələrlə qarşılıqlı

hörmət əsasında əlaqələr qurduğunu təsdiq etmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xarici ölkələrin səfirləri ilə görüşü də dipomatik sahədə mühüm uğurlarımıza işıq saçan mühüm hadisələrdəndir. Mehriban Əliyeva səfir xanimlarla görüşlərdə respublikanın bütün regionlarında həyata keçirilən quruculuq işlərindən geniş bəhs edir, bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyətini diqqətə çatdırır, Fondun beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurmasının dünya ictimaiyyəti üçün faydalarını təqdim edir.

Mehriban Əliyevanın Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü də çox əlamətdar olmuşdur. Bu görüş Çinlə Xalq Respublikası Azərbaycan arasında münasibətlərin dostluq və tərəfdaşlıq üzərində inkişafına stimul vermiş, iki ölkənin müxtəlif sahələrdə uğurlu əməkdaşlığında yeni trendləri müəyyən etmişdir.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın ən yaxın tərəfdaşlarından biri olan Böyük Britaniya ilə əlaqələrə də mühüm əhəmiyyət verməkdə-





dir. Onun 2019-cu il fevralın 22-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü siyasi-iqtisadi əlaqələrin dinamizmini artıran mühüm siyasi hadisə hesab oluna bilər.

Görüşdə ölkəmizlə Böyük Britaniya arasında münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyinə toxunulmuş, tərəflər arasında səhiyyə, ekologiya və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

2019-cu il aprelin 12-də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşündə də mühüm məsələlər müzakirə olunmuşdur. Bu səfər Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfə vermişdir.

Mehriban xanım Əliyevanın digər dövlətlərin nüfuzlu siyasi xadimləri, hökumət və dövlət başçıları, diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşləri də maraqlı və yaddaqalan olmuşdur. Bu görüşlər Azərbaycanın xarici siyasətində yeni bir hərəkat olmaqla ölkəmizin dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafında, beynəlxalq nüfuzunun artmasında sanballı töhfələr vermişdir.



Azərbaycanın Birinci vitse-prezidentinin Qoşulmama Hərəkatının xarici işlər nazirləri, Fransa Senatının Qafqaz Dostluq Qrupunun üzvləri, MDB ölkələrinin daxili işlər nazirləri Şurasının üzvləri, Çinin nümayəndə heyəti və digər mötəbər şəxslərlə görüşlərini xarici siyasət məsələlərində yeni dalğanın başlanmasının göstəricisi kimi qiymətləndirmək olar.

2019-cu il iyunun 24-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən BMT-nin Dövlət Xidmətləri Forumunda çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar barədə geniş məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycanın müasir islahatlar kursunda vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərmək və idaəetmədə ən innovativ modellər tətbiq etmək başlıca hədəflər kimi mühüm yer tutur. Respublikamız son illərdə bu istiqamətdə bir sıra mühüm uğurlara imza atmışdır. Qeyd etmşdir ki, bu gün dünyada Azərbaycan brendi kimi qəbul edilən "ASAN xidmət" modeli genişmiqyaslı dövlət idarəçiliyi islahatlarının mühüm bir hissəsidir: "Müsbət təcrübəmiz beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etmişdir və 2015-ci ildə "ASAN xidmət" dövlət xidmətlərinin təc-



hizatının təkmilləşdirilməsi kateqoriyasında BMT tərəfindən xüsusi mükafata layiq görülmüşdür. Bizim "ASAN" ilə bağlı olan təcrübəmizin daha geniş regionda ən yaxşı təcrübə kimi izlənilməsinə görə fərəhlənirik".

Mehriban Əliyeva vurğulamışdır ki, dövlət xidmətləri sahəsində islahatların davam etdirilməsi Azərbaycanın demokratik dövlət quruculuğunda proritetdir və ölkəmiz yeni ideyalar və təşəbbüslərlə dünya dövlətləri ilə birgə təcrübələri bölüşməyə hər zaman açıqdır: "Azərbaycan bilavasitə bu forumun nəticəsi olaraq "Dövlət xidmətlərinin təchizi üzrə müəssisələrin ASAN Assosiasiyası"nın yaradılması təşəbbüsünü irəli sürmüşdür. Ümid edirəm ki, bu yeni qurum dövlət xidmətlərinin səmərəli təchizi üçün ekspertlər arasında dialoqu təşviq etmək məqsədi daşıyan əhəmiyyətli beynəlxalq bir alətə çevriləcəkdir".

Forumda çıxış edən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin və digərləri səmərəli dövlət xidmətlərinin göstərilməsi, innovativ transformasiyalar və bu istiqamətli institutlaşma sahəsində Azərbaycanın

tətbiq etdiyi yenilikləri təqdir etmişlər. Bildirilmişdir ki, Azərbaycan innovativ idarəetmə vasitəsilə inklüziv, səmərəli və insanyönümlü İKT əsaslı dövlət xidməti sistemi yaradıb. Bu, dünyada geniş vüsət alan elektron hökumət xidmətlərinin tətbiq edilməsi və bu xidmətlərlə vətəndaşların məmnunluğunun artırılması baxımından dünya üçün yaxşı nümunədir.

Həmin Forumda BMT-nin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya xüsusi mükafatının təqdim edilməsi bir daha ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində görülən işlərə verilən qlobal səviyyəli yüksək dəyərin sübutudur.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətinin çox mühüm hissəsini vətəndaşların sosial problemlərinin həlli ilə bağlı məqamlar təşkil edir. Bu barədə geniş təqdimatdan öncə Azərbaycanın sosial dövlət mahiyyəti və modelini, bu kontekstdə mövcud reallıqları, əldə olunmuş nailiyyət və perspektivləri diqqətə çatdırmaq məqsədəuyğun olar.

Birinci vitse-prezident Mehriban Əliyeva ölkənin tərəqqisi üçün çalışır, ciddi səylər göstərir. Həyata keçirilən əsaslı islahatlar nəticəsində əhalinin rifahı yüksəlir, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır. O, bu şərəfli və məsuliy-





yətli vəzifənin öhdəsindən layiqincə gəlib, 2 illik fəaliyyəti dövründə yeni-yeni uğurlara və nailiyyətlərə imza ataraq, ümumilikdə xalqın, dövlətin və dövlət başçısının etimadını yüksək səviyyədə doğruldub.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətində sosial humanizm və sosial qayğı siyasəti mühüm yer tutur. Vətəndaşların həyatı, sosial və məişət qayğıları onu düşündürür və bu istiqamətdə operativ addımlar atmağa sövq edir. Onun sosial mənzillərin tikintisi ilə bağlı müasir sosial proqrama verdiyi dəstək bunun əyani sübutudur. Prezident İlham Əliyevin müəllifi olduğu bu proqramın gerçəkləşməsində ən böyük təşəbbüskar və təşkilatçılıq edən Mehriban Əliyeva MİDA-nın Yasamal və Hövsan yaşayış kompleksində binaların təməlqoyma mərasimində iştirak etmişdir. 2016-cı il İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməlqoyma mərasimi keçirilən Yasamal Yaşayış Kompleksinin tikintisi yüzlərlə ailənin güzəştli şərtlərlə mənzil sahibi olmasına imkan vermişdir.

2017-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA)

ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlqoyma mərasimində iştirak edən Mehriban Əliyeva bu addımı ilə insanların mənzil-məişət şəraitinin yaxşılaşmasını diqqət mərkəzində saxladığını təsdiqləmişdir. Suraxanı rayonu ərazisində, Hövsan qəsəbəsinin yaxınlığında inşa olunan Hövsan Yaşayış Kompleksi Bakının sürətlə inkişaf edən şərq hissəsində, Xəzər sahilindən cəmi 2 kilometr məsafədə, yaşayış və istirahət üçün olduqca rahat bir məkanda yerləşir. Kompleksin 20 hektarlıq ərazisinin qərb hissəsində şam və zeytun ağaclarından ibarət geniş yaşıllıq zonası mövcuddur. Ərazidə yaşıllaşdırma prosesinin fəal surətdə davam etdirilməsi üzrə planlar Hövsan Yaşayış Kompleksinin gələcək sakinlərinin ekoloji cəhətdən təmiz və sağlam mühitdə yaşayışı üçün zəmin yaradır. Şəhərcik çoxmənzilli 11 yaşayış binasından ibarət olacaq. Bunlardan yeddisinin yeddimərtəbəli on səkkiz girişli, dördünün isə onmərtəbəli bir girişli olması nəzərdə tutulur. Bu binalarda, ümumilikdə, 3002 mənzil olacaq ki, onlardan 280-nin birotaqlı, 1481-nin ikiotaqlı, 940-nın üçotaqlı, 301-nin isə dördotaqlı olması planlaşdırılır. Birotaqlı mənzillərin sahəsi təqribən 32-35 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi təqribən 51-54 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 64-68 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 79-86 kvadratmetr təşkil edəcək. Bütün mənzillər tam təmirli vəziyyətdə və mətbəx mebeli



ilə təchiz olunmuş şəkildə vətəndaşlara təklif olunacaq.

Mehriban xanım qısa müddət ərzində cənab Prezident İlham Əliyevin yazdığı uğur salnaməsinə öz zəngin dəstxətini əlavə edərək Azərbaycanın möhtəşəm quruculuğuna əvəzolunmaz töhfələr verib. Azərbaycanın Birinci vitse-prezidentinin regionlara səfərləri dövlətin vətəndaşlara olan humanizminin, səmimiyyətinin, yüksək diqqət və qayğısının təzahürü kimi yadda qalır. Onu hər bölgədə, şəhər və rayonda böyük coşqu, sevinc hissi və məhəbbətlə qarşılayırlar. Bunun səbəbi insanlara olan sonsuz sevgisidir, sadəliyidir, səmimiyyətdir, insanpərvərliyidir.

Mehriban Əliyeva Birinci vitse-prezident təyin edildikdən sonra uşaqlara olan sonsuz diqqət və məhəbbətini bir daha nümayiş etdirərək, onların sosial vəziyyətinin yaxşılaşması üçün ardıcıl fəaliyyət göstərməkdədir. Bakının Xəzər rayonunun Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni inşa olunmuş binasının açılışı, Bakının Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin əsaslı şəkildə yenidən qurulması və sair kimi tədbirlər onun





uşaqlara olan diqqətinin bariz nümunəsidir. Birinci vitse-prezidentin Buzovnadakı 229 saylı uşaq bağçasının, 105 nömrəli körpələr evi-uşaq bağçasının, Mərdəkandakı gimnaziyanın, Xətai rayonundakı 6 saylı uşaq bağçasının açılışı, Bakıdakı 1 nömrəli körpələr evinin sakinləri ilə görüşü, Nərimanov rayonundakı 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışında iştirakı, 32 saylı Laçın rayon orta məktəbindəki vəziyyətlə tanış olması bu qayğının daha bir göstəricisidir.

"Allah sizi qorusun!". Bu səmimi fikirlər, qəlbdən gələn xoş niyyətli dualar Azərbaycanın hər bir bölgəsində, hər bir guşəsində vətəndaşların dilindən qopur. Hamı Mehriban xanımı sevir, sevincini bu təmiz və xoş hisslərlə ifadə edir. Azərbaycanın Birinci vitse-prezidentinin regionlara səfərləri zamanı sakinlərlə görüşü həmişə xoş xatirələrlə yadda qalır. Mehriban xanımın rayon sakinləri ilə görüşü zamanı onları narahat edən problemlərlə yaxından maraqlanması, bütün məsələlərin həllini tapacağına insanları əmin etməsi onun qayğıkeşliyinin daha bir örnəkverici nümunəsidir. Birinci vitse-prezidentin təvazökarlığı və humanizmi cavabsiz qalmır, qarşı tərəfin qəlbindən gələn həqiqi sevgi, doğma münasibət xalqın ona verdiyi ən böyük dəyərdir. Onun 2019-cu il fevralın 14-də Gəncə şəhərinə səfəri insanlar tərəfindən böyük coşqu, sevins hissi ilə qarşılanmış, sakinlər Meh-

riban xanımın gəlişini əsl toy-bayram kimi qeyd etmişlər.

Mehriban xanım ictimaiyyətin hər bir üzvü üçün inam və ümid yeri, milyonların çətin məqamda üz tutduğu güvənc, mərhəmət və səxavət ünvanıdır. Onun Şamaxı və Ağsu rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı Prezident İlham Əliyevin müvafiq tapşırıqlarının icrasının vəziyyəti ilə yerindəcə tanış olması cəmiyyətdə böyük rəğbət və minnətdarlıqla qarşılandı. Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən tədbirlər nəticəsində zəlzələnin fəsadlarının aradan qaldırılması, bu prosesdə Heydər Əliyev Fondunun "Regional inkişaf" İctimai Birliyinin nümayəndələrinin zəlzələdən dərhal sonra təbii fəlakətdən zərərçəkmiş ərazilərdə olması, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alması və insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı təxirəsalınmaz addımlar dövlətin vətəndaşına olan diqqətinin bariz nümunəsidir.

Mehriban xanımın insanlara olan dərin ehtiramının nümunələrindən biri onun müxtəlif tədbirlər, səfərlər zamanı vətəndaşlarla səmimi görüşlər keçirməsi, onlarla söhbət etməsi, qayğıları ilə ta-






nış olmasıdır. Onun səfər proqramında ən zəngin detallardan biri məhz vətəndaşların evlərinə gedərək onlarla şirin və yaddaqalan söhbət etməsidir.

Olduqca rəğbət doğuran və vətəndaşların sevincinə səbəb olan bu cür görüşlərdə rəsmiyyətçilik aradan qalxdığından ünsiyyətdəki səmimiyyət daha da artır, yaxınlıq hissləri güclənir. Belə situasiyalarda insanlar özlərinin ən yaxını, ən doğması hesab etdiyi Mehriban xanıma qayğılarından söz açır, onları narahat edən bütün məsələləri dilə gətirirlər. Səmimi və mehriban aurada keçən bu görüşlərdə Birinci xanım hər bir məsələyə həssaslıqla yanaşır və həlli vacib olan məsələləri şəxsən nəzarətə götürür.

Birinci vitse-prezident Mehriban Əliyeva 2019-cu il mayın 21-də Bakının Kürdəxanı qəsəbəsində sakinlərlə görüşü də olduqca əlamətdar və xoş təsir bağışlamışdır.

Mehriban Əliyeva həmin səfər zamanı Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbdə olmuş, burada yaradılan şəraitlə yaxından maraqlanmışdır. Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Kürdəxanı qəsəbəsinin sakini Telman Əliyevin ailəsində qonaq olublar. Görüşdə Mehriban Əliyeva bildirib ki, qəsəbənin sosial-iqtisadi inkişafı, iş yerlərinin yara-




dılması istiqamətində işlər bundan sonra da davam etdiriləcək. Ailə üzvləri Kürdəxanı qəsəbəsinin inkişafına göstərdiyi diqqətə görə Mehriban Əliyevaya minnətdarlıq ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva mədəniyyət obyektlərinin əsaslı təmiri və bərpası üçün səylərini əsirgəmir, inkişaf edən Azərbaycanın müasir mədəniyyət siyasətinin daha geniş təşviqi üçün bu cür layihələrin gerçəkləşməsini vacib sayır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əsas tədris korpusunun əsaslı təmiri də bu qəbildəndir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak etməklə bu məsələyə xüsusi diqqət göstərdiyini təsdiqləyir. Yeni təmirdən çıxan bu təhsil ocağının kitabxanasında Heydər Əliyevin zəngin irsini, Prezident İlham Əliyevin siyasi fəaliyyətini, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın mədəniyyətə və incəsənətə diqqət və qayğısını əks etdirən 70-yə yaxın kitabın yerləşdirilməsi də təsadüfi deyil. Bu, zəngin mədəni irsə, incəsənətimizə olan yüksək qayğının təzahürlərini özündə əks etdirən maddi

sübutdur, müasir gənc nəslə, mədəniyyətsevərlərə dövlətin bu sahəyə göstərdiyi diqqətin təsdiqidir.

Birinci vitse-prezidentin mədəniyyətə, mədəniyyət və incəsənət xadimlərinə, görkəmli yazıçı və sənət adamlarına diqqət və qayğısı da hər zaman prioritet olubdur. Onun görkəmli ədiblərin muzeylərinin bərpasında xidmətləri xüsusi yer tutur. Mehriban Əliyevanın onun üçün əziz və doğma olan görkəmli ədəbiyyatşünas-alim, Xalq yazıçısı Mir Cəlal Paşayevin irsinə ehtiramı sonsuzdur.

Mir Cəlal Paşayevin ev-muzeyinin Gəncə şəhərində fəaliyyət göstərməsi təsadüfi deyil. Çünki o, Cənubi Azərbaycanda anadan olsa da, taleyi onu qədim Gəncə şəhərinə gətirib çıxarıb. Ədib həmişə Gəncəni sevib və doğma şəhəri bilib. Mir Cəlal Paşayevin uşaqlıq, gənclik və tələbəlik illəri, pedaqoji və ədəbi fəaliyyəti, ailə həyatı xronoloji ardıcıllıqla muzeyin ekspozisiyasında əksini tapıb. Hazırda eksponatların sayı 300-dən artıqdır. Muzey kompleksində 2009-cu ilin aprel ayında elmi-ədəbi tədqiqat şöbəsi fəaliyyətə başlayıb. Şöbənin yaradılması ədəbiyyatımızın tədqiqinə, araşdırılmasına xidmət edir.

2019-cu il fevralın 14-də Birinci vitse-prezidentin və Heydər Əliyev Fondu-





nun vitse-prezidenti Leyla Əliyevanın Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində olması xoş təəssürat yaradan hadisə kimi yadda qalmışdır. Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin 100 illik yubileyi ərəfəsində ədibin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış bu muzeydə dəyərli eksponatlar saxlanılır.

Mir Cəlal Paşayev muzey kompleksində mütəmadi olaraq şair və yazıçıların kitab təqdimatları, şəhər ziyalıları ilə görüşlər, konsertlər, şagird və tələbələr üçün ədəbiyyat dərsləri, ekskursiyalar və digər ədəbi-bədii tədbirlər keçirilir. Muzey fəaliyyətə başladığı gündən şəhər əhalisinin, tələbə və şagirdlərin ziyarətgahına çevrilib.

Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafında əvəzsiz xidmətləri olan böyük sənət xadimlərinin adının əbədiləşdirilməsi, onların xatirəsinin ehtiramla daim yad edilməsi Mehriban xanımın fəaliyyətində hər zaman mühüm yer tutmuşdur. Rostropoviçlər ailəsinə olan dərin ehtiram da bu humanizm siyasətinin tərkib hissəsidir. 2017-ci ilin dekabrında Bakıda Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbinin yeni binasının açı-

lışı mərasimində Birinci vitse-prezident Mehriban Əliyevanın iştirak etməsi bir daha bu humanizmin təntənəsini nümayiş etdirdi. Xatırladaq ki, 1997-ci ildə ulu öndər Heydər Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, Leopold və Mstislav Rostropoviçlərin adı verilmiş musiqi məktəbinin binası 2014-cü ildə sökülərək yerində yenisinin inşasına başlanılıb. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında mədəniyyət sahəsinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 14 avqust tarixli Sərəncamına əsasən musiqi məktəbinin tikintisinin və təchizatının tamamlanması üçün vəsait ayrılıb. Mehriban xanım bu musiqi ocağının inşasını xüsusi nəzarətdə saxlayıb və musiqi məktəbi ən müasir tələblərə uyğun şəkildə tikilib.

600 şagird təhsil aldığı Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbi Azərbaycanda musiqinin inkişafında, yeni müsiqiçilər nəslinin yetişməsində xüsusi rol oynayır. Tədris prosesində iştirak edən 114 müəllim – professor, o cümlədən Bakı Musiqi Akademiyasının müəllimləri, Əməkdar incəsənət xadimləri , Xalq artistləri bu sənətin sirlərini gənc nəslə öyrədirlər.

Musiqi məktəbində 110 yerlik akt zalı, 34 sinif otağı, habelə 5 inzibati otaq, ki-





tabxana və səsyazma studiyası var. Məktəbin bütün avadanlığı və inventarı təzələnib, o cümlədən təhsil müəssisəsinə 12 royal, 24 fortepiano alınıb. Burada 7 yaşından təhsillərinə başlayan şagirdlər fortepiano, simli və nəfəs alətləri və xalq çalğı alətləri şöbələrində musiqi biliklərinə yiyələnirlər.

Mehriban xanım Birinci vitse-prezident kimi mədəniyyət və incəsənət sahələrinə də diqqət və qayğı göstərməkdədir. Onun mədəniyyət və sənət adamları ilə görüşləri, mədəniyyət xadimlərinə dəstəyi davamlı xarakter almaqdadır. 2018-ci il martın 30-da İçərişəhərdə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin açılması da məhz onun xidmətinin nəticəsidir. Xalq yazıçısı, görkəmli kinodramaturq və rejissor Maqsud İbrahimbəyovun adını daşıyan Yaradıcılıq Mərkəzində muzey, yazıçının kitabxanası və ədəbiyyat otağı yerləşir. Ədəbiyyat otağında yazıçının müxtəlif illərdə həm rus, həm Azərbaycan dillərində nəşr olunan, həm də 36 xarici dilə tərcümə edilən kitabları təqdim olunur. Burada, həmçinin yazıçının əsərlərinin dərc olunduğu bütün dərgilər toplanıb. Bundan başqa, eksponatlar arasında Maqsud İbrahimbəyovun ədəbiyyat və ictimai-siyasi fəaliyyət sahələrində əldə etdiyi nailiyyətlərə görə müxtəlif vaxtlarda təltif olunduğu orden və medallar, digər mükafatlar, deputat mandatları, fəxri fərmanlar, həmçinin 2012-ci ildə yazıçının Nobel mükafatına namizədliyinə dair sənəd də var.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Yaradıcılıq Mərkəzinin açılışının çox əlamətdar və rəmzi məna daşıyan hadisə olduğunu qeyd edib. Bildirib ki, Maqsud İbrahimbəyov əsl vətənpərvər idi. O, bütün qəlbi ilə Azərbay-

cana, öz torpağına bağlı idi. O, cəsarətli vətəndaş mövqeyi olan insan idi. "O, öz ideallarını və prinsiplərini bütün həyatı boyu dəyişməyib. O, uzun ömrünü səmimi, hər şeylə maraqlanan, biganəlikdən uzaq bir insan kimi yaşadı. O, həyatdan getdi, ancaq onun əsərləri, böyük bədii-mənəvi irsi – kitabları, pyesləri, ssenariləri, esseləri qaldı. Onun hər bir əsəri bu günümüz və dünənimizlə heyrətamiz dərəcədə səsləşir və şübhə etmirəm ki, sabah da aktual olacaq. Onun hər bir əsəri yaşayır. Buna görə də Maqsud müəllim yaşayır. İnsanlar – onun dostları, yaxınları, doğmaları, onu sevən, ona hörmət edən, həyatının bütün mərhələlərində onun yanında olan insanlar qalır".

Mehriban Əliyeva Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin yaradılmasında Heydər Əliyev Fondunun dəstəyini xüsusi vurğulayıb, Fondun bu işə böyük məhəbbət və məsuliyyətlə yanaşdığını vurğulayıb.

Ötən 1 il ərzində Mehriban Əliyeva həm ölkə daxilində, həm də beynəlxalq aləmdə uğurlu siyasi fəaliyyətini bir daha sübut etdi. İctimai-siyasi fəaliyyəti boyu humanitar, sosial sahələri daim diqqət mərkəzində saxlayan Mehriban xanım həm Azərbaycanda, həm də dünyanın müxtəlif ölkələrində çoxsaylı layihələrə, mühüm işlərə imza atıb.

Azərbaycanın Birinci vitse-prezidenti zəngin tariximizə, milli-mədəniyyət abidələrimizə də diqqətini əsirgəmir, tarixi



abidələrimizin bərpası və qorunmasında fəal mövqe nümayiş etdirir. Müxtəlif bölgələrdə qədim tarix və mədəniyyət nümunələrinin yerləşdiyi muzeylərin bərpasında Mehriban xanımın xüsusi xidmətləri vardır. Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Dəmirçi Arxeologiya Muzeyinin açılışı da bu qəbildəndir. 2018-ci il avqustun 26-da açılışı olan muzeyi Azərbaycan tarixinin canlı nümunələrindən hesab etmək mümkündür. Şamaxı rayonunun ən qədim kəndlərindən olan, tarixi XV əsrə qədər gedib çıxan Dəmirçidə həmin kəndin və İsmayıllı rayonunun Əhən kəndindən gələn dəmirçi ailələri mövsümi işlə əlaqədar burada müvəqqəti, sonralar isə daimi məskən salıblar. Sakinlərin məşğuliyyəti ilə əlaqədar kəndin də adı dəyişib və Dəmirçi olub. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən bu kəndin iqlimi mülayimdir, yayı sərin keçir. Kəndin mərkəzi hissəsində turizm infrastrukturu, o cümlədən dəmirçi və misgərlik emalatxanası, kafe, çayxana, təndir, "Azərxalça" ASC-nin guşəsi, suvenir mağazası və "ABAD" dükanları, avtomobil dayanacağı yaradılıb, "Qala" və bulaq kompleksi inşa edilib. Dövlətimizin başçısının göstərişi ilə ölkəmizin ən qədim dini məbədlərindən olan kənd məscidi əsaslı şəkildə yenidən qurulub. Muzey birmərtəbəli bina açıq və qapalı ekspozisiya zallarından, iki yardımçı otaqdan ibarətdir. Buradakı açıq muzey xüsusilə diqqəti cəlb edir.

Dəmirçi-Lahıc yolunun çəkilişi zamanı kəndin 4-cü kilometrliyində Gədəli yaylağı adlanan ərazidə 3 hektar sahədə son antik və erkən orta əsrlərə aid nekropol aşkar edilib. Tədqiqat zamanı yer səthindən təqribən 50-80 santimetr dərinlikdə 30-dək daş qutu qəbirləri, qala divarları və yeraltı anbarlar aşkarlanıb. Kvadrat formasında olan qəbirlərin hamısının divarları çaydaşı və əhəngdaşından ibarət olan qaya parçalarından hörülüb, üstü isə sal daşlarla qapanıb. Qəbirlərdə skeletlər bükülmüş vəziyyətdə sol böyrü üstə başı əsasən şimal-şərq istiqamətində aşkar olunub. Həmin daş qutu qəbirlərdə alban dövrünə aid kifayət qədər zəngin maddi-mədəniyyət nümunələri qeydə alınıb. Tapıntılar arasında saxsı və çini məmulatlar sayca üstünlük təşkil edir. Daş qutu qəbirlərdə metal nümunələrə, o cümlədən silah və bıçaqlara, eləcə də tunc bəzək əşyalarına daha çox rast gəlinir. Bəzi qəbirlərdə skeletin başının altında gümüş cam üzə çıxıb. Elmi cəhətdən çox mühüm tapıntılardan biri həmin camların içərisində skeletin başı altındakı parça qalıqlarıdır. Bu da Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılan ən qədim parça nümunəsi hesab olunur. Bir qəbirdə skeletin yanında qılınc və xəncər də qoyulub. Bu tapıntılar həmin qəbrin ən azı sərkərdə və camaat arasında xüsusi nüfuz sahibi olan hərbçiyə aid olduğunu ehtimal etməyə əsas verir. Dəmirçi kəndində aparılan arxeoloji qazıntılar za-

manı aşkarlanmış maddi-mədəniyyət nümunələri, nadir daş alətlər, əkinçilik mədəniyyətinə aid əmək alətləri, soyuq silahlar, mis, bürünc, gümüş sikkələr, aq-lay materiallardan su boruları, qədim gil məmulatı və digər qiymətli tapıntılar, mə-işət əşyaları nümayiş olunur. Bu ekspo-natlar muzeyə gələn turistlərdə böyük maraq doğuracaq, onlara ölkəmizin tari-xi ilə daha yaxından tanış olmaq imkanı yaradacaq. Muzey, həmçinin bölgənin ta-rixinin müxtəlif dövrlərini araşdırmaq ba-xımından da mühüm əhəmiyyətə malikdir.

Dini və milli ənənələrimizə sədaqət Mehriban Əliyevanın xarakterində ən mühüm məqamlardan biridir.

Qurban mərasiminin Uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi-əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən İs-lam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdar olduğu bildirilir. Dövlətimizin başçısı qeyd edir ki, bu mübarək bayram bütün dünya müsəl-manlarının mənəvi-ruhi birliyini, əməli-saleh insanların Tanrı sevgisini və haqq-





ədalət naminə hər cür fədakarlığa hazır olmalarını təcəssüm etdirir. Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub saxlayıb. Hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirərək, Uca Yara-

dana şükranlarını bildirir, ölkəmizdə və dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün dualar edirlər.

İmkansızlara və ehtiyacı olanlara hər zaman yardım əlinin uzadan, xüsusilə də, müqəddəs bayramlarda aztəminatlı ailələrin yanında olan və onları bayram payı ilə sevindirən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu nümunəvi davranışı cəmiyyətimizdə xeyirxahlığın, birlik və bərabərliyin, Vətənə və milli dövlətçiliyə sədaqətin təntənəsinə çevrilibdir.

Mehriban Əliyeva tərəfindən xalqımızın müqəddəs bayramlarından olan Qurban bayramı günlərində aztəminatlı ailələr üçün qurban kəsdirilməsi aksiyası bir neçə ildir ki, təşkil edilir.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Qurban bayramı münasibətilə aztəminatlı ailələrə qurban payları çatdırılır. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə gerçəkləşən bu layihə respublika üzrə ünvanlı sosial yardım alan bütün ailələri əhatə edir. Bu məqsədlə ətlik cins heyvanlar regionlardan gətirilərək xüsusi ət kəsimi müəssisələrində kəsilərək qablaşdırılıb. Qurban payları regionlar və Bakının rayonlarında ünvanlı sosial yardım alan 51.157 ailənin hər birinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə paylanılır, sakinlər bayram münasibətilə təbrik edilir.

Sosial-iqtisadi inkişafa yönəlik dövlət proqramlarına dəstək verən Heydər Əliyev Fondu aztəminatlı ailələri, xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayır, müxtəlif bayramlar və əlamətdar günləri onlarla birlikdə qeyd edir. Bununla yanaşı, respublikda üzrə sosial yardım alan bütün ailələrə 2016–2018-ci illərdə Yeni il və Novruz bayramlarında Heydər Əliyev Fondunun sovqatları paylanılmış, sosial yardıma ehtiyacı olan minlərlə şəxs üçün bayram süfrələri təşkil edilmiş, hədiyyələr verilmişdir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistanda Qurban bayramı tədbirləri də keçirilir. Onun 2015-ci ili sentyabrın 24-25-də İslamabad, Abatabad və Kəraçi şəhərlərində iribuynuzlu qurbanlıqların kəsilərək kimsəsizlər evinin 3600 sakininə və bölgələrdə məskunlaşan digər ehtiyacı olan insanlara paylanması islam aləmində böyük rəğbətlər qarşılanıbdır.

Tarixi, dini və memarlıq abidələrimizin qorunması, bərpası və saxlanması, dini ziyarətgahlarımıza və dəyərlərimizə yüksək ehtiram Mehriban Əliyevanın fəaliyyətində hər zaman prioritet olmuşdur.

Mehriban xanım dini dəyərlərimizə daim yüksək ehtiram göstərir, hər il müqəddəs aylarda Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri ilə görüşüb söhbət edir, onların arzu və diləklərini dinləyir. Ənənə halını alan bu görüşlər həm müqəddəs dəyərlərimizə olan ehtiramın nümunəsidir, həm də din xadimləri üçün böyük şərəfdir.



Birinci vitse-prezidentin Gəncədəki "İmamzadə" dini kompleksinə diqqət və qayğısı qədirbilən gəncəlilər tərəfindən hər zaman yüksək dəyərləndirilir. Mehriban xanımın birbaşa qayğısı və köməyi sayəsində bu müqəddəs dini ocaq əsaslı şəkildə yenidən qurulub. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən, VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" Dini-Mədəniyyət Kompleksi yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul edir. "İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Xəzər rayonunun Zirə qəsəbəsində Zirə Cümə məscidinin istifadəyə verilmə-

si milli mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Mehriban xanımın Azərbaycanın dini dəyərlərinə ehtiramının digər bir nümunəsi Zirə Cümə məscidi kompleksinin təmiri və bərpasına xüsusi diqqət göstərməsidir. Zirə Cümə məscidi kompleksi paytaxtın ən qədim dini ibadətgahlarından biri olub. Mehriban xanımın dəstəyi ilə yararsız vəziyyətə düşən məscidin ərazisində 2015-ci ilin əvvəllərindən başlanan tikinti işləri qısa vaxtda yeni məscid kompleksinin yaranması ilə nəticələndi. Yüksək keyfiyyətlə aparılan inşaat işləri sayəsində paytaxtın ən gözəl dini ibadətgahlarından biri yenidən öz qapılarını insanların üzünə açdı. Ümumi sahəsi 3 min 400 kvadratmetr olan məscid kompleksinin hündürlüyü 30 metr olan 2 möhtəşəm minarə bəzəyir. Məsciddə dini ayinlərin icra olunması, insanların rahat ibadət etmələri üçün hər cür şərait yaradılıb. Burada eyni vaxtda 400 insan ibadət edə bilər. Bundan əlavə, ərazidə 250 nəfərlik mərasim zalı yaradılıb. Kompleksin əsas hissələrindən biri olan zalda dini mərasimlərin keçirilməsi üçün bütün tələblər nəzərə alınıb. Kompleksin ərazisində kişi və qadınlar üçün ayrıca dəstəmazxanalar yaradılıb. Texniki və yardımçı otaqlar da məscid kompleksinin əhəmiyyətini daha da artırır. Kompleksin ərazisində geniş yaşıllaşdırma işləri görülüb.

Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyevanın məsciddə yaradılan şəraitlə tanış olması ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.



Zirə Cümə məscidinin istifadəyə verilməsinin Qurani-Kərimin nazil olduğu Ramazan ayına təsadüf etməsi isə xüsusi məna daşıyır. Bu, ölkəmizdə dini-mənəvi dəyərlərin qorunub saxlanmasına və dini dəyərlərə olan ehtiramın yüksək ifadəsi kimi də qiymətləndirilir, Mehriban Əliyevanın dini dəyərlərə olan hörmətinin təzahürü hesab edilir.

Azərbaycanın milli-mənəvi, dini dəyərlərinə olan yüksək hörmət Mehriban xanımın böyük insan, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik lider qadın kimi xarakterik cizgilərindən biridir. Onun dini ziyarətgahlara tez-tez baş çəkməsi müqəddəs dinimizə olan etimadın, daxili zənginliyin, xoş səmimiyyətin bir nümunəsinə çevrilmişdir. Mehriban xanımın ad günündə ziyarətgahlara getməsi onun saf və təmiz qəlbli xanım kimi yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyevanın 2019-cu il avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət etməsi də bu baxımdan cəmiyyət tərəfindən xüsusi rəğbət doğuran hal kimi qəbul edilmişdir.

VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə İslam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur. Milli-mənəvi dəyərlərimizə dərindən bağlı olan ulu öndər Heydər Əliyev 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət edib, 1997-ci il iyulun 23-də, Məhəmməd Peyğəmbərin





mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoyub. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapıb. Dövlətimizin başçısı 2005-ci və 2007-ci illərdə buranı ziyarət edib. 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması, onların təbliği, dünyaya çatdırılması istiqamətində çox mühüm işlər görür. Qədim məscidlərimizin bərpası, yeni müasir məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyevanın avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət etməsi müqəddəs ocaqlarımıza dərin ehtiram nümunəsi kimi yadda qaldı.

Azərbaycanın Birinci vitse-prezidenti insanları xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə hər kəsin ruhunu təzələyən Ramazan ayında



sadə vətəndaşlarla bir yerdə iftar süfrələrində olması onun şəfqət, mərhəmət, həmrəylik duyğularının ifadəsidir. Mehriban Əliyeva və qızı Leyla Əliyevanın ziyarətgahlarda olması, iftar mərasimində iştirak etməsi cəmiyyətdə nümunəvi addım kimi dəyərləndirilir.

Azərbaycanın Birinci vitse-prezidenti fəaliyyətinin cəmi 2 ili ərzində ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında öz töhfəsini verməyi bacarıb. Humanizmə, sosial ədalətə söykənən yolu ilə xeyriyyəçilik işlərini, ictimai-siyasi fəaliyyətini uğurla davam etdirib, söz ilə əməlin bütövlüyünü – vəhdətini yarada bilib. Ona görə də Mehriban xanım Əliyevanın adı ictimai yaddaşda xeyriyyəçi, humanist, xalqına və dövlətinə dərindən bağlı olan, ictimai faydalı və milli maraqlara əsaslanan fəaliyyəti ilə fərqlənən şəxsiyyət kimi assosiasiya olunur. Azərbaycanın Birinci vitse-prezidentinin bu humanizmi və qayğıkeşliyi, xalqla ünsiyyəti dövlət başçısı İlham Əliyevin apardığı siyasətə böyük töhfə verməklə yanaşı, milyonlarla insanın dövlətə olan inam və etimadını möhkəmləndirir.

Mehriban xanımın fəaliyyəti dövlətin, hökumətin fəaliyyətini xalqa daha yaxın olmasını, sadə insanların maraq və mənafelərinin daha yaxşı nəzərə alınmasını şərtləndirir. Digər vacib məqam: Mehriban xanım kimi nüfuzlu, güclü bir şəxsiyyətin dövlət idarəetmə sistemində vacib bir vəzifəyə sahib olması dövlət və hakimiyyət orqanlarına əlavə müsbət reputasiya verir və etimad yaradır. Bu isə dövlət və cəmiyyətdə vətəndaş həmrəyliyi, harmoniyanın bərqərar olmasına töhfə verir. Birinci vitse-prezident kimi Mehriban xanımın dövlət aparatının daha səmərəli işləməsində, qərarların daha yaxşı icra olunmasında böyük xidməti var. Onun bu fəaliyyəti dövlət aparatının nüfuzunu artırır, yüksək idarəetməni təmin edir və hakimiyyətin ictimai dayaqlarının daha möhkəm olmasına xidmət edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri və nəhayət, Azərbaycanın Birinci xanımının adı, heç şübhəsiz ki, bundan sonra da müasir dünyanın görkəmli lider qadınları sırasında ön sıralarda olacaq, ictimai statusu və uğurları onun uğur hekayəsinin zənginləşməsinə, siyasi nailiyyətlərinə yeni-yeni parlaq səhifələr açacaq.

## NƏTİCƏ ƏVƏZİ

Müasir siyasət dünyasının görkəmli qadın liderləri sırasında öz ölkəsinin sosial, iqtisadi və mədəni modernizasiyasını milli idealın bir hissəsi kimi həyata keçirən ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva siyasətdə artıq öz layiqli yerini tutmuşdur. Şübhə etməmək olar ki, gələcəkdə tarixçilər bu fenomeni böyük həvəslə öyrənəcəklər. Mehriban xanım Əliyevanın şəxsiyyətini dərk etmək üçün qadınlıq ləyaqətinin mücəssəməsi olan bu insanın inkişaf genezisini dərk etmək vacibdir. Hər şeydən əvvəl mühüm faktor budur ki, vətənimizin ictimai-siyasi həyatında bu fenomenin öz sözü ilə siyasətə gəlməsi xalqın siyasi taleyi üçün bir uğurdur. Sağlam düşüncə baxımından yanaşılsa, onun təşəbbüsləri və təklifləri müxtəlif sivilizasiyaların qovşağında yerləşən ölkəmizin sosiohumanitar və mədəni modernizasiyasının hərəkətverici faktorudur.

Ölkəmizin sosial-humanitar və ictimai-siyasi modernləşməsinin ilhamvericisi olan Azərbaycanın Birinci vitse-prezidenti müasir dünyanın görkəmli lider qadınları sırasındadır. Heç şübhəsiz, sonrakı dövrlərin tarixçiləri Mehriban Əliyeva fenomenini maraqla öyrənəcəklər. Bizim üçün isə bir sıra aspektlərin harmonik vəhdətindən yaranan bu fenomenin genezisini başa düşmək əhəmiyyətlidir.

Azərbaycanda Mehriban Əliyeva kimi liderin formalaşmasını taleyin qisməti də hesab etmək olar. Obyektiv desək, onun təşəbbüs və təklifləri müxtəlif sivilizasiya platformalarının qovuşuğunda yerləşən Azərbaycanın sosial-humanitar və mədəni modernləşməsinin hərəkətverici amilinə çevrilib. Digər tərəfdən, bu fenomenin milli siyasi məkanda formalaşması faktı dünya trendinə tam uyğundur. Avrasiyanın şərqinin siyasi tarixi baxımından "Əliyeva amili" qadınların inqilabi şəkildə siyasətə qoşulmasının və onların dünya ölkələrinin çoxunun idarəçilik strukturlarına yol tapması imkanlarının genişlənməsinin qanunauyğun nümunəsidir. Bu mənada, Azərbaycan Avrasiyanın tarixən təşəkkül tapmış "qadın siyasəti" dairəsində özünün mövcudluğunu bir daha diqqətə çatdırır.

Beləliklə, o, öz işində iki istiqaməti – Azərbaycanın kompleks humanitar "brend" kimi dünyada irəliləməsini və ölkənin sistemli sosiomədəni inkişafını uğurla sintezləşdirə bilib. Onun rəhbərliyi ilə bu iki proses, necə deyərlər, çiyin-çiyinə irəliləyir. Sevindirici haldır ki, bu işlə sadəcə təyin edilmiş məmur deyil, fəal həyat mövqeyi, bitib-tükənməyən enerjisi və güclü xarizması olan mütərəqqi əqidəli bir insan məşğul olur. Ən başlıcası isə unutmayaq ki, indiki halda söhbət üç övlad tərbiyə etmiş cazibədar xanımdan gedir. Gözəllik ilə xeyirxahlığın vəhdəti onun hər addımını sosial reallığı dəyişən yaradıcılığa çevirir.

Azərbaycanın bütün bölgələrindən hər gün ona yüzlərlə vətəndaş müraciət edir. Ona hamı yazır, kiçikdən böyüyə, sosial

statusundan və peşəsindən asılı olmayaraq, hər bir vətəndaş ona inam yeri kimi baxır. O, bütün insanların sosial istinadgahıdır.

Uğur Mehriban xanımın alın yazısıdır. Onun hər bir addımında uğurun izi vardır. Onun uğur hekayəsi o qədər zəngin və möhtəşəmdir ki, nüfuzlu dünya qadınları Mehriban xanımın ictimai xadim kimi fəaliyyətindən öyrənməyə çalışırlar. Onunla birgə işləmək, xeyirxahlığa, nəcib əməllərə söykənən layihələr həyata keçirmək istəyənlər xeyli çoxdur. Mehriban Əliyeva daim insanlarla bir yerdədir – 7-dən 77-yə onların əhatəsində səbir və təmkinlə, təbəssüm və sevgi dolu baxışlarla xidmətindədir. O, insanların arzu və istəklərinin, sosial sifarişlərinin yerinə yetirilməsi üçün yorulmadan əzmlə çalışmağa davam edir.

Mehriban xanımın ictimai və siyasi fəaliyyəti cəmiyyətin şüurundakı qadın lider obrazını ildən-ildə daha da möhkəmləndirmişdir. Birinci xanım daşıdığı bütün vəzifələrin öhdəsindən layiqincə gələrək hər bir işin ustası olduğunu təsdiqləmişdir. O, istər Heydər Əliyev Fondunun prezidenti, istər də millət vəkili kimi olduqca böyük sevgi və sayğı qazanmışdır. Səbəb sadədir: ölkədə yüzminlərlə insan əmindir ki, hansısa problemlə üzləşəndə, hətta əlləri hər yerdən üzüləndə belə, sonuncu ümidləri, şansları həmişə var və bu şans "Mehriban xanım" adlanır. Bu cür səmimi inam heç bir təbliğatla formalaşdırıla bilməz, bu inam illərdir ki, görülən və hələ də görülməkdə davam edən böyük işin nəticəsdir. Yalnız bu səbəbdəndir ki, insanlar onu qayğı, mərhəmət simvolu kimi qəbul edirlər.

Azərbaycan Prezidentinin xanımı ölkə daxilindəki səfərlərdə daim onu müşayiət edir. Onun fəaliyyəti, işi, insanlara ona münasibəti göz qabağındadır və bununla da iqtidarla cəmiyyətin qarşılıqlı əlaqələrinə öz töhfəsini verir. Həm də bu, necə deyərlər, canlı töhfədir və buna görə də xalqın gözündə inzibati kommunikasiyaların standart "mexaniki" strukturlarından daha qiymətlidir, çünki xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa ictimaiyyət onu qəbul etməyəcək. İnsanlar hiss edirlər ki, Birinci xanım onların qayğıları ilə yaşayır.

Mehriban xanımın topladığı təcrübə, həyata keçirdiyi böyük layihələr onun artıq idarəetmədə də çox yüksək hazırlıqlı olduğunu göstərir.

Mehriban Əliyeva ölkəmizin siyasi meydanında formal statusuna görə də yetərincə nüfuzlu simadır. Azərbaycan cəmiyyəti onu ölkənin Birinci xanımı və Birinci vitse-prezidenti kimi liderliyinin milli inkişafımızın intibaha dərin töhfə verəcəyinə tam əmindir. Çoxşaxəli fəaliyyətində yorulmaq bilməyən Mehriban Əliyeva hər gördüyü işdən ilhamlanır, yeni bir layihənin icrası qarşıya qoyulur: "İnsan gördüyü işin haqlı, xeyirli və lazımlı olduğuna daxilən inandıqda həvəslə işləyir, fiziki yorğunluq isə mənəvi məmnunluqla ödənilir". Onun bu statusu cəmiyyətin bəslədiyi məhəbbət və etimaddan daha da güc alaraq möhkəmlənir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Azərnəşr, 1997- 2002.
2. İlham Əliyev. İnkişaf məqsədimizdir. Azərnəşr, 2008-2019.
3. Mehriban Əliyeva: nitqlər, çıxışlar, bəyanatlar.
4. Xoşməramlı səfir: IV kitab. Bakı, 2007
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası.
6. Mehriban Əliyeva olduğu kimi.
7. Mehriban Əliyeva: Dini və etnik dözümlülük bizim sərvətimizdir. Tədbirlər, görüşlər, çıxışlar. Bakı, Tuna, 2017.
8. Mehtiyev R. Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas prinsipləri.
9. Xoşməramlı səfir. Bakı. Gənc Liderlər, 2008.
10. Paşayev.H, Qasımov.A. Xoşməramlı səfir. Bakı, ŞƏMS, 2005.
11. Abdullayev V. Heydər Əliyev — milli-siyasi elitamızın zirvəsi. Bakı, 2019.
12. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Баку, 2013
13. Ələkbərov A. Mehriban. Bakı, 2014, 212 səh.
14. Humanizm və xeyirxahlıq missiyası. Bakı. Nurlan, 2007.
15. Kazımlı X.H. Böyük siyasətin davamı. Bakı, 2004.
16. İbrahimova G. Azərbaycan qadını: tarix və gerçəklik. Bakı, 2009.
17. Paşayeva S. Heydər Əliyev Fondunun daha bir layihəsi uğurla başa çatdı. Azad Azərbaycan, 24 iyul 2005.
18. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004.
19. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Bakı, 2007
20. Avropada mədəniyyət siyasəti və təmayülləri. Kompediumu. Bakı, 2001.
21. S.Bağırova. Azərbaycan muğamı: tədqiqatlar, məqalələr, məruzələr. I və II cild. Bakı, 2007.
22. Hacızadə A. Şərqin fəxri ulduzu. Bakı, CBS Polygraphic Production, 2013.
23. Mirzəzadə R. Azərbaycançılıq və vətənpərvərlik məfkurəsi. Bakı, 2016.
24. İsmayılova V. Məqsəd xoşməramlı olanda. Bakı, 2005.
25. Mehriban Əliyeva olduğu kimi. red. T.Şahbazov. Bakı, Gənc liderlər, 2008.
26. Azərbaycanda mədəniyyət siyasəti. Bakı, 2004.
27. Beynəlxalq mədəni əlaqələr. Bakı, 2008-2009.
28. Xalq kütlələrinin mədəni həyatda iştirakı və ona töhfəsi haqqında tövsiyə. UNESCO-nun beynəlxalq normativ aktları.
29. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı, 2014.
30. Mirzəzadə R. Multikulturalizm siyasəti: din və gender dialoqunda. Bakı, 2013
31. https://president.az/first-vice-president
32. Nəsibov E. Vitse-prezidentlik institutunun fəlsəfəsi və elmi əsasları. Strateq.az, 2016.

**Bədii və texniki redaktoru**
Abdulla Ələkbərov

**Dizayneri**
Təhmasib Mehdiyev

**Korrektoru**
Mətanət Kərimova

Çapa imzalanmışdır 09.09.2019.
Format 60x90 1/8. Fiziki çap vərəqi 52.0
Sifariş 75. Tiraj 1000.

**"Təhsil Nəşriyyat-Poliqrafiya"**

**Ünvan**
Bakı, AZ1052, F.Xoyski küç., 149

**Əlaqə**
e-mail: aspoligraf.ltd@gmail.com
Tel.: (+994 12) 567-81-28/29

**Vaqif Abdullayev**
**AZƏRBAYCANIN MEHRİBAN SİMASI**
Bakı, “Təhsil”, 2019.